Milli Kitabxana

ZAHİD XƏLİL

SEÇİLMİŞ ƏSƏRLƏRI
II

Kiçik nağıllar və hekayələr

Bakı — 2008

TƏRTİB EDƏNİ VƏ
ÖN SÖZÜN MÜƏLLİFİ:
Şəlalə Xəlil (Nəbiyeva)
Pedaqoji elmləri namizədi.

Redaktoru:
V. Əliyev
Filologiya elmləri namizədi, dosent

Zahid Xəlil «Seçilmiş əsərləri» II. cild. Kiçik nağıllar və hekayələr. Bakı – 2008.

© $\frac{1947010208}{1957(\partial)030408}$ – 2008 ADPU nəşriyyatı

KİÇİK HEKAYƏNİN İMKANLARI

Zahid Xəlil Azərbaycan uşaq ədəbiyyatını dünya səviyyəsinə qaldıran görkəmli sənətkardır. Onun nəsr əsərləri H.X.Andersen, C.Rodari, Qrimm qardaşları, E.S.Tomson, R.Kiplinq sənəti ilə səsləşən gözəl nümunələrdir.

H.X.Andersenin qərb cəmiyyətlərində kök salan qüsurlara yumorlu gülüşü ("Noxud üstündə yatan şahzadə qız", "Çirkin ördək balası" və s.) Zahid Xəlilin yaradıcılığında öz mühitinə qarşı yeni bir ironiya şəklində meydana çıxır ("Qulamın qəribə qarnı", Ləyaqətli adam və onun axırı"). Andersenin bu xoşbəxt təbəssümünə qəzəbli notlar əlavə edir. (" Onun adının qabağına bir "ləyaqətsiz" sözü yazdılar." "Ləyaqətsiz adam". Bax belə.) və gülüşünü öz müəlliminə nisbətən konkret qüsurlara yönəldir, beləliklə, daha çox realist olur.

Andersen — Zahid Xəlil dünyanın müxtəlif qütblərində səs-səsə verib oxuyan iki bülbülü xatırladır. Lakin ikinci bülbülün səsində kədər notları daha çoxdur, o, öz bağçasında gördüyü qüsurların düzəldilməsini zəruri hesab edən kədərli səsi ilə bülbül xoşbəxtliyindən xeyli fərqli nəğmələr oxuyur.

Bu kədər əsərin çox dərin qatlarında yerləşdiyinə görə onu yaşca böyük olan oxucular sezsə də uşaqlar hiss etmirdilər. Bəlkə elə buna görədir ki, bu hekayələr təkcə uşaqları deyil, böyükləri də maraqlandırır. Böyüklər üçün nəşr olunan, dünya səviyyəsində ciddi bir qəzet kimi tanınan "Literaturnaya qazeta" nın bu hekayələrdən bir qismini ("Kölgələr", "Limonad içməyin", "Yanğınsöndürən maşın") öz səhifələrində çap etməsi və bu əsərləri SSRİ miqyasında ən yaxşı yumoristik hekayələr hesab edərək ona "Zolotoy telyonok" mükafatı verməsi təsadüfü deyildi.

Bu nöqtədə Zahid Xəlil Andersen ilə tam səsləşir. Andersenin də əsərlərini böyüklər eyni maraqla oxuyur. Hətta Andersenin heykəlinin altında yazılan "1 yaşdan 100 yaşınadək insanların yazıçısı" sözləri də təsadüfi deyil. Lakin Anderseni oxuyanlar ondan ləzzət alır. Zahid Xəlili oxuyanlar ondan öz cəmiyyətlərinin ziddiyyətlərini öyrənir, bu əhvalatlar onlar üçün bir güzgü rolunu oynayır.

Əsərlərini diqqətlə mütaliə etdikdə məlum olur ki, Z.Xəlilin əsas müəllimi görkəmli İtalyan yazıçısı Canni Rodaridir. Bəlkə də Rodarinin də müəllimi H.X.Andersendir. Çünki "Padşahın təzə paltarı" əsərini oxuyanda onun C.Rodari ruhuna necə də yaxın olduğu görünür. Cansız əşyaları canlandırmaq, heç nədən çox böyük həqiqətlər ifadə etmək bacarığı C.Rodarini nəhəng bir sənətkara çevirmişdir. ("Sakala – Pakala", "Dondurmadan tikilmiş ev", "Heç nədən yaranmış pişik"). Əslində C.Rodarinin "Çippolinonun başına gələnlər", "Celsemino yalançılar ölkəsində", "Mavi oxun səyahəti" əsərlərində təsvir olunan obrazların da əksəriyyəti cansız əşyalar, meyvələr, uydurma əhvalatlardır. Lakin bu uydurmaların hamısı real həyatdan qaynaqlanır. Onlar cəmiyyətdə gedən prosesləri nağıl dilinə çevirir.

Zahid Xəlil C.Rodarinin bu keyfiyyətlərini əla mənimsəməklə yanaşı onları daha da inkişaf etdirmiş, Şərq təfəkkürü ilə uyğunlaşdırmışdır.

Yazıçının "Peçenyedən yaranmış qız", "Güzgü", "İki adamcığaz", "Kölgələr", "Coğrafiya dərsində taxılan eynək" və s. onlarla hekayəsi cansızları təsvir etməklə heyrətamiz süjetlər yaratmağa xidmət göstərir. "İki adamcığaz", " İki nar", "İki parıltı" və s. hekayələri göstərir ki, Z.Xəlil müxtəlif qütbləri əks etdirən bu "iki" ləri təsvir etməklə "pis" və "yaxşı" anlayışlarını uşağa başa salmaq üçün konkretliyə daha çox meyl edir. Uşaq nəyin pis, nəyin yaxşı olduğunu hazır şəkildə almır, onu görür və özü qənaətlərə gəlir.

Z.Xəlil nəsr əsərlərində heyvanların hərəkətlərini və münasibətlərini əks etdirərkən elmi bilikləri əsas götürür. Bu sahədə Kanada yazıçısı E.S.Tomson və H. Zərdabi ənənələrini yüksək qiymətləndirir və əsərlərində ("Göycə", "Orxan və dostları") ondan yaradıcı şəkildə istifadə edir.

Şərqin nəhəng ədəbi abidələrindən olan "Kəlilə və Dimnə", "Qabusnamə", "Min bir gecə" nağılları da Z.Xəlilin fantaziyasına güclü impuls verən ədəbi qaynaqlardır.

Zahid Xəlil Azərbaycan uşaq ədəbiyyatının ən yaxşı ənənələrini qoruyub saxlamaqla yanaşı, onun nəsr qolunu müasir Qərb ədəbi ənənələri ilə zənginləşdirən və nəticə etibarilə orijinal sənət nümunələri yaradan yazıçıdır. Maraqlıdır ki, onun nəsr əsərlərinin hamısı eyni qəlibdən çıxan, bir-birinə bənzəyən yazılar deyil, əksinə, sanki müəllif hər əsərində yeni bir yazı manerasından istifadə edir, həyatı əks etdirmək, obrazları yaratmaq, süjet və kompozisiya qurmaq üçün az qala hər əsərində yeni üslub se çir. Yazıçı özü bu barədə "Detskaya liteatura" jurnalının 1982-ci il IV sayında verdiyi müsahibədə yazır ki, mən az qala hər əsərimdə Andersen, Rodari, Kiplinq kimi sənətkarlarla üz-üzə gəlir, onlarla yarışıram... əslində müəllifin yarışma kimi istifadə etdiyi məqam Zahid Xəlilin adını çəkdiyi nağılçıların ədəbi priyomlarını bir üslub kimi seçdiyini nəzərdə tutur. Kiçik hekayələrində əgər Canni Rodari üslubuna sadiq qalırsa, bir qədər iri hekayələrində Andersen dühası ilə üz-üzə gəlir. Onun hekayələrində yüksək lakonizm yazıçını R.Kiplinqlə doğmalaşdırır.

Azərbaycan xalq şairi Nəriman Həsənzadə gənc müasiri Mirdaməd Əzizin "Gözəl çöhrələrdən a çılır səhər" kitabına yazdığı ön sözdə yazır: "Biz tərcümeyi-halda qohumuq". Şair "qohum" deyərkən bədii düşüncənin yaxınlığını nəzərdə tutur. N.Həsənzadənin təbiri ilə desək Zahid Xəlilin yaradıcılığı dünyanın müxtəlif regionlarında yaşayan və hər biri öz ana dilində — ingilis, italyan, alman – dillərində əsərlər yazan bu

dahi şəxsiyyətlər onun yaradıcılığında qohumlaşır, birləşir və bəşəriyyətin işıqlı gələcəyinə doğru addımlayırlar.

Yuxarıda qeyd etdik ki, Zahid Xəlil kiçik hekayələrində fiziki görkəmi ilə balaca olan heyvanların, əşyaların, gəlinciklərin, qaz tükünün obrazlarını yaradır. Amma bu obrazlar şəkilcə balacadır, fiziki görkəmləri zəifdir. Onların mənəvi cəhəti çox güclüdür və bu güc düşmənlər üzərində qələbə çalmağa kifayət edir. Əslində bu əsərlərdə "mübarizə" sözü də şərti xarakter daşıyır. İlk baxışda heç kəs heç kəslə mübarizə aparmır.

"Ballıca" kitabının əvvəlində bədəncə bir-birinin əksinə olan iki obraz var: Azman və Cırtdan. Azman bədəncə çox nəhəng, Cırtdan isə balacadır. Bu nəhənglə balaca nağıl danışmaq üstündə mübahisə edir, hər biri yazıçının ürəyinə yol tapmaq istəyir. Azman Cırtdanı öldürmək üçün axtarır. Cırtdan isə nəinki Azmandan qorxmur, əksinə hər gecə onun cibində yatır. Yazıçı bu epizodla bizə deyir ki, kitaba daxil olan əsərlərdəki qəhrəmanlar da onları danışan Cırtdanla Azman kimi daim mübarizədədir.

Zahid Xəlilin hekayələri uşaq ədəbiyyatımızın inkişafında yeni bir mərhələdir. Bu əsərlərin qaynaqları qərb ədəbiyyatına gedib çıxsa da onların ifadə etdiyi ideallar millidir. Bu hekayələr üçün ümumi xarakterik xüsusiyyət onların son dərəcə yığcam olmasıdır. Hekayələrin xeyli hissəsi cəmi bir və ya iki səfihədən ibarətdir. Bu lakonik hekayələrin özləri də iki yerə bölünür. Onların bir qismi süjetinin, əhvalatların qısa olması ilə xarakterizə edilirsə, ("Peçenyədən yaranmış qız", "Çəpiş", "Papaq", "Güzgü", "Üzgüçü Tural", "Futbolçu"), digər qismi sözün, hadisənin yüksək təzyiq altında sıxılmasından yaranır ("Quyruq", "Qulamın qəribə qarnı", "Kölgələr", "Bağırmaq istəyən adam").

Birinci qrup hekayələr daha geniş oxucu auditoriyası üçün nəzərdə tutulduğuna görə ən sadə əhvalatlar vasitəsilə konkret bir məqsədə yönəlir. Belə əsərlər, necə deyərlər, üstündən baxanda dibi görünür. Onların təlqin etdiyi fikirlər də

bir az təcrübəli oxucu üçün tam anlaşıqlı olur. Bu tipli əsərləri uşaqlar ləzzətlə oxuyurlar. Belə hekayələrdə yazıçı hadisəni bütün təfərrüatı ilə vermir, uşağı geniş əhvalatlar girdabına atıb çaşdırmır, əsas məqamları hekayənin süjetinə çevirir. Rəssam dəqiqliiyi ilə ən lüzumlu hissəni qabardır və beləliklə kiçik bir eyhamla uşağa istədiyi fikri çatdırır. Bir səhifəlik "Papaq" hekayəsində təsvir olunur ki, uşaq təzəcə alınan papağının içinə soyuqdan donan pişikləri qoyur ki, onlar üşüməsinlər. Papağın çox qiymətli olduğunu deyib hay-küy qoparan ana işin nə yerdə olduğunu biləndən, uşağının humanist keyfiyyətlərini duyandan sonra vəziyyət dəyişir. "Bilmirəm papaq tapıldığına görəmi, ya nə üçünsə ana onu danlamadı. Təkcə gülümsündü"... Uşaq qəlbindəki insani duyğuların papağa verilən puldan daha qiymətli olduğu barədə yazıçı uzun-uzadı söhbət açmır. Kiçik bir eyhamla uşağın qəlbi ilə ana ürəyinin həmahəng döyündüyünü ifadə edir.

"İki nar" hekayəsində də uzun-uzadı təsvirlər yoxdur. Ağacda yanaşı bitən iki narın simasında xaraktercə bir-birinin əksi olan insanlar verilir. Onlardan biri eqoist, yalnız özünü sevən və başqaları haqqında düşünməyən, ikincisi isə tam onun əksinədir. Eqoist narın pis aqibəti ikincinin xoşbəxt bir ömür yaşaması, hörmətlə xonşaya qoyulub toya aparılması fikrinin arxasında müəllifin təlqin etmək istədiyi pedoqoji qayə dayanır: Düşüncələrin ləyaqətli olsa, həyatın da elə davam edər.

İkinci tip kiçik hekayələr isə sözün, fikrin yığcam deyilməsi ən incə yumorla çox mühüm həyati hadisələrə gülmək məqsədi daşıyır. Bu hekayələrdə lakonizm elə bir yüksəkliyə çatır ki, hətta onu uşaq hekayəsi deyil, böyüklər üçün yazılan fəlsəfi esse hesab etmək olar. Belə bir elemantar fiziki hadisəni yadımıza salaq ki, maddə qaz halından mayeyə, sonra isə kristala çevrilə bilir. Aydındır ki qaz halında onun həcmi çox, maye halında az, kristal vəziyyətində isə lap az

olur. Bədii ədəbiyyat da belədir. Böyük sənətkarlar tarixdə ona görə qalırlar ki, obrazlı dildə dediyimiz "qazı kristala çevirirlər". N.Gəncəvi yazırdı:

Sözün çoxsa əgər, çalış az olsun,
Yüz sözün yerində bir kəlmə qalsın.
Su daşıb həddini aşarsa əgər,
İ çəni doydurmaz, mütləq qərq edər.

Dahi şairimiz Məhəmməd Füzulinin də əsərlərinin daim diri qalması bu tələbə cavab verməsi ilə bağlıdır.

Gər çox istərsən, Füzuli, izzətin, az et sözü,
Kim çox olmaqdan qılıbdır, çox əzizi xar söz.

Ey Füzuli, əgər qədrini bilirsənsə, sözünü az elə, çünki, çox hörmətli adamlar bu yolla getmədiklərinə görə xar olublar. Bu, ciddi ədəbiyyatın, əsrləri adlayıb gələn böyük sənətin əsas xüsusiyyətidir. Bu cəhət əsasən şeir sənətinə aiddir. Bu keyfiyyətləri uşaq ədəbiyyatından tələb edən Zahid Xəlilin bəzən özü də tərəddüd edir. İlk baxışda uşaq ədəbiyyatının bu tələbə əməl etməsi qeyri-mümkündür. Müəllif özü də bu təhlükəni hiss edir. Uşaqla bu qədər yığcam danışmaq riskini duyan yazıçı əlavə tədbirlərə əl atır. Qərb stilində yazılan bu əsərlərdə şərq ədəbi ənənələrindən istifadə edir. Şərqdə böyük həcmli əsərlərin dinlənilməsi üçün nağıl yaraşıqları olan qaravəllilərdən istifadə edilir. Bəzən aşıqlar nağılın əvvəlində, hərdən isə hətta ortasında dinləyicilərin yorulduğunu hiss eləsə bir qaravəlli deyir, tamaşaçıların əhval-ruhiyyəsini artırır, sonra söhbəti davam etdirir. Zahid Xəlil isə bu bir səhifəlik əsərinin fikir yükünün uşaq üçün ağır olacağını başa düşüb, xalqın həmin ənənəsindən bəhrələnir, bu zaman iki-üç səhifəlik nağıl yaraşıqlarından deyil, təxminən onun rolunu oynayan, lakin cəmi bir və ya iki cümlədən ibarət məzəli bir əhvalat danışır. Məsələn, "Qulamın qəribə qarnı" əsərinin üst qatı uşaqlar üçün maraqlı olsa da, burada sözlərin möhtəşəm sıxılması onun həzm olunmasına çətinlik yaratdığını duyan yazıçı əsəri belə başlayır: "Mən bu əhvalatı eşidəndə necə güldümsə, iki dişim

birdən çıxdı və nə qədər axtardımsa onları tapa bilmədim". Bu cümlə uşağın yumor hissini gücləndirir və nə qədər çətin olsa da əhvalatı oxuyub qurtarmaq üçün ona impuls verir. Əsərin sonunda da müəllif eyni bir ahənglə yazır: "Kim nə deyir desin, mən bu əhvalata inanmıram. Belə də qarın olar?" Beləliklə müəllif uşağa eyhamla bir həqiqəti çatdırır ki, bu qarın əhvalatı əslində olmayıb. Bu obrazdır. Onun arxasında daha ciddi mətləblər dayanır.

Müəllifin bir qrup hekayələri uşaqların intellekt qabiliyyətlərinə ünvanlanmışdır. ("Üçbucaq ölkənin adamları", "Coğrafiya dərsində taxılan eynək", "Kərəmin sehirli qələmi"). Bu hekayələr uşaqların məntiqi qabiliyyətlərinin inkişafına yönəldiyi üçün oxucuların heç də hamısının onları maraqla oxuyacağına inanmayan yazıçı başqa bir priyoma əl atır. Bu hekayələrin uşaqların diqqətini cəlb etməsi və hökmən oxuması üçün yazıçı əlavə vasitələrdən istifadə edir. Məsələn, "Üçbucaq ölkənin adamları" hekayəsi belə başlayır: Siz nə deyirsiniz deyin, mən ömrümdə belə bir ölkə görməmişəm». Beləliklə əsərinin fantastik olduğuna eyham vurur. Bu saat qeyri adi əhvalatlar başlayacağını demir, bu eyhamla da kifayətlənir. "Kərəmin sehirli qələmi" əsərinin ilk cümləsi belədir: "Bir dəfə Kərəm usta Lətifin gözündə qəribə bir eynək gördü. Adi eynəyə oxşamırdı. Buruna keçən hissəsinin üstündə antennaya oxşayan uzun məftil var idi." Bu cümlə uşağa nə isə elmi bir məlumat veriləcəyinə işarə idi. Lakin müəllif bəzi uşaqların elm aləminə girməyə meyl etmədiyi üçün əsəri yarımçıq qoyacağından ehtiyatlanıb, sözünə belə davam edir: "Əslində bu məftil antennadan daha çox pişik bığlarına oxşayırdı".

Çox zaman bu hekayələr yazıçının fantaziyası kimi deyil, uşaqların uydurmaları kimi təqdim olunur. Və əsərin oxunaqlığını artırır. Oxucu bu əhvalatların sadəcə uşaq fantaziyasının məhsulu olduğunu əsərin sonunda dərk edir və bu da ona ilıq bir yumor təsiri bağışlayır.

"Sehrli gəminin kapitanı" əsərində evdə tək qalan Ayzər adlı uşaq fantaziyasını işə salır və qeyri adi əhvalatlarla qarşılaşır: "Əvvəlcə Ayzərgilin ikimərtəbəli balaca evi sehirli gəmiyə çevrildi. Orasını Ayzər qətiyyən xatırlaya bilmir, necə oldu ki, onların yamyaşıl bağçaları birdən birə çevrilib nəhəng dəniz oldu". Bağın dənizə çevrilməsinin inandırıcı olacağına şübhə edən yazıçı oxucunu belə bir cümlə ilə tam əmin edir: "Doğrudur bu dənizin suyu yamyaşıl idi. Hətta onun içində qırmızı gül topalarına oxşayan ləpələr də vardı". Beləliklə Ayzərin düşdüyü aləmin tam sehrli olması oxucunu inandırır. Müəllif bu sehrli aləmin təsviri prosesində arabir oxucuya eyhamla xatırladır ki, ehtiyatlı olsun, başa düşsün ki, he ç bir sehrli ölkədə deyil, bu yerlər Ayzərgilin öz həyətlərindədir. Hekayədə oxuyuruq: "Elə bu zaman qəribə bir əhvalat oldu. Bir sərçə ağ belini gəminin göyərtəsinə kimi qaldıran dalğanı təzəçə çiçəkləmiş alça ağacı hesab edib, onun başına qondu". Bu parçanı oxuyarkən uşaq dalğanın doğrudan da alça ağacı və ya dəniz ləpəsi olmağını aydınlaşdırmağa çalışır. Əgər o, doğrudan da alça ağacıdırsa deməli, yazıçı onu aldadır, yalançı bir fantaziya ilə başını qatır. Bunu oxucu elə bu məqamda dərk etsə, mütaliəni dayandırar. Yazıçı oxucunun bu həqiqəti dərk etməsinə macal vermir, bu parçanın bir metofora olduğunu gizlətmək üçün sözün arasına başqa bir söz qatır və yazır: "Ən qəribəsi isə bu oldu ki, pişik elə həmin anda sıçrayıb sərçənin quyruğundan yapışdı. Sərçə havaya qaxdı. Pişik isə gumbultu ilə suya batdı və birtəhər üzüb gəmiyə qayıtdı.

İntellektə ünvanlanan hekayələrin sonunda müəllif bu əhvalatların – elmi yönümlü fantaziyaların – həqiqətmi, yalanmı olduğunu dəqiq söyləmək fikrindən xeyli uzaq, amma oxucunu qane edən bir səviyyədə yekunlaşdırır. "Üçbucaq ölkənin adamları" belə qurtarır: "Bəli bir dəfə belə bir əhvalat olmuşdu. Biləndər belə bir ölkəyə getmişdi". "Coğrafiya dərsində taxılan eynək" hekayəsi isə belə yekunlaşır: "Onu da

bil ki, usta Lətifin düzəltdiyi eynək hələ də durur. Amma heç kəs onun yerini bilmir".

Zahid Xəlilin bir qrup hekayələri heyvanların və cansız əşyaların həyatından bəhs edir. "Qapılar", "Qabağa qa çan kirşə", "İnci", İki adamcığaz", İki nar", "Oxuyan koğuş", "İki ağcaqanad", "Buynuzu gicişən çəpiş", "Budaqdan düzəldilmiş pişik", "Çiyələklərin çəhrayı nağılı" və s. onlarla hekayəsi vardır ki, bu əsərlərin iştirakçıları insanlara məxsus hərəkətləri ilə yumoristik bir əhval yaradır. Məsələn, "İki adamcığaz"ın iştirakçıları kuklalardır. Müəllif bu iki kuklanı canlı kimi təsvir edib. Onlar gecədən xeyli keçmiş ayağa qalxıb "Biz də özümüzə görə bir adamıq, ya yox?" deyə bir – birinə sual verir, bunu sübut etmək üçün şifonerin qapılarını yellədir və axırda müəllifin yazdığı kimi "Birdən yuxarıdan nəsə düşdü və birinci adamcığazın qolunu yerindən qopartdı. İkincinin də qorxudan ürəyi getdi". Əslində isə nə baş vermişdi? Kuklalar şifonerin üstünə yaxşı qoyulmadıqları üçün oradan yerə düşmüşlər, vəssalam. Müəllif əsil həqiqəti də eyhamla başa salmağı yaddan çıxartmır" "Səhər Gülnurla Şəlalə yuxudan durub gördülər ki, onların gəlincikləri yerə düşüb, birinin də sağ qolu sınıb... Əgər qorxudan ikinci adamcığazın dili tutulmasaydı, o, uşaqlara işin nə yerdə olduğunu söylərdi".

Müəllifin bir sıra nağılları he ç nə haqqındadır. Yəni, bizim heç birimizin görmədiyimiz he ç nələr də yazı çının qələmində obraza çevrilir. "Kölgələr", "Körpə nəğmənin nağılı", "Yalançı sözlər", "Günəşin dənizdə qalan saçları" "Maşqa", "Yalandan yaranmış adam" "Ağıllı fikirlə axmaq fikir", "Heçnə" haqqında nağıl və s.

Şübhəsiz ki, bu hekayələrin hər biri son dərəcə orijinaldır. Onlar bir-birini və ümumiyyətlə heç bir ədəbi nümunəni təkrar etmir.

"Kölgələr" hekayəsində təsvir olunur ki, hamı yatandan sonra kölgələr bir qaranlıq yerə yığışır və oynamağa

başlayırlar. Göründüyü kimi məzmun uşaqlar üçün cəlbedicidir. Kölgələrin başına cürbəcür əhvalatlar gəlir və həmin süjetlər uşaqları əyləndirir. Bu tipli hekayələrin hər birinin alt qatında müəllifin fəlsəfi fikirləri dayanır. Həmin fikirlər böyüklər üçündür. Beləliklə müəllif uşaq əsərlərində fəlsəfi fikirlər ifadə etmək bacarığı ilə diqqətimizi cəlb edir. Heyvanların kölgələri atılıb düşür və xoşbəxt-xoşbəxt oynayırlar. Birdən ovçu kölgəsi peydə olur. Kölgələr dəhşətə gəlirlər. Ovçu kölgəsi onlara deyir: "Doğrusu mən sizi qovmaqdan yorulmuşam. Gəlin indi siz məni qovun" pələng kölgəsi isə ovçu kölgəsini hədələyir və ondan qorxmadığını söyləyir: "Ancaq sənin sahibinin tüfəngi var, bizi qorxudan budur". Ovçu kölgəsinin öz sahibinə nifrət etməsi haqqında söhbətləri isə hekayənin fəlsəfi fikrini müəyyənləşdirir. Məlumdur ki, ovçu olmasa onun kölgəsi də olmaz. Amma buna baxmayaraq silahını götürüb heyvanları məhv edən ovçuya öz kölgəsi də nifrət edir. Beləliklə yazıçı gözə görünməyən, əti-canı olmayan, əslində heç nədən oxucunu düşündürən problemlərin izahına girişir.

"Yalançı sözlər" hekayəsində ata-anasına yalan danışan və bunun pis aqibətini göstərən ənənəvi bir mövzunu yeni, son dərəcə orijinal bir yolla həllinə girişir. Məktəbdən qaçıb zooparka gedən uşaq anasını aldadır. Ona həqiqəti demir. Bu "Yalançı sözlər" hekayəsinin süjet xəttidir. Lakin hekayədə nə bu cümləyə, nə də onun ifadə etdiyi bir epizoda rast gəlmirik. Bunu ana ilə uşağın söhbətindən hiss edirik. Yazıçı uşağın hərəkətlərinin pis olduğunu da demir. "Yaşar bu yalançı sözlərlə başara bilmirdi. Elə ağzını açıb sözün düzünü demək istəyirdi ki, yalançı söz onun dilinin ucundan həqiqi sözlərin hərəsinə bir yumruq, bir dirsək, axırda da bir təpik ilişdib keçirdi qabağa. Bu yalançı söz Yaşarın ağzından elə çıxırdı ki, adam onun yalan olduğuna qətiyyən inanmırdı." Əslində bu yalançı sözün canlı obrazıdır. Oxucu uşaq yalanın hərəkətini, kobudluğunu, Yaşarın dilinin ucundakı həqiqi sözləri

sıxışdırmasını görür və onu canlı bir obraz kimi təsəvvür edir. Yalançı sözün obrazı bütün əsər boyu inkişaf edir. Ananın "Dərs çoxdan qurtarıb, bəs sən hardasan?" sualını eşidəndə: " Bax bu zaman həmin o yalançı söz Yaşarın lap dilinin ucunda dayanıb ağzından çıxmağa hazır olan doğru sözü necə itələdisə Yaşar iki dəfə udqunmalı oldu. Sonra yalançı söz güllənin ağzından çıxan mərmi kimi düz ananın üzünə çırpıldı". Deməli, yalançı sözlər daha güclüdür. Onların güclü olmasının səbəbi Yaşarın yalançı sözlərə rəğbət bəsləməsindədir.

Lakin Yaşar yalançı sözlərin nə qədər qorxunc olduğunu anası ilə söhbət edərkən görür. Yazıçı ananın həyəcan keçirdiyini, bu yalanları başa düşdüyü üçün oğlunun halına acıdığını demir. Bu sözlərin özü də obraza çevrilir: "Yalançı sözlər ananın üzünə dəyəndə Yaşara elə gəldi ki, anası bibər yedi. Çünki, yazıq arvadın sifəti əyildi. Yaşar dodaqlarını sıxıb dayandı ki, yalançı sözlər daha çıxa bilməsin. Çünki, anasına yazığı gəldi". Bu, canlı bir prosesdir. Hekayənin son cümlələri belədir: "Ah, bu yalançı sözlər! Onlar Yaşarın əlinə düsəydi..." Beləliklə yazıçı qəhrəmanın " Öz mənfi xüsusiyyətlərini başa düşdü" kimi müddəalardan imtina edir və daha obrazlı düşüncə ilə əsərini yekunlaşdırır.

Uşaq ədəbiyyatının obrazlı olması dünyanın nəhəng sənətkarlarını daim düşündürmüşdür. Lakin uşaq mücərrəd obrazları heç də həmişə başa düşmür. Əgər uşaq müəllif fikrini başa düşməsə bundan ləzzət də almaz. Hər bir yazıçı bu problemi imkanları, istedad səviyyələrinə uyğun həll edirlər. Həm də hər bir qələm sahibi bu işi orijinal yolla həll etməyə çalışır. Burada yazı çının başqasını yamsılamağı yolverilməzdir. Həqiqi yazıçı təsirləndiyi bir üslubun boyunduruğundan çıxmağı bacarmalıdır. Anderseni, Rodarini, Kiprinqi, Tompsonu, Kerrolsu, Bartonu, Mixalkovu, Oleşanı və başqalarını mütaliə edən Zahid Xəlil orijinal yol tutmaq üçün ciddi axtarışlar etdi və ona nail oldu. "Yalançı sözlər",

«Kralın kreslosu» “İtmiş pul kisəsi”, “Pul şəhərinin adamları”, “Bütün dünyanı fəth edən padşahın nağılı”, “Üçbucaq ölkənin adamları” və s onlarla hekayəsi Zahid Xəlil sənətinin heç kəsə bənzəmədiyini, büllur dağ çayı kimi təmiz bir dilə, obrazlı düşüncəyə, qeyri adi süjetlərə və kompozisiyaya malik bir sənət nümunəsi olduğunu göstərir.

Şəlalə NƏBİYEVA
pedaqoji elmlər namizədi

I YUMRU YUMAQ, QUMRU VƏ BAŞQALARI

YUMRU YUMAQ

ir yumru yumaq var idi və yaman qorxaqdı. Buna görə də həmişə diyirlənə-diyirlənə gedirdi ki, onu görən olmasın. Bir dəfə bu yumru yumaq yenə də dığırlanıb gedirdi. Birdən qabağına bir yumru Yumruq çıxdı. Yumru Yumruq güclü və qəzəbli idi.

—Ehey yumru Yumaq, hara belə? Məgər qorxmursan ki, yolda səni əzişdirib palaza döndərərlər?

—Qorxuram! Amma getməliyəm. Axı yumru-yumru qayaların arasında Qumru adlı bir qız mənim yolumu gözləyir. O məndən yumşaq bir corab toxuyub yumru bir xonça düzəltmək və Yuxarı Yurddakı igid oğlana göndərəcəkdir.

—Bir halda ki, belədir, onda qoy mən də sənlə gedim. Yumru Yumruq da Yumru yumağa qoşulub getməyə başladı.

Əvvəl qabaqlarına bir dovşan çıxdı. Elə dovşan da yumaq kimi yumru idi:

—Ay Yumru Yumaq, ay Yumru Yumruq hara belə? Məgər qorxmursunuz ki, yolda yalquzaq sizi parçalayar?

Yumru Yumruq qəzəbləndi. Bir az da yumurlanıb qaşqabağını tökdü:

—Yalquzağın nəyindən qorxuruq? Qoy o bizdən qorxsun!

Dovşan Yumru Yumruğun nə qədər güclü və qorxmaz olduğunu indi gördü və dedi:

—Qoyun mən də sizinlə gedim!

—Lap yaxşı oldu – deyə Yumru Yumruq atılıb düşdü. Amma atılıb düşəndə az qaldı ki, cözələnsin.

—Bir az yavaş, əgər cözələnib açılsan, səni kim yumaq kimi sarıyacaq, — deyə Yumru Yumruq qəzəbləndi.

—Daha tullanmaram.

Onlar yollarına davam etdilər.

Birdən qabaqlarına vahiməli yekə bir Yumru Yumaq çıxdı. Bu elə yekə Yumru Yumaq idi ki, hətta Yumru Yumruğun özü də bir az qorxan kimi oldu. Birdən Yekə Yumru Yumaq onların qarşısında dayandı və açıldı. Baxıb gördülər ki, bu, ayıdır.

Ayı onlara çatmaq üçün özünü yumurlayıb dağdan diyirlədibmiş.

—Ay Yumru Yumaq, Yumru Yumruq, Yumru dovşan, hara belə? Məgər qorxmursunuz ki, yalquzaq qabağınızı kəsib sizi parçalayar?

Yumru Yumaq dovşan hamıdan qabaq dilləndi:

—Canavarın nəyindən qorxacağıq, qoy onun özü bizdən qorxsun?!

Ayı fikirləşdi:

—«Doğrudan da bunlar canavardan niyə qorxmalı idilər».

Dedi:

—Qoyun mən də sizinlə gedim.

—Lap yaxşı!

Yumru Yumaq Ayı qabaqda, Yumru Yumaq dovşan onun dalınca, Yumru Yumağın özü ortada, Yumru Yumruq isə arxada yola düşdülər. Uzaqdan onları yalquzaq canavar gördü. Amma ayının qorxusundan onlara yaxınlaşa bilmədi. Gedib bütün yalquzaqları topladı və əhvalatı onlara danışdı.

Canavarlar sözü bir yerə qoyub Yumru Yumaqları axtarmağa başladılar.

Yumru Yumağın dəstəsi gəlib Qumrunun oturduğu yumru-yumru qayalara yetişdi. Qumru Yumru Yumağı təzəcə əlinə götürüb ondan corab toxumaq istəyirdi ki, bir də gördü

canavar gəlir. Dostlarını xəbərdar etdi. Yumruq o saat düyünlənib qəzəblə qışqırdı:

—Qoy gəlsinlər, hamısının başını əzəcəyəm!

Yumru Yumaq Ayı donquldandı:

—Deyəsən bunların ölümü çatıb.

Təkcə Yumru Yumaq dovşan tir-tir əsdi və dedi:

—Dostlar, onlar çox, biz az. Mənim bir təklifim var. Gəlin hamımız yumurlanıb yerimizdə sakitcə dayanaq. Belə dursaq yumru qayalardan heç nə ilə seçilmirik.

Bu söz hamısının ağlına batdı. Qayaların yanında yumurlanıb sakitcə durdular. Canavarlar nə qədər axtardılarsa yumru yumaqları tapa bilmədilər. Əvəzində onları aldatdığı üçün həmin yalquzağı parça-parça etdilər.

OXUYAN KOĞUŞ

alıdın kötüyündə balaca bir koğuş yaranmışdı. Hərdən quşlar gizlənqaç oynayanda bu koğuşda gizlənə bilirdilər. Hər səhər külək əsməyə başlayanda koğuş oxuyurdu. Onun oxumağı çoban tütəyinin həzin musiqisinə oxşayırdı. Əslində palıd ağacı da elə buna görə yarpaqlarını belə həvəslə tərpədir, ləzzətlə rəqs edirdi.

—Bəxtəvərin kefinə bax, — deyə ətrafdakı ağaclar onun paxıllığını çəkirdilər. Camaat küləkdən başını gizlətməyə yer tapmır, amma bu, oynayır.

Bir dəfə koğuş o qədər gözəl oxudu ki, hətta buludlar da bu məlahətli səsə yığışdılar. Buludlar o qədər sıxlaşdı ki, paxıllıqdan ağacların bir neçəsinin yarpaqları quruyub töküldü. Buludlar bu gözəl nəğməyə hədiyyə olaraq çoxlu inci bağışladılar koğuşa. Yağış damlaları bircə göz qırpımında koğuşu doldurdu. Amma heyf ki, pis bir iş oldu. Koğuşun ağzı inci damlaları ilə dolan kimi o səsini kəsdi. Nə qədər əlləşdisə daha oxuya bilmədi.

ÇƏPİŞ

ölməçə donmuşdu. Çəpiş həmin gölməçədəki buzun üstünə çıxdı. Dırnaqlarının soyuqdan sızıldamasına və ayaqlarının sürüşməsinə fikir vermədi. Dalaşmaq üçün özünə bir tay axtarırdı. Gözü gölməçənin içində başqa bir çəpişə sataşdı. Gölməçənin içindəki çəpiş, elə bu çəpişin buza düşmüş əksi idi.

—Yaxşı əlimə düşmüsən! Gəl dalaşaq, — dedi və buynuzlarını şeşələdi.

Çəpişin gölməçədəki əksi də buynuzlarını şeşələdi. Çəpiş hirsləndi. Dal ayaqlarının üstünə qalxdı. Var gücü ilə buza kəllə vurdu. Buz qırıldı. Çəpişin təzəcə çıxmış buynuzları suya batdı. O heç nə başa düşmədi və evə tərəf qaçdı... onun boynundan və tüklərindən ətrafa mirvari kimi su damcıları səpələnirdi.

FUTBOLÇU

izinlə mərc gələrəm ki, dünyada Qeyrət kimi oyunçu olmayıb, olmayacaq da. İstəyirsiniz oyunlarına baxa bilərsiniz. Elə məşq zamanı da onun necə futbolçu olduğunu görmək çətin deyil. Odur, bax, məşq başlandı. Aha, Qeyrət onbirmetrlik vurur: gumb! Qapının üst dirəyi getdi işinin dalınca.

—Sən cəmi on metrdən vurdun. Bu, hesabdan deyil.

—Eh, qapıçının adəti cığallıq etməkdir, də! Hakimlər on bir metr sayıb dayanırlar.

—Bax burdan vurmalısan, bir qarış da qabağa gəlmə! Budur, Qeyrət geri çəkilir, irəli şığıyır və... gumb! Bu dəfə qapının bütün dirəkləri havaya uçur. Ay aman, bu necə futbolçudur. Hakim bayaqkı çöpləri gətirib yenidən qapı qurur. Məşq yenidən başlanır. Hamı bilir ki, balaca futbolçu bircə zərbə ilə dirəkləri yerindən çıxaracaqdır...

HİDİNİN İTİ

Əgər yolunuz Hidigilin həyətinə düşsə, itlərindən qətiyyən qorxmayın. Hürməklə arası yoxdu. Yad adam görsə ağzını mümkün qədər geniş açıb qırmızı dilini çölə uzadıb cani-dildən gərnəşəcək. Vəssalam! Sonra göz qapaqları tənbəl-tənbəl yumulacaq və it dərin bir yuxuya gedəcək.

Hidinin bu tənbəl itinin qəribə bir xasiyyəti də var. Gedənə yoldaşdı, gələnə qardaş. Tutaq ki, meşəyə gəzməyə gedirsən. Hidinin tənbəl iti düşəcək yanına, arabir hürəcək də. Yəni mən də özümə görə bir itəm. Bax, bu xasiyyətinin ucundan onun başına bəzən qəribə macəralar gəlir.

Bir dəfə bu it köçə qoşulub dağa getdi. Köç yaylaqda yerbəyer olandan sonra Hidinin iti qaldı ortalıqda. Axı onu köçə qoşulmağa dəvət edən olmamışdı. İt qulaqlarını sallayıb çənəsini qollarına dirəyib dərin fikrə getdi ki, neyləsin. "Bu uzunluqda yolu tək-tənha necə geri qayıdım? Mənə deyən gərək ay ağılsız, hər gördüyün köçə niyə qoşulursan?!" Xeyli fıkirləşəndən sonra belə qərara gəldi ki, bir də köçə-zada qoşulmasın.

PAPAQ

Bu papaq əhvalatı evdə əməlli-başlı qanıqaralığa çevrildi.

—Belə də iş olar? — deyə Gülnurun anası əllərini ölçürdü. —Yarımca saat qabaq papaq başında idi. Axı necə oldu?

Gülnur susub dururdu. Elə bil anasını eşitmirdi.

—Bilirsən o papağın qiyməti neçəyədir? Əlli manat! Başa düşdün? Hardan başa düşəsən. Axı pulu sən qazanmırsan. Bir papağı da başında saxlaya bilmirsən!

Bir azdan səs-küy yatdı. Ana evə girdi. Gülnur da həyətə getdi. Ananın qulağına səs gəldi. Baxıb gördü ki, Gülnurdu, kiminləsə danışır. Yavaşca pəncərəni açıb qulaq asdı. Gülnur deyirdi:

—Heç bilirsiniz bu papağm qiyməti neçəyədir? Əlli manat! Başa düşdünüz?! Hardan başa düşəsiniz?

Ana onu yamsıladığna görə Gülnuru danlamaq üçün həyətə düşdü. Nə görsə yaxşıdı?! Gülnurun papağının içində iki bapbalaca pişik büzüşüb. Onlar balaca pəncələrini soyuqdan gizlətmək üçün çənələrinin altına soxub, isti papağın içində sakitcə durub baxırdılar. Hər şey aydın idi. Gülnur pişik balalarını papağının içində yatırtmışdı ki, onlara soyuq olmasını. Gülnur anasını görəndə çaşdı. Qorxdu ki, anası danlayacaq. Ancaq belə olmadı. Bilmirəm papaq tapıldığına görəmi, ya nəyə görəsə ana onu danlamadı. Təkcə gülümsündü…

PEÇENYEDƏN YARANMIŞ QIZ

ir dəfə Gəncənin biskvit fabrikində peçenyedən bir qız düzəltdilər. Burnu xalis marmeladdan, gözləri moruq mürəbbəsindən, qulaqları və ağzı qaymaqdan idi.

Qız küçəyə çıxanda bir görəydiniz uşaqlar ona necə baxır. Elə həmin gün ayrı bir əhvalat da oldu. Buludlar göyün üzünü tutdu, dünyagörmüş adamlar dedi ki, bu adi bulud deyil.

Bir azdan doğrudan da qeyri-adi bir yağış yağmağa başladı. Göydən çiyələk şirəsi tökülürdü. Uşaqlar əvvəl yağışın dadına baxdılar. Əsil çiyələk şirəsi idi. Sonra gördülər ki, çiyələk yağışı peçenye qızı qıpqırmızı rəngə boyayıb. Hər tərəfdən tökülüb gəldilər. Qızı yalamağa başladılar. Axı paltarı islandığı üçün o ağlaya bilərdi. Peçenye ilə çiyələyin bir ləzzətli dadı olurmuş, gəl görəsən. Qoca bir kişi isə hey qışqırdı:

—Mən nəvəmin gözlərini dünyada hər şeyden çox sevirəm. İcazə verin bu qızın gözlərini yeyim.

Qoca onun gözlərini yeyəndən sonra daha dayanmaq olardımı? Uşaqlar qızı necə yaladılarsa bir də gördülər ki, daha heç nə qalmayıb. Yağış da bir azdan kəsdi.

İndi yaşı doxsana çatmış qocalardan bu əhvalatı soruşsanız yəqin ki, yadlarında bir şey qalmış olar. Heç belə hadisəni unutmaq mümkündürmü?!

TƏRS ADAM

gər sən pencəyini, ya da elə köynəyini tərsinə geyinsən hamı sənə baxıb güləcək.

İsgəndər isə pencək və ya papağını tərsinə geyinsəydi dərd yarı idi. Bu uşaq elə bil tərsinə yaranmışdı. Kim neyləsəydi İsgəndər tez onun tərsini edərdi. Məsələn, qışda dənizdə çimmək istəməzsiniz. İsgəndər bunu görsəydi bilirsiniz neynərdi? Sizin gözünüzün qabağında soyunub özünü atardı dənizə. Sonra da anası onu sətəlcəmdən xilas etmək üçün yüz dava-dərmandan istifadə edərdi.

Tutaq ki, bir körpüdən keçmək lazımdır. Körpü ensiz olduğu üçün ayağınızın altına baxırsınız ki, yıxılmayasınız. Eh, İsgəndər bunu görsəydi heç bilirsiniz nə olardı? Əvvəla o körpüdən aydındır ki, daldalı keçərdi. İkincisi, heç ayağının altına baxmazdı da. Bir də gördün gurum düşdü çaya. Di gəl onu çək çıxar. Yox, sizi yaxın qoymazdı. Dal-dalı yeriyib çayı eləcə də keçərdi. Sonra da heç nə olmayıbmış kimi fıt çala-çala gedərdi işinin dalınca. Bir dəfə anası dedi:

—İsgəndər, çıx çardaqdan odun düşür.

İsgəndər zirzəmiyə girdi, oradan sərin ayran çıxardı. Dedilər, canım, bunu həkimə göstərmək lazımdır.

Həkimlər onu soyundurdular. Aydındır ki, o əvvəl şalvarını soyundu, sonra ayaqqabılarını çıxardı. Həkimlər gördülər ki, nə, sən demə bu İsgəndər səhərlər üzünün əvəzinə dabanlarını yuyurmuş. Deməli heç zaman üzünə su dəyməyib. Buna görə də tərs olub. Deyirəm dünyada gör nələr olur ey! Eşidəndə adam az qalır ki, inanmasın.

HEÇ ZAMAN DANIŞILMAYAN NAĞIL

iri var idi, biri yox idi, heç zaman danışılmayan bir nağıl var idi. Bu nağıl fikirləşirdi ki, görəsən nə üçün onu heç zaman danışmayıblar. "Axı mən insanlara neyləmişəm?" — deyə həmişə nağıl acı-acı gileylənirdi.

Bir dəfə Biləndər axtarıb həmin nağılı tapdı və oxudu. Sonra mənə danışdı.

Sən demə, keçmiş zamanda balıqlarm hamısı danışa bilirmiş. Özü də indiki kimi suda yox, quruda yaşayırmışlar. Bir gün haradansa nəhəng itlər və pişiklər gəlib çıxır. Onlar balıqları tutub bir-bir yeyir, körpələrini kabab edirlər. Balıq gündən-günə azalmağa başlayır. Axırda elə olur ki, balıqdan ötrü itlərlə, pişiklər cırmaqlaşmağa başlayırlar.

Onlar o qədər cırmaqlaşırlar ki, balıqlar qorxudan lal olur və suya atılırlar. Amma itlərlə pişiklər hələ də crmaqlaşır.

Nağıl burda bitir. Doğrusu mən indi başa düşdüm ki, nə üçün insanlar bu nağılı heç zaman danışmır. Belə xoşagəlməz hadisəni kim sevər ki...

ÜZGÜÇÜ TURAL

ax, üzgüçü belə olar! Tural əllərini, ayaqlarını tərpədir, hər dəfə də irəli atılırdı. Qurbağanı xatırlatsa da gözəl üzürdü. Üzə-üzə fıkirləşirdi: "Daha mən üzgüçü olduğumu burada da göstərməyib harada göstərəcəyəm?! Qoy görsünlər ki, lap gəmi kimi üzürəm!".

—Quuuq!

Sahildəkilər isə elə hey qışqırırdı:

—Tural, sən qol atdıqca dəniz dalğalanır, bir az yavaş üzə bilməzsən?!.

O başını tərpədərək deyirdi:

—Yox, mən həmişə belə bərk üzürəm. Özünüzü gözləyin! Axı mən gəmiyəm.

Bəli, Tural dənizi coşdurmaq üçün daha bərk əl-qol atır, hər dəfə də boğuq səslər çıxarırdı.

—Quuuq!

—Bura bax qardaş, — deyə sahildəkilərdən biri onun qolundan yapışdı, — bəlkə bir az dənizin içinə gedəsən, hə, qumu havaya sovurursan axı!

—Mən hələlik ancaq sahildə, narın qumun üstündə üzə bilirəm. Atam deyir ki, bir az böyü, dənizin lap ortasında da beləcə üzməyi öyrənəcəksən. Tural bu sözləri deyib suyun dayaz yerinə atıldı. Ordlarını su ilə doldurub irəli üfürdü və yalnız indi başa düşdü ki, o, balıq kimi də üzə bilir...

GÜZGÜ

ovşan yoldan bir güzgü tapdı. Güzgudə özunu gorub elə bildi ki, şəkildi.

—Qəşəng bir şəkil tapmışam, lap qəşəng! Deyə səs-küy saldı. Ceyran güzgünü alıb baxdı:

—Doğrudan da gözəldir. Siz bir onun buynuzlarına baxın. Lap mənimkinə oxşayır. Gözlərinə söz ola bilməz!

Canavar güzgünü qapıb aldı.

—Bəri ver görüm, — deyə ceyranın üstünə qışqırdı. Canavar xeyli baxıb dedi:

—Hm, gözəl olmağına sözüm yoxdur, amma yırtıcıya oxşayır.

O güzgünü ilana verdi. İlan baxıb dedi:

—Ay aman, məgər siz onun dişlərinin dibindəki zəhərə fıkir vermirsiniz? Bu saat o, hamını çala bilər.

Meymun güzgünü ilanın əlindən qapdı və diqqətlə baxmağa başladı. Xeyli baxandan sonra qışqırdı:

— Belə çirkin heyvanın şəklini hələ bir əlinizə də alırsınız? — deyib güzgünü dərəyə tulladı.

Güzgü sındı, hekayə də qurtardı.

İKİ ADAMCIĞAZ

Bu adamcığazların əhvalatını eşidəndə məni bir gülmək tutdu ki, gəl görəsən.

Onlar gecədən xeyli keçmiş durdular. Hamı şirin yuxuya getmişdi. Birinci adamcığaz dedi:

—Biz də özümüzə görə bir adamıq, ya yox?

İkinci tələsik onun sualına cavab verdi:

—Əlbəttə, adamıq, kim deyir ki, adam deyilik?!

Birinci dedi:

—Bir halda ki, belədir, onda gəl, biz də bir adam kimi gücümüzü göstərək.

—Lap yaxşı. Amma başa düşmədim ki, biz neyləməliyik.

—Gəl yaşadığımız bu evi tərpədək. Qoy görsünlər ki, bizim də özümüzə görə gücümüz var.

Onlar hərəsi şkafin bir qapısını tərpətməyə başladı. Birdən yuxarıdan nəsə düşdü və birinci adamcığazın qolunu yerindən qopartdı. İkincinin də qorxudan ürəyi getdi.

Səhər Gülnurla Şəlalə yuxudan durub gördülər ki, onların gəlincikləri yerə düşüb. Birinin sağ qolu yerindən qopub. Onlar nə qədər fikirləşdilərsə də bunun səbəbini bilmədilər. Buna görə də küsüşdülər. Əgər qorxudan ikinci adamcığazın dili tutulmasaydı o, uşaqlara işin nə yerdə olduğunu söylərdi...

İKİ NAR

olun başında iki nar qonşu idi. İkisi də qızarıb yetişmişdi. Birinci nar ürəyində fikirləşirdi:

—Görəsən birinci hansımızı dərəcəklər. Əlbəttə məni dərməlidirlər. Axı, mən daha iri və qırmızıyam.

İkinci nar fikirləşirdi:

—Qonşum da mənim kimi gözəldi. İkimizi də bir dərsələr nə yaxşı olardı. Ağ süfrənin üstündə də qonşu olardıq. Ömrümüzün axırına qədər bir yerdə yaşayardıq.

Birinci nar fikirləşirdi:

—Yox, əvvəl məni dərməlidirlər. Mən gərək ən böyük məclislərin bəzəyi olam. Qonşumu isə sonra dərmək olar. Hara tələsir ki? Hələ əməlli qızarmayıb da!

İkinci nar ürəyində dedi:

—Əgər əvvəl məni dərmək istəsələr, birtəhər başa salacam ki, qonşudan ayıbdı, əvvəl onu dərin. Narlar beləcə fikirləşirdilər. Birdən kimsə ikinci narı dərib apardı. O, nə qədər qışqırdı ki, qonşusunu dərsinlər, heç sözünə qulaq asan olmadı.

Birinci nar bunu görüb hirsindən partladı. Qırmızı dişləri göründü.

Hardansa bir sərçə nar koluna qonub oxumağa başladı:

—Cik-cirik, cik-cirik, mən bilirəm o narı hara apardılar.

—Hara apardılar? — deyə paçallamış nar soruşdu.

—Onu xonçaya qoyub toya apardılar!

Bu sözdən nar necə partladısa dənələri yerə töküldü. Sərçələr bir göz qırpımında ona hücum etdilər. Bütün dənələrini yeyib qurtardılar. Bu da paxıl narın axırı.

ANSAMBL

Mən sizə deyəndə ki, dünyada qəribə işlər olur, inanmırsınız. Bu ansamblın üzvləri bircə göz qırpımında toplandılar. Bilmək olmurdu ki, onları bir yerə kim yığdı. Əvvəlcə cır səsli tütəkçalan heç kəsə baxmadan işə başladı. Nazik səsli çoban tütəyini dodaqlarına yapışdırıb çaldı:

—Fia, fia, fıa...

Ansamblın üzvləri gözləyirdi ki, o səsini kəssin ki, başqaları da öz istedadını göstərə bilsin. Tütək çalan isə heç bu barədə düşünmək belə istəmirdi. Gücü gəldikcə tütəyini püfləyirdi:

—Fffia, fia, fia, fıa...

Nağaraçı daha dözə bilmədi. Onun səsini batırmaq üçün var gücü ilə nağarasını döyəcləməyə başladı:

—Bim bam, bom, bim! – Yəni səsinizi kəsin görək nə var, nə yox.

—Bu daha ağ oldu, — deyə biri sazın tellərini səsləndirməyə başladı:

—Dalaley, dalaley, dalaley... dalaley, dalaley...

Ansamblın balaca bir üzvü isə iki şüşə qırığını birbirinə vururdu.

—Cik-çirik, cik-çirik!

Bir azdan hamı çalırdı. Pəncərələrin tayları açılır, bu nəğməyə qulaq asırdılar. Doğrudur, hərə bir şey çalırdı, amma bu qarışıq səslərin özü də gözəl idi. Təkcə bir qarı, pəncərəsini bərk-bərk bağlayıb deyinirdi:

—Ay sizin qanadınız kəsilsin! Səhər tezdən durub adamı yatmağa da qoymurlar.

Qarğa isə qarının sözünü eşitmirmiş kimi qarıldayırdı:

—Qarr, qarr, işinizdə olun. Dünyada quş ansamblından gözəl ansambl yoxdur!

QIRMIZIPAPAQ VƏ CANAVAR

ox, mən sizə həmin qırmızıpapaq nağıltnı danışmayacağam. Bu, başqa nağıldı. Amma həmin qırmızıpapaq qızın başına gəlib.

Qırmızrpapaq yekəlmişdi. Bir gün yük maşınını sürüb meşənin içindən keçirdi. Yük maşınının içində dəmir məhəccərlərdən düzəlmiş ev vardı. Qabağına bir canavar çrxdı. Canavar dişlərini şaqqıldadıb dedi:

—Ay qəşəng qırmızıpapaq, hara belə?

—Nənəm xəstələnib, gedirəm onu bu dəmir evə qoyub həkimə aparam.

—Qayıdanbaş məni də götürərsənmi?! Çoxdandı həkimə getmək istəyirəm.

—Sənə nə olub ki, ay ağzı qara canavar?

—Dişim ağrıyır, həkimə göstərəcəm!

—Yaxşı, qayıdanbaş səni də götürərik.

Qırmızıpapaq yük maşınını sürüb getdi. Canavar özözünə dedi:

Yaxşı oldu. Nənəsini udaram, sonra da düşüb qaçaram. Ovçular məni tapsın görüm, necə tapacaq. Qayıdanbaş canavar yük maşınının qabağında şöngüyüb oturdu.

—Məni də şəhərə aparırsan, ya yox?

Qırmızıpapaq dedi:

—Yerimiz darısqaldı. Amma neyniyək, gəl otur.

Canavar tullanıb kuzovdakı dəmir evə girdi. Qapını bağladı. Canavar hardan biləydi ki qırmızıpapaq indi heyvanxanada işləyir, məqsədi də elə canavarı tutub heyvanxanaya

gətirməkdi... Heyvanxanada uşaqlar ağzıqara canavara maraqla baxırdılar. Bir uşaq barmaqlarını onun gözünə tuşlayıb deyirdi:

—Qırmızıpapağı aldatmaq istəyən Canavar budur. Gör dişlərini necə ağardır?

Canavar aldadıldığını başa düşüb hirslə belini dəmir köşkün divarlarına sürtüb mırıldayırdı ki, qırmızıpapağı bu dəfə də yeyə bilmədi...

QAYIQ SÜRƏN AYI BALASI

Kür çayının sahili boyu uzanan meşələrdə qonur bir ayı yaşayırdı. Onun zil qara gözləri və burnu düymə kimi parıldayırdı. Ayını əyri pəncəsi çömçəyə oxşayırdı. Dırnaqları qarmaq kimi iti, əl-qolu tüklü idi.

Ayı balası bu gün erkən oyanmışdı. Gözlərini xeyli ovuşdurdu, kirpiklərini aralayıb Günəşə baxdı

—Səhərdir... — deyə donquldandı və burnunu göyə qalxızıb iylədi ki, görsün hansı tərəfdə ov tapmaq olar. Axı, anası ona belə öyrətmişdi. Sahil tərəfdən burnuna xoş iy dəydi. Sahilə cumdu.

Kür yorğun-yorğun axırdı. Sular qırçın-qırçın idi. Külək sahil qumlarını elə düzəltmişdi ki, hər tərəf əl içi kimi görünürdü. Balıqçılar sahildə ocaq qalayıb kabab bişirirdilər. Ayının ağzı sulandı. Amma balıqçıların qorxusundan onlara yaxın getmədi, əyri çömçə pəncəsi ilə boynunun dalını qaşıdı. Ayının gözü çayın sahilində bağlanmış qayığa sataşdı. Qayıq sakit-sakit yırğalanırdı. Sanki çay qayığı əllərində oynadırdı.

Qonur ayının başına qəribə bir fikir gəldi. Mən də balıq tutacağam O, qayığa tərəf götürüldü. Balıqçılar uzaqda idilər. Başları kabab bişirməyə qarışdığı üçün onu görmürdülər. Ayı qayığın ağaca bağlanmış zəncirini açdı. Keçib qayıqda oturdu və kürəkləri işə saldı. Qayıq yavaş-yavaş yırğalandı. Sahildən üzüldü və çayın ortasına doğru irəlilədi. Ayı sevincindən elə ucadan bağırdı ki, səsə balıqçılar da bu tərəfə boylandılar və ... işin nə yerdə olduğunu anladılar.

Balıqçılar yüyürüşüb gəldilər. Ancaq qayıq çayın düz ortasında idi. Ayı qorxusundan özünü itirmişdi. Balıqçılar əlləri ilə işarə edirdilər ki, ayı qayığı sahilə — onlar tərəfə sürsün. Lakin ayı ömründə birinci dəfə idi ki, qayıq sürürdü. Nə qədər əlləşdisə qayığı sahilə çıxara bilmədi. Xeyli gedəndən sonra burulduğu yerdə su qayığı sahilə çıxardı. Balıqçılar yüyürə-yüyürə, meşəyə səs sala-sala qaçırdılar.

Dələlər ağacın başından bu qəribə əhvalata baxırdılar. Sağsağanlar gülməkdən uğunub getmişdilər. Kolların arası ilə çətinliklə qaçan, arabir yıxılıb-duran balıqçılar axır ki, qayığa yetişdilər. Lakin qonur ayı balası utandığından onları gözləmədən çıxıb getmiş, meşənin qalın yerlərində gizlənmişdi.

GÜNƏŞI QOPARMAQ ISTƏYƏN AYILAR

ayızın ikinci ayında günəşin istisi xeyli azalmışdı. Ayı balası yerdə eşələnə-eşələnə günəşə baxırdı. Birdən qulağını qaşıyıb dərin fikrə getdi. Öz-özünə dedi: "Gəlsənə günəşi qoparıb öz kahamıza gətirəm. Onda hamını qızdırmaq əvəzinə bütün istisini bizə verər. Gör canımız necə qızar ey!" O başına gələn bu fikrin təsirindən elə sevindi ki, iki dəfə mayallaq aşdı. Sonra atasının yanına gəlib ondan məsləhət istədi. Atası qulağının dibini elə bərk qaşıdı ki, qoz boyda şiş yarandı.

—Ağıllı fikirdir. Lap ağıllı. Gedək baba ilə məsləhətləşək.

Onlar qoca ayının yanına gəldilər:

—İstəyirik günəşi qoparıb öz kahamıza gətirək. Qoy təkcə bizimki olsun.

Baba qulağının dibini necə qaşıdısa ordan qan çıxdı. Ayılar o saat başa düşdülər ki, baba lap dərindən fikirləşir.

Haçandan-haçana dilləndi:

—Olduqca ağıllı fikirdir. Gedək günəşi gətirməyə.

Baba qabaqda, ata onun arxasında, nəvə isə lap arxada yola düşdülər. Gəlib Kəpəzin ətəyinə çatdılar. Baba dedi:

—Dağın lap zirvəsinə çıxa bilsək əlimiz günəşə çatacaq.

Baba qabaqda, ata onun arxasınca, nəvə arxada ağzıyuxarı yortmağa başladılar. Kəpəzin lap zirvəsində qabaqlarına sıldırım bir qaya çıxdı. Dayanıb fikrə getdilər ki, bu sıldırımı necə çıxsınlar. Ayı balası qulağının dibini bərk-

bərk qaşıdı. Ata ayı qulağını necə qaşıdısa bayaqkından da böyük şiş yarandı. Baba qulağını qaşıyanda qan necə fəvvarə vurdusa xeyli əlləşdikdən sonra onun qulağının qanını kəsdilər.

Baba dedi:

—Mən dırmaşacağam. Siz isə ayağımdan sallanın.

Bərk tutun ki, yıxılmayasınız.

Onlar çıxdılar, çıxdılar. Sıldırımın qurtarhaqurtarında baba dedi:

—Uşaqlar ayağımdan bərk tutun əlimə tüpürürəm.

Onlar babanın ayağından lap bərk yapışdılar.

Baba əlinə tüpürmək üçün tutduğu qayanı bir anlıq buraxdı. Ayıların üçü də sıldırımdan aşağı yumalandılar. Bir müddətdən sonra özlərinə gəldilər. Ayaqları, belləri tamam əzilmişdi.

Onlar yıxılmalarının səbəbini başa düşmədikləri üçün donquldana-donquldana öz kahalarına qayıtdılar.

HAMIYA NAĞIL DANIŞMAQ İSTƏYƏN QIZ

Bəli, bəli qətiyyən təəccüblənməyin. Bu qız eşitdiyi bir nağılı hamıya danışmaq istəyirdi.

—Bəs necə, — deyirdi, — qoy hamı görsün ki, qəşəng nağıllar bilirəm.

—Nağılı gecə danışarlar, hamı bir yerə yığışanda, amma sən elə günün günorta çağı da danışırsan. Camaatın işi-gücü var axı.

—Bilirsiniz, mənim nağıllarım, onların işləməyinə qətiyyən mane olmur.

Daha neynəmək olardı?! Gərək harda gəldi bu qəşəng qızın nağıllarına qulaq asaydılar, yoxsa inciyə bilərdi.

Bir dəfə dörd yol ayrıcının tən ortasında dayanıb maşınlara yol göstərən polis işçisi gördü ki, ağ bantlı qız ona yaxınlaşır. Polis fikirləşdi ki, yəqin uşaq yolu azıb, ondan söz soruşmaq istəyir. Qız ona yaxınlaşanda əlini papağının günlüyünə aparıb farağat dayandı. Qız günəşdən qamaşan gözlərini qırpa-qırpa dedi:

—Biri varmış, biri yoxmuş bir polis varmış. Polis işçisi fit çaldı. Polis dilində bu o demək idi ki, danışma. Amma qız heç elə bil polisin fitini eşitmədi. Nağılını davam etdirdi.

—İstəyirsiniz sizə maşın yeyən qızın nağılını danışım? Bax bu doğrudan da maraqlı idi. Doğrudur, polis bu saat iş başındaydı, maşınlara yol göstərirdi. Amma maşın yeyən qızın haqqında eşitmək də pis olmazdı.

—Yaxşı, danış, qulağım səndədir, — deyə farağat vəziyyətində dayandı.

—Hə, bu qız maşın yeməyə onun təkərlərindən başlayır. Əvvəlcə təkərin birini ağzına soxur, sonra bütün maşını udmağa çalışır. Amma siz narahat olmaym, qız nə qədər əlləşirsə maşından bir tikə də qoparda bilmir.

—Niyə? — deyə polis təəccüblə soruşdu.

—Axı onun dişləri yoxdu.

Başa düşdüm. O qədər maşın yeyib ki, dişləri tökülüb.

—Yox canım, dişləri hələ çıxmayıb. Buna görə də hələlik maşınlardan heç nə qopara bilmir. Dişləri çıxandan sonra yəqin ki, sağ maşın qoymayacaq. Polis əmi nədənsə fıt çaldı və maşınlara yol göstərdi. Sonra çevrilib baxdı ki, qız süd mağazasının satıcısına şirin bir nağıl danışır.

AĞCA VƏ AXÇA

nlar iki bacı idilər. Amma hərəsinin öz arzusu vardı. Ağca buluddan ayrılandan sonra şam ağacının budağına qonmaq istəyirdi.

—Bilirsən nə gözəl yelləncəkdi, — deyə hərdən bu barədə Axçaya danışırdı. — Azca külək əsir, budaqlar qafil tərpənir, sən də özün üçün yellənirsən.

Axçanın isə arzusu o idi ki, yerə düşsün. O fikirləşirdi ki, uşaqlar qardan adam düzəldəndə ondan da istifadə edərlər. Bir sözlə nəyəsə yaramaq istəyirdi.

Bacılar elə bu arzularla əllərini buluddan üzdülər. Şam meşələri yaşıl yol kimi uzanıb gedirdi. Ağca yel vurduqca yellənən ağaclara həsrətlə baxıb budaqlardan birinə qonacağını gözləyirdi.

Axca göz işlədikcə uzanıb gedən Qar dənizinə baxıb sevinirdi:

—Bura bax, budaqda yellənəndə hərdən aşağı da baxarsan. Mən çalışacağam ki, qar adamının saçı olum. Onda sənə lap yaxınlaşacağam.

—Yaxşı, — deyə Ağca cavab verdi. — Mən də çalışacağam ki, lap aşağı budağa qonum ki, səni yaxşı görə bilim.

Kiçik bir külək onları havada oynatdı və bacılar sürətlə aşağı gəlməyə başladılar. Heyf ki, yerə çatanda lap gözlənilməz bir iş oldu. Ağca budağa qonmaq əvəzinə yerə düşdü. Axca isə yerə düşmək əvəzinə budağa ilişib qaldı. Onlar nə qədər əlləşdilərsə bir şey çıxmadı. Nə Axça yerə düşə bildi, nə də Ağca yenidən budağa qayıda bildi.

Neynəmək olar. Həyatda bəzən hər şey tərsinə olur. Gərək buna dözməyi bacarasan. Bacılar dözdülər.

Yaz gəldi. Əvvəlcə budağa qonan Axça bircə damla suya çevrilib axırı ki, həsrətində olduğu torpağa düşdü. Ağca da yavaş-yavaş əridi və torpağa qarışdı.

Kol dibində iki ağ çiçək bitmişdi. Birinin başı aşağı əyilmişdi. Biri ağ kirpiklərini şax tutaraq günəşə baxırdı. Günəşə baxan Ağca idi. Heç olmazsa indi doyunca budaqlara baxmaq istəyirdi. Başını aşağı salan isə Axça idi. Ürəkdən sevdiyi torpağa əyilmişdi.

Deyirəm dünyada necə maraqlı işlər olur.

GÜNƏŞ VƏ ZƏHMƏTKEŞ İNSAN

ə, elə ki, insan dünyaya gəldi Günəş parlamağa başladı. O öz parıltısı ilə insanı həvəsləndirdi. Günəş istəyirdi ki, yer üzündə həyat coşub çağlasın. Buna görə lap yuxarı qalxıb daha da parıldadı. İnsan Günəşin bu mehribanlığından daha da sevindi və torpağı əkib-becərməyə başladı. İnsan əkdiyi torpaqlarda müxtəlif bitkilərlə yanaşı lalələr də bitdiyini gördü. Sən demə, Günəş bununla demək istəyirdi ki, sənin zəhmətinlə yerdə balaca günəşlər yanır. Bax, insan bu zaman daha yeni bir qüvvə ilə işlədi. O, sübhdən gedir, gecədən xeyli keçmiş qayıdırdı. İnsan gördü ki, onun yolunun üstündə atəşböcəkləri uçuşur. Onlar balaca qanadlarından yola işıq salır ki, insan hər yeri görə bilsin. Bax bu zaman insan Günəşin göndərdiyi bu balaca böcəklərə və Günəşə dərindən minnətdar oldu və gecələr yolları işıqlandırmaq haqqında düşündü. Ancaq bunu necə etmək olardı. İnsan Günəş ola bilməzdi ki.

Sən demə insanların hər biri balaca bir Günəş imiş. Siz bir fikir verin. Hər kəs sağlam vaxtında özündən 36 dərəcə istilik buraxır. Deməli insan da Günəş kimi yanır. Bircə fərqi var ki, onun işığı ilk baxışda görünmür. Sonra dünyaya çoxlu insan gəldi və onların içində eləsi tapıldı ki, elektrik lampalarını kəşf etdi. Amma siz diqqətlə fikir versəniz elektrik lampaları balaca insan ürəyinə oxşayır. Elə bil hər dirəkdən bir ürək asılıb və bizim yolumuzu işıqlandırır. Bunlar elektriki kəşf edən həmin o insanların ürəyidir. Özləri dünyadan çoxdan köçüb, ürəkləri hələ də yanır. Amma gərək bir şeyi də bilək ki,

elektriki kəşf edənlər işığı təkcə ona görə yaratmayıblar ki, insanlar qaranlıqda yolları rahat getsinlər. Həm də bu işi ona görə ediblər ki, Günəşi gecələr də görsünlər. Görürsünüzmü — futbol meydançalarında, təyyarə meydanlarında, məktəblərdə gecələr də işıq yanır. Bunlar ilk insanın dostu Günəşin xatirinədir. İnsan Günəşdən gecələr də ayrılmaq istəmir...

İNCİ

yı özünü yetirəndə bülbül zəngulə vururdu. O necə həyəcanla oxuyurdusa ayının gəldiyini heç kim hiss etmədi:

—Nə olub? — deyə ayı donquldandı. — Boğazını niyə yırtırsan?

—Bir baxın, — deyə Dovşan bülbüldən qabaq cavab verdi. — Otların qulağından sallanan bu sırğaları görürsünüz?

Otların qulağında şeh damcılarından başqa bir şey yox idi. Bu damlalar günəşin şüalarını yavaş-yavaş əmir və xoşbəxt-xoşbəxt parıldaşırdılar.

—Görürəm? Nə olsun? Məgər bundan ötrü boğaz yırtırlar?

—O boğazını yırtmır, — dələ nazik səslə etiraz etdi. — oxuyur!

—Axı bu damcıların nəyi var ki, onlara baxıb oxuyasan da?! — deyə ayı donquldandı və damcıların bir-ikisinin dadına baxdı:

—Heç yeməli də deyilmiş ki?

—Hə, yox, yeməli deyil, — çaşmış dovşan söhbətə qarışdı. – Sadəcə olaraq bunlar gözəldir. Bir baxın üzük qaşı kimi parıldaşırlar. Hələ az qalıram deyəm ki, onlar dünyanın ən qiymətli inciləridir.

—Çox qiymətlidir? — deyə ayı gözlərini bərəltdi. — Onda sizə əmr edirəm, bu saat onları yığıb tökün mənim ovcuma.

Dovşan, dələ və bülbül şeh damlalarını ehtiyatlı çiçəklərin ləçəyindən götürüb ayının ovcuna tökdülər. Amma bu gözəl damlalar ayının ovcunda o saat öz parlaqlığını itirdi. Bir azdan ayının ovcu doldu. O, isə bu damlalarla əllərini yudu.

Sonralar ayı hamıya danışırdı ki, əllərini dünyanın ən qiymətli inciləri ilə yuyub. Amma heç kəs bu sözə inanmırdı.

MAŞQA

Aysel itə də, pişiyə də maşqa deyir. Özü də maşqaların hamısını çox istəyir. Amma maşqalar onu qətiyyən istəmirlər. Harada gəldi balaca əlini ya dişləyir, ya da cırmaqlayırlar. Bir də görürsən ki, Ayselin gözlərindən yaş axır. Nənəsi həyəcanla soruşur:

—Noolub?

—Maşqa dişlədi.

—Ay balam, bu evin içində maşqa hardadı axı?

—Budey, kitabın üstündə. Nənəsi kitabın üstündə çəkilmiş pişik şəkillərini görür.

Tez nəvəsinin ağlayan barmağını öpür. Yara elə o saat sağalır.

Bir dəfə nənə gördü ki, Aysel bir vərəqi didişdirir.

—Neynirsən? Dəftəri niyə cırırsan?

—Axı Günel onun üstünə maşqa şəkli çəkmək istəyirdi. Onun çəkmək istədiyi o maşqa mənim barmağını dişləyəcək. Vərəqi cırıram ki, maşqanı çəkə bilməsin.

Günel isə vərəq cırıldığı üçün qumun üstündə qəşəng bir it şəkli çəkdi. İt quyruğunu dik tutub dilini çölə çıxartmışdı. Lap canlı it kimi dayanmışdı. Aysel yavaş-yavaş yaxın gəlib sağ ayağı ilə onun quyruğunu tapdaladı və qışqırıb nənəsinin üstünə qaçdı.

—Yenə nə oldu? — deyə nənəsi uşağın tir-tir əsən əllərindən yapışdı.

—Maşqa dişlədi. Quyruğu ilə dişlədi. Tez ol öp. Hə, bax burda işlər çətinləşdi. Axı nənəsi onun palçıqlı dabanından necə öpəydi?! Öpməsəydi də Aysel göz yaşını kəsən deyildi.

—Axı sənin dabanın palçıqdı. Necə öpüm? Gəl belə edək. Mən əlimi öpüm və yapışdırım sənin yaranın üstünə. Nənəsi əlini öpüb nəvəsinin yarasına yapışdıran kimi Ayselin yarası sağaldı və qız durub getdi yenə də maşqa ilə oynamağa.

QUYRUQ

iri var idi, biri yox idi, bir quyruq var idi. Bu quyruq fikirləşdi ki, görəsən nə quyruğu olsun. Axırda belə qərara gəldi ki, ayı quyruğu olsa yaxşıdı.

Quyruq gedib ayının bədəninə yapışdı və başladı bu dünyada ömür sürməyə. O meşədəki heyvanların quyruğuna baxıb gülürdü:

—Bir bunlara baxın, siz allah! Bunlar da özlərini quyruq yerinə qoyur. Siz bir o tülkü quyruğuna fikir verin, elə bil ot topasıdı. Hələ gör tülkünün ayaqlarını necə tumarlayır. Elə bil o yöndəmsiz ayaqları tumarlamasa, daha nə bilim, nə olar. Hələ o qoyun quyruğuna fikir verin. Necə də yayxanır. Bir nazlanır ki, gəl görəsən. Atın quyruğuna isə zəhmət çəkib baxmağınıza dəyməz. Onun əvəzinə elə süpürgə də bağlamaq olardı.

Birdən bu quyruq gördü ki, yolla bir insan gedir. Baxdı quyruğu-zadı yoxdu.

—Mən bu insanlara lap məəttəl qalmışam — dedi, — heç quyruqsuz da yaşamaq olar?

Quyruq gördü ki, insanın dalınca bir it qaçır. Aydındı ki, onu tutmaq istəyir. İt insana çathaçatda o tullanıb ağaca çıxdı. İtin ağzı insanın şalvarından ancaq bir parça qopara bildi.

—Quyruğu olsaydı yəqin ki, tutmuşdu — deyə quyruq fikirləşdi. Və belə qərara gəldi ki, insana quyruq qətiyyən lazım deyil. Bir azdan quyruğun başına bir iş gəldi. Axı ayı çömbəltmə oturmağı sevirdi. Elə oturan kimi, quyruq da onun bədənindən düşüb qaçdı.

Çoxdandır ki, həmin quyruqdan bir xəbər yoxdur.

GÜNƏŞİN DƏNİZDƏ QALAN SAÇLARI

u əhvalat olanda dünya hələ başdan-başa su idi. Buna görə də günlərin bir günü üfüqdən boylananda dənizi gördü. Günəş uzun və qızılı saçlarını dənizə sallayıb yudu. Qızılı saçları elə parıldadı ki, dənizdəki balıqların hərəsi bu tellərin birindən yapışdı. Bir azdan günəş üfüqdə yox olanda saçları qırılıb sularda qaldı.

Səhər Günəş üfüqdə görünəndə dəniz az qaldı çaşsın.

Dünənki sarışın qız qıpqırmızı olmuşdu. Hirsindən qızarmışdı. Saçlarının yarısı dənizdə qaldığı üçün qız beləcə alışıb-yanırdı.

—Sənə nə olub? — ləpələr pıçıltı ilə soruşdu.

—Daha bundan artıq nə olacaq? Saçının yarısını balıqlar dənizdə saxlayıblar. — Elə bunun üçün belə qızarmısan? Sənin saçların o qədər uzun və o qədər çoxdur ki, yer üzündə hamıya çatar.

—Əlbəttə, hamıya çatar, — deyə balıqlar başlarını qaldırdılar və gözləri ilə Günəşin dənizdə üzən saçlarından yapışdılar.

Sən demə, balıqlar Günəşin saçından mirvari düzəldib, al yosunların arasında gizlənmişdilər. Mirvarilər ona görə belə parlaq olurmuş.

O, vaxtdan balıqlar hər gün Günəşin saçlarından yapışıb ondan bir az qopardır, Günəş isə hər səhər beləcə hirsli çıxır, sonra yosunların arasındakı mirvariləri əvvəlkindən daha parlaq və gözəl görünür.

DƏNİZİN TAPŞIRIĞI

ənizə gedən bütün yollar eniş olur. Ona görə ki, dəniz qonaqsevərdir. Amma elə ki, geri qayıdırsan, yol yoxuşa çevrilir. Çünki dəniz sənin belə tez qayıdıb getməyini istəmir. Dalğaların qucağında atılıb-düşən o tək qayığa bax! Onu dəniz beləcə qucağında atıb-tutur. Çünki dənizi sevənlərin hamısı onun xoşuna gəlir. Belə təsəvvür elə ki, Xəzərin sahilinə gəlmisən. Əvvəl belə bir səs eşidəcəksən:

—Xuşşt, xuşşt!

Bu dəniz dilində "xoş gəlmisən" deməkdir. Əlbəttə o saat soyunub suya tullanacaqsan. Qulağına başqa bir səs gələcək.

—Xuşşt, xuşşt! Yəni necədi, suyum çox soyuq deyil ki?!

Amma sən yəqin bu sözlərə qətiyyən əhəmiyyət verməyib lap uzaqlara üzmək qərarına gələcəksən. Axı doğrudan da dənizin yenə də səsi eşidiləcək:

—Xaşş, xuşş, uuuşşş! Bu o deməkdir ki, ehtiyatlı ol! Dalğalar dəcəl olur. Onlarla zarafat eləməyi sənə məsləhət görmürəm.

Axı hələ balacasan. Elə ki, böyüdün, hiss elədin ki, sən suya atılanda dalğalar geri çəkilir, onda dəniz başqa bir mahnı oxuyacaq:

Bu isə o deməkdir ki, dəniz cəsurları sevir. Hara istəyirsən üz. Buna görə də məsləhət budur ki, uzaqlara üzməmişdən qabaq dənizi dinlə. Əgər o sənə desə ki: —Xşşş, xuşşş, uuuşşş! — Onda məsləhətim budur ki, geri qayıdıb lap dayaz yerdə üzəsən. Dənizin bu tapşırığını yadından çıxartma!

ÇİYƏLƏK ÇAYININ DİBİNDƏKİ OĞLAN

ecə olub ki, uşaqlar bu çayın dadına vaxtında baxmayıblar. Daha doğrusu az qala bu gözəl çay havayıca axıb gedəcəkdi. Şəhər gözətçilərindən biri axşam qaranlığında küçədən keçən bu sudan bir qurtum içdi və çiyələk şirəsinin gözəl ətrini duyan kimi şirədən ovuc-ovuc başına çəkməyə başladı. Sonra bərkdən qışqırıb xəbərdar etdi:

—Tez olun, çiyələk şirəsi axıb qurtarmamış ıçın.

Hər tərəfdən tökülüşüb gəldilər və çiyələk çayından |doyunca içdilər. Şirə tamam içilib qurtarandan sonra çayın dibindən balaca bir oğlan tapdılar. Sən demə bu oğlan hamıdan qabaq çayın dadına baxıb və ondan doyunca içmək üçün özünü şirənin içinə atıbmış. Oğlanı çəkib bir tərəfə uzatdılar. Şirədən o qədər içmişdi ki, özündən getmişdi. Haçandan-haçana huşu başına gəldi.

—Tez olun, mənə çiyələk şirəsi verin.

Onu başa saldılar ki, şirə içilib tamam qurtarıb. Oğlan ağlamağa başladı və camaata dedi ki, əgər çiyələk şirəsi verməsələr sonra ondan inciməsinlər.

Camaat əl-ayağa düşdü. Vedrə götürüb bazara qaçdılar. Çoxlu çiyələk alıb gətirdilər. Oğlan doyunca yedi. Kimsə qorxa-qorxa oğlandan soruşdu:

—Əgər çiyələk almasaydılar neyniyəcəkdin?

—Gedib bazardan çiyələk alacaqdım, — deyə oğlan çala-çala çıxıb getdi.

BƏDƏLİN ŞƏHADƏT BARMAĞI

ədəlin şəhadət barmağının ağlına gəlmişdi ki, burnunun içində nə isə mühüm bir şey gizlənib. Buna görə də barmaq tənbəllik etməyib burnunun sağ deşiyindən içəri soxuldu. Ozü də dibəcən getdi və fikirləşdi ki, mühüm şey mütləq dib tərəfdə olmalıdır. Şəhadət barmaq gecəli-gündüzlü əlləşdi. Dərs vaxtı da, çörək yeyəndə də, hətta axşam yatanda da burundan çölə çıxmaq istəmədi. Amma axtardığı o mühüm şeyi tapa bilmədi. İşi belə görəndə barmaq sol tərəfə cumdu. Yenə də lap dibə qədər getdi.

Tərslikdən yenə də səfərdən əliboş qayıtdı. Amma ruhdan duşməyib. Bədəl dördüncü sinfə keçib. Amma şəhadət barmaq axtarışlarını bir dəqiqə də yarımçıq qoymur. Deyirlər hələ də o, burunun gah sağ, gah da sol tərəfindən içəri soxulur, səbirlə həmin mühüm şeyi axtarır. İşdir, əgər bir şey tapsa, hökmən sizə də deyərəm. Amma burunun içindən mühüm bir şey tapacağına nədənsə heç ümidim yoxdur.

Adamlar isə bu axtarışa əhəmiyyət verməyib deyirlər:

—Əlini burnundan çıxart, ayıbdır.

Yazıq Bədəl neyləsin. Bu camaatı necə başa salsın burnunun içində vacib bir şey gizlənib və şəhadət barmağı hökmən onu tapmalıdı.

TURALIN ATI

t dördnala çapırdı. Tural nə qədər "Durr" edirdisə dayanmaq bilmirdi ki, bilmirdi.

—Qaçın, at sizi basacaq! — deyə qışqınrdı. — Bu at deyəsən dəli olub.

Uşaqların hərəsi bir tərəfə qaçdı. Təkcə səkkiz yaşlı Vüsal yerindən tərpənməyib dedi:

—Atını bir az o yandan sür de!

—Axı, dayanmır, dəli olub ey! Tez ol qabağından qaç!

—Əşşi, sən də bizi dolamısan, bunun harası atdı, qarğı deyil?

—Yox, əsil atdı! Görmürsən? Özü də dəli olub, qaçın qabağından!

Uşaqlar nə qədər başa salmağa çalışırdılar ki, at deyil, Turalın mindiyi qarğıdı, o daha hündürdən qışqırıb dedi:

—Mənim atım lap həqiqi atdı. Tez olun qabağından qaçın, yoxsa hamınızı tapdalayar!

Heç kəs bu "dəli" atın qabağından qaçmadı. Tural da atını o tərəfdən səyirdib getdi ki, adamları tapdamasın...

ÇƏMƏNLİKDƏN QOVULAN QURBAĞA

Çəmənlikdə hərənin bir işi vardı. Arılar səhərdən axşamacan bal yığıb daşıyırdı. Çiçəklər torpağın şirəsini, günəşin şüasını sorub böyüyürdü. Ot yarpaqları gündən-günə mehribanlaşır, sıxlaşırdı. Kəpənəklər ləzzətlə uçaraq bu əhvalatları hər yana yayırdı.

Təkcə qurbağa axşama kimi quruldayırdı.

—Bura bax, — deyə bir dəfə ondan soruşdular, — sən niyə bir işin qulpundan yapışmırsan, hə?!

—Mən də nəğmə oxuyuram. Məgər sizə bir mahnı oxuyan lazım deyil?

—Mahnını işdən sonra da oxumaq olar. Amma sən cır səsinlə qulağımızı aparırsan.

Bu söz hamının ağlına batdı və belə qərara gəldilər ki, qurbağanı çəmənlikdən qovsunlar.

Bax, həmin vaxtdan qurbağalar gölməçələrdə yaşamağa başladılar.

Amma burada da onların işi düz gətirmədi. Gölməçədəki balaca balıqlar bu boşboğazların oxumasını qətiyyən istəmədilər.

Həmin gündən qurbağalar ancaq göllərin qırağında oxuyur. Qorxudan nə çəmənliyə gedir, nə də gölün içində oxuya bilirlər. Mahnılarını oxuyub qurtaran kimi isə gölə atılırlar.

QAYAYA ÇEVRİLMİŞ BALİNA

ə, mən bu əhvalatın əvvəlini hekayələrimin birində yazmışam. Yadındadırmı. Mərdəkan çimərliyində uşaqlarla zarafat etmək fikrinə düşən balina! Sonra həmin balina uşaqları qorxutduğu üçün dənizin lap sahilində qayaya çevrilib. Bax, bu əhvalat isə balina qayaya çevriləndən sonra olmuşdur.

Bir dəfə ləpələr sahilə hücum çəkib balinanı yuxudan oyatmaq fikrinə düşdülər. Amma balina heç kirpiklərini də qaldırmadı. Çünki o, uşaqları yenidən qorxudacağından ehtiyat edirdi. Ləpələr sözü bir yerə qoyub bu nəhəngin bədənini doğramağa başladılar. Onlar o qədər hücuma keçdilər ki, axırda balinanı həqiqətən bir neçə yerdən yaraladılar. Bir ləpə ağ başını qürurla yuxarı qaldırıb deyirdi:

—Sən bir buna bax! Yatmaqdan doymur. Bir də ayılıb görəcək ki, daha heç nəyi qalmayıb.

—Biz onu doğrayıb tökməliyik, — deyə hələ də hirsi soyumayan iri bir ləpə özünü balinaya çırpdı.

Çimərlikdəki adamlar bu qayanın vaxtilə balina olduğunu bilmədiklərinə görə elə güman edirdilər ki, ləpələr sahil qayalarına çırpılıb geri qayıdır, vəssalam.

Onlar hardan biləydilər ki, balina bu saat hirslənib ayağa durmaqdan özünü güclə saxlayır. Axı uşaqlar onun belində özlərini günə verirlər. Balina bir balaca tərpənsə onları qorxuda bilər. Ağılsız ləpələr isə buna qətiyyən əhəmiyyat vermir, gecə-gündüz onun bədənini yaralamaq üçün özlərini var güclərilə ona çırpırlar. Küləkli havalarda işlər lap korlanır.

Ləpələr dalğaya çevrilir. Bu zaman dəniz sahillə əlbəyaxa olur. Dalğalar isə balinadan hayıflarını almaq üçün şahə qalxır, az qala onu qucaqlarına alıb dənizə aparmaq istəyirlər. Buna da Balina deyərəm. Sahildən aralanmağı ağlına belə gətirmir. Bir özünüz düşünün. Səhər uşaqlar gəlib görsələr ki, balina yerində yoxdur, onda nə olar?!

QARINQULU QARPIZ

Bu qarpızlar qonşu idi. Hər ikisi kolun dibində uzanıb tağın şirəsini ləzzətlə sorurdu. Dənizçilər kimi zolaqlı köynək geyinən birinci qarpız gözünün altı ilə baxıb gördü ki, o biri qarpız deyəsən daha çox şirə əmir. Axı həmin qara qarpız səsini çıxartmadan ancaq gələcək haqqında şirin xəyallara dalırdı.

—Belə, — deyə zolaqlı qarpız elə həmin andan daha çox şirə sorub qarnına doldurmaq haqqında düşündü. Axı belə şey olmazdı. Necə ola bilərdi ki, qara qarpız daha çox şirə əməydi, buna dözmək olmazdı.

Zolaqlı qarpız tağı əmməyə başlayanda qara qarpızın ona yazığı gəldi. Çünki, zolaqlı qarpız gələcək haqqında qətiyyən şirin xəyallara dala bilmirdi. Amma qara qarpız düşünürdü ki, bir az da böyüyəcək və onu dərib süfrəyə qoyacaqlar. Zolaqlı qarpız isə belə şeyləri qətiyyən düşünmür, sadəcə olaraq qarınqululuq edirdi.

Onların ikisi də böyüdü. Zolaqlı qarpız o qədər şişmişdi ki, az qalırdı partlaya. Gecələr səhərə qədər qonşuları yatmağa qoymurdu. Qarnına o qədər su dolmuşdu ki, bilmirdi neyləyə. Bir dəfə dovşan zolaqlı qarpızı balalarına aparmaq istədi. Onu tağdan üzüb elə təzəcə itələmişdi ki, qarpız balaca bir daşa dəyib partladı. Günlərlə sorub qarnma doldurduğu su bir andaca axıb boşaldı. Amma qəribə olsa da onun zarıltısı kəsmişdi. Axı qarnı boşalmışdı.

Qara qarpız isə yavaş-yavaş böyüyürdü. Hərdən kürəyini günə verirdi ki, qoy günəş onu qızdırsın, dadlı və ləzzətli olsun. Bir dəfə bu qarpızı dərib apardılar. Onu kəsib yeyəndə dedilər:

—Lap dadlı qarpızdı. Sağ olsun bostançı! Bax bu ədalətsizlik oldu! Axı qarpızın dadlı olması üçün bostançıdan çox çalışan onun özü idi. Amma insanlar bu barədə düşünmək belə istəmədilər. Bir də insanlar bilmədi ki, bu qarpızın yanında başqa bir qarpız vardı və o qədər böyük idi ki, bir balaca daşa toxunmaqla parçalandı. Yox, insanlar zolaqlı qarpızı heç yadlarına da salmadılar. Bu isə ədalətsizlik idi.

STOLUSTÜ LAMPANIN DƏRDİ

lbəttə, heç kəsin ağlına belə gəlməzdi ki, bu lampanın da dərdi var. Məsələ burasında idi ki, lampa bir yazıçının stolunun üstündə ən hörmətli bir yerdə idi. Yazıçının hələ hamıdan gizlətdiyi əsərlərinin ilk əlyazmasını oxumağa təkcə ona icazə verilirdi. Buna görə də stolüstü lampa özünü son dərəcə xoşbəxt hesab edirdi. Uzaqdan gözlərini heyrətlə açan lampalara heç cavab belə vermək istemirdi. Uzaqdakı lampalar isə işıq dilində ondan xahiş edirdilər ki, yazıçının təzə əsərləri haqqında onlara heç olmasa bir məlumat versin. Amma stolüstü lampa necə dayanmışdısa eləcə də başını qaldırmadan yazı stoluna baxırdı. Elə bil ətrafda gözlərini ona həsrətlə dikən bu qədər lampaları qətiyyən görmürdü.

Amma stolüstü lampanın dərdi başqaydı. Axı yazıçı bu əsərlərinin demək olar ki, hamısını onun işığında yazırdı. Necə deyərlər, lampa da yazıçı ilə eyni həyəcanı keçirirdi. Bir dəfə işıqlar keçdiyi üçün yazıçı həmin gecə işləmədi və o zaman stolüstü lapma yəqin etdi ki, onsuz yazıçının heç bir dəqiqəsi də səmərə verməz. Hə, di gəl ki, əsərlər yayılmağa başlayanda onların üstündə ancaq yazıçının adı olardı. Heç kəsin ağlına belə gəlməzdi ki, bu balaca nağıllarda stolüstü lampanın gözlərinin nuru var.

QABAĞA QAÇAN KİRŞƏ

Oğlan ayaqlarına kirşə geyinib sürüşürdü. Kirşələr qarın üstündə bir cüt ağ cızıq qoyub gedirdilər. Kirşələrdən biri dedi:

—Əlbəttə, mən səndən yaxşı sürüşürəm.

Mən bilən ikimiz də yaxşı sürüşürük, o birisi cavab verdi.

—Yox, yox, mən səndən xeyli yaxşı gedirəm. İstəsəm ümumiyyətlə səni arxada qoyub çıxıb gedirəm. Doğrusunu deyim ki, mənim belə bir planım var. Sənինlə bir yerdə nə qədər sürüşmək olar. Sən sürüşmürsən, tısbağa kimi sürünürsən.

—Nahaq belə danışırsan, ikimiz də bir sürüşürük, —sol ayağa geyilən kirşə cavab verdi. — Bir az insafla danışsan nə olar?

—Sən mənə insafsız deyirsən? — sağ ayağa geyilən kirşə hirsləndi. — Salamat qal, mən daha səni gözləmək istəmirəm. Bu sözləri deyib sağ ayağa geyilən kirşə irəli atıldı. Sol ayağa geyilən kirşə isə ondan incidiyi üçün dayanırdı ki, o çıxıb getsin. Bu zaman qəribə bir iş oldu. Ayağına kirşə geyinmiş oğlan arxası üstə qarın üstünə yıxıldı. Sağ ayaqdakı kirşə havaya qalxdı və elə göydə iken dedi:

—Sənin acığına mən uçmaq istəyirəm. Bəli, bəli, özüm beləcə uçuram ki, bəzi-bəzi kirşələr mənə həsəd aparsın. Oğlan hirsləndi, onların hər ikisini ayağından çıxanb atdı.

Amma o kirşə başa düşmədi ki, həyatda heç də həmişə irəli atılmaq adama xeyir gətirmir. Əgər onlar qoşa getsəydilər, yəqin ki, hələ də xoşbəxt-xoşbəxt sürüşürdülər.

DÜNYANIN ƏN ƏDALƏTLİ GÖZƏTÇİSİ

ax gözətçi buna deyərəm: qollarını yana açıb düz bostanın ortasında dayanıb. Bir quşun hünəri varsa yaxınlaşsın. Qoruqçu elə bir səs çıxarar ki, quşun bağrı yarılar: cırınq, zaranq, dratax!

Hərdən gözaltı yetişmiş çiyələklərə baxır, öz-özünə fikirləşirdi: Yəqin bal kimidi. Amma mən ondan birini də qoparmaram. Haram şey nəyimə gərəkdi. Hə, qardaş, heç kəsin malına əyri gözlə baxmaram. Hələ siz bostanın üstündə uçan boz sərçələrə baxın, oğurluq etmək istəyirlər, haramzadalar. Eybi yox, mən sizə göstərərəm. Cırınq, zaranq, drrax!".

Gözətçi pərən-pərən olmuş quşların arxasınca baxıb elə bir şaqqanaq çəkdi ki, bostanın boz köpəyi hirslə hürüb quyruğunu qapmağabaşladı.

Çiyələklər balaca, qaramtıl dişlərini göstərib deyirdilər:

—Bizi yemək olar! Niyə gözlərini bərəldirsən, yesənə?! Qarovulçu ağzının suyunu güclə saxlayıb deyirdi:

—Lənət şeytana. Yox, mən sizi yeyə bilmərəm. Səhər bağ sahibinə nə cavab verərəm.

Orasını da deyim ki, bu ədalətli qarovulçunun ürəyi çox təmiz idi və görünür elə buna görə də özündən deməyi yaman xoşlayırdı. Ən çox sevdiyi məşğələ bir pələngi öldürməsi haqqında rəvayəti danışması idi. Bir dəfə hardansa çobanaldadan quşu uçub gəldi. Çobanaldadan çiyələk yemək istəyirdi. O düz qarovulçunun qarşısına qonub dedi:

—Qardaş, o pələngi necə öldürdüyünü yaxşı-yaxşı danış.

Qarovulçu şövqlə dedi:

—Hə, bir də gördüm ki, zolaqlı, xallı pələng gəlir. Bığları da ki, qaydasında. Dişlərini yada salanda adamın ürəyi yanlır. Düzdü, pələng çox böyük idi. Amma nə qədər böyük olsa da mənim dizimdən ancaq olardı. Pələng bostanın ortasına çatanda mən bir nərə çəkdim: drraxt! Onu gördüm ki, gumb bir şey partladı: sən demə bu pələngin ürəyi imiş.

Səhəri onu sürüyüb apardılar. Bağ sahibi bax bunu mənə onda bağışladı.

Çobanaldadan qarovulçunun söhbətinə qulaq asa-asa çiyələk kollarını dənləyirdi. O, yetişmiş meyvələrdən yeyib cəh-cəhlə oxumağa başladı. Gözətçı qəzəblə qışqırdı: Cırınq, zaranq, drraxt! Tez ol bostandan çıx.

Başımı söhbətə qatıb gör nə yeyir, qarınqulu.

Eh, çobanaldadan onun sözünə heç əhəmiyyət də vermədi. Qırmızı çiyələklə qarnını doldurandan sonra uçub düz qarovulçunun sarı, uzun burnuna qondu. Başqa quşlar bu əhvalatı görüb ürəkləndilər. Bir anda bostana daraşdılar. Qoruqçu necə hirsləndisə qırılıb yerə düşdü, Üstünün zınqırovları hərəsi bir yana dağıldı.

Deyirlər ki, bostan pozulandan sonra uşaqlar onun qollarını at kimi minib çapırmışlar. Qoruqçu isə hələ də işə yaradığı üçün elə əvvəlki kimi sevinirmiş.

Orasını da deyim ki, bu əhvalat doğrudan da olub. Özü də bilirsiniz harada? Kür çayı boyunca uzanıb gedən bostanların birində.

AYTƏNLƏ ANARIN NAĞILI

ytənin gözləri qaradı. Böyürtkən kimi. Anarın gözləri yumrudu. Yupyumru. İki damla mürəbbə kimi. Onların ikisi də balacadı. Bapbalaca. Bir gün bu dostların hərəsi bir tısbağa tapdı. Gölün sahilini gəzəndə gördülər ki, tısbağalar yavaş-yavaş gölə girmək istəyir. Əslində tısbağalar uşaqlardan qaçırdı. Amma neyləmək olar, yerişləri çox asta olduğundan qarışqadan da yavaş yeriyirdilər.

Əvvəlcə Anar tısbağanın birini qucağına götürdü, sonra Aytən də ürəkləndi, tez o biri tısbağanı qucağına götürdü. Sonra Aytən dedi:

—Kimin tısbağası qəşəngdir?

Anarın yumru gözləri elə parıldadı ki, elə bil indicə bişmiş mürəbbə damlasıdı. Çopur tısbağanı qabağa uzadıb dedi:

—Əlbəttə mənimki qəşəngdir!

Aytən ağ toppuş əlleri ilə bərk-bərk tutduğu yastı daşa oxşayan tısbağasını sinəsinə sıxdı. Tısbağanın qarmaq kimi əyri dırnaqları havada açıla qalmışdı. O, qara böyürtkən gözlərini tısbağasına zilləyib dedi:

—Mənimki lap gözəldi, heç ona tay tapılmaz! Anarın səsi titrədi:

—Mənimki ev boyda gözəldi!

—Mənimki bu küçə boyda gözəldi!

—Mənimki Bakı boyda gözəldi!

—Mənimki dünya boyda gözəldi!

—Mənimki də... mənimki də...

Aytən deməyə söz tapmadı. Bilmədi nə boyda desin ki, Anarınkından böyük olsun.

Onlar küsüşdülər. Hərə öz tısbağasını götürüb getdi.

Axşamüstü Anar dostundan küsdüyü üçün peşman oldu. Ürəyində fikirləşdi ki, qoy Aytənin tısbağası qəşəng olsun.

Anar Aytənə zəng etdi:

—Aytən, mənəm, Anardı.

Aytən dostunun zəngindən çox sevindi. Anar dedi:

—Aytən, sənin tısbağan lap gözəldi! Dünya boyda. Lap ondan da çox!

Aytən dedi:

—Yox, sənin tısbağan gözəldi, dünya boyda, lap ondan da çox. Anar dedi:

—Qoy sənin tısbağan gözəl olsun, Aytən! Aytən dedi:

—Yox, qoy sənin tısbağan gözəl olsun!

Hə, sözləri yenə də düz gəlmədi. Anarın mürəbbə damlasına oxşayan gözlərinin işığı bir az azalan kimi oldu. Aytənin qara böyürtkən gözlərinin qaralığı bir az azalan kimi oldu. Hə, işlər çətinləşdi. İndi biz neyləyək?

ÜÇ GORMƏMIŞ

iri var idi, biri yox idi, dünyada üç görməmiş var idi. İşin tərsliyindən bu görməmişlərin üçü də bacı idi. Böyük bacının adı Böyük Görməmiş, ortancıl bacının adı Ortancıl Görməmiş, balaca bacının isə adı Balaca Görməmiş idi. Sizi inandırıram ki, heç vaxt belə görməmiş qarşımıza çıxmayıb. Tutaq ki, ata qarpız alıb gətirir. Böyük Görməmiş yanğınsöndürən maşın kimi əvvəl uzun bir fıt verir. Sonra qışqırır:

—Qarpızın dadına əvvəl mən baxmalıyam.

Ortancıl Görməmiş paroxod kimi uğuldayır:

—Yox, yox, qətiyyən elə şey ola bilməz. Mən dura-dura kimin haqqı var ki, qarpızm dadına baxsın.

Balaca görməmiş nazik səslə amma hündürdən qışqırır: Məgər mən ölmüşəm ki, qarpızın dadına birinci siz baxırsınız.

Beləcə görməmişlər arasında dava başlayır. Bir də ayılıb görürlər ki, qarpız çoxdan yeyilib qurtarıb. Onlar iş-işdən keçdiyini görüb özlərini sındırmırlar. Böyük Görməmiş yanğından sonra suyu süzülə-süzülə gedən yanğınsöndürən kimi astadan deyir:

—Çox dadlı qarpız idi. Mən ömrümdə belə ləzzətli qarpız görməmişəm.

Ortancıl Görməmiş sahilə lövbər salan paroxod kimi fısıldayır:

—Rəngi də ki, qıpqırmızıydı. Yəqin ki, dünyada ikinci belə qarpız yoxdur.

Balaca Görməmiş dayanacağa yaxınlaşıan elektrik qatarı kimi uğuldayır:

—Belə yumru qarpızları ancaq muzeylərdə tapmaq olar.

Elə güman etməyin ki, bu görməmişlər həqiqətən görməmiş idi və ömürlərində heç nə görməmişdilər. Yox, yox siz nə danışırsınız? Onlarm ataları ağıllı bir kişi idi.

Günlərin bir günü ata düz bir maşın qarpız alıb gətirdi. Qoy ürəkləri istəyən qədər yesinlər. Bəlkə gözləri doya.

Aydın məsələdir ki, bacılar maşına hücum çəkdilər. Hər biri bütün maşına sahib olmaq istədi. Amma bu işin mümkün olmadığmı görəndə Böyük Görməmiş ən iri qarpızı götürüb dedi:

—Bu mənim!

Ortancıl Görməmiş özünü həmin qarpızın üstünə atıb dedi:

—O özümündür! Balaca görməmiş qıyya çəkdi:

—Mənimdi!

İşi belə görən ata həmin qarpızı alıb dərəyə tulladı. Qarpız diyirləndi, görməmişlər də onun dalınca. Qarpız axırda yekə bir daşa dəyib parça-parça oldu. Bacılar qarpız qırıqlarının yanında oturub onun ləzzətli qarpız olması barədə uzun-uzun mübahisə etdilər.

İKİ PARILTI

Dünyada iki parıltı var idi. Bunlar elə parıltılar idi ki, hansı əşyanı istəsələr parıldada bilirdilər. Hətta adamları da parıldatmaq olurdu. Parıltılar bir gün dalaşdılar.

Dalaşmalarının da səbəbi lap adi bir şey oldu. Böyük Parıltı dedi:

—Məncə dünyanın bütün əşyaları ancaq xoşbəxtlikdən parıldayır. Bir bax, dənizlər, pəncərələrin şüşələri, şeh damlaları, otlar, çiçəklər necə alışıb yanır!

Kiçik parıltı bacısının dediklərinə etiraz etdi:

—Səhvin var. Bütün parıldayanlar xoşbəxt deyil. Onların içində eləsi var ki, öz bədbəxtliyini gizlətmək üçün parıldayır.

Bax, burada saçyoldusu başladı. Böyük bacı balacanın saçından necə tutdusa yazıq az qaldı ki, parıltısını itirsin. Onlar həmin gündən tək gəzirlər. Böyük bacı xoşbəxtləri parıldatmaqdan ötrü hər tərəfi gəzir və belə adamları tapan kimi onlara yapışır və parıldayır. Balaca bacı dünyanın ən bədbəxt adamlarını tapır. Bu adamlar özlərini başqalarının yanında sındırmamaq üçün daha yaxşı geyinib-gecinir ki, camaat onun bədbəxt olduğunu bilməsin.

Balaca bacı bir dəfə dünyanın ən bədbəxt adamı ilə tanış oldu. Onun əri padşah idi. Ərinin də qırx arvadı vardı. Doğrudur, padşah arvadlarının hamısını parıldada bilirdi. Onların hamısının boynunda qızıl boyunbağılar, barmaqlarında dünyanın ən qiymətli brilyantları, qulaqlarında sırğalar vardı.

Bu bədbəxt gəlinin isə dağlarda sevgilisi qalmışdı. Padşah onu görən kimi xoşlamış və sarayına gətirmişdi. Lakin bu gəlin dağlarda qalan çobanı gözləyirdi. Amma özünü bədbəxt kimi aparmamaq üçün ən-qiymətli daşlarla bəzənirdi ki, adamlar duyuq düşməsin.

Balaca parıltı onun bədəninə yapışan kimi bu gəlin elə parıldadı ki, hətta xoşbəxtlikdən parıldayan o biri gəlinlər onun paxıllığını çəkməyə başladılar.

—Siz bu bəxtəvərə baxın, — deyə padşahın köhnə arvadları qəm-qüssəyə batdılar və onu yandırmaq üçün yalandan parıldamaq istədilər. Bu zaman böyük Parıltı onların üstündən qopub qaçdı. Balaca bacı bədbəxtlikdən parıldayan bu arvadların hamısına sahib oldu. Qəribə burasıdır ki, insanlar da tam başa düşdülər ki, xoşbəxt olanda qətiyyən parıldamağa çalışmaq lazım deyil. Xoşbəxtliyin özü elə parıltı kimi bir şeydir və uzaqdan adamı cəlb edir. İndi kiçik bacının işi yaxşı gedir. Böyük bacı də özünə iş tapıb. Dünyanın ən qiymətli incilərini, şehləri, dənizləri, şüşələri, otları, yarpaqları parıldadır. Bir sözlə, kiçik bacı insanlarla dostluğa başlayır, böyük bacı isə təbiətin dostudur. Bəs bu parıltıların hansı yaxşıdır? Bax, orasını gərək özün ayırd edəsən.

İKİ AĞCAQANAD

ünyada iki ağcaqanad var idi. Birinin adı gözəllər gözəli Ağçiçək, o birinin adı igidlər igidi Ağkişi. Onlar lap xoşbəxt yaşayırdılar. Axşamlar səs-səsə verib oxuyurdular. Ağkişinin həm gözəl səsi vardı, həm də kamança çalırdı. Ağçiçək də pis oxumurdu. Elə axşam süfrəsi yığışdırılan kimi konsert başlayırdı. Əvvəl Ağçiçək bir zəngulə vururdu. İnsafla desək, hələ heç bir ağcaqanad onun kimi zəngulə vura bilməyib. Sonra Ağkişi başını kamançaya tərəf əyib, necə yanıqlı çalıb oxuyurdusa, qurbağalar bir anda öz sevimli mahnılarını kəsib, bu gözəl nəğməyə qulaq asırdılar.

Amma bu işlər xır-xır qurbağanın heç xoşuna gəlmirdi. Görün iş hara çatmışdı ki, o dura-dura Ağkişinin səsinə qulaq asırdılar. Bir dəfə Qurbağalar padşahı Göygöz Qurbağa aman-zaman bir qızının toyunu eləmək üçün Ağkişini çağırdı. Bunu eşidən xır-xır qurbağa necə bərkdən xırıldadısa səsi tamam tutuldu. Di gəl ki, xır-xır Qurbağa fürsət tapıb, Ağkişini dirigözlü uddu. Bu əhvalatı eşidən gözəllər gözəli Ağçiçək necə hönkürüb ağladısa gözündən su əvəzinə iki qığılcım düşdü. Onun gözündən yaş əvəzinə qığılcım düşdüyünü görən cırcırama soruşdu

—Gözəllər gözəli Ağçiçək, nə olub?

—Daha bundan artıq nə olacaq. Xır-xır Qurbağa igidlər igidi Ağkişini uddu.

Cırcırama bu sözü eşidəndə necə cırıldadısa bütün cırıldayan stol və çarpayıların səsi bir anda batdı. Hamı elə

bildi dünyada Cırcıramadan başqa cırıldayan yoxdur. Qarğa Cırcıramanın belə yanıqlı cırıltısını eşidib soruşdu:

—Nə olub?

—Daha bundan artıq nə olacaq. Xır-xır Qurbağa igidlər igidi Ağkişini necə yeyibsə, gözəllər gözəli Ağçiçək gözündən yas əvəzinə od tökür.

Bir görəydiniz bu zaman qarğa necə qarıldadı. Onun qarıltısı bütün dünya qurbağalarının qurultusunu batırdı. Adamlar fikirləşdilər ki, qarğanın bu qarıltısının cavabında gərək o qədər qar yağsın ki, düzü-dünyanı tutsun.

Bunu görən Sair Bülbül soruşdu:

—Ay yayın ortasında qar yağdırmaq istəyən Qarğa, nə olub?

—Daha nə olacaq? Xır-xır Qurbağa igidlər igidi Ağkişini necə yeyibsə gözəllər gözəli Ağçiçək gözündən yaş əvəzinə od tökürmüş.

Bülbül doğrudan da bərk hirsləndi. Necə yanıqlı oxudusa bağçadakı bütün güllər gözlərini açdılar. Sən demə, bağçada bitən güllər əslində gül deyilmiş, onlar gülə oxşayan quşlar imiş və yay yuxusuna gedibləmiş. Adamlar isə mürgüləyən bu quşları gül adlandırıb onları qoxulayırmış. Eh, adamlar heç nəyin fərqinə varmırlar. Elə ki, quşlar qış yuxusundan durdular uçub hərəsi bir tərəfə qaçdı.

AYAQQABILARIN SÖHBƏTİ

oğrusu bu əhvalatı eşidəndə tüklərim biz-biz oldu. Fikirləşdim ki, yəni doğrudan belə şey olar? Amma xidmətçi qadın dedi ki, əgər siz bu əhvalatın doğruluğuna inanmasanız mən də məktəbimizdə oxuyan bütün şagirdlərə deyəcəyəm ki, sizin nağıllarınızı heç oxumasınlar. Əlacım kəsildi. Qələm, dəftər hazırlayıb dedim:

—Danış nağılını.

— Xeyr, — dedi — bu nağıl-zad deyil, əsl həqiqətdir ki, var. Sonra da başladı danışmağa.

Gecə hamı yatanda qulağıma səs gəldi. Diqqətlə baxdım ki, görüm yatmayan kimdi. Gördüm hamı yerindədir. Səs də dəhlizdən gəlir. Yavaşca dəhlizin qapısına kimi getdim. Kimsə deyirdi:

—Eh, uşaqları aldatmağa nə var, ayağını necə sıxdısa tez məni çıxarıb tulladı.

Başqa bir səs dedi:

—Sən Rafiqin ayaqqabıları idin?

—Əlbəttə! Bəs sən?

—Eh, mən də! — Elə ki onun ayaqlarını sıxdım, xidmətçilər məəttəl qaldı. Axı mən onun ölçüsündən bir az da böyük idim.

—Demək sən məndən qabaq bu biclikləri bilirmişsən.

—Daha neyniyim elə birinci gün geyinib küçəyə çıxmışdı. Bir də gördüm burnum bərk ağrıdı. Özümə gələndə nə görsəm yaxşıdı Rafiq burnumu yumru bir daşa vurub. Daş gedib xeyli aralı durmuşdu. Sonra o həmin daşı tapıb vura-vura

aparmağa başladı. Özün bilirsən necə ağrıdır. Gördüm belə getsə axırımdı. Başladım ayağını sıxmağa. Birdən o ayaqlarını tutub yerə oturdu. Uşaqlar başına toplaşdı.

—Nə olub sənə?

—Deyəsən ayaqqabımın içinə kərtənkələ girib. Uşaqlar ay güldülər ha... məni çıxardılar. Diqqətlə ora-bura baxdılar, gördülər ki, heç ne yoxdur. Dedilər:

—Bu ayaqqabı sənin ayağına xırdadı. Hələ sən onunla futbol da oynamaq istəyirsən.

O gündən Rafiqin ayağından çıxardılar məni.

—Sən lap yaxşı qurtarmısan. Sonra məni geyindirdilər Rafiqin ayağına. Dedilər, bu lap yaxşıdır. Elə bağçaya təzəcə girmişdi ki, Rafıq balaca bir küçük gördü. Ayaqları ilə küçüyü cırnatmağa başladı. Birdən küçük mənim üzümdən bərk bir dişdəm aldı. Gözlərimdən yaş çıxdı. Amma dillənə bilmədim. Çünki Rafıq indi də mənimlə küçüyü döyməyə başladı. Mənim burnumda bir mıx var idi, əhvalatı ona danışdım. Mıx başını qaldırıb girdi Rafıqin barmağına. Elə qışqırdı ki, gəl görəsən. Mən də bir yandan başladım sıxmağa. Günorta Rafiq məni çıxarıb tulladı bir qırağa.

Xidmətçi qadın üzümə baxıb sözünə davam etdi.

Elə ki, ayaqqabıların söhbətini eşitdim tez özümü atdım dəhlizə. Söhbət də o saat kəsildi. Doğrudur, danışan ayaqqabıları tanıya bilmədim, amma başa düşdüm ki, hərdən ayaqqabılar uşaqların ayağını nə üçün sıxırmış.

İKİ SAĞSAĞAN

Bu sağsağanlar bir-birinə elə oxşayırdı ki, hətta onları dəyişik salmaq olardı. Onların ən çox sevdiyi məşğələ qabaq-qabağa oturub söhbət etmək idi. Hərəsinin də bir cib dəftəri var idi. Qarşılaşan kimi çıxarıb hərə öz dəftərinə baxırdı ki, görsün bu gün meşədəki əhvalatların hansını danışsın.

—Bacılı-bacılı!

—Can bacılı!

—Sən demə şirin babası pişik imiş.

—Yox əşi.

İkinci sağsağan ağzını elə heyrətlə açdı ki, elə bil bütün meşəni udmaq istəyirdi.

—Bəs necə! Bu gün gözümlə görmüşəm. Pişik düz pələngin özüdür.

—Amma ay özündən razıdır ha. Dişləri də çəyirtgə ayağı kimi əyri və yöndəmsiz.

—Xəbərin var ki, bu gün qovağın iyirmi üç yarpağı düşüb? Belə getsə, yazıq heç bir il də yaşamaz. — Sənə kimdən xəbər verim, göyərçinlərdən. Sən demə bunlar çox davakar imiş. Bayaq görürəm ki, qurr, qurr edib söyüşürlər. — Bəs insanlar deyir guya onlardan sakit quş yoxdur?!

—Eh, insanlar! Onların dünyadan nə xəbəri var. Onlar qırqovulu da əzizləyib çıxarıblar başımıza. Heç bilirsən neyniyib o qılquyruq?

Bu zaman onların ikisi də öz quyruqlarına baxdı. Amma heç nə demədilər. Heç öz quyruqlarını yada salmağa

dəyərdimi? Axı onların da quyruqları uzun və nazik idi. Birinci sağsağan sözünə davam etdi:

—Götürüb bapbalaca, çil-çil bir yumurta yumurtlayıb. Hə, onun fikri budur ki, meşədə quş nəsli tamam kəsilsin. Məgər istəsəydi beş-altısını yumurtlaya bilməzdi?

Sağsağanların başı şirin söhbətə qarışmışdı. Birdən gördülər ki, dələ yuvasına qoz daşıyır.

—Bacılı, sən bu topaquyruğu görürsən? Heç danışıb eləmir! Ay özünü dartır ha.

—Əgər o danışmırsa, demək burada bir sirr var.

—Əlbəttə var. Gəlsənə onu pusaq. Axı bundan bir söz qoparmasam ürəyim partlayar.

Sağsağanlar başladılar dələni pusmağa. Dələ isə öz işində idi. Axırda yorulub daşıdığı qozları saymağa başladı.

Sağsağanlar ha qulaq asdılarsa bir söz eşidə bilmədilər. Lap axırda bu sözləri eşitdilər:

—Qırx beş.

Sonra səs-səmir kəsildi. Sağsağanlar bir-birinin üzünə baxdılar. Axırda biri dilləndi:

—Qırx beş ha! Burdan belə çıxır ki, bizim hörmətli ayının ölümünə cəmi qırx beş gün qalıb?

—Aydın məsələdir ki, bu yaramaz onu deyir.

Tələsik cib dəftərçələrini çıxarıb bu mühüm məsələni qeyd elədilər.

Onların anaları isə lap uzunquyruq bir sağsağan idi. O, öz balalarına baxıb fəxrlə deyirdi:

—Dünyada mənim balalarım kimi mehriban quş tapılmaz.

OKEAN SƏYAHƏTİ

ax, bu doğrudan da möcüzə idi. Vüqar heç özü də bilmədi ki, bu, necə olan işdi. Əvvəl qalın kartondan bir gəmi düzəltdi. Sonra çöpdən ona dor ağacı qoydu. Xülasə gəmi hazır olan kimi küçədə yağış gölünün qırağına gəldi. Qurbağalar ləzzətlə çimişirdilər. O, əyilib ehtiyatla gəmisini suya buraxdı. Gəmiyə bağladığı balaca ipin ucundan tutub dartdı ki, gəmi üzsün. Elə möcüzə də bu zaman baş verdi. Birdən bu balaca gölməçə çevrilib nəhəng okean oldu. Vüqar əvvəl onun okean olduğunu başa düşmədi. Axı hardan biləydi?! Dənizin də okean kimi sahili görünmür axı! Hə, elə ki, okean yarandı, Vüqar bir də baxıb gördü ki, oyuncağı çevrilib nəhəng bir gəmi olub. Vüqar da bu gəminin kapitanıdır. Öz-özünə fikirləşdi: "Çoxdandı belə bir şey arzulayırdım. Lap əla oldu. İndi sürərəm gəmimi ürəyim istəyən yerə".

Gəmi gurultu ilə yola düşdü. Onun burnunda —suyun yarıldığı yerdə xoş bir şırıltı var idi. Ləpələrin mirvari dənələri göyərtəyə kimi qalxırdı.

—Yaxşı, görəsən hara gedirik belə — deyə o özü-özündən soruşdu. Birdən yadına düşdü ki, evdən çıxanda xəritə də götürüb, kompas da. Tez cəhəti müəyyənləşdirdi. Meridianları ölçdü və yalnız indi başa düşdü ki, Atlantik okeanındadır.

—Bu lap əla oldu, ura!

Doğrudan da bundan yaxşı nə ola bilərdi. Nəhəng bir gəminin kapitanı olasan, özünün də ixtiyarında okean. Elə bu zaman Vüqar baxdı ki, bir neçə suiti gəmiyə hücum edib.

—Sən bir bunlara bax, axmaqlar. Bikarçılıqdan heç bilmirlər neyləyirlər. Mən sizə göstərərəm.

O, gəmidən bir-iki taxta parçası götürüb suitilərə tulladı. Taxta parçaları dəyən kimi suitilər bir qaçdılar ki, Vüqar gülməkdən özünü saxlaya bilməyib kayutaya yıxıldı.

Bayaqkı sakit hava birdən-birə dəyişdi. Dalğalar nəhəng balinalar kimi bellərini okeandan qaldırmağa başladılar. Onların ağ başı gəminin göyərtəsinə kimi qalxdı.

İşlər lap xarablaşdı — deyə Vüqar köksünü ötürdü.

Yeddi bal olar.

Gəmi isə əvvəlki sürətlə irəliləyirdi. Hərdən elə ləngər vururdu ki, kapitanın ürəyi düşürdü. Beləcə xeyli getdilər.

Birdən nəhəng dalğaların içindən bir balıqçı qayığı göründü. Qayıqdakılar qışqırdılar:

—Kömək eləyin, kömək eləyin!

—Bu məsələ də burdan çıxdı. — deyə fikirləşmək istədi. Amma fikirləşməyə vaxt hardaydı. Xilasediciləri bir anda suya tulladı. Özü isə kəndirlə aşağı — düz qayıqçıların yanına sallandı. Balıqçıları xilas etmək bir saat vaxt apardı. Zarafat deyil, düz on iki nəfər idilər. Ölümdən xilas olmuş adamların sifətindəki ifadələri görsəydiniz. Bu ifadələr cəsur dənizçinin əziyyətini o saat yadından çıxardı.

Dalğalar getdikcə şiddətləndiyinə görə Vüqar gəmini geri qaytardı. Düz əvvəlki yerində saxladı.

O, həyətə girəndə anası paltar yuyurdu. Oğlunun üst-başına baxdı. Şalvar gölməçənin palçığına batmışdı. Üst-başı tamam su idi. Anası Vüqara yağlı bir şillə ilişdirdi.

Eh, böyüklər, böyüklər! Siz heç də həmişə uşaqları başa düşmürsünüz.

KÖRPƏ NƏĞMƏNIN NAĞILI

Əli Kərimə

iri vardı, biri yoxdu, bir nəğmə vardı. Bu nəğmə xoşbəxtlik haqqında idi. O, gündüz dildən-dilə düşdü, hər tərəfi dolandı. Axşamüstü yorulub yatmaq istədi. Bəs harada yatsın? Görəsən nəğmələr harada yatır? Körpə nəğmə bu suallara cavab tapa bilmədi. Axı, nə biləydi ki, nəğmələr harada gecələyir? Birdən göydə uçan yaşlı bir nəğmə gördü. Tez ondan soruşdu:

—Nəğmələr harada gecələyir?

—Yaxşı adamların ürəyində! — Yaşlı nəğmə bu sözləri deyib uçdu.

Körpə nəğmə uça-uça bir pəncərədən içəriyə girdi. Çarpayıda bir kişi xoruldayırdı. Daz başı qaranlıqda işıq saçırdı. Tüklü sinəsi körük kimi qalxıb-enirdi. Nəğmə yavaşca onun qulağına girdi. Sonra ürəyinə keçmək istəyirdi ki, səs eşitdi. Diqqətlə qulaq asıb gördü səs ürəyin içindən gəlir:

—Sabah tezdən yuxudan duran kimi Parisi bütövlükdə oğurla. Bir daşı da qalmasın. Axı, niyə də qalsın? Qoy bu qədim şəhər tamam sənin olsun. Onun qədim naxışlı daşları, qalaları hamısı sənin olsun!

Kimsə danışanın səsini kəsdi:

—Yox, Parisi yox. Orada nə var ki, ancaq qüllələr və qalalar! Sən Fransanı oğurla, üstəlik adamlarını da. Qoy sənin olsun!

Üçüncü bir səs daha güclü idi:

—Səsinizi kəsin! Boş-boş danışmayın. Bu adam bir-iki mağaza oğurlasa kifayətdir. Nəyinə gərəkdi Paris, ya da lap Fransa?!

Mübahisə qızışırdı. Körpə nəğmə uçub pəncərədən çıxdı. Bu oğrunun yanında qalmaq olmazdı. Onun ürəyində çox adam var idi, nəğməyə yer yox idi.

O, başqa bir pəncərədən içəri girdi. 40-45 yaşlarında sifəti çopurlaşmış bir qadın yatırdı. Gözləri yarı yuxulu idi. Üzündəki qırışlar dəftər cızığına oxşayırdı. Körpə nəğmə qadının qulağına girdi. Ürəyinin qarşısında dayanıb qulaq asdı.

—Səhər yuxudan duran kimi bağçada bir quyu qaz, qoy adamlar ora yıxılıb ölsünlər.

—Onların ölməyinin sənə nə xeyri var?

—Xeyri olmasa da, zərəri də yoxdur. Ölsələr yaxşıdır.

—Yaman paxılsan ha... Körpə nəğmə bu paxıl adamın ürəyindəki qara-qura fıkirlərdən qorxdu, bir göz qırpımında pəncərədən çıxdı. O xeyli uçdu, dağların başından, dərələrin üstündən keçdi, gəlib hündür bir evin pəncərəsindən içəri girdi. Bu otaq bəzənmişdi. Divarlarda, yerdə nə qədər desən xalça vardı.

Büllur çilçıraq, qızıl qablar par-par parıldayırdı. Çarpayıda qoca bir kişi yatmışdı. Arıq uzun sifəti, qabağa əyilmiş çənəsi vardı. Nəğmə onun qulağına girib ürəyinə çatanda səs eşitdi:

—Ah, bütün dünya mənim olaydı. Lap böyük-böyük şəhərlər, raketlər, hamısı.

—Gözlərin doyardı onda?

—Əgər Günəşi və Ayı da mənə versəydilər, əlbəttə, gözlərim doyardı.

—Acgöz!

Nəğmə bu evdən də çıxmaq istəyirdi ki, kiçik bir çarpayıda yatan bir uşaq gördü. Uşaq mışıl-mışıl yatırdı. Nəğmə onun qulağına girib ürəyinə çatanda bu sözləri eşitdi:

—Qoy həmişə bahar olsun. Günəş olsun, xoşbəxtlik olsun.

Nəğmə uşağın ürəyinə girib gözlərini yumdu və şirin yuxuya getdi.

Siz də yatın, əziz balalar, gecəniz xeyrə qalsın.

QAPILAR

apılar qonşu idi. İkisi də köhnəlmişdi. İçəri evin qapısı şüşəliydi və bununla həmişə fəxr edirdi. Görünür sahibim məni daha çox istəyir deyə şirin xəyallara dalardı. Bir dəfə bu qapı cırıldamağa başladı. Qonşusu dedi:

—Nə yaman cırıldayırsan, yoxsa xəstələnmisən?

Şüşəli qapı demək olar ki, qonşusunun sözünə heç əhəmiyyət vermədi. Sadəcə olaraq dodaqlarının altında nəsə pıçıldayıb yenidən cırıldadı.

Şüşəsiz qapı başını buladı:

—Zəmanə xarab olub, heç kimə söz demək olmur. Şüşəli qapı onun deyingənliyinə dözmədi:

— Bəs belə gözəl havada mən sakit dayana bilərəm? Quşlar, böcəklər oxuyur, amma mən müqəvva kimi sənin üzünə baxmalıyam?

Şüşəsiz qapı yalnız indi başa düşdü ki, qonşusunun oxuduğu mahnı imiş.

—Ancaq nahaq yerə əsəbiləşirsən. Axı mən də dünyagörmüş qapıyam. Özüm də daim həyətə baxıram. Sən isə evdəsən, dünyanın necə dünya olduğunu bilmirsən.

—Dünya lap yaşamalı dünyadı, — şüşəli qapı onu yenə acıladı. Beləliklə qonşular küsüşdülər. Bir neçə gündən sonra onlar barışdılar və bir-birini tərifləməyə başladılar. Bir—birini tərifladilər, tərifladilər və axırda belə qərara gəldilər ki, hər ikisi olduqca ağıllıdır.

— Mən dünyagörmüş olsam da, sən daha ağıllısan, — deyə Şüşəsiz qapı şüşəlini tərifiəyirdi.

—Sən dünyagörmüş qapısan, məndən çox bilirsən, — deyə Şüşəli də borclu qalmırdı.

Şüşəsiz qapı dedi:

—Mən az qalıram deyəm ki, biz ağıl dünyasına açılan qapılarıq. Adamlar bizi açır və ağıllı bir dünyaya daxil olurlar.

Şüşəsiz qapının bu kəşfindən sonra onların tərif demək həvəsi bir az da artdı.

Sabahısı gün ev sahibi qapıları rəngləyib ağartdı.

—Görünür, biz ağıllı olduğumuz üçün bu qədər ağıq — deyə şüşəsiz qapı da həmin gündən cırıldamağa başladı. Axı belə bir vaxtda da mahnı oxumayıb daha nə zaman oxuyacaqdılar ki?!

Ev sahibi isə qapıların oxumağından təngə gəlib onların ikisini də dəyişmək qərarına gəldi.

Deyilənə görə indi qapılar bu evin zirzəmisində bir-birinə söykənib, şirin xəyallara dalırlar.

— Səncə bizi nəyə görə yerimizdən çıxardılar? — Şüşəsiz qapı soruşdu.

—Mənə elə gəlir ki, yaxşı oxuduğumuz üçün bizi daha böyük qulluqlar gözləyir. Hətta az qalıram deyəm ki, bəlkə bizi böyük bir elm ocağının qapısına asdılar.

Şüşəsiz qapı bu sözlərdən o qədər ləzzət aldı ki, gözlərini yumub yenidən xəyala daldı.

Qış düşən kimi ev sahibi qapıları doğrayıb ocaqda yandırdı. Şüşəsiz qapı ocaqda dili yana-yana dedi:

—Gör biz necə ağıllıyıq ki, ocağı alışdıra bildik.

—Mənə elə gəlir ki, bizim alovumuzun rəngi də xüsusidir, — deyə şüşəli qapının qırıqları onun sözünü təsdiq etdi.

Ocaq doğrudan da yaxşı yanırdı. Qapılar gələcək haqqında şirin xəyallara dala-dala yanıb kül oldular.

AĞILLI FİKİRLƏ AXMAQ FİKİR

ğıllı fikir göylə uçurdu. Onun kefi kök idi. Çunki indicə üç şagirdin başına girdiyi üçün onlar dərslərini vaxtında qurtarıb istirahət edirdilər. Birdən qabağına axmaq fikir çıxdı.

—Ehey, Ağıllı fikir, hara belə?

—Gedirəm bax o kəndlinin başına girəm bəlkə əkini tez qurtarsın. Bir azdan istilər düşəcək sonra gec olacaq.

Axmaq fikrin üz-gözündən zəhər tökülürdü. Çünki kimin başına girmək istəyirdisə mümkün olmurdu. Həmin adam birtəhər başını işlədir və onu qovurdu. Bir dəfə Axmaq fikir bir Eşşəkarısını yoldan çıxardı. Sonra bir uşağı aldada bildi. İş belə oldu ki, Axmaq fikir uşağa anlatdı ki, çöldə ayaqyalın da gəzmək olar.

Uşaq da o saat inandı və ayaqyalın çölə çıxan kimi xəstələndi. Onda bir görəydiniz Axmaq fikir necə qəhqəhə çəkib gülürdü.

Amma gör nə vaxtdı ki, heç kəs onun sözlərinə inanmaq belə istəmirdi. İndi Ağıllı fikrin göstərdiyi kəndliyə baxan kimi Axmaq fikrin gözlərində qığılcım oynadı:

—Ay can, ay can, bu saat həmin kəndlini yoldan çıxaracam! Qoy hələ yatsın. Bir də ayılıb görəcək ki, yay gəlib, amma o əkini hələ qurtarmayıb. Onda bu dünyada yaşamağına dəyər!

Axmaq fikir çox olduğuna görə adamlar ona qulaq asmaq istəmirdilər. Amma adamların da axmağı olur, axı. Onlar belə axmaqların sözünü o saat eşidirlər. Axmaq fikir

özünü kəndliyə yetirəndə qoca artıq sahəyə çıxmışdı. Səhər günəşi onun kürəyini yandırmağa başlamışdı.

—Heç belə bir havada işləyərlər? — deyə Axmaq fikir onun beynində öz yerini tutdu. — Bu havanınkı odur ki, oturasan evdə, yeyib-içib yatasan.

Yazıq kəndli bu axmağın sözünə o saat inandı. Evə qayıdıb dedi:

—Arvad bir yaxşı göyərti qutabı bişir yeyək. İş qaçmır ki, sonra da görərik. Arvad çaşqın-çaşqın ərinin üzünə baxdı. Əvvəl elə bildi kişi xəstələnib. Axı onun ağlına da gəlməzdi ki, bu avara Axmaq fikir gəlib kişini aldadıb. Arvad tez göyərti təmizləyib işə başladı.

İndi sənə deyim Ağıllı fikirdən. Ağıllı fikir bir də baxıb gördü ki, Axmaq fikrin izi-tozu da qalmayıb. Bir də gördü ki, kəndli evində bardaş qurub oturub və arvadının qutab bişirməyini gözləyir. Ağıllı fikir o saat başa düşdü ki, Axmaq fikir onu qabaqlayıb, kişini yoldan çıxarıb.

Ağıllı fikir özünü kəndliyə yetirəndə kişinin gözləri yumulurdu. Ağıllı fikir gördü ki, Axmaq fikir onun qulağına deyir:

—Yat bir az dincini al! Hara tələsirsən? Ağıllı fikir necə nərə çəkdisə Axmaq fikrin qulağı tutuldu. Amma buna da axmaq fikir deyərəm. Axmaq olduğuna görə daha güclü idi. O, Ağıllı fikri necə itələdisə yazıq ağıllı fikir gedib qapıdan çıxdı. Bu zaman kəndlinin artıq gözləri yumulmuşdu. Onu şirin yaz yuxusu aparmışdı.

Ağıllı fikir əlacsız qalıb, kəndlinin arvadının beyninə girdi. Qadın o saat ağıllandı və işə başladı. O, tarlaya çıxıb, ərinin işlərini gördü. Sonra geri qayıdıb baxdı ki, kişi hələ də yatır. Tez göyərti qutabını da bişirib ərini durğuzdu. Bu zaman Axmaq fikir bir adamı yoldan çıxarırdı. Bundan istifadə edən Ağıllı fikir kəndlinin beyninə girdi və onu dik ayağa durğuzdu.

—Lənət şeytana, — kişi dilləndi. Bu Axmaq fikir hardan mənim beynimə girdi. Bu saat şum vaxtıdı, mənsə hələ

yatıram. Kişi tarlaya çıxanda arvadının gördüyü işlərdən çox utandı. O, tez işə başladı. Axmaq fikir nə qədər çalışdısa daha onun beyninə yol tapa bilmədi. Kəndli bütün işlərini görəndən sonra evə gəlib dedi:

—İndi gətir qutabımızı yeyək. Onlar qutabı yeyəndə özlərini necə də xoşbəxt hiss edirdilər. Axı kişi çox ağıllı iş görmüşdü.

BUDAQDAN DÜZƏLDİLMİŞ PİŞİK

iri var idi, biri yox idi, budaqdan düzəldilmiş bir pişik var idi. Uşaqlar onu əyri-üyrü budaqdan kəsmişdilər ki, uzaqdan baxan pişiyə oxşatsın. Bığları uzun və şeşə idi. Quyruğu isə xalis quyruq idi ki, durmuşdu. Əgər əlinlə toxunmasaydın onun ağzının və dişlərinin də ağacdan olduğuna inanmazdın.

Bu qəşəng və yaraşıqlı pişiyi rəngləyib stolun yuxarı başına qoymuşdular. Pişik gecə-gündüz cürbəcür qabların arasında başıaşağı durub fikirləşirdi. Fikirləşirdi ki, görəsən o, niyə ağacdan olsun. Yox, bu işi belə qoymaq olmazdı. Uşaqlar məni cansız hesab edib üst-başımı rəngləyiblər. Axı niyə bütün pişiklərin və siçanların öz rəngi olsun, təkcə mən beləcə qalım. Pişik fıkirləşirdi ki, heç olmazsa bircə dəfə siçanları qova bilsə qətiyyən dərdi olmazdı. Eh, amma bu yaramazlar gecədən xeyli keçəndən sonra evi ələk-vələk edirlər. Heç məni veclərinə də almırlar. Bir dəfə avara bir siçan nazik dişlərini bədənimə sancdı. Amma mən də ona borclu qalmadım. Siçan məni dişləyəndə bədənimdəki tilişkəni onun damağına batırdım.

Onda görəydiniz bu yaramaz necə ciyildəyir. Axırı ki, onlara pişik olduğumu başa saldım.

Pişik yaraşıqlı stolun üstündə zərli boşqabların və büllur qabların arasında oturub beləcə dərin fıkrə getmişdi. Amma dərdini kimə söyləyəcəkdi, bax orasını bilmirdi. Gecədən xeyli keçmiş siçanlar gəlib çıxdı. Onlar düz pişiyin yanına qalxdılar. Pişik gözlərini nə qədər ağartdısa siçanlar ondan qətiyyən qorxmadılar. Quyruğunun ucu ağ siçan dedi:

—Nə gözlərini ağardırsan? Səndən qorxub eləyən—zad yoxdu!

Daha buna dözmək olmazdı. Pişik bilmədi ki, neyləsin. Hirsindən ayaqlarını stolun üstünə basıb gözlərini ağartmaqdan başqa çarəsi qalmadı. Siçanlar isə ona yanıq verirlərmiş kimi bir-birinin quyruğundan tutub oynamağa başladılar. Pişik daha fürsəti əldən vermədi. İki qabaq ayağını büllur külqabına, arxa ayaqlarını isə qırağı qızıl haşiyəli boşqaba keçirib gözlərini siçanlardan çəkmədi. Onun yanından keçəndə hökmən quyruqları ilə pişiyə toxunur, onu qəzəbləndirirdilər. Bir dəfə quyruğunun ucu ağ siçan yanından keçəndə pişik onun quyruğunu boynuna dolayıb dartdı. Siçan pişiyin necə güclü olduğunu görüb bərkdən ciyildədi. Bir azdan bütün siçanlar dostlarına köməyə gəldilər. Onlar necə dartdılarsa pişik də, ayağını dirədiyi külqabı da gumbultu ilə aşağı düşdü. Boşqablar çilikləndi. Büllur külqabı iki parça oldu. Amma sizə deyim ki, pişik ayağı üstə dayandı. Doğrudur, o yerə düşəndə bir neçə dəfə kəlləmayallaq aşdı, əsl cəngavərlər kimi ayaq üstə dayana bildi.

Siçanlar bilmirəm qabların səsindənmi, yoxsa pişiyin belə güclü olmasındanmı bir vahiməyə düşdülər ki, gəl görəsən. Qaçıb dağıldılar və səhərə kimi gözə görünmədilər. Pişik isə bütün gücünü toplayıb ayaq üstə dayanmışdı. Doğrudur, əvvəl o xeyli qorxdu və qorxudan bığının bir-iki tükü də düşdü. Amma axırda siçanların qaçıb dağıldığını, özünün isə belə salamat qalmağını görüb çox sevindi. O indi ayaq üstə durub fikirləşirdi:

—Bax belə! Axırı ki, biz də öz gücümüzü göstərə bildik. Mən bilən bu igidliyimə görə uşaqlar məni heyvanxanaya verərlər. Ola bilsin ki, həddindən artıq güclü olduğum üçün məni lap pələnglər yatan qəfəsə salacaqlar. Amma nahaq yerə. Mən qəfəssiz də heç kəsə toxunan deyiləm. Amma orasını da deyim ki, qəfəs mənim çox xoşuma gəlir.

Dövrəmdə qorxa-qorxa hərlənir, hərdən də əllərinə düşəndən sənə verirlər. Sən də bığlarını sallayıb onlara hirsli-hirsli baxır, arabir də nərə çəkirsən. Pis həyat deyil. Amma xahiş edəcəyəm ki, məni hərdənbir gəzməyə buraxsınlar. Bir az meşədə gəzib sonra qayıdaram. Səhər yuxudan duran kimi uşaqların anası yerə səpələnmiş qab qırıqlarını görüb hirsləndi.

—Harda bir çör-çöp görürsünüz gətirib yığırsınız stolun üstünə. Heyf bu qablardan.

Sonra hələ də ayaq üstə dayanaraq heyvanxanaya aparılmağmı gözləyən pişiyi görüb yerdən götürdü və aparıb zibil yeşiyinə atdı.

Ağacdan düzəldilmiş pişiyə yazığım gəlirdi. Heç belə də ədalətsizlik olar?

QAÇAĞAN DOVŞAN

ir dəfə dovşan çox fikirləşdi, az fikirləşdi, axırda belə qərara gəldi ki, gedib Kirpi ilə dostluq etsin. "O öz tikanları ilə məni qoruyar, mən də cəld qaçıb yaxınlıqda nələr baş verdiyini ona söyləyərəm. Bax buna deyərəm, dostluq!" Dovşan bu fikirdən necə sevindisə fişəng kimi yerindən götürüldü. Sağsağan Dovşanın belə qaçmağından şübhələnib soruşdu:

—Sənə nə olub?

—Nə olacaq? Özümə yaxşı bir dost tapmışam. O məni tikanları ilə düşməndən qoruyacaq, mən də ətrafdakı əhvalatları gəlib ona xəbər verəcəyəm. Bundan sonra yaşamağına dəyər!

—Bura bax, — deyə sağsağan onu yoldan saxlamaq istədi.

Amma Dovşan özünü saxlaya bilməyib uzaqlaşdı. Sağsağan səbrlə onun qayıtmasını gözlədi. Bir azdan gördü ki, budu Dovşan qulaqları yellənə-yellənə gəlir.

— Bura bax, — deyə sağsağan onu səslədi.

—Məni də dostluğa qəbul edin. Mən də göydə baş verən əhvalatları gəlib sizə xəbər verərəm.

Dovşanın qulaqları o saat şeşələndi. Ağıllı söz eşidəndə həmişə uzun qulaqlarını şəkləyirdi.

—Bu lap gözəl təklifdir, — Dovşan necə sevindisə daha bərk qaçdı və özünü saxlaya bilməyib Kürə düşdü. Birtəhər çabalayıb sahilə çıxmaq istəyirdi ki, boz balıq onun həyəcanlı olduğunu görüb soruşdu:

—Nə olub? Bədəni islansa da Dovşanın kefi əvvəlki kimi kök idi.

—Nə olacaq, özümə əla dostlar tapmışam. Kirpi tükləri ilə məni düşməndən qoruyacaq, mən qaçıb ətrafda baş verənləri ona deyəcəyəm, sağsağan göydəki işlərdən bizi xəbərdar edəcək. Səncə bundan sonra yaşamağına dəyər, ya yox!

Boz balıq uzun burnunu bir az da qabağa uzadıb suyu havaya fınxırdı:

—Tamamilə yaxşı fikirdir. Gəlsənə məni də özünüzə dost edəsiniz. Mən də suyun altında nələr baş verdiyini sizə xəbər verərəm.

— Bu lap qiyamət oldu, — deyib, Dovşan daha bərk qaçmağa başladı. Amma o nə qədər bərk qaçırdısa qulağının dibindən bir səs heç uzaqlaşmırdı ki, uzaqlaşmırdı.

—Sən kimsən? — deyə Dovşan dayanıb həyəcanla soruşdu.

—Dzzzz! Məgər məni tanımırsan. Dünyanın ən balaca ağcaqanadıyam.

Dovşan bir qədər sakitləşib soruşdu:

—Nə istəyirsən?

—İstəyirəm ki, məni də dostluğa qəbul edəsiniz. Sizə dünyanın ən gözəl mahnılarını oxuyaram.

—Sən məgər oxuya da bilirsən?

—Əlbəttə, bir bax! Dzzzzzzzzzzzz!

— Yaxşı, tutaq ki, səni də dostluğa qəbul etdik. Axı sənin bu səsini heç qarışqalar da eşitmir.

—Gözəl mahnıları mən oxuya bilirəm, — deyə yaxınlıqdakı gölməçədən yaşıl bir qurbağa qışqırdı. — Ağcaqanadın səsindən isə hamının zəhləsi gedir.

—Necə, mənim səsimdən hamının zəhləsi gedir? — ağcaqanad balaca iynəsini çıxarıb qurbağaya tərəf uçdu. Dovşan bundan istifadə edib qaçmağa başladı. O axırı ki, gəlib Kirpinin yanına çatdı.

—Kirpi, ay Kirpi mənlə dost olarsan? Sən məni tikanlarınla düşməndən qoruyarsan, mən də qaçıb ətrafda nələr baş verdiyini sənə deyərəm. Sağsağan göydə, boz balıq da sularda baş verənləri bizə danışar.

—Əlbəttə dostluq yaxşı şeydir, — kirpi dilləndi. Bu sözdən Dovşan necə sevindisə nəfəsi kəsilənə qədər qaçdı. Amma bu dəfə o qədər bərk qaçırdı ki, nə sağsağanın, nə də boz balığın çağırdığını eşidə bilmədi. Onlar soruşmaq istəyirdilər ki, nə oldu, dostluqları baş tutur, ya yox?! Dovşan onlara cavab vermək halında deyildi. Elə sürətlə qaçırdı ki, qulaqlarının dibində vıyıldayan küləkdən başqa heç nə eşitmirdi. Hətta ağcaqanad da bu dəfə nə qədər qanad çaldısa ona çata bilmədi. Qurbağa isə lap havayıca quruldayıb boğazını yırtdı. Dovşan sevindiyindən onlara cavab vermədi. O beləcə axşama kimi qaçdı. Axşam dostunun yanına gələndə kirpi daha ondan küsmüşdü. Kirpi bircə onu dedi ki, qardaş, səndə ki, bu qaçmaq var, bizim dostluğumuz baş tutmaz.

BUYNUZU GİCİŞƏN ÇƏPİŞ

aşqa çəpişin bir cüt qələm kimi qalxan buynuzlarının dibi bərk gicişirdi. O yan bu yana vurnuxurdu ki, buynuzlarını sürtməyə bir yer tapsın. Başladı yol ilə getməyə. Getdi, getdi bir quzuya rast gəldi. Quzunun da balaca, qəşəng buynuzları vardı.

—Sənin də buynuzunun dibi gicişir? — deyə çəpiş soruşdu.

—Elə gicişir! Heç bilmirəm hara sürtüm ki, canım dincəlsin, —deyə quzu dilləndi.

—Gəl mənimlə gedək. Onlar getdilər, getdilər axırda bir danaya rast gəldilər.

Gördülər ki, dananın da lap balaca buynuzları var.

—Hara belə? — deyə dana onlardan soruşdu.

—Heç, əşi, bir az buynuzlarımız gicişir, gedirik görək onu hara sürtsək yaxşıdı.

—Qardaş, mənim də dərdim sizinkindəndir. Qoy mən də sizinlə gedim.

Onlar bir-birinə qoşulub getdilər.

Meşədən keçəndə canavar, tülkü və çaqqal onları gördü. Heyvanların dalınca düşdülər ki, bir xəlvət yerdə üçünü də yesinlər.

Beləliklə, çəpiş qabaqda, quzu onun arxasında, dana isə lap axırda getməyə başladılar. Canavar, tülkü və çaqqal kolların arasında gizlənə-gizlənə gəlirdilər.

—Dana mənimdir! — deyə canavar onları xəbərdar etdi.

—Quzunu da mən yeyərəm! — deyə tülkü ağzının suyunu yaladı.

—Çəpiş də mənim! — deyə çaqqal yavaşca uladı. Çəpiş bu söhbətləri eşitdiyindən, yoldaşlarını da xəbərdar edib ucadan dedi:

—Eh, bu buynuzlarını da gicişməyə vaxt tapdı da! İndi mən bir canavarı hardan tapım ki, qarnını vurub deşim. Bəlkə buynuzlarımın gicişməsi kəssin. Amma dostlar, siz heç narahat olmayın. Hər halda bu meşədə əlimizə çaqqaldan, tülküdən biri keçəcək. Harda əlinizə keçdi buynuzunuzu keçirdin qarnına, o saat gicişməsi kəsəcək. Amma üçü də birdən əlimizə düşsə gör nə olar ey!

Canavar, tülkü və çaqqal çəpişin bu sözlərini eşidib qorxuya düşdülər. Əvvəl qaçmaq istədilər. Sonra fikirləşdilər ki, bir az da getsinlər görsünlər bu işin axırı nə olur.

Çaqqal lap axırda ayaqlarını sürüyə-sürüyə gəlirdi. Tülkü hər ehtimala qarşı qalın kolların arxasında gizlənə-gizlənə irəliləyirdi. Canavar öz-özünə fikirləşirdi.

Gör dünya necə dəyişib ey! Çəpiş canavar axtarır ki qarnını deşsin. Əgər o qarnımı deşə bilsə qoy bu iti dişlərim mənə haram olsun.

Canavar öz sözündən cəsarətlənib lap qabaqda gedirdi. Çəpiş, quzu və dana açıq bir talada pələngə rast gəldilər. Pələng arxası üstə uzanmışdı. Deyəsən özünü günə verirdi.

Buynuzlarını bu pələngin qarnına sürtmək istəyirəm, — deyə çəpiş dilləndi.

—Canım, dəli olmusan, nədi?! Buynuzunu sürtməyə yer tapmadın? Durub üçümüzü də parçalayar, — deyə quzu tir-tir əsdi.

Amma çəpiş quzunun sözlərinə heç qulaq da asmadı. Cəsarətlə irəli tullandı və buynuzlarını pələngin qarnına vurmağa başladı.

Dana ilə quzu qorxudan yerlərində donmuşdular. Canavar, tülkü və çaqqal kolların arasından baxırdılar.

Çəpiş pələngi əzişdirib yoldaşlarının yanına qayıtdı və ucadan dedi:

—Əşi, bu pələngin bircə buynuzluq canı varmış ki!

Sonra canavargilin gizləndiyi kola tərəf yüyürüb dedi:

—Dostlar, tez gəlin, deyəsən burda kimsə gizlənib. Pələngin başına gələnləri gözləri ilə görən canavar, tülkü və çaqqal dayana bilərdimi?! Bir göz qırpımında qaçıb meşənin dərinliyində gözdən itdilər.

—Gəlin tez qaçaq ki, bizi görən olmasın, — deyə çəpiş dilləndi.

Onlar qaçıb getdilər. Quzu ilə dana bilmədi ki, indicə çəpişin yerə sərdiyi pələngi ovçular dünəndən öldürmüş-dülər...

QIŞ NAĞILI

Bu əhvalat qışda olmuşdu. Gün batmış, ay doğmuşdu. Hər tərəfə sərilmiş qar ayın şüası altında yazılmamış vərəq kimi ağarırdı. Kollar qar altından başını qaldırmaq istəyən ayılara oxşayırdı.

Meşənin lap dərinliyində qoca bir tülkü yaşayırdı. Neçə gün idi ki, dişinə heç nə keçmirdi.

—Hmmm. — deyə tülkü tünd şabalıdı tüklərini pırpızladı.

—Kəndə getsəm yaxşıdır. Bəlkə toyuqdan-cücədən bir şey tapdım.

O, quyruğunu şeşlədi. Bir cüt yetişmiş zoğal dənələrinə oxşayan gözlərini oynatdı. Yəni, "qərar qətidir".

Tülkü kəndə çatanda hamı şirin yuxuda idi. Evlər sahildə lövbər salmış nəhəng gəmilərə oxşayırdı.

Qoca tülkü kəndin aşağı başındakı evin qaratikanla hörülmüş hasarına yaxınlaşdı. Su yolundan sürüşüb həyətə keçdi. Tüklərinin qaratikan kollarına ilişib didilməsinə o qədər də fikir vermədi.

Boz köpək zirzəmidə yatmışdı. Onun qulağına şıqqıltı dəydi. Yekə, qara ağzını göyə qaldırıb bir-iki ağız tənbəl-tənbəl hürdü:

—Huv, huv, huv... Səsinə səs verilmədiyini görüb sakitləşdi. Qırmızımtıl burnunu tüklü qoltuğuna soxub büzüşdü və gözlərini yumdu. Tülkü həyəti nəzərdən keçirdi, hinin qapısının dalına yekə bir paya söykəndiyini gördü. O, payanı yuxarı tərəfdən qaldırıb ehmalca yerə qoydu. Qapı açılan kimi

sıçrayıb qırmızıpipik xoruzun boğazından yapışdı və sürətlə geri qayıdıb hasarın üstündən tullandı.

Toyuqların qaqqıltısı bir-birinə qarışdı. Boz köpək tez hinin yanına cumdu.

—Hav, hav, hav! Qonşu itlər ona səs verdilər.

—Hav, hav, hav!

—Huv, huv!

Ham, ham, ham! İtlər küçəyə çıxdılar. Qarın üstü ilə uzaqlaşmaqda olan tülkünü gördülər.

—Hav, hav, gedək tülkünü tutaq!

—Huv, huv, gedək.

—Ham, ham, izi itirməyin, bu izlə lap meşəyə gedək, yuvasından çıxaraq.

—Ham, ham, doğrudur, doğrudur. İtlər tülkünün dalınca düşdülər. Tülkü quyruğunu kürəyinə qısmışdı ki, ayaqlarına dolaşmasın. Xoruzun boğazından yapışıb qaçır, hərdənbir çevrilib arxaya baxırdı. Qarın üstündə tülkünün ayaqlarından "Ş" hərfinə oxşayan izlər qalırdı. İtlər həmin izləri iyləyə-iyləyə onun ardınca düşmüşdülər.

Tülkü arxasınca gələn itləri görüb özünü itirdi: "Evim yıxıldı. Onlar məni tapacaq, özümü də, balalarımı da öldürəcəklər". O, lap qabaqda gələn boz köpəyin vahiməli səsindən daha da qorxuya düşdü. Xoruzu buraxdı ki, bəlkə itlər geri qayıdalar. Xoruz rəngbərəng qanadlarını şaqqıldatdı, qanadlarını ayaqlarına qədər uzadıb qaqqıldadı və taqətsiz halda qarın üstünə sərildi. Lakin itlər tülküdən əl çəkmək fikrində deyildilər,

—Necə edim ki, onları azdırım. İzimi itirsinlər. Bəlkə quyruğumla izimi süpürüm? Eh, bu uzun çəkər, onlar məni boğazlayarlar.

Sonra belə oldu: tülkü meşəyə çatar-çatmaz qara bir ayıya rast gəldi. İtlər bir az uzaqda idi. Amma iz ilə gəlib tapa bilərdilər. Tülkü nə fikirləşdisə gözləri sevincdən parıldadı. Ayıya yaxınlaşdı.

—Salam, ayı qağa.

—Hm, salam!

—Yaxşı pətək yeri bilirəm. Amma demərəm dedi:

Ayı pətək adı eşidən kimi dili ilə dodaqlarını yaladı və hə, tez ol de. Çoxdandı bal yemirəm. Tez ol.

Onun qara gavalıya oxşayan gözləri tülkünün pırpızlanmış tüklərinə və hiyləgər sifətinə dikildi

—Yaxşı deyərəm. Amma uşaqlığım yadıma düşüb, məni bir az dalında apar, bərk yorulmuşam.

Ayı donquldandı. Tülkünü dalına alıb meşənin içində gözdən itdi.

Tülkünün ayıya pətəklərin yerini deyib-demədiyini bilmirəm. Ancaq onu bilirəm ki, o, ayının dalına mindiyi üçün itlər tülkünün izini itirdilər və hürə-hürə kəndə qayıtdılar.

QOYUNUN BAŞINA GƏLƏNLƏR

u əhvalatın doğruluğuna mən özüm də inanmadım. Çünki qoyunun başına gələn belə işlər bəzən insanların da başına gəlir.

Düz üç il idi ki, qoyunla alabaş dostluq edirdi. Bir-birindən aralı gəzməzdilər. Qoyun yekə quyruğunu yayxa-ya-yayxaya otlayır, alabaş da arabir quşlara və kəpənəklərə hürərdi ki, qoyunun otlamağına mane olmasınlar. Qoyun o qədər kökəlmişdi ki, yekə ağ yumağa oxşayırdı.

İndi sizə deyim boz tülküdən. O, gecə-gündüz qoyunu güdürdü ki, aldadıb meşəyə aparsın və yesin. Belə qoyunun əti gərək ki, lap dadlı olsun.

Tülkü gecə-gündüz fürsət gözləyirdi. Günlərin bir günü gördü ki, qoyun çəmənlikdə təkdir. Tez özünü ona yetirib, şirin dilini işə saldı:

—Salam, ceyran balası, necəsən?

—Mən ceyran balası deyiləm, qoyunam.

Tülkü hırıldadı:

—Kim deyir ki, sən qoyunsan. Bu əlbəttə alabaşın işidir. Sənin əsl adın ceyrandır. Anadan olan kimi ceyranı alabaş yedi, səni isə götürüb bir qoyuna verdi. Ona görə elə bilirsən ki, qoyunsan. Bu əlbəttə, böhtandır.

Bu zaman alabaş böyürdən çıxdı. Tülkü sözünün dalını deyə bilməyib götürüldü. Alabaş onu qovdu, tuta bilməyib geri qayıtdı. Bir az buludlara və kəpənəklərə hürüb sakitləşdi.

O gündən qoyunun ürəyinə şübhə damdı. Tez-tez su içmək bəhanəsi ilə bulağın başına gəlib suda özünə baxdı görsün qoyundu, yoxsa ceyrandı. "Deyəsən tülkü düz deyir axı.

Mən qoyundan çox ceyrana oxşayıram. Ayaqlarım isə xalis ceyran ayağıdır ki, var". Qoyun gecə-gündüz tülkünün yolunu gözləməyə başladı. Axı onun ceyran olduğunu tülküdən başqa heç kəs bilmir. "Gör mən necə bədbəxt olacaqdım — deyə düşünürdü. — Yəqin ömrümün axırına kimi elə biləcəkdim ki, qoyunam. Elə qoyun kimi də ölüb gedəcəkdim. Halbuki bəlkə də ceyranların ən gözəli elə mən özüməm."

Bir dəfə alabaş yenə də çəmənliyə gecikmişdi. Tülkü vaxtı bir dəqiqə də itirmədi. Qoyun onu görən kimi üstünə atılıb dedi:

—Əziz dost, tezliklə bu çəmənlikdən qaçmalıyıq. Alabaş gəlib yenə də cır səsi ilə zəhləmi tökəcək.

—Onda dalımca gəl, —tülkü onu tələsdirdi.

Onlar qaçıb meşəyə girdilər. Tülkü qoyunu yuvasına gətirdi. Balaları ilə tanış etdi. Fikirləşirdi ki, əgər qoyunu bu saat parçalasa əti iki günə iylənib xarab olacaq. Onu elə yemək lazımdır ki, bir müddət ölməsin. Buna görə də dedi:

—Ay ceyran balası, sən doğrudan da gözəlsən, amma bu quyruqların heç sənə yaraşmır. Uzaqdan baxan olsa səni qoyuna oxşadar.

Qoyun yöndəmsiz quyruğuna nifrətlə baxıb dedi:

—Heç bilmirəm bu quyruq hardan gəlib mənim bədənimə yapışıb.

Tülkü hiyləsinin baş tutduğunu görüb ürəkləndi:

—Eybi yoxdur, buna çarə tapılar. Gəlsənə sənin quyruğunu ehmalca qoparıb ataq. Düzdü, azca ağrıdacaq, amma inanıram ki, buna dözərsən.

—Əlbəttə, dözərəm, təki bu yöndəmsiz quyruqdan canım biryolluq qurtarsın.

Tülkü ustalıqla işə başladı. Quyruğu dibindən sıyırıb balalarının qabağına atdı. Əlbəttə özü quyruğun dadına baxmağı yaddan çıxarmadı. Lap şirin quyruq idi. Tülkü ömründə bu şirinlikdə quyruq yeməmişdi. "Gör bunun

budlarının dadı nə olar?!" deyə fikirləşdi. Səhər yuxudan duran kimi qoyuna ədəblə salam verdi.

—Ay ceyran balası, dünəndən əsl ceyransan ki, durubsan, amma arxa ayağının biri heç xoşuma gəlmir.

Ceyran ayağından çox qoyun ayağına oxşayır. Mən belə ayağı bir dəqiqə də gəzdirməzdim.

Qoyun bədən üzvlərindən hansının qoyununkuna oxşadığı sözünü eşidirdisə həmin hissə o saat gözündən düşürdü. Tülkünün sözünü eşidən kimi dedi:

—Gör o ayağımı kəsə bilərsənmi? Eybi yoxdur üç ayaqlı qalmağa razıyam, amma qoyun olmağı ağlıma gətirəndə az qalıram dəli olam.

Tülkü işə girişdi, nə girişdi. Budu kökündən qoparıb parçaladı. Yəqin başa düşürsən ki, tülkü qoyunu beləcə yeyib kef çəkəcək? Lap doğru başa düşmüsən. Bəs alabaş harda qaldı? Gəlsənə qayıdaq çəmənliyə, görək orda nə var, nə yox!

Alabaş çəmənliyə gələn kimi işin nə yerdə olduğunu başa düşdü, qoyunun ləpirlərini iyləyib meşəyə tərəf qaçmağa başladı Alabaş özünü tülkünün yuvasına o zaman yetirdi ki, artıq qoyun yerə sərələnib can verir. Qoyun alabaşı görən kimi qışqırdı:

—Niyə gəlmisən. Yenə cır səsinlə zəhləmi tökməyəmi?! Birdəfəlik başa düş ki, mən sənin üçün qoyun-zad deyiləm. — Bu qoyunun son sözləri oldu. O qədər qan itirmişdi ki, daha dayana bilməyib öldü. Alabaş dostunun sözlərini qətiyyən başa düşmədi. Kor-peşman doğma çəmənliyə qayıtdı.

DOVŞANIN ADI

Canavar Dovşanı necə qovmuşdusa adı tamam yadından çıxmışdı. O, Canavarı aldadıb oxuya-oxuya yolla gedirdi. Birdən qabağına Kirpi çıxdı.

—Kirpi, ay Kirpi, sən bilmirsən mənim adım nədir? — deyə Dovşan tələsik soruşdu.

Kirpi dayanıb dərin fikrə getdi. Tüklərini qabardıb dedi:

—Sənin adın Yekəqulaqdı. Bəli, bəli, tamamilə əmin ola bilərsən ki, belədir. Bilirsən səni niyə belə çağırırlar? Axı, qulağın hamımızınkından yekədi. Amma bu nəyə desən dəyər. Özün üçün rahatca gəzirsən. Uzaqdan bir səs gəlsə, hamıdan qabaq eşidirsən.

Dovşan Kirpinin sözlərinə qətiyyən inanmadı. Heç belə də ad olar: Yekəqulaq?!

Birdən topaquyruq Dələni gördü, dedi:

—Səncə mənim adım nədir?

Dələ cavab vermək üçün heç fikirləşmədi də. Çünki fıkirləşmək onun adəti deyildi. Buna vaxt hardaydı ki? Tez dedi:

—Çəpgöz! Sənə ona görə Çəpgöz deyirlər ki, zoğal dənələrinə oxşayan qəşəng gözlərin çəpdir. Belə gözlə lap uzaqları da görmək mümkündür.

Dovşan isə onun sözlərini heç eşitmədi də. Çünki bilirdi ki, adı belə deyil. O, qonur bir ayıya rast gəldi.

—Ayı qağa, siz bilərsiniz, mənim adım nədir? Tamam yadımdan çıxıb.

Ayı ağıllı görünmək üçün bir qədər fikirləşib dedi:

—Sənin adın uzağa tullanandı. — Az qaldı ki, özü də öz sözünə inanmasın. Çünki, ömründə bu uzunluqda ad eşitməmişdi. Amma ayı meşənin ən böyük heyvanı idi. Sözün düzünü o da bilməyib daha kim biləcəkdi ki?

Ayı sözünün doğruluğunu təsdiq etmək üçün dedi:

—Bilirsən sənə niyə belə ad qoyublar? Çünki qabaq ayaqların arxa ayaqlarına nisbətən gödəkdi. İstəsən lap uzağa tullana bilərsən.

Dovşan istədi ayıya desin ki, bu uzunluqda ad olmaz, amma demədi. Belə deyəydi, onda gör nə olardı.

Yenə oxuya-oxuya yolla getməyə başladı. Gördü ki, iki çaqqal bir-biri ilə mübahisə edir. Onlar kolun arxasında olduqlarına görə Dovşanı görmürdülər. Biri deyir:

—Sən Dovşan kimi qorxaqsan.. O biri cavab verirdi:

—Dovşan sənin özünsən. Elə buradaca Dovşanın adı yadına düşdü. İstədi yüyürüb onlara desin ki, heç mübahisə-zad eləməyin, Dovşan mənəm. Buna vaxtmı var idi? Tez geri qayıtdı. Əvvəl bayaqkı ayı ilə rastlaşdı:

—Heç bilirsiniz mənim adım nə imiş? Dovşan. Ayı üz-gözünü turşudub dedi:

—Bu avaranı bir yaxşıca kötəkləmək lazımdır. Onda adı yadına düşər!

Dovşan ayının yanından elə getdi ki, bir də gözünə görünmədi. O, Dələyə rast gəldi:

—Bilirsinizmi? Sən demə mənim adım dovşan imiş. Dələ sürətlə şam ağacına dırmaşdı və dedi:

—Heç bilmirəm bu sözün mənə nə dəxli var. İstəyir sənin adın lap Pələng olsun.

Dovşan yenə də oxuya-oxuya yolla getdi. Birdən bayaqkı Kirpiyə rast gəldi. Dedi:

—Bağışlayın, mənim adım Dovşan imiş!

Kirpi yenə dərin fikrə getdi. İynələrini əvvəlkindən də bərk qabardıb dedi:

—Deyəsən axı siz bikarsınız hə? Mən indiki cavanlara lap məəttəl qalmışam!

Kirpi kolun dibində görünməz oldu. Dovşan isə adı yadına düşdüyünə görə lap sevinirdi. Oxuya-oxuya çıxıb getdi.

OYNAĞAN QIZ

Əminə Dilbaziyə ithaf edirəm

Oynağan qızın əhvalatını eşitmisən? Yox! Onda qoy danışım: bu qızın işi-peşəsi oynamaq idi. Səhər yerindən durandan yatana qədər oynayırdı. Bir də gördün ki, anası deyir:

—Əminə, qaç bir stəkan su gətir.

Əlbəttə, Əminə o saat su gətirməyə gedirdi. Amma heç bilirsən necə gedirdi? Aydın məsələdir ki, oynaya-oynaya. Əgər su gətirməyə gedəndə "Qaytağı" oynayırdısa, su stəkanı ilə geri qayıdanda "Uzundərəyə" keçirdi. Axı suyu dağıda bilərdi.

Eh, məktəbə gedəndə bir onu görəydiniz. Pilləkənləri düşəndə ən yüngül bir havanın ritminə uyğun oynayırdı. Ondan soruşurdular:

—Sən musiqisiz necə oynayırsan?

—Necə yəni musiqisiz? Məgər siz musiqinin səsini eşitmirsiniz? Bir az diqqətlə qulaq asın. Onda o saat eşidəcəksiniz. Adamlar nə qədər diqqətlə qulaq asırdılarsa heç bir musiqi-zad eşitmirdilər.

Amma bu qızın oynamağı evdə birdən elə bir həngamə qoparırdı ki...

Bir də görürdün ki, Əminə sabahkı dərslərini hazırlayır. Əlləri yazır, ayaqları oynayır. Ana qışqırırdı:

—Sən dərs yazırsan, yoxsa oynayırsan?

—Həm yazıram, həm də oynayıram.

—Siz bir buna baxın. Harda görünübdü ki, dərs yaza-yaza oynayasan? Ata işə qarışırdı:

—Mən sabah bu barədə müəllimə xəbər verəcəyəm. Əminə deyirdi:

—Zəhmət çəkmə ata! Müəllim özü bu barədə sizinlə danışmaq istəyir. Axı mən dərs danışanda da oynayıram.

—Demək belə. — Ata hirslənirdi. — Mən də elə bilirdim ki, çox ağıllı qızım var.

—Atacan, məgər oynayan adamlar ağılsız olur? Bax, istəyirsən vurma cədvəlini əzbər deyim.

—Yaxşı, bu saat yoxlarıq — deyə ata vurma cədvəlini soruşmağa başlayırdı.

Əminə suallara düz cavab verirdi. Amma cavab verəndə hökmən rəqs edirdi.

—Olmaz ki, heç olmasa atanla danışanda oynamayasan?

—Atacan, onda heç olmasa qoy ayaqlarımı tərpədim. Axı, bunun sizə heç bir ziyanı yoxdur.

—Necə yəni ziyanı yoxdur? — Ana əsəbiliklə söhbətə qarışdı.

Oynağan qız məktəbi qurtardı. Hətta institutu da bitirdi. Amma oynamağından bir dəqiqə də qalmadı. Bir gün onu gəlin köçürdülər. Ana gecə-gündüz arzu edirdi ki, heç, olmasa gəlin gedəndə oynamasın. Axı görərlər. Oğlan evi elə bilər ki, qız gəlin getməyinə lap çox sevinir. Düzü, ata da, ana da, hamı bu işə sevinirdi. Amma Şərq ölkələrində belə adət var ki, gərək qız evi sevincini gizlədə bilsin. Qızın isə sevincini gərək heç görən olmayaydı. Bax, buna görə də toy gecəsinə lap bir ay qalmış ana hər gün bu barədə qızı ilə söhbət edirdi. Oynağan qız bütün iradəsini toplayıb özünü həmin günə hazırlamışdı.

—Ürəyimə ən qəmli fikirlər gətirəcəyəm, — deyirdi. — Onda yəqin oynamaram.

Bir gün "Vağzalı" çalına-çalına oynağan qızı gəlin köçürdülər. O da özünü toplayıb xeyli oynamadı. Sonra birdən gördülər ki, budu ha, gəlin bir oynayır ki, gəl görəsən. Hamı

onun gözəl rəqsinə baxırdı. Ata ilə ana utandıqlarından bilmədilər ki, harda gizlənsinlər. Oynağan qız beləcə gəlin köçdü. Bu görünməmiş əhvalat dildən-dilə düşdü. Əgər sən bu əhvalatların doğru olub-olmadığını bilmək istəsən oynağan qızın özü ilə söhbət edə bilərsən. O sənə düzünü deyəcək. Amma cavab verəndə mütləq bir neçə rəqs edəcək. Axı o dünyanın ən gözəl rəqqaslarından biridir. Hər axşam konserti olur. Evlərinə o qədər müxbir gəlir ki, konsertə hazırlaşmağa vaxt qalmır. Buna görə də həm qonaqlarını qarşılayır, həm də məşq edir.

Bu da sənə oynağan qızın əhvalatı.

YALANÇI SÖZLƏR

əlkə bu əhvalat sizə qətiyyən inandırıcı görünməyəcək. Ancaq mən özüm də Yaşarın yerinə and içə bilərəm ki, həyatda belə şeylər olur.

Yaşar bu yalançı sözlərlə bacara bilmirdi, elə ağzını açıb sözün düzünü demək istəyirdi ki, yalançı söz onun dilinin ucundan həqiqi sözlərin hərəsinə bir yumruq, bir dirsək və axırda da təpik ilişdirib keçirdi hamıdan qabağa.

Bu yalançı söz Yaşarın ağzından elə çıxırdı ki, adam onun yalan olduğuna qətiyyən inanmırdı. Yaşar bir dəfə məktəbdən qaçıb zooparka getmişdi. Əslində insafla desək zooparkdan aldığın ləzzəti məktəbdən almırsan axı. Hə, o zooparkda fillərin uzun xortumuna, kərtənkələlərin rəngbərəng belinə doyunca tamaşa edib evə qayıdanda anası onu qarşıladı:

—Ay bala, dərs çoxdan qurtarıb. Bəs sən hardasan?

Bax bu zaman həmin o yalançı söz Yaşarın lap dilinin ucunda dayanıb bu saat ağzından çıxmağa hazır olan sözü necə itələdisə Yaşar iki dəfə udqunmalı oldu. Sonra yalançı söz güllənin ağzından çıxan mərmi kimi düz ananın üzünə çırpıldı.

—Məktəbdən gəlirəm.

Sonra başqa yalançı sözlər ilhama gəldilər. Onlar necə sürətlə sıçradılarsa yazıq arvad üzünü yana çəkməli oldu:

—Axırıncı dərsimiz zoologiya idi. Fillərin burnuna, kərtənkələlərin bellərinə baxırdıq.

Yalançı sözlər ananın üzünə dəyəndə Yaşara elə gəldi ki, anası bibər yedi. Çünki yazıq arvadın sifəti əyildi. Yaşar

dodaqlarını sıxıb dayandı ki, yalançı sözlər daha çıxa bilməsin. Çünki anasına yazığı gəldi.

—Məgər məktəbə fil gətiriblər?

Anasının bu sözündən sonra Yaşar nə qədər axtardısa doğru sözləri tapa bilmədi. Axı yalançı sözlər onları o qədər təpikləyib, dümsükləmişdilər ki, yazıqlar qaçıb haradasa gizlənmişdilər. İndi yalançı sözlər onun ağzından sakit-sakit çıxırdı. Yaşarı öz günlərinə salıb yalançı etmək istəyirdilər. Amma buna da Yaşar deyərəm. Üç dəfə udqunub gözlərini ayaqqabılarının burnuna dikdi ki, bəlkə həqiqi sözlər gizləndikləri yerdən çıxa, amma heyif ki, onlar bərk incimişdilər. Əlacsız qalan Yaşar axırda dodaqlarını gəmirə-gəmirə yalançı sözləri dişlərinin arasından buraxdı:

—Məsələ belədir ki, məktəbimizin həyətini zoopark ediblər. Bundan sonra zoologiya dərslərini elə oradaca, açıq havada keçəcəyik.

—Sən nə danışdığını bilirsən? — anası necə qışqırdısa Yaşarın ürəyinin lap dərinliyində gizlənib mürgü döyən həqiqi sözlər özlərini onun dodağına yetirdi və Yaşarı çətin vəziyyətdən çıxarmaq üçün bu saat çölə çıxmağa hazır dayandılar. Amma elə bu zaman yalançı sözlərin başçısı bircə zərbə ilə onların hamısını gəldikləri yerə qaytardı və özü asta-asta dişlərin arasından sürüşüb çıxdı:

—Atamın canı üçün doğru deyirəm!

Aydın məsələdir ki, Yaşar bu yalançı sözlərin başçısını qətiyyən dilinə gətirmək istəmirdi. Amma özünüz deyin, axı bu uşaqda nə təqsir var?

Ana uşağı evə gətirib yatağa uzatdı. Tez istilikölçən qoyub, qızdırmasını ölçdü. Yox canım, hər şey öz qaydasında idi. Bəs onda uşağa nə olmuşdu ki, bu boyda yalan danışsın. Anasının başqa şeyə gücü çatmadı. Yaşarın bu sözlərini atası eşitsəydi gör nə olardı.

Doğru sözlər harasa yoxa çıxmışdılar. Daha yalançı sözlər rahatca süzülüb gəlirdi.

—Axı niyə məktəbin həyətində zoopark tikmək olmaz? Bu sözlərdən sonra bir qəribə iş oldu. Anası oxlovla Yaşarın əlinin üstündən vurdu. Əlbəttə, Yaşar orasını qətiyyən başa düşmədi ki, onun əllərinin təqsiri nədir. Yalançı sözlər əldən çıxmırdı ha.

Anası onun əllərindən vurduğu üçün Yaşar ondan küsdü. Anası da Yaşardan yalan danışdığı üçün küsdü. Ah bu yalançı sözlər. Onlar Yaşarın əlinə düşsəydi...

İKİ TƏNBƏL

iri vardı, biri yoxdu, iki tənbəl vardı. Bir dəfə bu tənbəllərin nənələri onları yanına çağırıb dedi:

—Meşəyə gedin. Bəlkə dovşandan-zaddan tutdunuz, bişirib yeyərik.

Nənələri tənbəllərin yoluna yağlı fətir qoydu.

Onlar meşəyə getdilər. Aydındır ki, əvvəlcə yağlı fətirləri yedilər. Sonra da ağacın kölgəsində uzandılar. Bir də gördülər ki, yolla bir ovçu gedir. Birdən kolun dibindən bir çaqqal qaçdı. Ovçu arxasına aldığı kisəni yerə qoydu ki, çaqqalı vursun. Ovçunun başı çaqqala qarışanda kisədən ayaqları bir-birinə bağlı iki dovşan çıxdı. Dovşanlar gəlib tənbəllərin lap yanında bir kola ilişib qaldılar. Nə qədər dartındılarsa ayaqlarını aça bilmədilər. Ovçunun isə bundan xəbəri olmadı. Kisəsini götürüb getdi. Tənbəllər əvvəl sevindilər. Sonra birinci tənbəl öz-özünə fikirləşdi: "Hərəmizə bir dovşan düşür. Əgər mən dovşanı evə aparsam nənəm deyəcək ki, indi bunun başını kəs, soy, apar yu. Bu boyda işi görə bilmərəm. Yaxşısı budur bir kələk işlədim dovşanları Şaqqulu aparsın».

Şaqqulu isə öz-özünə fikirləşirdi: "Dovşanları Vaqquluya sırıya bilsəm, gör nə olar ey! Evdə bu dovşanları kəsib təmizləyəndə ona altdan-altdan gülərəm. Gör onda nə qiyamət olar ha!"

Şaqqulu dedi:

—Gəl bir şeydən mərc gələk. Kim udsa dovşanlar onun olsun. Vaqqulu ürəyində dedi: "Gərək elə şeydən mərc gələmki, uduzam".

—Mən razıyam, — deyə ucadan dilləndi.

—Nədən mərc gələk?

Bu zaman gördülər ki, tülkü gəlir. Tülkü su arxına çathaçat idi. Şaqqulu dedi:

—Tülkü indicə tullanacaq. Mən deyirəm arxdan keçəndə onun quyruğu suya dəyəcək.

Vaqqulu dedi:

—Dəyməyəcək.

Onlar mərc gəldilər. Vaqqulu ürəyində arzu edirdi ki, tülkünün quyruğu suya dəysin. Onda mərci Şaqqulu udar. Dovşanların ikisi də Şaqquluya çatar.

Tülkü sıçrayıb arxdan keçdi. Onu çağırdılar.

—De görək arxdan keçəndə quyruğun suya dəydi, yoxsa dəymədi?

Tülkü onların yanında ayaqlarından bir-birinə bağlanmış dovşanlara baxıb başa düşdü ki, burda nə isə iş var.

Dedi:

—Yox, dəymədi.

Şaqqulu dedi:

—Mərci sən udmusan, dovşanlar da sənin olacaq.

Vaqqulu bərk dilxor oldu. İşi belə görən tülkü dedi:

—Deyəsən quyruğum suya azca dəydi axı. Bu sözü eşidən kimi Vaqqulu dedi:

—Ura! Mərci sən udmusan. Tez ol dovşanlarını götür!

Şaqqulunun qanı lap bərk qaraldı.

Tülkü dedi:

—Doğrusu quyruğumun suya dəyib-dəymədiyini bilmirəm. Görürsünüz qupqurudur. Suya düşsəydi islanardı. Şaqqulu yenə əvvəlki həvəslə qışqırdı:

—Mərci sən udmusan, götür dovşanlarını da buradan rədd ol!

Vaqqulu dedi:

—Özün rədd ol!

Şaqqulu dedi:

—Sən rədd ol! Onlar bir-birinin saçından tutub dalaşmağa başladılar. Tülkü dovşanları götürüb dedi:

—Eybi yoxdur, dovşanları götürüb mən rədd olaram.

Səfehlər bir-birinin saçından buraxıb oturdular.

Tülkü uzaqdan baxıb gördü ki, onlar dostcasına qucaqlaşıb gülüşürlər. Tülkü dedi:

—Belə ovunuz olanda çağırın, sizin zəhmətinizi çəkmək mənim boynuma.

Səfehlər evlərinə gülə-gülə qayıtdılar.

BAŞQA PLANETƏ UÇAN ÇƏYİRTGƏ

əsələ burasındadır ki, sən bəlkə bu, əhvalata inanmayacaqsan. Çünki hər şey gözlənilmədən oldu.

Yerdən sıçrayıb doqquzuncu mərtəbənin eyvanlarına qalxanda çəyirtgənin qətiyyən ağlına gəlməzdi ki, belə bir əhvalat baş verəcək. Bəli, elə ki, doqquzuncu mərtəbədəki mavi eyvana çatdı, bu əhvalat da həmin anda baş verdi.

Eyvanda qurumaq üçün asılan döşəkağını külək vurub qopardı. Döşəkağı elə o saat havada süzdü və düz çəyirtgənin qabağından keçdi. Əslində çəyirtgə özünə gəlincə bir də gördü ki, döşəkağının üstündədir. O əvvəl az qaldı yıxılsın. Sonra döşəkağıdan bərk-bərk yapışdı.

Döşəkağı isə yığılıb düzəldi və qabağa şığıdı.

Çəyirtgə özünə gələndən sonra döşəkağının düz ortasında dayanıb qabağa baxdı.

—Görəsən hara uçuruq belə? — deyə o özündən soruşdu. Tez də öz sualına özü cavab verdi.

—Hər halda səfərimiz o qədər də yaxın olmamalıdır.

Hələ az qalıram deyəm ki, mən başqa planetə uçuram.

Bu zaman hardansa bir dəstə sərçə çıxdı. Sərçələri görəndə çəyirtgənin dizləri necə əsdisə az qaldı döşəkağını buraxsın. Əgər döşəkağını bircə anlığa buraxsaydı, külək kim bilir onu haralara atacaqdı. Amma özünü bərk saxladı. Sərçələrə çatanda düz qabağa baxıb, özünü dərin fikrə gedən kimi göstərdi:

Bura bax, qardaş, səfərin çox uzaqdı? — deyə sərçələrdən biri xəbər aldı.

—Hm! — deyə çəyirtgə bu boşboğazlarla ağız-ağıza verməyi öz şəninə sığışdırmadı.

—Hara gedirsən belə? — bayaqkı sərçə əl çəkmədi.

—Qoymazsınız bir dərindən fikirləşək? Axı mən bu saat çox mühüm bir məsələ haqqında düşünürəm.

Sərçələr bir-birinin üzünə baxıb çəyirtgənin nə barədə düşündüyü ilə maraqlandılar. Çəyirtgə başını dik tutub gözlərini belə qırpmadan qabağa baxırdı.

—Bəlkə sən təyyarələrə çatmaq haqqında düşünürsən? — deyə bayaqkı sərçə əl çəkmədi.

—Doğrusu belə bir fikrim var, — deyə Çəyirtgə özünü lap dartdı.

Birdən qəfil bir boğanaq döşəkağını buluda qədər qaldırdı. Bu elə sürətlə oldu ki, bayaqkı sərçə çəyirtgəyə bir söz belə deyə bilmədi. Döşəkağı havaya qalxanda sərçələrin hamısı başa düşdü ki, Çəyirtgə doğru deyirmiş. Quşlar lap nahaq yerə onu lağa qoymaq istəyiblər. Döşəkağı havaya belə sürətlə qalxanda çəyirtgənin ürəyi düşdü. Amma özünü bərk saxladı, dərindən nəfəs alıb aşağı baxdı. Onların uçmağa başladıqları doqquzmərtəbəli ev görünmürdü. Döşəkağı isə getdikcə yuxarı qalxırdı.

—Gəlsənə lap kosmosa uçasan hə? — deyə Çəyirtgə dilləndi. Ağıllı fikirdir!

Doğrudan da ağıllı fıkir idi. Lakin birdən qəfil bir gurultu qopdu. Bu elə gurultu idi ki, dağlar lərzəyə gəlirdi.

Yazıq Çəyirtgənin dizləri yenə də əsməyə başladı. Birdən başının üstündən eynilə özünə oxşayan nəhəng bir maşın gördü. Bu vertolyot idi. Vertolyot onların başının üsıündən uçub harasa gedirdi.

Aşağıda yaşıl meşələr görünürdü. Nazik çay meşənin ortasından burula-burula axıb gedirdi. Birdən döşəkağı havada ləngərləndi və yavaş-yavaş düşməyə başladı. Hava

sakitləşmişdi. Buna görə döşəkağı daha uça bilmədi. Bir neçə dəqiqədən sonra yaşıl meşənin ortasındakı talaya düşdü.

Çəyirtgə atılıb göy otların üstünə qondu:

—Səhv etmirəmsə, bura başqa planetdi. Əlbəttə səhv etmirəm!

Birdən böyürdən yenə də bayaqkı sərçə dəstəsi çıxdı. Çəyirtgəni sorğu-suala tutan sərçə döşəkağını yerdə görüb Çəyirtgəni axtarmağa başladı. Çəyirtgə də tez otların arasında gizləndi ki, sərçələr onu görməsinlər.

—Mən and içirəm ki, — deyə bayaqkı sərçə cikkildədi, —qəza baş verib və Çəyirtgə həlak olub.

—Əlbəttə həlak olub! — deyə o birilər dilləndi. —Çox ağıllı Çəyirtgə idi.

—Mən deyərdim ki, ağıl dəryası idi, — əvvəlki sərçə dilləndi. Onlar qəzaya düşüb həlak olan çəyirtgənin xatirəsinə doyunca ağladılar və uçub getdilər. Çəyirtgə isə onu tapmadıqları üçün sevinirdi. Axı tapsaydılar kim bilir onların hansı çəyirtgəni bircə udumda məhv edəcəkdi.

ÇİYƏLƏKLƏRİN ÇƏHRAYI NAĞILI

iyələklər salxımlanmışdı. Gözdə qulaqdaydılar ki, görsünlər bostana kim gələcək. Elə bu zaman ağ bantları bir cüt kəpənəyə oxşayan qəşəng bir qız gəlib çıxdı. Qoz boyda bir çiyələk dedi:

—Qəşəng qız, məni dərib yeyə bilərsən. Bal kimi şirin, qaymaq kimi ləzzətliyəm.

Qız çiyələyin səsini eşitməyib onun yanından keçdi. Çiyələk hirsindən daha da qızardı. Balaca bir çiyələk qıza baş əydi:

—Dünyada məndən ləzzətlisini tapa bilməzsən. Bax, üstümdəki xalları görürsənmi? Xalis mirvari dənələrinə oxşayır. Hələ burnumu demirsən. Qızılı-çəhrayı burnumun dadını heç yerdə görməzsən. Qız elə bil bu sözləri eşitmədi. Çiyələkliyin lap ortasına kimi getdi. Birdən bapbalaca bir çiyələk gördü.

Sərçə gözünə oxşayan balaca çiyələk qığılcım kimi parıldayırdı. Qız əyilib onu sığalladı. Çiyələk dedi:

—İstəyirsən sənə bir çəhrayı nağıl danışım.

—Çəhrayı nağıl? Ömrümdə belə nağıl eşitməmişəm.

Məgər nağılın da rəngi olar?

—Əlbəttə olar. Bax, əgər sən alça bağına girmiş olsan yaşıl nağıl dinləyə bilərsən.

—Bəs gilasların nağılı nə rəng olur?

—O baxır gilasın rənginə. Əgər tünd qırmızı gilas bağına girmisənsə deməli məxməri nağıla qulaq asacaqsan. Əgər sarı gilas bağına girmisənsə...

—Aydındır, — deyə qız onun sözünü kəsdi.

—Deməli hərənizin nağılı öz rənginizdə olur. Onda sən öz çəhrayı nağılını danış.

Çiyələk balaca yarpağı ilə qulağını qaşıyıb sözünə başladı:

—Biri var idi, biri yox idi, dünyada çiyələk kollarından başqa heç nə yox idi. Günlərin birində kollar balaca-balaca yaşıl meyvələr gətirdi. Elə ki meyvələr bir az böyüdü, başladılar mübahisəyə. Biri dedi:

—Mən hamıdan yaşılam. Lap alçadan da yaşıl.

—Mən isə həm yaşılam, həm də alça kimi turş. Yəqin biz elə turş olsaq yaxşıdır.

Çiyələklər necə mübahisə edirdilərsə qapının döyülməyini xeyli eşitmədilər. Birdən kimsə dedi:

—Qapını döyürlər, eşitmirsiniz?

Durub açdılar. Amma qapını döyənin kim olduğunu görə bilmədilər.

—Kimdi qapını döyən? — deyə çiyələklərdən biri qışqırdı.

—Niyə qışqırırsan, bala, səsin özünə xoş gəlir?

Kimsə onların lap burnunun ucunda danışırdı. Amma heç kəs bu çağrılmamış qonağı görə bilmirdi.

—Axı sən kimsən? Görünür sehrbazın birisən.

—Yox mən sehrbaz deyiləm. Həkiməm. Sizə iynə vurmağa gəlmişəm.

Çiyələklər bir ağızdan qışqırdılar:

—Yox, bizim heç birimiz xəstə-zad deyilik. Həkimə də ehtiyacımız yoxdur. Çıx get.

—Eh bilsəydiniz mən necə həkiməm. Dünyada mənim kimi ikinci bir həkim yoxdur. İynəni də elə vururam ki, heç kəsin xəbəri olmur. Axı mən yer üzündə yaşayanların hamısına iynə vururam. İndi isə salamat qalın. Hələ mənim yolumu gözləyənlər çoxdur.

—Bəs iynə vurmayacaqsınız? — deyə kiminsə dili dinc durmadı.

—Mən artıq sizin hamınızı iynələmişəm. Bir azdan iynəm öz təsirini göstərəcək.

Həkim necə gəlmişdisə eləcə də getdi. Heç onu görən də olmadı. Qız çiyələyin nağılını burada yarımçıq kəsib soruşdu:

—Axı bu həkim kim idi?

—Qulaq as, qəşəng qız. Bu həkim doğrudan da düz deyirmiş. O gedəndən sonra biz özümüzü lap xoşbəxt hiss etdik. Daha əvvəlki kimi mübahisə etmirdik. Yavaş-yavaş rəngimiz qızarmağa başladı. Hamı sevinirdi:

Bir baxın — deyə kimsə qışqırırdı. — Mənim paltarım xalis qızıl rəngindədir.

—Heç mənimkini demirsən, ərik çiçəyi kimi qızarmışam.

Birdən həmin həkim yenə gəlib çıxdı.

—Salam, əziz balalar, deyəsən yavaş-yavaş qızarırsınız?

Bu dəfə də o bizdən gizlənmək istəyirdi. Ancaq onu hamıdan əvvəl mən gördüm. Adamın gözlərini qamaşdırırdı. Ağ-çəhrayıya çalan paltarı var idi. Birdən gördüm ki, onun çoxlu uzun qolları var. Hər əli ilə bizim birimizin başını sığallayırdı. Amma onun başını görə bilmədim. Çünki başı hardasa lap uzaqda idi. Bəlkə də göyün yeddinci qatındaydı. Həkim gedəndən sonra biz daha da şirinləşdik. Bax, indi də elə yetişmişik ki, lap bal kimiyik. Hansımızı istəsən yeyə bilərsən.

Qız balaca çiyələyi dərdi. Əlində balaca qığılcıma oxşayan çiyələk, ürəyində çəhrayı bir nağılın şirinliyi olan bu qəşəng qız təzə nağllar eşitmək üçün bağçaya getdi.

DÜNYANIN ƏN TƏNBƏL TISBAĞASI

ısbağaların demək olar ki, hamısı tənbəl olur. Amma bu dünyanın ən tənbəl tısbağası idi. Axşamacan yeyib yatır, sonra öz qoçaqlığından danışırdı.

—Mənim kimi igid yoxdur, — deyib, döşünə döyürdü. O, danışmağa başlayanda lalələrin rəngi bir anda qıpqırmızı olurdu. Axı bu böyüklükdə yalan olmazdı.

Bir dəfə tısbağa dedi:

—Mən istəsəm qaçmaqda lap dovşanı da ötərəm.

Bax, bu daha ağ yalan oldu. Hirsindən çobanyastığının ləçəkləri ağardı, bənövşələr utandığından başını kolun dibinə soxdu ki, görən olmasın. Amma tısbağa ilan başına oxşayan kəlləsini çanağının içindən çıxardıb çəməndəkilərin üzünə utanmadan baxırdı.

—Bir halda ki, belə oldu, onda dovşanla ötüşəcəksən, — deyə atlı qarışqa dilləndi. Əgər onu ötə bilməsən canına daraşıb səni öldürəcəyik.

—Yaxşı fikirdir, — cücələr səsləndilər.

Amma bu sözlər tısbağanın heç kefini də pozmadı. Lakin birdən işin kəskinləşdiyini görüb dedi:

—Mən razıyam. Bu gün ayağım ağrıyır, sabah ötüşərik. — Sən heç zaman dovşanla ötüşə bilməzsən, — kimsə onu sancdı.

Çəməndəkilər şərtləşdilər ki, sabah yığışıb bu maraqlı yarışa baxsınlar. Onlar tısbağanın yerişini xatırlayanda elə qaqqanaq çəkib güldülər ki, çiçəklərin hamısı başlarını tərpətdi.

Tısbağa isə bir söz deməyib getdi. O, Ceyranın yanına gəlib dedi:

—Sabah ad günümdü. Məni dalına alıb baba dağının ətəyinə qədər apararsan?

—Əlbəttə, əgər ad günündürsə apararam! Ancaq mənim dalıma necə minəcəksən? — Ceyran soruşdu.

—Bir şey fıkirləşərik...

Tısbağa Ceyranın razılığını alandan sonra düz fılin yanına gəlib dedi:

—Sabah ad günümdür. Ceyran məni dalında gəzdirmək istəyir. Özü gəlib xahiş etdi ki, razı olum. Amma bilmirəm onun belinə necə çıxım. Məni Ceyranın belinə mindirə bilərsən?

—Tənbəl olsan da ad günündə belə bir yaxşılıq edərəm. Tısbağa fılin də razılığını alandan sonra kirpinin yanına gəlib dedi:

—Sabaha qədər mənə qəşəng bir çələng toxuya bilərsən? Ad günümdü.

—Doğrusu eşitmişəm ki, sən çox tənbəl və lovğasan. Amma ad günündə bunların hamısından keçmək olar.

Tısbağa evindən çıxıb Ceyranın, Filin və Kirpinin yanına gedəndə cücülər ondan soruşdu.

—Hara belə?

O da belə dedi:

—Yarışa hazırlaşıram. Axı sabah dovşanla ötüşəcəm.

Bu cavabı eşidənlər bir gülürdülər ki, gəl görəsən! Səhər yenə əvvəlki kimi acıldı. Günəş parıldadı. Çiçəklər, böcəklər yığışıb tısbağanı çağırdılar. O gəlib dovşanla bərabər dayandı.

—Hara kimi qaçacağıq? — dovşan soruşdu.

—Baba dağının ətəyindəki Sərin bulağın yanına kimi — deyə tısbağa özünü dartıb qabağa baxdı.

—Sən ora hec bir ilə gedə bilməzsən, — kimsə dilləndi. Baba dağı çox uzaq idi. Dovşan gərək azı beş saat qaçaydı ki, gedib həmin bulağın üstünə çataydı.

—Yaxşı, mən razıyam, — dovşan tısbağa ilə yanaşı dayanıb işarə gözlədi. Kimsə "bir, iki, üç" dedi. Dovşan götürüldü. Tısbağa isə yavaş-yavaş getməyə başladı. Çəmən-

likdəki cücələrin və böcəklərin hamısı qaçmağa başladı. Tısbağa isə tələsmədən gəlib filə dedi:

—Şərtimizi unutmamısan ki?

—Yox, — deyə fil onu xortumu ilə qaldırıb Ceyranın belinə qoydu. Kirpinin hazırladığı çiçək çələngini də üstünə örtəndən sonra tısbağa dedi:

—İndi məni Baba dağının ətəyindəki Sərin bulağa çatdır. Ceyran kəsə yolla qaçmağa başladı. O dovşanın, böcəklərin yanından elə sürətlə ötdü ki, heç kəs işin nə yerdə olduğunu başa düşmədi. Çiçək çələngi tısbağanın üstünü örtdüyü üçün o görünmürdü. Bir azdan gəlib bulağa çatdılar. Tısbağa birtəhər aşırılıb Ceyranın üstündən düşdü.

Dovşan hələ gəlib çatmamışdı. Bir azdan dovşan nəfəsi təngiyə-təngiyə özünü bulağa yetirəndə tısbağanı orada gördü. Onun boynunda çiçək çələngi vardı. Dovşan işi belə görüb ağlamağa başladı. Axı mərci uduzmuşdu. Bir azdan çəməndəki cücülər də özlərini yetirdilər. Qarışqalar qətiyyən başa düşmədilər ki, nə olub.

—Ey ceyran, — deyə tısbağa indicə belində gəldiyi ceyranın üstünə qışqırdı. Burada boş-boş veyillənməkdənsə get bir işlə məşğul ol!

Ceyran qulaqlarına inanmadı. Doğrudanmı indicə bütün mərci udmaqda əsas rol oynayan Ceyrana belə sözlər deyilirdi. Ceyran ayaqlarına baxıb dedi:

—Heyif ki, mənim kimi bir ağılsızı öz üzərində gəzdirirsən! — Bunu deyib uzaqlaşdı. Amma heç kəs bu sözdən bir şey başa düşmədi. Tısbağa isə fəxrlə yenə də özünün igidliyindən dəm vurur, kimisə aldatmaq haqqında düşünürdü. Amma cücülər daha onun yanında dayanmadılar. Çünki onlar başa düşdülər ki, tısbağa nəsə bir kələk işlədib. O vaxtdan tısbağa çöllərdə tək yaşamağa başladı.

İTMİŞ PUL KİSƏSİ

İlk baxışda sizə elə gələ bilər ki, bu adicə bir əhvalatdır. Balaca, yaraşıqlı pul kisəsi dənizin sahilində çınqıl daşların arasında yaddan çıxıb qalıb, vəssalam.

Amma orasını da deyim ki, bu ancaq sizə belə gəlir. Əslində isə maraqlı bir əhvalatdır. Elə ki, Tanya ağ saplardan hörülmüş pul kisəsini sahildə qoyub getdi, pul kisəsi onun ardınca qışqırmağa başladı:

—Eheyyy, hara gedirsən?

Pul kisəsinə əvvəl elə gəldi ki, Tanya onunla zarafat edir. Axı o üç manatı gör nə vaxtdan bəri saxlayırdı. Atası bir gün qıza on qəpik verib demişdi:

—Özünə nə istəsən ala bilərsən.

Elə həmin gün Tanya bu pul kisəsini toxumuşdu. Ağ sapları bir-birinə keçirə-keçirə pul kisəsini toxuyanda dodaqaltı bir nəğmə də oxumuşdu. Doğrudur, indi həmin mahnını oxuduğu o qədər də yadında deyil, amma sizə deyim ki, mahnı çox gözəl idi və gərək ki, hələ heç kəs tərəfindən bəstələnməmişdi. Çünki nənəsi ondan soruşmuşdu:

—Bu nə mahnıdı belə oxuyursan? Tanya da milləri bir-birinə keçirə-keçirə cavab vermişdi.

— Bu heç zaman oxunmayıb. Ona görə də sən onun hansı mahnı olduğunu bilmirsən.

—Maraqlıdır, — deyə nənə eynəyinin üstündən qıza baxmış və çıxıb getmişdi.

Ördək yumurtasına oxşayan pul kisəsi hazır olanda Tanya ona ad da qoydu: "Ördək balası".

—Ördək balası, sənin nə qəşəng adın varmış, — deyə qız təzəcə toxuyub qurtardığı pul kisəsinə baxıb fərəhlə dilləndi.

—Belə də ad olar? — deyə nənəsi elə bil yerin altından çıxıb, düz onun qabağında dayandı.

—Olar, — deyə Tanya özünü itirmədi. — Buradakı pulların hamısını dondurmaya verəcəyəm. On beş dondurma alacam.

—Sənin ki, cəmi on qəpiyin var, on beş dondurmanı necə alırsan?!

—Nənəcan, axı mənim bu pul kisəm sehirlidir. Bu gün ora qoyduğum on qəpik sabah iyirmi qəpik olacaq, birisi gün otuz. Bir də görəcəksən ki, pul kisəsi böyüyüb, ördək balası boyda olub. Ondan sonra ürəyin istədiyi qədər dondurma ala bilərsən.

—Yaxşı, baxarıq, — nənəsi bic-bic gülümsündü.

Tanya səhər hamıdan tez durmuşdu. Axşamdan stolun üstünə qoyduğu pul kisəsini götürüb içinə baxdı. Və yerindəcə donub qaldı. Onun içində iyirmi qəpik var idi. İki dənə on qəpiklik.

—Sehrlidir. Mənim pul kisəm doğrudan da sehrlidir.

Tanya qapının açıldığını, içəri adam girdiyini qətiyyən hiss etmədi. Bir də gördü ki, eynəyini boynundan sallayan nənəsinin qırışmış sifəti düz qabağındadır. Sifəti qırışsa da insafla desək, nənəsinin üzü gözəl idi, danışırdı ki, cavanlığında onu belorus gözəli adlandırmışlar.

—Nə olub? — belorus gözəli dilləndi.

—Pul kisəsi doğrudan da sehrli imiş.

—Ola bilməz, sehrli şeylərin hamısı nağıllarda olur.

—Nənəcan bəlkə sehrli əhvalatlar yüz, ya da iki yüz ildən bir olur. Sənin isə cəmi doxsan yaşın var. Budur bax, artıq sehrli əhvalatlara rast gəlməyə başlamısan.

—Əgər sənin bu kisən doğrudan da sehrlidirsə qoy sabah onun içində bir dənə üçlük olsun. Buna sözün nədir, hə? Sən də bütün dostlarını dondurmaya qonaq edəsən. Axı sabah sənin ad günündür.

—Belə bir şey olsa, sevindiyimdən atılıb — düşərəm, — deyə Tanya etiraf etdi.

O gecə hər ikisi yerlərində qurcalandılar. Tanya qonşu otaqda nənəsinin də yatmağını hiss edirdi. Elə onun özü də nə qədər gözlərini yumurdusa yata bilmirdi. Axır ki, qızın kirpikləri qapandı.

Səhər pul kisəsini götürüb baxanda heyrətdən donub qaldı. Çünki "Ördək balasının" içində təzə, şax bir üçlük var idi. Göy üçlük səliqə ilə bükülüb kisəyə qoyulmuşdu.

—Nənə, nənə, ay nənə! — Tanya elə həyəcanla qışqırırdı ki, elə bil nənəsi bu saat cavab verməsəydi göy üçlük yox olacaqdı. Əslində qızı qınamaq olmazdı. Bir halda ki, sehrli yolla gəlib kisəyə girmişdi, deməli həmin yolla da yox ola bilərdi. Buna görə də qız pulu əlində bərk-bərk tutub nənəsini çağırır və hərdən də pula baxırdı ki, yox olmasın.

—Nə olub? — deyə həmişə sanki yerin altından çıxıb Tanyanın qarşısında hazır dayanan nənəsi bu dəfə çox gec gəldi.

—Buyur bax, — deyə Tanya əlində pulun hələ də yox olmadığını yəqinləşdirdikdən sonra üçlüyü qabağa uzatdı, sehrli pul gəlib çıxdı.

Nənəsi gülümsündü. Gözlərinin qırağındakı qırışlar sıxlaşdı. Tanya gördü ki, nənəsi bic-bic gülür. Deməli bir kələyi var. Amma bu dəfə Tanyanın belə şeylərə fikir verməyə vaxtı hardaydı?! Qoy nə qədər istəyir bic-bic gülsün. Daha kisənin sehrli olduğuna şübhə ola bilməzdi.

Bax, həmin o kisəni Tanya bu gün səhər çimərliyin ağ daşlarının arasında qoyub gəlmişdi. Özü də bu cür sehrli bir kisə düz saat onda yadına düşdü. Yadına düşdü ki, paltarını geyinib evə qayıdanda kisəni boynuna keçirməyi tamam

unudub. Əslində xeyli müddətdə qız boynunda təzə, tanış bir ip ağırlığının olmadığını duydu. Amma qətiyyən başa düşmədi ki, bu, məhz kisənin sapının ağırlığıdır. Yalnız axşam yatanda kisə yadına düşdü.

Atası qonşu otaqda ağcaqanad vızıltısına oxşar ağlamaq səsini eşidəndə əvvəl bir şey başa düşmədi. Sonra bu nazik ağcaqanad vızıltısı həqiqi ağlamağa çevriləndə işin nə yerdə olduğunu anladı.

Belə hallarda evdə necə söhbətlər olduğunu yəqin bilirsən. Ata sabah dünyanın ən gözəl pul kisəsini alacağını vəd edir, uşaq isə bir az da bərk hönkürüb, məhz həmin pul kisəsini istəyir. İstəyirəm pul kisəsinin yanına qayıdaq görək onun başına nələr gəldi.

Mən sizə dedim ki, Tanya geyinib çimərlikdən gedəndə kisə elə bildi ki, qız onunla zarafat edir. Amma qız sarı saçlarını yelləyə-yelləyə uzaqlaşanda başa düşdü ki, məsələ ciddidir. Kisə nə qədər qışqırdısa qız eşitmədi. Bir azdan çimərlikdən əl-ayaq çəkildi. Hardansa balaca bir it gəlib çıxdı. O, daşların arasını imsiləyib nəsə axtarırdı. Kisə ona salam verdi. Amma küçük heç elə bil pul kisəsinin dediyini başa düşmədi. Ya da bəlkə onun salamını eşitmədi. Sadəcə olaraq yaxın gəlib onu imsilədi və uzaqlaşdı.

Sonra çimərliyi yığışdıran qarı gəlib çıxdı. Daşların arasına atılıb qalan kağızları yığışdırdı. Amma kisəyə əlini də vurmadı. Görünür "Ördək balası" ağ daşa oxşadığı üçün qarı onu daşlardan seçə bilmədi.

Səhərin lap tezdənindən Tanya gəldi. Atası ilə daşların arasını axtarmağa başladı. Pul kisəsi yenə də qışqırmağa başladı. Bu dəfə o lap bərkdən qışqırdı. Belə bir səslə o heç zaman qışqırmamışdı. Təkcə bir dəfə, yadındadırmı, səhər tezdən Tanya kisənin içində üçlük oluğunu görəndə "Nənə, nənə, ay nənə" deyib həyəcanla qışqırmışdı. Doğrudur, onda Tanyanın səsi o qədər hündür idi ki, pul kisəsinin səsini

eşitmədi. Amma bax, onda pul kisəsi elə indiki kimi həyəcanla qışqırmışdı. O vaxt kisə qışqırıb deyirdi ki, Tanya nənəsinin bic-bic gülümsünən gözlərinə baxsın. Bu gözlərdə çox sirr var. Amma Tanya onu eşitməmişdi və nənəsinin gözlərində gizlənən həmin o sirr eləcə də açılmamış qalmışdı. İndi isə daha o sirr haqqında sənə danışmağa elə bir ehtiyac yoxdur, əziz oxucu, özün fikirləş. Gör tapa bilərsənmi?! Tapmasan hekayəni bir də oxu.

Hə, pul kisəsi həmin həyəcanla bir də qışqırdı. Və yalnız bu zaman Tanya onu gördü. Ağ daşların arasında bürüşüb yatan balaca "Ördək balası"nı bağrına basdı. Göy üçlük necə qatlanmışdısa eləcə də dururdu. Sabah bu üçlüyə on beş dondurma alınacaqdı.

AYTƏN VƏ NAZİM

Kranın suyu çoxdan kəsilmişdi. Ona görə də burnunu aşağı sallayıb, dərin fıkrə getmişdi: "Necə gözəl günlər var idi. Mənim burnumdan gümüşü su damcılayanda uşaqlar yanımdan uzaqlaşmırdılar. Bax, o bantı ağ, kəpənəyə oxşayan qızı görürsünüz? Hə, ilk dəfə onunla tanış olmuşam. Balaca vedrəsini burnumun qabağına qoyub dedi:

—Zəhmət olmasa bir az mənə su verin.

Belə nəzakətli bir müraciətin qabağında mən ona adi su verə bilərdimmi? Bu ancaq səfehlik olardı. — Mən onun vedrəsini ağzına kimi bulaq suyu ilə doldurdum.

Bir azdan bax, o əlində quşatan gəzdirən oğlan gəldi. Vedrəni qabağına qoyub quşlara daş atmağa başladı. Sonra mənə tərəf çevrilib dedi:

—Əşşi, sən də tez ol də.

Mən bərk hirsləndim. Sizə deyim ki, indiyəcən belə bərk hirslənməmişdim. Bir az öskürüb fınxırdım. Nəfəsimi içəri çəkib necə hirslə püflədimsə oğlan kənara sıçradı, onun vurmağa hazırlaşdığı sərçə uçub getdi.

—Bura bax, deyə oğlan üstümə qışqırdı. Başa düş-mürəm sən kransan, yoxsa parovoz. Bir az yavaş də. Quşları qorxudub uçurtma.

—Lap yaxşı oldu — deyə mən arxayın fısıldadım və onun vedrəsinə lilli, bulanıq su tökdüm. Bəs necə?! Ondan quşların intiqamını almalıydım, ya yox?!

Oğlan deyinə-deyinə getdi.

Bir azdan bantı kəpənəyə oxşayan həmin qız yenə gəlib çıxdı. O, zərif, qəşəng əlləri ilə başımı sığallayıb dedı:

—Sən dünyanın ən ağıllı kranısan. Vedrəmə doldurduğun əsl bulaq suyu idi. Zəhmət olmasa yenə də belə bir yaxşılıq elə.

Bu dəfə onun vedrəsinə xalis gülab doldurdum. Qızıl güldən çəkilmiş bu suyun ətri adamı lap uzaqdan vururdu. Qız küçəylə gedəndə bir görəydiniz. Adamlar dayanıb bu ətirli suya baxır və onun hansı krandan doldurulduğu ilə maraqlanırdılar.

Amma birdən lap səfeh bir iş oldu. Qızın vedrəsindəki gülabın ətrini duyan bal arıları bircə anda onu dövrəyə aldılar. Onlar bu gözəl suyun dadına baxmaq üçün vurnuxur, özlərini vedrənin içinə soxurdular. Qız isə heç elə bil bu iynəli acgözləri görmürdü. Vedrəsi ayaqlarına dolaşa-dolaşa gedirdi.

Qız gözdən itməmişdi ki, bayaqkı oğlan gəlib çıxdı. Deyəsən apardığı suyu bəyənməmişdilər.

—O nə su idi mənə verdin, — deyə oğlan qışqırdı. — Elə bil gölməçədən doldurmuşdun. Ağacların dibinə, tökməkdən başqa əlacımız qalmadı. Amma Aytənin vedrəsinə bulaq suyu doldurursan.

Mən həmin o qızın adının Aytən olduğunu indi bildim. Gözəl adı varmış. Oğlan isə vedrəsini qabağıma qoyub quşatanı tuşladı. Mən fısıldamağa macal tapmamış nişan alıb atdı. Elə o saat da sərçə budağından qırılmış yarpaq kimi torpağa düşdü. Daş onun qanadını yaralamışdı. Oğlan yüyürüb sərçəni tutdu və suya gəldiyini tamam yadından çıxarıb oynamağa başladı. Mən bundan istifadə edib onun vedrəsini demək olar ki, palçıqla doldurdum. O qədər palçıq tökmüşdüm ki, boğazımı xeyli təmizləməli oldum. Oğlan isə heç vedrəsinə baxmadı. Götürüb getdi.

Arılar çoxalmışdı, Aytən yeriyə bilmirdi. Buna görə də küçənin başında vedrəsini yerə qoyub gözləyirdi ki, görsün bu işlərin axırı necə olacaq. Oğlan da palçıqla dolu vedrəsini götürüb sərçəsinə baxa-baxa onun yanına çatdı. Aytən dedi:

—Bu yazıq quşcuğazı niyə vurmusan? Gör necə də balacadır. Heç ona qıymaq olar?

—Onun canını da almaq olar! — deyə oğlan hirslə qışqırdı. —Yaltaq! Kranın qulağına nə deyirsənsə, sənə bulaq suyu verir, amma mənə lilli su.

Bu sözləri deyəndən sonra oğlan vedrəsinə baxdı və yalnız indi başa düşdü ki, vedrəsi palçıqla doludur. Sonra Aytənin vedrəsinə baxdı. İlahi, bu nə idi belə. Onun vedrəsi ağzına kimi qızıl gül suyu ilə dolmuşdu. Arılar növbə ilə suyun dadına baxıb sonra qızın saçlarına qonurdular. Aytən isə heç kirpiklərini də qırpmırdı. Oğlan qorxudan əvvəl gözlərini yumdu. O, arının nə demək olduğunu əla başa düşürdü. Bir dəfə pətəklərinə çöp uzatdığına görə arılar onu düz alnından vurmuşdular. Onun gözləri necə şişmişdisə bir həftə ağrıdı. İndi arıların Aytənin dövrəsində sakitcə hərlənməyi ona qəribə göründü.

—Bura bax, Nazim, apar o sərçəni yuvasına qoy!

—Sən gəl mənə ağıl öyrətmə. Gör nə qədər ağılsızsan ki, arılar da səni vurmur.

—Arı ağılsızı vurur.

—Sən mənə ağılsız deyirsən? — deyə Nazim Aytənin üstünə yeridi, quşatanın rezinini onun başına vurdu. Bütün əhvalatlar da elə bu zaman baş verdi. Bayaqdan sakitcə dayanan arılar da birdən vızıldamağa başladılar. Onlardan biri düz Nazimin saçından yapışdı. Nazim onu qovmaq istəyəndə balaca bir arı onun əlindən yüngül bir dişdəm aldı. Bundan sonra nələr baş verdiyini bilən olmadı. Çünki Nazim vedrəsini və quşatanını qoyub qaçmağa başladı. Amma arılar Nazimdən əl çəkmək istəmirdilər. Aytənin hayıfını almamış hara qayıdırdılar?!

Nazim qaçıb özünü birtəhər evlərinə çatdırdı və qapını bərk-bərk bağladı.

—Sənə nə olub? — nənəsi həyəcanla soruşdu. — Elə bil dalınca bir qoşun gəlir.

—Qoşun gəlsəydi bu qədər qorxmazdım. Arılar gəlir, içəri girsələr axırıma çıxacaqlar.

—Sən onlara neyləmisən ki? — nənəsi xəbər aldı, — yoxsa yenə yuvalarına çöp uzatmısan?

Aytən vedrəsini götürüb evlərinə getməyə başladı. Arılar onun ətrafında uçuşurdu. Balaca bir arı onun ağ və toppuş əllərini zanbaq çiçəyinə oxşatmışdı və buna görə də tez-tez qızın əlinin üstünə qonurdu. Aytən də gözaltı bu balaca səfehə baxıb deyirdi:

—Bura bax, birdən elə bilərsən ki, çiçəkdi, dişləyərsən ha.

Balaca arı iynəsini çıxardıb qızın əlinin üstünü qıdıqladı və onun çiçək olmadığını başa düşüb uçdu.

Bu zaman Nazim pəncərə pərdəsini aralayıb baxırdı. Ürəyində Aytənin bu qədər cəsarətli olduğuna qibtə etdi. Amma bir şeyə təəccüblənirdi ki, nə üçün arılar bu özündənrazı qızı vurmur. "Siz bir onun yerişinə baxın. Özünü elə dartır ki, elə bil qaz yeriyir. Arılar olmasaydı bu saat ona göstərərdim." Nazim düşünürdü.

Bir azdan Aytən vedrəsini boşaldıb qayıdırdı. Nazim də eləcə pəncərə pərdəsinin arxasında qalmışdı. Arıların qorxusundan pərdəni aralaya bilmirdi. Nazim gördü ki, arılar yoxdu və Aytən vedrəsini yellədə-yellədə tək gedir. Əvvəl istədi ki, düşüb bayaqkının hayıfını alsın. Sonra fikirləşdi ki, birdən arılar özünü yetirər. Pərdəni aralayıb yalvarıcı səslə dedi:

—Aytən, mənim də vedrəmi gətir də, nə olar?

Aytən pəncərəyə boylananda uğunub getdi. Nazim bədənini pərdənin arxasında bərk-bərk gizlətmişdi. Təkcə gözləri qaralırdı.

—Özün düşüb götürə bilmirsən?

—Sənin bu zəhrimara qalmış arıların qoyur ki?

Nazimin ağzından bu söz təzəcə çıxmışdı ki, qulağının dibindən vızıltı ilə bir arı uçdu və az qala iynəsini onun qulağına sancacaqdı. Elə bil ki, arı pərdənin arxasında gizlənib Nazimin ağzından həmin o "zəhrimara qalmış" sözlərinin çıxmasını gözləyirdi. Nazim birtəhər özünü qorudu. Arı isə hardasa yaxınlıqda gizləndi.

—İşə düşdük — deyib Nazim mızıldandı. Bundan sonra gərək ayıq olam.

Bu mənzərəni görən Aytən uğunub getdi. Gülüb qurtarandan sonra dedi:

—Bir az dilini şirin elə! Danışanda ağzından zəhər tökürsən.

Nazim qorxusundan daha cavab vermədi. Yumruğunu düyünləyib ürəyində qızı hədələdi və onun ağ bantlarına baxdı. Ağ bantlar zanbaq gülü kimi işıq saçırdı. "O bantları nə qoparardım!" — deyə ürəyindən keçirtsə də qorxusundan dillənmədi. Çünki bayaqkı arı hər dəqiqə çıxa bilərdi.

SEHRLİ GƏMİNİN KAPİTANI

n maraqlısı bu idi ki, Ayzərin anası bircə saatlığa bazara gedəndə bu əhvalatlar başladı. Cəmi bircə saatda görün nə qədər iş oldu. Ana balaca qızını çağırıb dedi:

—Həyətimizdən heç yana çıxma. İtinlə, lap istəsən pişiyinlə oyna. Bu saat bazara dəyib gəlirəm.

Elə ana qapıdan çıxan kimi bu möcüzə baş verdi. Əvvəlcə Ayzərgilin ikimərtəbəli balaca evi hamin sehrli gəmiyə çevrildi. Orasını Ayzər qətiyyən xatırlaya bilmir necə oldu ki, onların yamyaşıl bağçaları birdən-birə çevrilib nəhəng dəniz oldu. Doğrudur, bu dənizin suyu yaşıl idi. Hətta onun içində qırmızı gül topalarına oxşayan ləpələr də vardı. Amma nə qırmızı ləpələr, nə də suyun yaşıl olmasına baxmayaraq, hər şey əla idi. Arabir ağ alça çiçəklərini xatırladan ləpələr az qala gəminin göyərtəsinə qədər qalxırdı. Amma nə Ayzər, nə də onun iti ilə pişiyi bunu veclərinə almırdılar. Onların nəhəng gəmisi harasa uzaqlara üzürdü.

—Yaxşı, siz bilən hara üzürük belə! — deyə Ayzər pişikdən soruşdu.

—Miyo, pişik belini qabardıb qabağa baxdı.

—Deməli sən də bilmirsən?!

—Ham, ham, — it söhbətə qoşuldu. Onun açıq ağzından qırmızı dili çölə çıxmışdı.

—Necə? deyə Ayzər itin verdiyi məlumatdan heyrətləndi. — Dünya səyahətinə! Bircə bu çatmırdı! Bəs anam necə olsun, hə? İndicə bazardan qayıdıb bizi görməsə, harada axtara bilər? Heç olmazsa dünyanın hansı ölkəsinə üzdüyümüzü biləydik.

—Miyo, miyo, — pişik birdən qabağa sıçradı. O, gəminin göyərtəsindən düz dalğaların içinə atıldı.

İt də, Ayzər də pişiyin balaca bir suitinin dalınca necə üzdüyünü gördülər. Suiti dalıa sürətlə üzüb suyun alt qatında gizləndi. Pişik yalnız onun uzun quyruğunda kiçik bir parçanı qopara bildi.

—Bir də belə özbaşınalıq etsən səni sahilə çıxan kimi gəmidən qovacağam, — deyə Ayzər üzünə tökülən qısa xurmayı saçlarını qulağının dibinə apardı. — Eşitdin? Əslində mən bunu sənin xeyrin üçün deyirəm. Az qala boğulub ölmüşdün.

Pişiyin onsuz da qanı qaralmışdı. Balaca suitini tuta bilməmişdi.

Bu zaman it Ayzərin ətəyindən çəkib hürdü.

—Nə olub? — deyə qız təəccüblə ona baxdı.

—Ham, ham, ham!

Ayzər it hürən tərəfə baxıb lap məəttəl qaldı. Yaşıl suyun üzündə üç-dörd toyuq və bir qırmızıquyruq xoruz dənlənirdi.

—İşə bax ha! Ayzər həyəcanlandı — Onlar boğular ki!

—Ham, — it onun sözünü təsdiq etdi.

—Miyo, — pişik də həyəcanını bildirdi.

Elə bu zaman qəribə bir əhvalat oldu. Bir sərçə ağ belini gəminin göyərtəsinə kimi qaldıran dalğanı alça ağacı hesab edib, onun budağına qondu. Ən qəribəsi isə bu oldu ki, pişik elə həmin anda sıçrayıb, sərçənin quyruğundan yapışdı. Sərçə havaya qalxdı. Amma pişik gumbultu ilə suya batdı və birtəhər üzüb gəmiyə qayıtdı.

Amma Ayzərlə it onun qabağını kəsdi.

İt hirsli olduğunu bildirmək üçün ağzını göyə tutub uladı:

—Uu...uu...uu!..

Bu o demək idi ki, belə biabırçılıq olmaz. Əgər dünya səyahətinə çıxmışıqsa, bu nə biabırçılıqdı pişik eləyir? Pişik də lap yavaşdan miyoldamaqla üzr istədi. Amma it dişlərini necə qıcırdadıb onun üstünə cumdusa, yazıq pişik qaçıb bayaqkı dalğanın üstünə mindi. Sonra qayıtdı. Daha Ayzərin də hirsi soyumuşdu. Əslində o indi dostlarının günorta yeməyinin qayğısına qalmalı idi. Buna görə də gəminin aşağı mərtəbəsinə düşüb, vaxtilə evin mətbəxi olan, indi isə yəqin ki, gəminin bufeti sayılan balaca otağa girdi. Bura əsl bufet idi ki, durmuşdu.

Soyuducuda demək olar ki, hər şey vardı. Ayzər divardan asılan önlüyü döşünə bağladı. Önlük onun ayaqlarına qədər sallandı. Amma bunun elə bir ziyanı yox idi. Məsələ burasında idi ki, o əsl önlük idi. Və qız da onu döşünə taxandan sonra əsl aşpaza oxşadı. Qazanı qazın üstünə qoyub, içinə bir qaşıq yağ tökdü. Qazı yandırıb kartof soymağa başladı. Alabaşın həyəcanlı səsi göyərtəni başına götürmüşdü.

—Ham-ham-ham-ham!

—Ola bilməz! — deyə Ayzər bufetdən qışqırdı. — Dəniz quldurları qabağımızı kəsməyə hazırlaşır?

—Miyo, — pişik də onun sözünü təsdiq etdi.

Ayzər tez göyərtəyə qalxdı. Uzaqda qaraltı görünürdü.

Aydın məsələdir ki, bunlar dəniz quldurları idi. Təcili iş görmək lazımdı. Yoxsa dəniz quldurları onları soymamış buraxmazlar.

Ayzər uzun süngünü qapdı. İt qalxan götürdü. Pişik tüklərini qabartdı. Ayzərin götürdüyü süngü cəmi iki saat qabaqkı uzun bir ağac idi. Anası paltar yuyub sərdiyi ipi yuxarı qaldırmaq üçün bu ağacdan istifadə edirdi.

Xoşbəxtlikdən ev gəmi olan kimi bu ağac da süngüyə çevrilmişdi.

İtin götürdüyü qalxan isə vaxtilə paltar qazanının qapağı olmuşdu. Onun nə zaman qalxana çevrildiyini heç kəs

görməmişdi. İndi iş çətinliyə düşəndə baxıb gördülər ki, qalxan onların qabağında atılıb qalıb.

—Qorxmayın, — deyərək Ayzər qabağa baxdı. —Mən bu saat onlara göstərərəm! Gəmi yavaş-yavaş sahilə yan alırdı. Onlar sahilə lövbər atdılar. Sən demə paltar asılan ipin uclarına lövbər bağlanıbmış. Bu, əlbəttə çox sevindirici hal idi. Yoxsa gəmi sahildə dayana bilməzdi.

Onlar yavaş-yavaş sahilə endilər. Ayzər uzun süngünü düz qabağa tuşlayıb ehtiyatla irəliləyirdi. İt qalxanın sapından tutub onu sürüyürdü. Pişik elə sakit gəlirdi ki, heç ayaqlarının səsi çıxmırdı.

—Sss! — deyə Ayzər barmaqlarını dodaqlarına yaxınlaşdırdı. — Qabaqda zəncirlənmiş iki pəhləvan var.

Mənə elə gəlir ki, onlar dünyanın ən güclü adamlarıdır. Kimsə onları inək şəklinə salıb. Görünür biz sehrbazlar ölkəsinə gəlib çatmışıq.

Bu zaman inək şəklinə salınmış böyük pəhləvan mələdi:

—Mooo!

Onun yanında bağlanmış balaca pəhləvan da eynilə onun kimi yalvarmağa başladı:

—Moooo!

Əlbəttə pəhləvanları zəncirlə deyil kəndirlə bağlamışdılar. Bu, qızı daha da heyrətləndirdi:

—Görünür bu kəndir zəncirdən daha möhkəmdi. Yoxsa kəndirlə pəhləvan bağlayarlar?

—Ham! — alabaş onun sözlərinin tamamilə doğru olduğunu təsdiq etdi.

—Miyoooo! — pişik hər ehtimala qarşı ehtiyatlı olmağı məsləhət gördü.

Bu zaman onlar balaca pəhləvanın böyüyə doğru necə dartındığını gördülər. Ayzər süngünü yerə qoyub ətrafa boylandı. Dəniz quldurları görünmürdülər. Görünür onlar harasa yoxa çıxmışdılar.

Qız pəhləvanların ipini açdı. Onlar bir anda ətrafdakıları yeməyə başladılar.

—Yazıqlar adam olduqlarını tamam unudublar, —deyə Ayzər ah çəkdi. Görünür onları çoxdan sehrləyiblər.

Bu zaman pişik necə miyoldadısa onların hər ikisinin əti ürpəşdi.

—Nə olub? — deyə Ayzər pişiyə tərəf çevrildi. Pişik gəminin qabağında dayanıb yaşıl gözlərini parıldada-parıldada qışqırırdı. Ayzərlə alabaş gəminin yanına çatanda gözlərinə inanmadılar. Bufetin pəncərəsindən tüstü qalxırdı.

—Hammm! — alabaş mühüm bir şey kəşf etdi.

—Deyəsən içəridən yağ yanığı iyi gəlir? Əlbəttə dəniz quldurlarının işidir. Onlar gəmini tutublar. Bizim işimiz olduqca çətindir, — deyə Ayzər titrədi.

—Mmmmyyouuu! — pişik qızın sözlərini təsdiq etdi. Lakin indi biz quldurları necə qovaq. Bir baxın onlar pəncərədən çölə odlu silahdan atəş açırlar.

Doğrudan da pəncərədən əvvəl boğuq tüstü çıxdı. Sonra bu tüstü seyrəkləşdi. İçəridən alov qalxmağa başladı. Bəli, dəniz quldurları iki cəngavərin hayıfını çıxırdılar. Ayzər nizəyə tərəf götürüldü. Alabaş qalxanın dalınca qaçdı. Pişik yaxınlıqdakı ağaca dırmaşıb pəncərədə kimlərin olmasını nəzərdən keçirməyə başladı. Bu zaman yəqin ki, dəniz quldurlarının ağır artilleriyası hücuma keçdi.

Çünki qulaqbatırıcı həyəcan siqnalı hər yanı bürüdü. Ayzər süngüsünü əlinə götürməyə macal tapmamışdı ki, başında dəmir papaq olan brezent paltarlı adamlar gəminin göyərtəsinə qalxdılar. Onlar iri qırmızı maşında gəlmişdilər.

—Biz batdıq. Düşmən bərk hücuma keçib.

Lakin bu adamlar nə dişində qalxan sürüyüb gətirən alabaşa, nə də əlində uzun süngü tutan Ayzərə baxmadılar. Maşınların iri xortumlarından büfetin pəncərəsinə su vurdular.

— Deyəsən bu adamlar bizə köməyə gəliblər? — deyə Ayzər qışqırdı.

—Ham! — bu yəqin it dilində "ura" demək idi. Pişik də sevincək bir səs çıxartdı. Bir azdan dəniz quldurlarının atəşi dayandırıldı. Bufetin pəncərəsindən çıxan tüstü tamam kəsildi.

Amma qəribə geyimli kişilər çıxıb gedəndə Ayzərə də elə onun yanındakı alabaşa da narazı bir nəzər saldılar. Pişik ağacın başında olduğu üçün onu görmədilər.

Hətta onlardan biri bayaq Ayzərin azad etdiyi qəhrəman pəhləvanları yerinə bağladı və barmağı ilə qızı hədələdi. Onlar çıxıb gedəndən sonra Ayzər alabaşa tərəf çevrildi.

—Sən bunların hərəkətindən bir şey başa düşdün?

—Haam! — Alabaş heç nə başa düşmədiyini söylədi.

—Mmmiyo! — Pişik də bir şey anlamadığını bildirdi. Bu zaman ana bazardan qayıtdı. Nə qədər qəribə olsa da ana qapıdan içəri girən kimi sehrli gəmi çevrilib yenə də onların ikimərtəbəli evi oldu. Gəminin göyərtəsinə kimi qalxan ağ ləpələr isə birdən-birə alça ağacına çevrildi. Ayzər inandı ki, ətrafda nəsə bir möcüzəli adam gizlənib.

O istədiyi zaman evi gəmiyə, yaşıl bağçanı dənizə çevirə bilir. Hətta onların inəyi ilə balasını zəncirlənmiş azmana çevirən də yəqin ki, həmin o sehrbazdı. Pəncərədəki söndürülmüş yanğın yerlərini görən ananın həyəcanına qətiyyən fikir verməyən Ayzər bircə şey haqqında düşünürdü. Əgər həmin sehrbazı tapsaydı, onunla ən yaxın dost olardı.

SEHRBAZLA TANIŞLIQ

Əlbəttə, Ayzərin qətiyyən ağlına gəlməzdi ki, evlərini sehrli gəmiyə çevirən o sehrbazla bir gün tanış olacaq. Yox, bunu qətiyyən ağlına gətirməzdi. Amma həyatda təsadüflər olurmuş.

Ayzər əvvəlcə bu adamın həmin sehrbaz olduğunu başa düşmədi. Ancaq bu adamın əynindəki köhnə paltarlarına baxanda ağlına gəldi ki, bu qəribə geyimli adam adi adamlardan deyil. Onun paltarları çox köhnə idi. Hətta o qədər köhnə idi ki, onların nə zamansa təzə olduğuna inanmaq istəmirdin.

Sehrbazın iri gözləri vardı. Yumru, yekə üzünü tük basmışdı. Başına qoyduğu qara beretinin altından uzun ağ tüklər pırtlayıb çıxmışdı. Şalvarı yəqin ki, başqasının idi. Çünki çox yekəydi, əynində yellənirdi. Əslində çox güman ki, pencəyi də başqasınınkıydı. Çünki sehrbazın iri bədəni pencəyə elə bil zorla pərçim olunmuşdu. Köynək isə əyninə görə idi. Alabəzək köynəyin yaxasından sehrbazın tüklü sinəsi görünürdü.

Amma bütün bunlar heç onun vecinə də deyildi. Dünyanın heç bir dövlətli adamı özünü yəqin ki, bu sehrbaz qədər xoşbəxt hesab edə bilməzdi. O, Ayzərgilin küçəsinə gələndə elə bil uşaqlar yerin altından çıxırdılar.

Bütün oyunlar dayanırdı. Futbol topu dərindən nəfəs alıb bir tərəfdə dincəlir,uşaqlar alınlarının tərini silib, sehrbazın ətrafına toplaşırdılar. Sehrbaz:

—Hə, indi mən sizə möcüzə göstərəcəyəm, — deyirdi. Ayzərə elə gəlirdi ki, bütün sehrlər onun sinəsindən qıvrılıb qalxan bu tüklərdədir. Amma sehrbaz doğrudan da qüdrətli sehrbaz idi və heç kəs onun sirrini tapa bilməzdi.

Sehrbaz Ayzərgilin həyətinə keçəndə ana mətbəxi təmizləyirdi. Sehrbaz ayaqlarının ucunda qapıdan keçdi və Ayzərə göz vurdu ki, onun dalınca gəlsin. Alabaş da işin nə

yerdə olduğunu anlayıb onlara qoşuldu. Hardansa Məstan da gəldi

—Miyyyoo!

—Ham-hamm! — alabaş onun sözünü təsdiqlədi.

—Yaxşı bir qoyun görək də! — deyə Ayzər onlara təpindi. Əlbəttə, möcüzə olacaq. Ancaq şuluq salsanız sehrbaz bizdən inciyər. Onlar tövləyə tərəf getdilər.

Sehrbaz əmi sərnic istədi. O qəsdən danışmırdı ki, ana eşidər və yəqin ki, bütün işlər alt-üst olar. Böyüklər sehrbazlığı elə sən deyən qiymətləndirə bilmirlər. Heç onlarla bu barədə danışmasan yaxşıdı. Buna görə də sehrbaz ananı duyuq salmamağı məsləhət gördü.

Ayzər bir göz qırpımında qaçıb sərnic gətirdi. Bu sərnicə ana hər gün inəklərin südünü sağırdı.

Sehrbaz sərnici əlinə götürüb o üz-bu üzünə baxdı. Sonra ağacların alçaq budaqlarını yeyib, yerinə bağlanan buzova tərəf getdi. O, buzovu sığalladı, tumarladı və birdən oturub onu sağmağa başladı.

—Hammm!

—Miyooo!

—Niyə olmur? — deyə Ayzər etiraz etdi. – Ağzında sehrbaz deyirsən. O necə sehrbazdır ki, buzovdan süd sağa bilməyə. Siz elə hər şeyə qulp qoymağı xoşlayırsınız.

Alabaşla Məstan daha etiraz etmədilər. Onlar işin axırını səbirsizliklə gözləməyə başladılar. Bir azdan sehrbaz dolu sərnici yerdən zorla qaldırdı. Sonra elə onların gözlərinin qabağında sərnici başına çəkdi. Yalan olmasın, düz on dəqiqə südü içdi, son qətrəsinə kimi içdi. Sonra dərindən nəfəs alıb, onların yanında oturdu. Ayzərin heyrətdən gözləri açıla qalmışdı. Alabaş sevincini bildirmək üçün bərkdən "huvvv!" elədi. Məstan necə sevindisə tullanıb ağaca çıxdı və heç özü də gözləmədiyi halda bir sərçə tutdu. Sən demə sərçə də sehrbazın

əməllərinə baxırmış və yazıq özünü necə unudubmuşsa pişiyin yaxınlıqda olduğunu qətiyyən görməyibmiş.

—İndi isə ardımca! — deyə sehrbaz əmr etdi. Uşaqlar onun sürətlə şütüdüyünü gözdən qaçırmadan dalına düşdülər. Alabaş bir az qabağa keçmək istəyirdi ki, sehrbaz dilləndi:

—Qabağa soxulma!

Pələng bağırsaqlarını çölə tökər! Pələng adını eşidən kimi Alabaş geri sıçrayıb nazik səslə zingildədi. Ayzər sehrbazın sallanan pencəyinin ətəyindən yapışıb titrədi. Onlar diqqətlə qabağa baxa-baxa gedirdilər. Dalınca sehrbaz yavaş-yavaş yeriyirdi. O, iri gözlərini qabağa zilləmişdi. Bir azdan həyət bağının lap dib tərəfinə yaxınlaşdılar.

—Siz burada dayanın. Pələnglər çox hiyləgər və cəld olurlar.

—Miyyoooo! — Məstan onun sözünü təsdiq etdi və özünün də pələngə oxşadığını göstərmək üçün belini qabartdı. Sonra qabaq ayaqlarını uzadıb bərkdən gərnəşdi. Amma onun bü hərəkətlərinə heç fikir verən də olmadı. Sehrbaz ağacların arasında gözdən itdi. Bir azdan pələngin qulaqbatırıcı səsi bağı başına götürdü. Quşlar pırr eləyib uçdular. Sonra pələngin səsinin boğulduğunu uşaqlar aydınca hiss etdilər. Heç bircə dəqiqə keçməmişdi ki, sehrbaz ağacların dalından tullanıb çıxdı. Onun təkcə əlinin üstü qanamışdı. Görünür pələng onu cırmaqlaya bilmişdi.

—Əlimdən qaçdı, — deyə sehrbaz qaşqabağını salladı. — Lap son anda əlimin üstünü cırmaqlayıb hasardan tullandı.

Səsə ana çölə çıxdı. Uşaqlar əlbəttə ananın çölə çıxmasını istəmirdilər. Sehrbaz, səssizcə uşaqların yanından necə uzaqlaşdısa bir də baxdılar ki, yoxdur. Axı böyüklər demək olar ki, sehrbazlığın nə demək olduğunu başa düşmürlər.

Ayzər hələ də həmin sehrbazın yolunu gözləyir. Təəssüf ki, sehrbaz daha bu yanlarda görünmür.

YARPAQ ÇƏLƏNGİ

u əhvalat olanda dünyada insan yox idi. Dünya başdan-başa dumana bürünmüşdü. Küləklər şən-şən fit çalır, yağış ortalığa düşüb oynayırdı. Ağaclar çılpaq bədənlərini bilmirdilər ki, harada gizlətsinlər. Bu mənzərəyə baxan ildırımlar şaqqanaq çəkib elə gülürdülər ki, yer-göy lərzəyə gəlirdi. Ağaclar qorxudan tir-tir titrəyirdi.

Günlərin birində göydə nəsə parlaq bir şey yandı. Küləyin, yağışın və ildırımın gözləri qamaşdı. Onlar dəli bir nərə çəkib dünyanı dolanmağa başladılar. Düz üç gün, üç gecə tufan oldu. Dördüncü gün buludlar aralanıb Günəşə yol verdilər. Torpaq isindi, çiçəklər açdı, ağaclar yarpaqlamağa başladı.

Ağaclar fikirləşdilər ki, onlara həyat verən Günəşə nə hədiyyə hazırlasınlar. Budaq və yarpaqlardan ibarət gözəl bir çələng hazırlayıb onu Günəşə uzatdılar. Dabanlarını nə qədər qaldırıb çələngi yuxarı tutdularsa da Günəşə çatmadı. Onlar ruhdan düşmədilər. Düzəltdikləri çələngi əllərində tuta-tuta qaldılar.

Bir azdan qış gəldi. Ağacların çoxu Günəşi göydə görməyib elə bildilər ki, daha o heç zaman çıxmayacaq. Buna görə də çələnglərini qurudub tökdülər. Ancaq bəzi ağaclar — Sərv, Şam, Küknar, Qayın, Zeytun çələnglərini aşağı salmadı.

Yaz gələndə o biri ağaclar tələsik yenə də yarpaq çələngi düzəldib günəşə tərəf qaldırdılar və yarpaq dilində bir-birinə dedilər:

—Günəşin yanında biabır olduq. Ona öz sədaqətimizi axıra kimi göstərə bilmədik.

Amma Günəş böyük və əzəmətli idi. O belə şeylərə qətiyyən fikir vermirdi. Əvvəlki kimi şüalarını dünyaya bol-bol paylayır və çalışırdı ki, heç kəsin payı əskik olmasın.

UÇMAQ İSTƏYƏN ÇİÇƏKLƏRİN ƏHVALATI

Bu əhvalat lap günün qızmar çağında baş verdi. Kəpənəklər elədən-belə uçub zərif qanadlarını hamıya göstərirdilər. Əhvalat da elə bu zaman baş verdi. Əvvəlcə lalələr qırmızı qanadlarını açdılar, başlarını tərpətdilər, nə qədər yelləndilərsə bir şey çıxmadı. Onlar heç köklərindən qopa bilmədilər. Kökündən qopa bilməyəndən sonra daha uçmaq olardımı? Sonra qaymaqçiçəkləri ləçəklərini tərpətdi. Onlar da başlarını yellədib sağa-sola əyilərək köklərindən qopmaq istədilər. Heç bir şey çıxmadı. Bir azdan bütün çəmən bu şən məşğələyə qoşuldu. Amma uça bilmədilər. Torpaq ayaqlarından tutub onları aşağı dartırdı.

İşi belə görəndə çiçəklər günəşin şüalarından yapışıb köklərindən qopmağa çalışdılar. Qaymaqçiçəyinə elə gəldi ki, bir az da güc vursa yerdən qopacaq və nə qədər istəsə uça biləcək. Amma günəşin şüaları sürüşkən idi, əllərindən çıxırdı. Düzdü, çiçəklər torpaqdan qopacaqlarına daha ümid etmirdilər. Amma bu məşğələ olduqca maraqlı idi və demək olar ki, axşama kimi bu işlə məşğul oldular.

Göydə bir topa bulud vardı. Çiçəklərin tərpəşməsinə baxanda elə bildi ki, güllər ona əl edirlər.

Buludun milyondan çox gözü var. Hər damla onun bir gözündən düşür. Bulud çiçəkləri, hətta onların üstündəki balaca, xallı böcəkləri də lap yaxşı görürdü. O, gördü ki, lalələr qıpqırmızıdır. Qaymaqçiçəyi sapsarı saralıb. Bənövşə tünd mürəkkəbə oxşayır. O saat başa düşdü ki, çiçəklər susundan yanır. Buna görə də yerə minlərlə damcı göndərdi. Çiçəklər

yağış damlalarında çimməndən sonra bərk yuxuya getdilər. Elə adam da çimməndən sonra yaxşıca yatmaq istəyir. Hə, elə ki çiçəklər yatdılar, deməli daha uçmaq da yadlarından çıxdı. Ən maraqlısı bu oldu ki, onlar yuxularında gördülər ki, kəpənəklər kimi uçurlar. O qədər uçurlar ki, axırda yorulub yatmaq istəyirlər. Amma harada yatsınlar. Axı bütün çiçəklər uçub elədən-belə gedirlər. Kəpənəklər isə qonmağa bir çiçək də tapmırlar. Yuxunun bu dəhşətli yerində ayıldılar. Gördülər ki, elə əvvəlki kimi torpağın, üstündədirlər. Təkcə bir şey artıqdı ki, hərəsinin boynundan bir muncuq asılıb. Ehtiyatla başlarını qaldırıb günəşə baxdılar. Gördülər ki, günəş onların bu gözəl muncuğunu təbrik etmək üçün gülümsünür. Çiçəklər fikirləşdilər ki, qoy belə olsun. Əgər biz də uçası olsaq onda kəpənəklərin dincəlməyə yeri olmaz. Qoy kəpənəklər uçsunlar, biz isə onların zərif və qəşəng qanadlarına baxıb arxalarınca əl edək...

TÜSTÜ

Tüstü başını bacadan çıxaran kimi saysız-hesabsız şüalarını yer üzünə səpələmiş günəşə baxdı. Tüstü bu şüalardan bir neçəsini dəstələyib yuxarı dırmaşmağa başladı. Ağ papağını da gözünün üstünə basmışdı. O qədər qalxdı ki, qolları keyidi.

—Eybi yoxdur, bu gün bir az dincimi alım, sabah yenə dırmaşar, tezliklə Günəşə çataram, — dedi və necə sevindisə ətrafa yayıldı. Amma səhər durub gördü ki, şüaların hamısı onun böyür-başından aşağı şığıyır. Tüstü nə qədər əlləşdisə onların heç birinin ucunu tapa bilmədi ki, tutsun. Şüaların ucu yerdə idi. Heyf ki, geri qayıtmaq mümkün deyildi. Nə qədər çapalasa da bir şey çıxmadı.

Qara bulud dedi:

—Əgər torpağa qayıtmaq istəyirsənsə gərək bir az ağırlaşasan. Torpaqdan qalxan buxarı saxla. Onun canında su var. Belə etməsən heç zaman geri qayıda bilməyəcəksən.

Tüstü buxarın qabağını kəsib ona qarışdı. Gündən-günə ağırlaşmağa başladı. Amma heyf ki, rəngini dəyişib qara buluda çevrildi. Qanı yamanca qaraldı. Necə hirsləndisə gözlərindən od çıxdı. Adamlar onun kirpiyindən çıxan alovu şimşək adlandırdılar. Bu adamlar lap qəribədirlər. Elə iş-gücləri hər şeyə ad verməkdir. Elə ki, onun gözlərindən çıxanı şimşək adlandırdılar, buludun lap qanı qaraldı. Elə qaraldı, elə qaraldı ki, axırda bərkdən nərə çəkdi. İstəyirdi ki, insanları, heç olmasa uşaqları qorxuda bilsin. Amma böyüklər sakitcə dedilər:

—Qorxmayın, sadəcə olaraq ildırım çaxır, vəssalam. Bulud nə qədər qışqırdı, bağırdı heç kəsi qorxuda bilmədi. O boyda bulud axırda necə ağlamağa başladısa düz üç gün gözündən yaş axdı. Uşaqlar yağış damcılarından yaranmış gölməçələrdə qarğı atlarını çapıb göyə baxırdılar: dümağ tüstü topası günəşin şüalarından tutub yuxarı dırmaşırdı. Günəş bu cavan tüstünün cəsarətlə yuxarı qalxmasına baxıb gülümsünürdü.

UŞAQLARIN DOSTU BALİNA

əzər dənizində bir Balina yaşayırdı və gecə-gündüz fikirləşirdi ki, uşaqları boynuna alıb gəzdirsin. Sizə deyim ki, hətta o, yuxusunda görürdü ki, boynuna yüz uşaq alıb dənizin mavi sularında eləcən-belə üzür, onlar da elə şaqqanaq çəkib gülürlər ki, ləpələr nəfəslərini dərib bu gözəl gülüş səslərinə qulaq asırlar. Səhər gözlərini açanda Balina uşaqları görməyib məyus olurdu. Balıqlar onun boynunun dalını qaşıyanda dincəlirdi. Ona elə gəlirdi ki, bu saat boynunu qaşıyan siyənək balığı deyil, uşaqların dırnaqlarıdır. Belə anlarda Balina gözlərini, yumub gülümsünürdü. Günlərin bir günü bu Balina dözə bilməyib Mərdəkan çimərliyinə tərəf üzməyə başladı, Orada başını çıxarıb gördü ki, uşaqlar bir ləzzətlə çimirlər ki, gəl görəsən. Başları oynamağa elə qarışmışdı ki, heç onu görmürdülər. Balina sevindi və sahilə doğru üzdü. Adamlar onu görüb qorxuya düşdülər. Uşaqları sahilə çağırdılar. Balina başını çıxarıb bu qəşəng uşaqlara baxanda isə valideynlər onları tələsik geyindirib şəhərə tərəf qaçmağa başladılar. Uşaqlar qorxudan elə çığırdılar ki, ləpələr də bir anlıq susub onlara qulaq asdı.

Balina uşaqları qorxutduğuna görə yerindəcə donub qaldı və nəhəng bir qayaya çevrildi. İndi uşaqlar hər gün sahilə gəlib həmin qayanın belində gizlənqaç oynayırlar. Balina da bunu hiss edir və xoşbəxt-xoşbəxt mürgüləyir. Ha istəyir ki, başını qaldırıb uşaqlara desin:

—Ay dəcəllər, siz o vaxt mənim nəyimdən qorxdunuz? Elə mən də sizi boynumda gəzdirmək üçün sahilə tələsmirdimmi?

ÇOXLU NAĞIL BİLƏN KÜÇƏ FƏNƏRİ

ünyada küçə fənəri qədər çoxlu nağıl bilən ağlınıza da gəlməsin. Amma neyləsin ki, uşaqlar gecə-gündüz nənələrindən nağıl istəyirlər, fikirləşmirlər ki, dünyanın ən şirin nağıllarını məhz küçə fənəri bilir. Bir özünüz düşünün. Fənər bütün günü küçədən gəlib-gedənləri görür, onların söhbətlərini eşidir. Bir yerdə dayanıb durması onu qətiyyən narahat etmir. Axı, onsuz da hamı gəlib onun durduğu yerdən keçir. Deməli, fənər də elə dünyanı gəzən səyyahlar kimi bir şeydi və buna görə də çox şey bilir. Axşam düşməmiş onun yanına əvvəl Pərvanə gəlib çıxır.

—Bura bax, nənə, bir nağıl başla görək.

Fənər enli şlyapasını düzəldib nağılın əvvəlini başlayır və ən şirin yerində Kəpənək özünü yetirir.

—Xahiş edirəm ki, əvvəldən başlayasınız, — deyə yalvarır.

Orasını da deyim ki, küçə fənərinin ürəyi çox kövrəkdi və heç kəsin xətrinə dəymək istəmir. Buna görə də Kəpənəyin xahişini nəzərə alıb nağılı lap əvvəldən başlayır. Yenə gəlib həmin şirin yerə çatanda Ağcaqanad qan-tərə bata-bata özünü fənərin şlyapasına çırpır, yalvarır ki, nağılı təzədən başlasın.

Pərvanə ilə Kəpənək etiraz edib qışqırırlar:

—Vaxtında gəlib qulaq asaydın. Xahiş edirik mane olma. Ağcaqanad lap nazik bir səslə ağlamağa başlayır:

—Dızzzzz.

—Yaxşı, başlama görək, — deyə fənər nağılın lap əvvəlinə qayıdır. Elə yenə həmin şirin yerə çatanda Danadişi özünü fənərə çırpıb vızıldayır:

—Yox, bu olmadı. Siz məni gözləməyib başlamısınız. Nağılı lap başdan danışın. Ağcaqanad deyir:

—Yaxşısı budur mədəni ol. Salamsız-kalamsız ortaya soxulduğun bəs deyil, hələ bir əmr də verirsən!

—Sənin işin deyil! — Danadişi dirsəyi ilə onu vurmaq istəyir. Ağcaqanad, kəpənək və Pərvanə qorxudan bir az fənərdən aralanıb sonra sakitcə yerlərinə keçirlər. Fənər isə səs-küyü yatırmaq üçün nağılı lap əvvəldən başlayır. Şirin yerinə çatanda Yarasa qanadlarını çırpa-çırpa budağın kölgəsinə qonub gözlərini işıqdan qoruya-qoruya xahiş edir ki, nağıl əvvəldən başlansın.

Orasını da deyim ki, Yarasa hər dəfə nağıla gecikir. O hər dəfə məclisə səhərə yaxın gəlir. Buna görə də yazıq küçə Fənəri nağılını başlayıb onun ən şirin yerinə çatanda səhər açılır. Nağıla qulaq asanlar tələm-tələsik qaçıb dağılır. Fənər də dincəlmək üçün gözlərini yumur. Bu hadisə demək olar ki, hər gün təkrar olunur.

Fənər hələ də həmin nağılı axıra qədər danışıb qurtarmayıb. Böcəklər isə hər gün eyni həvəslə onun başına yığışırlar ki, o nağıla qulaq assınlar. Ürəyiyumşaq küçə fənəri heç zaman etiraz etmir. Amma hər gün böcəklər ona nağılı axıra kimi danışmağa imkan vermir.

ÖRDƏK BALASI

rdək balası yumurtadan çıxan kimi dərin fikrə getdi:

—Doğrudanmı mən yekəlikdə quş belə balaca və çirkin yumurtadan çıxmışam? Əlbəttə, bu, axmaq bir böhtandır!

Ördək balası lap dərindən fikirləşib belə qərara gəldi ki, o, yumurtadan-zaddan çıxmayıb. Ağ buluddan qırılıb yerə düşüb.

—Bu başqa məsələ, — deyə sevincək atılıb-düşdü. — Mən buluddan qırılmayıb, daha yumurtadan çıxmamışam ha?!

Sonra öz-özünə dedi:

—Görərsən, bu axmaq quşlar mənim sözümə inanmayacaqlar. Eybi yoxdur, onlara göstərərəm!

Yanını basa-basa getdi. Qabağına bir kirpi çıxdı.

—Kirpi, ay kirpi, bilirsənmi nə var, mən buluddan qırılıb düşən quşam. Hə, qətiyyən təəccüblənmə. Əgər tüklərimin nə qədər ağ və parlaq olduğuna fikir versən, o saat başa düşərsən ki, düz danışıram.

—Bu nə sarsaqlıqdır? — deyə kirpi qaşqabağını turşutdu və ötüb keçmək istədi.

Ördək balası fikirləşdi: «İndi beləsinin iynələrini tutub dartmayasan, neyləyəsən?»

Belə də etdi. Balaca, sarı dimdiyini uzadıb kirpinin iynəsinin birini dartmaq istədi. İynə dilinə dəyib ağrıtdı.

—Gör necə də iynələri var! — deyib uzaqlaşdı. Kirpi də getdi öz işinin dalınca.

Ördək balasının qabağına bir qu quşu çıxdı.

—Hara belə, ay körpə ördək? — deyə qu quşu onu mehriban dindirdi.

—Mən ördək deyiləm. Ağ buludun parçasıyam! —deyə ördək balası yanını bir az da bərk basdı ki, qu quşu onun sözünə inansın. Qu quşu ördək balasının belə lovğa olduğuna təəssüfləndi. Axı, necə olsa ördək balası onun nəslindən idi.

—Bəlkə yadından çıxıb, sən ördək balasısan, hə? — deyə, soruşdu.

—Yox canım, bir o qalıb ki, ördək balasına oxşayam! Mən bulud parçasıyam, vəssalam. Özü də bax, o buludun parçası, — deyə ördək balası göydəki ağ buludu göstərdi. — Əgər doğrudan da qohumuqsa məni öz buluduma çatdır. Arxası ilə işin yoxdur.

Ördək balası elə bilirdi ki, buluda kimi qalxsa orada rahatca uça bilər. Amma onun qanadları hələ bərkiməmişdi. Buna görə də hələ uça bilməzdi. Qu quşu ördəyin xahişini yerə salmadı. Buna görə də dedi:

—Yaxşı, gəl çiynimdə əyləş, səni öz buluduna çatdırım. Ördək balası qalxıb Qu quşunun qanadlarının arasında oturdu. Onlar havaya qalxdılar.

Qoy ördək balası buluda tərəf uçmağında olsun, sənə danışım tarakanlardan. Tarakanlar çoxdan idi ki, göldə üzmək istəyirdilər. Amma ayaqları yox idi. Elə ki, bizim ördək balası yumurtadan çıxdı, tarakanlar baxıb gördülər ki, iki parça olmuş yumurta əsl qayıqdı ki, var. Onlar yumurtanın iri parçasını sürüyüb gölə saldılar və onun içinə doluşdular. Bax, buna deyərəm dəniz səyahəti. Doğrudur, tarakanların üzdüyü göl balaca gölməçə idi. Amma onlar xeyli mübahisə edəndən sonra qərara aldılar ki, bu gölməçə əsl dənizdir ki var. Ən iri tarakan bığlarını dik tutub dedi:

—Bu ağ gəminin kapitanı mənəm!

Bu sözə tarakanların hamısı sevindi. Fikirləşdilər ki, bu böyüklükdə kapitanı olan gəmi heç zaman batmaz. Ağ gəminin kapitanı həvəslə deyirdi:

—Heç bilirsiniz içində əyləşdiyiniz bu gəmi kimin paltarıdır?

Lap balaca bir tarakan yumurtanın içindən ördək balasının çıxdığını gözləri ilə görmüşdü. İstədi ki, dillənsin, birdən kapitanın gur səsi onun sözünü ağzında qoydu.

—Bu nəhəng bir əъdahanın paltarıdır. Soyunanda gözlərimlə görmüşəm.

Balaca tarakan heyrətdən ağzını elə açdı ki, elə bil gəmidəkilərin hamısını udmaq istəyirdi:

—Siz nə danışırsınız, canım, bu, ördək balasının içindən çıxdığı yumurtadır! — dedi.

—Necə? Mən yalan danışıram? Bu boyda da böhtan olar? Doğrudan da bu boyda böhtan olmazdı. Bu yekəlikdə bığı olan tarakan yalan danışa bilərdimi? Kapitan hirslənib dedi:

—Bir az yana durun görüm!

Ağ gəminin kapitanı birtəhər balaca tarakanın bığını əlinə keçirib dartmağa başladı. Balaca tarakanın əli onun bığına çatmadığı üçün yaxınlıqdakı tarakanın bığından yapışdı. Sonra bütün tarakanlar bir-birinin bığından yapışıb dartmağa başladılar. Bir qışqırıq düşdü ki, gəl görəsən. Amma, yəqin ağlınıza da gəlmir ki, bu saat yazıq ördək balasının başında necə fəlakətlər var.

Qu quşu buluda çatan kimi dedi:

—Çatdıq. Düşə bilərsən.

Ördək balasının əl-ayağı titrəməyə başladı. Gözünü yumub buludun üstünə tullandı. Nə qədər qanad çalsa da uça bilmədi. Axı, hələ ətcə qanadları tüklənməmişdi. Daş kimi yerə gəlməyə başladı. Əgər qu quşu özünü ona vaxtında yetirməsəydi yəqin ki, yerə dəyib öləcəkdi. Qu quşu ördək

balasını yerə endirdi və tarakanların ağ gəmidə üzdüyü həmin gölməçəyə saldı. Ördək balası şappıltı ilə gölməçəyə düşəndə tarakanlar bir-birinin bığını yolub qurtarmışdılar. Daha dartmağa bir şey olmadığı üçün barışmışdılar. Ördək balası gölməçəyə düşəndə ağ gəmi yırğalandı və az qaldı ki, çevrilsin. Kapitan bığsız qaldığı üçün burnunu dik tutmaqla kifayətləndi və dedi:

—Siz kimsiniz belə?!

Ördək balası təzəcə özünə gəlmişdi. İstədi yenə bulud parçası olduğunu desin. Amma bayaqkı əhvalatdan gözü qorxduğu üçün dedi:

—Ördək balası! Bəli, siz buna tamamilə inana bilərsiniz. Mən ördək balasıyam və sizin bu ağ gəmi içindən çıxdığım yumurtanın qabığıdır. Amma bu daha mənə lazım deyil. Sizə verirəm. Sağlığınıza qismət olsun.

Əgər ördək balası diqqətlə ətrafına baxsaydı kol dibində oturub onun sözlərinə qulaq asan kirpi və qu quşunu görərdi. Həm də görərdi ki, onlar ördək balasının sözlərinə necə ürəkdən sevinirlər...

ÖLMƏLİ SÖZLƏR

izə bir sirr açım. Mənim Biləndər adlı dostum burnunu hara gəldi soxur. Bu günlər bilirsinizmi o hara gedib çıxıbmış? Hələ heç zaman baş verməmiş əhvalatlar ölkəsinə. Bura belə ölkəymiş ki, orada çoxlu əhvalatlar varmış və Biləndərə deyiblər ki, bu əhvalatlar hələ olmayıb. Günlərin birində bir də gözünüzü açıb görəcəksiniz ki, həmin əhvalatlar yavaş-yavaş baş verir. Olmamış əhvalatlardan biri belədir..

Səhər balaca Aysel yuxusundan durub anasından soruşdu:

—Ana, mənim velosipedim hanı?

—Hansı velosipedi deyirsən? — deyə anası təəccübləndi.

— Öz velosipedimi deyirəm.

Ana heç nə başa düşməyib qızının üzünə baxdı.

—Səni qətiyyən başa düşə bilmirəm, — deyə sualı bir də təkrar etməyi xahiş elədi.

—Mən öz velosipedimi istəyirəm! — qız anasının ağır eşitdiyini güman edib hündürdən danışmağa başladı.

—Axı, qızım, — deyə ana sözə başladı. — Xəbərin yoxdumu sənin işlətdiyin o sözlərdən ikisi ölüb?

—Hansı sözlər? — deyə Aysel təəccübləndi. — Heç söz də ölərmi? Mən belə şey eşitməmişəm.

—Sənin işlətdiyin «mənim» və «öz» sözləri. İndi daha «mənim velosipedim», «öz velosipedim» sözləri yoxdur. Sözlər öldüyünə görə gərək belə deyək «bizim velosipedimiz.»

Ana Ayselin başa düşmədiyini görüb izah etdi:

—İnsanların yaratdığı hər şey hamınındır. Velosiped də, ayaqqabı da, piroъna da. Ürəyin hansını istəyir istifadə edə bilərsən.

VÜQARIN KÖYNƏYİ

nası tapşırardı ki, çayda, çəməndə heç olmazsa köynəyini çıxar. Hər dəfə də köynəyi çıxartmağa Vüqarın səbri çatmazdı. Elə köynəkli-zadlı özünü suya atardı. Doyunca çimib qurtarandan sonra köynəyini çıxarıb sıxardı və başlayardı evlərinə gəlməyə. Bir maraqlı iş də bu idi ki, Vüqar yaş köynəyini salardı çiyninə, başlayardı getməyə. Birdən köynək qışqırardı:

—Düşdüm, məni tut!

Eh, Vüqar onun qışqırığını heç eyninə də almazdı. Buna görə də köynək yolun yarısında düşərdi. Evə çatanda köynək yadına düşər və baxıb görərdi ki, çiynində deyil. Geri qayıdardı. Köynəyi tapıb aşırardı çiyninə. Bir azdan köynək yenə qışqırardı:

—Düşdüm, tut!

Vüqar isə ona cavab vermək əvəzinə quşlara daş atardı. Evə gəlib çatanda köynək yadına düşərdi və yenə də qayıdıb onu çiyninə atardı. Yenə də köynək gur səslə bağırardı:

—Düşdüm, tut!

Vüqar onu tutmaq əvəzinə ağacın bir budağını sındırardı. Axır ki, bir neçə dəfə qayıtdıqdan sora Vüqar köynəyini gətirib evə çıxarardı. Evə çatanda məlum olurdu ki, köynək çoxdan quruyub. Anası onun sözünə baxıb köynəksiz çimdiyinə görə oğlunu öpərdi.

Səhər bu işlər bir də təkrar olunardı. Bax, Vüqar belə Vüqar idi.

YANĞINSÖNDÜRƏN MAŞIN

anğınsöndürən maşın gözlərini qabağa zilləyib durmuşdu. Qanı elə qaraydı ki, heç kirpik də çalmırdı. Gör nə vaxt idi ki, bu boyda şəhərdə bir dəfə də yanğın olmamışdı. Maşın qəsdən qırmızı geyinmişdi ki, heç olmasa yanğının rəngi bu camaatın yadından çıxmasın. Axı insaf da yaxşı şeydir. Bir halda ki, şəhərdə yanğınsöndürən maşın var, deməli gərək bir yanğın olsun, ya yox. Bikar dayanmaqdan onun bağrı çatlayırdı.

Bir dəfə onu şəhərin küçələri ilə elə-belə sürdülər. Deyəsən çəninə su doldurmaq istəyirdilər. Maşın necə sevinclə, qışqırdısa uşaqlar qorxudan dala çəkildilər. Bütün maşınlar ona yol verdilər ki, keçib getsin.

Yanğınsöndürən nəhəng bığları olan bir maşın gördü.

—Bura bax, — deyə həmin maşını səslədi. — Sənin bığların nəyə desən dəyər. Axı, sən nə maşınısan belə?

—Su maşını. Çiçəkləri suvarıram.

—Çox yaxşı, gəlsənə bir az söhbət edək. Bikarçılıqdan lap darıxıram?

—Eh, sən də söhbət etməyə vaxt tapdın də! Bu saat mənim işim başımdan aşır.

Sonra, Su maşını fit çalıb getdi.

Bu zaman haradansa Tramvay gəlib çıxdı. Onun telindən qığılcım çıxırdı. Bu Yanğınsöndürənin lap xoşuna gəldi. Axır ki, bu şəhərdə bir yanğın salmaq istəyən var. Tramvay deyəsən doğrudan da yanğın salmaq istəyirdi.

Tellərindən mümkün qədər çoxlu qığılcım səpələyir, dayanan-da hirslə «drrrı» edirdi.

—Bura bax, gəlsənə dost olaq? — deyə Yanğınsön-dürən dilləndi.

Tramvay ona çəpəki baxıb dərindən bir «drrrı» elədi və dedi:

—Bizimki tutmaz, qardaş. Çünki mənim öz yolum var. Daha ürəyim hara istəsə gedə bilmərəm. İkinci də ki, mən saçımdan od tökürəm, sən isə onu söndürməyə hər dəqiqə hazırsan. Buna görə də sizinlə dost ola bilmərəm.

Tramvay da belə getdi.

Axırda yanğınsöndürən maşın bir uşağa yaxınlaşıb dedi:

—Sizin bu şəhərdə uşaq-zad yoxdur deyəsən?

—Necə yəni yoxdu. Bizim şəhərin yarıdan çoxu uşaqdı.

—Əgər belədirsə, onda niyə bir əməlli-başlı yanğın salmırsınız? Siz necə uşaqsınız?

Uşaq cavab vermədi. Təkcə çantasını yellədi və çıxıb getdi işinin dalınca. Axı, belə bir boşboğazla danışmağına dəyərmi?!

Yanğınsöndürən maşının qanı lap bərk qaraldı və belə qərara gəldi ki hamıdan küssün. Elə də etdi. Hamıdan küsdü, gedib girdi öz qarabına. Yalnız çox nadir hallarda qarabdan çıxıb kirpik çala-çala heç kəsə məhəl qoymadan şəhərin küçələrində sürətlə o tərəf-bu tərəfə gedir. Su maşınını, Tramvayı və həmin uşağı qorxutmaq üçün arabir bərkdən fit çalırdı.

On il əvvəl həmin bu yanğınsöndürən balaca oyuncaq idi və mağazada satılırdı. Onu alıb gətirəndən sonra bir az evdə uşaqlar işlətdi və birdən necə oldusa bir də gözünü açıb gördü ki, yekəlib lap həqiqi yanğınsöndürən olub. —Bax, bu başqa məsələ, — deyə o əsl yanğınsöndürən olandan sonra əlini əlinə sürtüb fərəhlə dilləndi:

—İndi, bir işə yarayaram. Yoxsa adam nə qədər oyuncaq olub qalar?

Bundan sonrakı əhvalatları sən bilirsən. O, böyüyəndən bəri bir dəfə də yanğın olmamışdı və dünənki əhvalatdan sonra maşın necə bərk fikrə getmişdisə yadına doğma «Oyuncaq aləmi» mağazası düşmüşdü!

—Gör günlər nə tez keçdi, — deyə yanğınsöndürən ah çəkdi. Elə bil hər şey dünən, sırağagün olub. Doğma mağazanın gözqamaşdıran vitrinində çox hadisələr baş vermişdi. Amma yanğınsöndürən bir əhvalatı heç vaxt unutmayacaq.

Bu əhvalat gecə hamı yatandan sonra baş vermişdi. Yanğınsöndürənin lap yaxınlığında oturub gözlərini küçəyə zilləyən sarısaçlı oyuncaq Leyla saçlarının ağ bantlarını düzəldə-düzəldə ona dedi:

—Gəl səni bir az sürüm. Boş dayanmaqdan adamın lap ürəyi partlayır. Küçədən keçən oğlanlar isə barmaqlarını adamın gözünə uzatmaqdan ləzzət alırlar. Beləsi ilə heç danışmaq istəmirsən. Amma qızlar çox nəzakətli olur. Onlarla istədiyim qədər oynayıram. Bilmədən saçımdan azca dartsalar da vecimə gəlməz. Dünən balaca bir qız əlini yellədib uzaqdan salam verdi. Hətta əlini dodaqlarına uzadıb mənə yağlı bir öpüş də göndərdi. Mən də onu salamladım. Amma camaat çox olduğu üçün elə-belə gözlərimi parıldatmaqla salamını aldım. Bu qız o qədər gözəl idi ki, heç bizdən seçilmirdi. Mən bu sözləri lap qulağımla eşitdim. Anası onun saçlarını sığallayıb deyirdi:

—Mənim kukla balam!

Yanğınsöndürən daha dözə bilmədi. Leylanın sözünü yarımçıq kəsib dedi:

—Sən də özünü çox öymə. Əslində mənim qızlardan lap zəhləm gedir. Onlar demək olar ki, Yanğınsöndürən maşının nə demək olduğunu başa düşmürlər. Təkcə bantlarını yellətməyi bacarırlar. Axı mənə başa sal görüm heç bantda ağıl olar? Amma siz bantlarınızı mümkün qədər böyük etməklə

özünüzün daha ağıllı olduğunuzu göstərmək istəyirsiniz. Amma bir mənə bax!

Yanğınsöndürən geri çəkildi və bərkdən bağırdı.

—Uuğğuuğğuuğğuu — gördün?!

Leyla uğunub getmişdi. Haçandan-haçana özünə gəlib dedi:

—Bərkdən bağırmağı bacarmaq hələ ağıllı olmaq demək deyil.

Yanğınsöndürən daha dözə bilmədi:

—İndi ağıllı olmağı sənə göstərərəm!

Yanğınsöndürən Leylanı qovmağa başladı. Qov ki qovasan. Onlar çox qaçdılar. Əgər açarla burulub səhərdən axşama kimi idman edən Meymun olmasaydı yəqin ki, hələ çox qaçacaqdılar.

—Sizə nə olub? — deyə Meymun mayallaq aşmağına ara verib soruşdu. —Adamı doyunca mayallaq aşmağa da qoymursunuz.

Orasını da deyim ki, axşamüstü satıcılar gedəndə Meymunun açarını burmuşdular ki, səhərə qədər özü üçün mayallaq aşsın. Buna görə də sevimli məşğələsindən əl çəkmək istəmirdi. Amma uşaqların qaçması da ona mane olurdu.

Balaca yaşıl Qurbağa «kva, kva» deməklə etirazını bildirdi. Meymun hələ də deyinirdi:

—Sizinlə deyiləm? Əgər bir də qaçsanız mayallaq aşıb küçəyə düşəcəyəm və bütün uşaqları çağırıb sizin işlərinizi onlara danışacam.

Əlbəttə, Meymun küçəyə çıxa bilməzdi. Axı maqazinin vitrini qalın şüşədən idi və Meymun nə qədər çalışsa da o şüşənin bir tikəsini də qoparda bilməzdi. Amma Yanğınsöndürənlə Leyla onun bu sözündən qorxdular. O saat səslərini kəsib dayandılar. Yanğınsöndürən lap yavaşdan «uuğğ» etməklə kifayətlənməli oldu.

Səhər satıcılar gəlib çıxdılar. Leylanı da, Yanğınsöndüreni də öz yerinə qoyub işə başladılar. Yanğınsöndürən özü

də hiss etmədən Leylanı sevməyə başladı. Axı, insafla desək o, heç də pis qız deyildi. Qara gözləri və xurmayı saçları parıldayırdı. Ağ ayaqqabıları isə bir cüt balıqqulağına oxşayırdı.

Sizə deyim ki, Yanğınsöndürən də Leylanın xoşuna gəlirdi. Bu maşının bircə nöqsanı vardı ki, o da özündən deməsi idi. Leyla fikirləşdi ki, deyəsən axı, oğlanların çoxu belədi. Buna görə də Yanğınsöndürənin təqsirindən keçirdi.

Onlar beləcə dost oldular. Hərdən gələcək haqqında xəyallara dalırdılar.

—Eh, bircə yanğın olsaydı görərdin neyləyirəm! — deyə Yanğınsöndürən yenə də özündən deməyə başladı. — «Puff»edib bircə anda yanğını söndürərdim. Alovun içindən balaca bir körpəni anasına vermək dünyada nəyə desən dəyər!

Leyla isə gələcək haqqında heç fikirləşməmişdi. Bilmirdi ki, böyüyəndə nə olsa yaxşıdı.

Bütün bunları düşünə-düşünə Yanğınsöndürən yuxuya getdi. Yuxuda gördü ki, haradasa yanğın var. Bərkdən nərə çəkdi:

—Uuğğuuğğuu!

Bilmirəm özünün uğultusunamı, yoxsa telefonun cingiltisinəmi yuxudan ayıldı. Əvvəlcə adamların qışqırıq səs-küyündən başqa heç nə eşitmədi. Birdən başa düşdü ki, doğrudan da hardasa yanğın var və hadisə yerinə tələsmək lazımdır.

Yanğınsöndürən işinin nə yerdə olduğunu başa düşən kimi bilmədi neyləsin. Axı, yanan onun doğma evi — «Oyuncaqlar aləmi» idi. Bu hadisəni eşidən kimi elə bərkdən uğuldadı ki, səsindən deyəsən özü qorxdu və şəhərin küçələrindən sürətlə doğma mağazaya yaxınlaşdı. Hər şey onun gözlərinin qabağında idi. Elə bil ki, Leyla da səhərdən axşama kimi mayallaq aşan Meymun da bu saat qabağına çıxıb qışqıracaqdılar:

—Kömək əlini uzat, qardaş!

Tini burulan kimi mağazanın iri pəncərələri göründü. Amma pəncərələr qatı dumana bürünmüşdü. Xurmayısaçlı satıcı ora-bura qaçır, adamları köməyə çağırırdı. Yanğınsöndürən bircə anlığa satıcıya baxdı və onu o saat tanıdı. Bu, Leyla idi. Deməli doğma yurdu unutmayıb, elə buradaca satıcılığa başlayıb. Amma onunla salamlaşmağa vaxt haradaydı. Alov dilimlənib tavana kimi qalxırdı. Yanğınsöndürən bu qarışıqda bir şeyi də aydın görürdü. Tüstü və alovun bir-birinə qarışmasına baxmayaraq, açarla burulan həmin Meymun hələ də mayallaq aşmaqda idi və elə bil ki, ətrafında bu cür hadisələrin olduğunu qətiyyən görmürdü.

Yanğınsöndürən iri borularını açıb nasosu işə salandə vitrində Leyla ilə onun qaçdı-tutdu oyununa həmişə «Kva-kva» deyə etiraz edən yaşıl Qurbağanı gördü. Əlbəttə o xeyli yekəlmişdi. Yanğınsöndürən gördü ki, Qurbağa ordunu su ilə doldurub Meymunun ətrafına yaxınlaşan alovu söndürməyə çalışır.

—Afərin, — deyə Yanğınsöndürən uğuldadı və alova hücuma başladı.

Alov hind rəqqasları kimi belini əyib tavana kimi qalxdı və necə şaqqanaq çəkdisə meymun bir anlıq mayallaq aşmağını dayandırdı və sonra yenidən can-dildən işə başladı. Alov bir də şaqqanaq çəkib dikələndə meymunun qulağını yaladı və bir də baxıb gördülər ki, onun qulağının dibindəki sarı tüklərin əvəzində qapqara yanıq yeri qalıb. Daha dözmək olmazdı. Yanğınsöndürən bütün gücünü toplayıb meymuna tərəf can atdı. Meymun isə hələ də mayallaq aşırdı. Görünür yanğın başlamamışdan bir az əvvəl onu açarla burmuşdular və bu, meymuna ləzzət etmişdi. Amma bu qədər səs-küyün ona təsir etmədiyini görən Yanğınsöndürən bərkdən bağırdı.

—Uuğğuuğğuuğğuu! — yəni bir dayan görək! Görmürsən aləm dağılır? Meymun adəti üzrə bircə dəfə dayanıb nəsə dedi və yenə işə başladı. Qurbağa isə «Kva-kva» etməklə

kifayətlənməli oldu. Axı, onun əlindən nə gələ bilərdi. Ağzı ilə götürüb üfürdüyü su damlalarını alov göydəcə udurdu. Düzdü, qurbağa bir an da olsa ruhdan düşmür, dostunun xilas olması üçün bütün gücü ilə su pufləyirdi. Amma heyf ki, bunun bir xeyri olmurdu.

Yanğınsöndürən maşın suyu necə fışqırdısa alov yavaş-yavaş geri çakilməli oldu. Axırı ki, yanğını söndürdü. Maşın başdan-ayağa qan-tərə batmışdı. Axı, olduqca çətin bir işi görüb qurtarmışdı. Öz doğma evini yanğından xilas etmişdi.

İşini qurtarıb geri çevriləndə əvvəlcə şəhərdə rastlaşdığı oğlanı gördü. Onun gözündə deyəsən yaş vardı. Amma sevindiyindənmi, ya kədərindənmi gözləri yaşarmışdı — bax bunu müəyyənləşdirmək Yanğınsöndürən üçün çətin oldu. Təkcə onu gördü ki, oğlan gözlərinin yaşını silib ona baş əydi. Şübhəsiz ki, bu «Sağ ol» demək idi. Sonra oğlan həsrət-həsrət hələ də mayallaq aşan Meymuna baxdı:

—Bilirsiniz, — deyə oğlanın səsi titrədi, — mən onu çox sevirəm. Dünyada bəlkə də ondan işgüzar və vicdanlısı yoxdur. Ən çətin anda belə o, necə həvəslə mayallaq aşdığını yəqin ki, gördünüz. Beləsini sevməmək olarmı?

Yanğınsöndürən oğlana nəsə mühüm bir söz demək istəyirdi. Lakin buna imkan tapmadı. Çünki lap yaxınlıqda duran su maşını ona baş əyib dedi:

—Bağışlayın, mən gərək ki, sizin qəlbinizə dəymişəm. —Amma siz doğrudan da cəngavər imişsiniz. Hər cür ehtimala qarşı su gətirmişdim ki, birdən lizım olar.

Bunu deyib o iri bığlarından su fışqırdı. Uşaqlar ləzzətlə onun suyunda əllərini yuyur, çığırışırdılar. Yanğınsöndürən su maşınına da çox mühüm bir söz demək istəyirdi. Amma od tökə-tökə gələn tramvayı görüb qışqırdı:

—Ehey, dünyanı yandırmaq istəyən, bir az yavaş...

Bu zaman qarşısında Leylanı gördü! Doğrudur, qorxudan onun sifəti xeyli uzanmış, saçları pırtlaşmışdı. Amma

Leyla gülürdü. Yaxınlaşıb hələ kukla olduğu zaman boynunda gəzdirdiyi parlaq dairəni onun qabaq buferinə taxdı:

—Qoy hamı bilsin ki, sən qəhrəmansan! — dedi. Yanğınsöndürən Leylaya da nəsə çox mühüm bir söz demək istəyirdi. Amma heyf ki, o mühüm sözün nədən ibarət olduğunu yadına sala bilmədi və yavaş-yavaş, tələsmədən şəhərin küçələri ilə geri qayıtmağa başladı. Yanğını vaxtında söndürməyinə baxmayaraq onun qanı bərk qara idi. Bir azdan ağlamağa başladı. Borularından göz yaşları dama-dama gedirdi. Birdən Leylaya da, Meymunun dostu o oğlana da, su maşınına da deyəcəyi o mühüm söz yadına düşdü. Sadəcə olaraq qəti qərara aldı ki, sabahdan təqaüdə çıxsın. Yox, yox, işin qorxusundan yox, sadəcə olaraq o, daha heç yerdə yanğın olmağını istəmirdi. Leylanın verdiyi o parlaq dairə onun üçün nə qədər əziz olsa da daha yanğın olmasını qətiyyən istəmirdi.

Bir neçə gündən sonra. Yanğınsöndürən küçəyə çıxıb fit çaldı. Bu dəfə onun fiti heç kəsi qorxutmadı. Əksinə, nədənsə uşaqlar bu fiti eşidən kimi tökülüb gəldilər. Onlar təklif gözləmədən maşına dırmaşdılar. Təkcə meymunun dostu oğlan tərəddüdlə baxırdı. Yanğınsöndürən dedi:

—Nə gözlərini döyürsən, minsənə!

Oğlan bir göz qırpımında atılıb maşının çiyninə çıxdı. Yanğınsöndürən bərkdən qışqırdı:

—Uuğğuuğğuğğuu!

Amma daha camaat qorxub qaçmadı. Bu gün onun səsi elə ahəngdar idi ki, heç özü də bilmirdi ona nə olub. Gəlib «Oyuncaq aləmi» mağazasına çatdılar. Onun vitrinlərini təmizləyib düzəltmişdilər. Leyla içəridən onlara əl eləyib salamladı. Yanğınsöndürən gözlərinə inanmadı. On il əvvəl onların oturduğu yerdə indi bapbalaca bir Yanğınsöndürən qoyulmuşdu. Onun yanında elə Leylaya oxşayan xurmayısaçlı qız dayanmışdı. Meymun yenə də atılıb-düşür, mayallaq aşırdı.

Birdən gəlincik nə dedisə Yanğınsöndürən onu qovmağa başladı. Meymun bircə anlıq işini yarımçıq qoyub

onlara nəsə dedi. Heç şübhəsiz ki, onları bu saat küçəyə atacağı ilə hədələdi. Yaşıl qurbağa «kva-kva» edərək əvvəlki kimi öz etirazını bildirdi. Bütün bunlar uşaqların gözünün qabağında oldu, onlar doyunca güldülər, amma qətiyyən başa düşmədilər ki, nə üçün Yanğınsöndürən əvvəl gözlərinin yaşını sildi, sonra göyə baxıb gülümsündü.

Günəş heç zaman bugünkü kimi parlaq olmamışdı. Deyəsən o yaranandan bəri şəfəqlərini belə səxavətlə paylamamışdı.

Bilmirəm uşaqlar bunu başa düşdü, yoxsa yox. Amma Yanğınsöndürən günəşin bu qədər parlaq olmağına lap ürəkdən sevindi və bərkdən:

—Uuğğuuğğ! — deyib sürətlə uzaqlaşdı.

SƏMƏNDƏRİN İŞLƏRİ

Bir dəfə Səməndər yolla gedirdi. Gördü ki, yolun qırağına balaca bir daş düşüb. Daşı götürüb dedi:

—Yəqin bu daş quşa atmaq üçündür. Yoxsa yolun qırağında havayı niyə durub?

Daşı götürüb quşa tərəf tolazladı. Daş gedib bir pəncərəyə dəydi və şüşəni çilik-çilik etdi.

—Sən demə bu daş pəncərə şüşəsini sındırmaq üçün imiş, —deyib heç nə olmayıbmış kimi fit çala-çala getdi.

Gördü ki, yola bir mismar düşüb. Dedi:

—İşə baxın, bu mismar yolun içində boş-bikar veyllənir. Ancaq o, taxtaları bir-birinə bərkitmək üçündür.

Mismarı götürüb gəldi dənizin sahilinə, iki qayığı yaxınlaşdırıb mismarla onları bir-birinə bərkitdi.

—Bu başqa məsələ, indi bir işə yaradın!

Səməndər gedəndən sonra balıqçılar qayıqları bir-birindən güclə ayırdılar və mismarı bir tərəfə tulladılar.

Bu zaman Səməndər heç bilirsiniz neyləyirdi? Tapdığı balaca şifer parçasını vurmağa taxtapuş axtarırdı. Axtardı, axtardı, axırda gəlib mal tövləsinin belində bu şifer qırığı boyda bir deşik tapdı. Amma nə qədər çalışdısa şifer qırığını həmin deşiyə vura bilmədi. Çünki, şifer parçasını mismarsız və çəkicsiz vurmaq olmazdı. Heç olmasa mismar olsaydı onu daşla da vurmaq olardı. Səməndər indi başa düşdü ki, nə bayaqkı daş pəncərə sındırmaq üçünmüş, nə də mismar qayıqları bir-birinə bənd etmək üçünmüş. İndi onlar olsaydı Səməndər çətinlik çəkmədən bu şifer parçasını mal tövləsinin taxtapuşundakı deşiyə vura bilərdi.

BƏDNAM VƏ XEYRİ

ədnam dünyanı dağıtmaq barədə çoxdan fikirləşirdi. Əgər yolunuz onun zirzəmisinə düşsəydi gözləriniz kəllənizə çıxardı. Cürbəcür partlayıcılar, benzinlə dolu şüşə qablar zirzəmini ağzına kimi doldurmuşdu. Bədnam işə başlamaq üçün çoxdan fürsət gözləyirdi. Heyf ki, həmişə bir əngəl çıxırdı. Əngəl deyəndə ki, hər dəfə işə başlamaq istəyəndə tək səbir gəlirdi. Bədnam partlayıcıları qoltuğuna doldurub çölə çıxmaq istəyəndə tək səbir tapança kimi açılırdı:

—Həptsiii!

Bədnam xeyli fikirləşdi ki, bu tək səbirlə neyləsin. Axırda belə qərara gəldi ki, burnunu bərk tutsun.

Belə də etdi. Burnunu bərk tutub partlayıcıları qoynuna doldurdu. Burnu top kimi şişdi və az qaldı ki, asqırıq barmaqlarını boşaldıb özünə yol açsın. Amma buna da Bədnam deyiblər. Burnunu elə bərk sıxdı ki, təkcə lap yavaşca bir səs çıxdı:

—Çırt. —Vəssalam. Daha heç bir səbir-zad gəlmədi.

—Belə! — deyə Bədnam benzinlə dolu şüşəni götürüb evdən çıxdı. O, əvvəlcədən bilirdi ki, dünyanı dağıtmaq üçün haradan başlamaq lazımdır. Bələdlədiyi qayanın yanına gəldi. Benzinlə dolu şüşəni qayanın dibinə qoyub kibriti yandırdı.

—Əvvəl bu qayanı yox edək, gərək başımıza nə gəlir, — deyə həvəslə əllərini bir-birinə sürtdü. Od yavaş-yavaş benzinlə dolu şüşəyə tərəf getdi.

Nə qədər gözlədisə şüşə partlamadı. Bədnam partlayıcıları çıxarıb bir-bir qayaya çırpdı ki, heç olmasa gurultu olsun. Amma partlayış olmadı. Yəqin təəccüblənirsiniz ki, bu necə olan işdir? Hə, bir şeyi yaddan çıxarmışam: Bədnamın kiçik oğlu Xeyri atasından gizlin onun zirzəmisinə girib partlayıcıları zərərsizləşdirmişdi, şüşələrin benzinini boşaldıb yerinə su doldurmuşdu.

İşi belə görən Bədnam cin atına mindi. Sonra da bu atı çapıb başqa ölkəyə getdi. İndi dünyanın hansı ölkəsindəsə yaşayır. Xeyri isə bu əhvalatı yoldaşlarına danışıb. Deyirlər Bədnam dünyanı dağıtmaq fikrindən hələ də əl çəkməyib. Amma bu işi görə biləcəkmi? Deyə bilmərəm. Axı, daha uşaqlar onun işlərindən xəbərdardırlar. Ağlım kəsmir ki, Bədnam onların gözündən yayınıb dünyanı yandıra bilsin.

QAZ TÜKÜ İLƏ KƏPƏNƏYİN ƏHVALATI

Qazın balaca lələyi çəmənlikdə qalmışdı. Birdən meh əsməyə başladı və tükü havaya qaldırdı.

—Yox, mən kəpənək-zad deyiləm, — deyə qaz tükü fikirləşirdi. — Gərək ki mən qazam, hə? Əlbəttə qazam, kəpənək deyiləm ha!.

Balaca bir kəpənək onun yanına uçub soruşdu:

—Bura bax, sən nə quşsan belə?

—Nə cürət edib mənim yanımla uçursan? Qorxmursan ki, sənə bir dimdik vuraram? — deyə qaz tükü kəpənəyin sualına cavab vermək əvəzinə onu qorxutdu. —Vvuu...

Kəpənək əvvəlcə qorxdu. Çiçəyin dibinə qonub qanadlarını yığdı. Sonra lap yuxarı qalxan qaz tükünün arxasınca baxıb gördü ki, dimdiyi-zadı yoxdur. Onun yanına uçub dedi:

—Ay zarafatcılsan ha, qardaş. Məgər sənin dimdiyin var ki, məni tutasan?

Qaz tükünün burnunda balaca bir sümük vardı. Onu göstərib dedi:

—Bu böyüklüyündə dimdiyimi görmürsən? Amma mən pis qaz deyiləm.

Bu zaman meh bir az da gücləndi və qaz tükünü kəpənəyə doğru apardı. Qaz tükü işi belə görüb burnunu duz tutub qışqırdı:

—Bu saat sənə göstərərəm! Vvvuuu...

Kəpənək lap bərk qorxdu. Çaşdığından bilmədi ki, hara qaçsın. Onlar beləcə xeyli uçdular.

Birdən yağış yağmağa başladı. Qaz tükü başa düşdü ki, əgər onun üstünə su düşsə axırıdı. Daha külək onu heç yerə

apara bilməyəcək. Axı, onu göylərə qaldıran külək idi. Buna görə də qaz tükü kəpənəkləri qorxudurdu. İndi isə deyəsən axırı çatmışdı. Buna görə də kəpənəyi çağırıb dedi:

—Qardaş, məndən qorxub-eləmə. Əgər imkanın varsa kömək əlini uzat.

Aydın məsələdir ki, kəpənək onun sözünə inanmadı. Və elə hər şey də bu zaman baş verdi. Bir neçə yağış damlası dalbadal qaz tükünün düz üstünə düşdü. O, havada mayallaq aşdı və yavaş-yavaş çəmənliyə doğru enməyə başladı.

Yazıq qaz tükü...

SU BORUSU

şaqlar dənizin dayaz yerinə su borusu basdırmışdılar ki, hərdən nişangah kimi istifadə etsinlər. Su onun düz boğazından idi və hərdən ləpə gələndə ağzına su dolurdu. Belə vaxtlarda o, suyu ağzından kənara sıçradıb deyirdi:

—Elə əslində mən də balığam və onlardan demək olar ki, heç nə ilə geri qalmıram.

Bunu deyib suyu necə üfürdüsə balıqlar qorxub dağıldılar. Ağ balıq uzun burnunu göyə tutub dedi:

—Babamın uzun burnuna and olsun ki, bu, qeyri-adi balıqdı.

Balıqlar xeyli onun ətrafında fırlanıb axırda bir az cəsarətləndilər və soruşdular:

—Bura bax, qardaş, sən nə balığısan belə?

Boru ordunu su ilə doldurub «puff» elədi və dedi:

—Mənə dəmir balıq deyərlər. Bədənim də xalis poladdandı.

Doğrudur, boru poladdan deyil, sadəcə misdən idi. Amma o, misdən olduğunu niyə deyəydi ki? Delfin dedi:

—Sən necə balıqsan ki, heç üzməyi də bacarmırsan? Elə səhərdən axşama kimi bir yerdə dayanıb qalırsan? Sənin yerinə darıxırıq?!

Boru hirslənib lap bərkdən «puff» elədi və balıqlar yenə də qorxub aralandılar.

—Eh, qorxaqlar, — deyə Boru uğunub getdi.

Uzunburun balıq dedi:

—Babamın uzun burnuna and olsun ki, mən öz burnumu onun bədəninə toxundura bilərəm. Amma bir az qorxuram.

—Qorxmasam elə mən də məmnuniyyətlə belə bir iş edərəm. Nədənsə mənə elə gəlir ki, onun bədəni ləzzətli olmalıdır, — deyə siyənək balığı dilləndi. .

Əslində balıqlar bəlkə də düz deyirdilər. Borunun bədənini ləzzətli yosunlar örtmüşdü.

Balaca bir balıq gözlərini yumub boruya tərəf üzdü. Boru gözləyirdi ki, ləpə gəlsin və onuı ağzını su ilə doldursun ki, bərkdən «puff» eləyə bilsin. Ləpə gəlib ağzını doldurana qədər balaca balıq onun bədənindəki yosunun dadına baxdı və o saat da uzaqlaşdı.

—Lap dadlıdır! — deyə sevinirdi. Axı o, ən böyük igidlik göstərmişdi. Bundan sonra dayanmaq olardımı?! Bütün balıqlar Boruya hücum etdilər.

—Yaxşı! — deyə Boru dilləndi. — Gəlin mərc gələk. Sizin heç biriniz mənim kimi bir yerdə ayaq üstə dura bilməzsiniz.

Balıqlar quyruqlarının üstündə dayanmağa başladılar. Zarafat deyil, mərc gəlmişdilər və gərək uduzmayaydılar.

Amma heç biri bir dəqiqə də dura bilmədilər. Boru sevinclə necə «puff» elədisə su sahilə sıçradı.

Səhər uşaqlar gəlib çıxdı. Boru dedi:

—Eh, bilsəniz bu yaramaz balıqları mərcdə necə udmuşam, həm də onları elə qorxutmuşam ki, daha mənim həndəvərimə də hərlənə bilmirlər.

Uşaqlar onun söhbətinə heç qulaq da asmırdılar. Sadəcə olaraq uzaqdan Boruya tərəf üzür, əllərini ona vurub yenə də geri qayıdırdılar.

Şlyapasını başından heç vaxt çıxartmayan çimərlik köşkü isə gözlərini lap uzaqlara zilləyib uşaqların Boruya bu qədər biganə olmaları barədə düşünürdü. Hərdən isə Borunun üstünə qışqırıb deyirdi:

—Sən də özündən çox demə. Adam bu qədər çərənçi olmaz.

ÇİMƏRLİKDƏKİ KÖŞK

Nəhəng çətirə oxşayan çimərlik Köşkünün işi-gücü səhərdən axşama kimi papağını düz qoyub uzaqlara baxmaq idi. Bütün gəmilərin və yelkənli qayıqların cədvəlini əzbərdən bilirdi. Balıqçı qayıqlarının və nəhəng gəmi dəstəsinin sahilə yan aldığını hamıdan əvvəl o bilirdi və belə ayıq olduğu üçün öz taleyindən olduqca razı idi. Təkcə küləklərlə arası yox idi. Onlar Köşkün enli papağını götürüb özlərininki etmək istəyirdilər. Bir də görürdün Xəzri qəfildən onun papağını qaçırmaq istəyir. Amma Köşk də ayıq idi. Papağı başına bərk basıb deyirdi:

—Dəcəlliyi burax! Zarafat vaxtı deyil!

Günün isti vaxtı adamlar onun kölgəsinə gəlirdilər. Köşk gözaltı baxır və günəşdən bu qədər qorxduqları üçün onlara gülürdü:

—Bura baxın, — deyirdi, — yəni siz doğrudan elə bilirsiniz ki, günəş bu qədər yandırıcıdır?! Səhv edirsiniz. Doğrudur o, günortalar bir az qəzəbli olur. Əlbəttə, buna haqqı var. Axı, siz səhər tezdən çılpaqlanıb düşürsünüz ortalığa. Günəşin şüalarını bədəninizlə tutub saxlayırsınız. Buna görə də günortaya yaxın o hirslənir. Gəlin sizin tükünüzdən dartım görək nə olur. Yük gəmiləri kimi bağırarsınız.

Amma adamlar bu deyingən Köşkün söhbətini heç eşitmək belə istəmirlər. Bu zaman Köşk hirslənirdi:

—Dayanın, sizə göstərərəm. Görün iş hara çatıb ki, sayıb adama qulaq asmaq belə istəmirlər!

Köşk bərk hirsləndiyi üçün kölgəsini mümkün qədər kiçildirdi. Bu zaman adamlar bir-birinə daha yaxın otururdular ki, heç olmazsa başları günün altında qalmasın. Belə vaxtlarda

Köşk elə şaqqanaq çəkib gülürdü ki, gəl görəsən. Adamlar isə onun gülüşünü külək vıyıltısı hesab edirdilər.

Uzaqdan yelkənli qayıqlar görünəndə Köşkün kefi durulurdu. Axı, o tək idi və həmsöhbəti olmadığı üçün darıxırdı. Yelkənli qayıqlar ona əl edib kefini soruşurdular. O da məmnuniyyətlə qayıqlarla söhbətə girişirdi:

—Taleyimdən narazı deyiləm, — deyirdi.

—Bura bax, gəlsənə bir az gəzək, hə? — deyə yelkənli qayıqlardan biri onu dənizə çağırdı. Amma nədənsə bu sözü deyəndən sonra o biri yoldaşına göz vurdu. Qayıqların bir—birinə belə göz vurması Köşkün xətrinə dəysə də özünü elə aparırdı ki, guya heç nə görmədi. Şən-şən dedi:

—Məmnuniyyətlə sizinlə dəniz səyahətinə çıxardım. Mən özüm çox dənizlərdə, hətta okeanlarda üzmüşəm. Dalğanı isə heç zaman vecimə almamışam.

—Di onda tez ol, Həştərxana dəyib qayıdaq, — deyə həmin yelkənli qayıq dilləndi və yoldaşına göz vurdu.

—Bilirsiniz, təəssuf ki, gedə bilmərəm. Əgər mən sizə qoşulub dənizdə veyllənsəm onda bu çimərlikdəki adamlar neyləyər, hə? Bir baxın, onlar mənim ayağıma döşənib yalvarırlar ki, heç yana tərpənməyim. Bir özünüz düşünün, onları qoyub hara gedə bilərəm?!

Ürəyində isə düşündü ki, əgər üzə bilsəydi dəniz səyahətinə çıxmaq heç də pis olmazdı.

Yelkənli qayıqlar əl edib gülə-gülə uzaqlaşdılar.

Sonra haradansa Gilavar gəlib çıxdı, onun papağını başından alıb qaçırtmaq istədi. Köşk isə papağını başına bir az da bərk basdı. Axı, papağı olmasa quruca ağaca oxşayar. Buna görə də gücünü toplayıb papağını qoruyur. Qamətini isə həmişə şax tutur ki, camaat onun küləkdən qorxduğunu qətiyyən hiss etməsin.

DÜNYANI YANDIRMAQ İSTƏYƏN ATƏŞBÖCƏYİ

ir Atəşböcəyi vardı və fikri-zikri bu idi ki, dünyanı yandırsın. Beləcə xeyli fikirləşib işə başladı. Hər axşam camaat yatandan sonra qığılcım tökə-tökə meşəni seyrə çıxdı. Əvvəl şam meşəsindən başladı. Öz qığılcımlarını kolların arasına töküb qaçdı. Səhər yuxudan duran kimi şam meşəsinə tərəf getdi ki, görsün nə var, nə yox. Gördü ki, şamlar yanır. Onların yaşıl alovu buluda kimi qalxır. Atəşböcəyi bir kolun dibində oturub bu gözəl yanğına baxdı və səhərisi gün qaranlıq düşən kimi özünü söyüdlüyə verdi. Tələm-tələsik kolların arasına beş-altı. qığılcım töküb qaçdı. Səhərisi söyüdlüyə gəlib nə görsə yaxşıdı. Söyüdlərin yaşıl alovu salxım-salxım suya tökülür.

—Bax, belə! — deyə dəcəl Atəşböcəyi sevindi. — Yəqin ki, üç-dörd gündən sonra bu meşənin yerində qupquru kötüklər qalacaq.

Bir həftədən sonra Atəşböcəyi yolunu yanğın saldığı meşələrə saldı ki, yanmış kötüklərə baxıb doyunca gülsün.

Meşəyə çatanda gözlərinə inanmadı. Şamlar elə əvvəlki kimi yaşıl alovla şölələnir, söyüdlər yaşıl saçlarını yenə də suya tökürdülər. Atəşböcəyi gördü ki, bütün meşə yaşıl alova bürünüb. Amma ağaclar niyə yanıb qurtarmırdı, bax bunu Atəşböcəyi qətiyyən başa düşmürdü.

ƏLİ İLƏ VƏLİNİN ƏHVALATLARI

irinin adı Əli, o birinin adı Vəli idi. Hər dəfə görüşəndə çalışırdılar ki, bir-birini çaşdırsınlar. Əli deyirdi:

—Dünən bazarda bir cüt ördək ayağını beş manata satdılar. Hə, yadımdan çıxdı deyəm ki, ayaqların üstündə bədən və baş da vardı. Ayaqlar bədəndən ayrılmadığı üçün yeriməyə çalışır, amma onu buraxmırdılar.

Vəli deyirdi:

—Sənin gördüklərin demək olar ki, heç nədi. Dünən «Atalar sözü» kitabı mağazadan çıxıb əvvəl tramvaya, sonra da metroya minib getdi.

—Vəli, elə yalan danış ki, inandırıcı olsun. Heç kitab da tramvaya, ya da metroya minə bilər?

—Yox, mən qətiyyən yalan danışmıram. Axı, kitab bir oğlanın əlində idi...

—Eybi yoxdur, bir sıfır sənin xeyrinə! — deyə Əli dodaqlarını çeynədi və Vəlidən necə intiqam alaçağı barədə düşündü. Səhəri Əli gördü ki, Vəli inəklərini bazara satmağa aparır. «Lap yaxşı oldu. İndi hayıfımı alaram.» Belə fikirləşib Vəlinin dalınca düşdü. Fürsət tapıb inəyin boğazındakı kəndiri açdı. Onu buraxıb kəndiri öz boğazına bağladı. Vəli qabaqda Əli də dalınca bazara getdilər. Vəli müştəri çağırmağa başladı:

—Yaxşı inək var, inək! Gündə iki dəfə sağılır! Hər dəfə bir vedrə süd verir, haradasan ay müştəri!

Qoy Vəli müştəri çağırmaqda olsun, sənə deyim xəsis tacirdən. Bir xəsis tacir vardı. Dünyada ondan xəsis adam

tapılmazdı. O, bazara çıxmışdı ki, görsün nə alıb-satsa qazanc edə bilər. Birdən Vəlinin müştəri çağırdığını görüb ona sarı gəldi. Tacir gördü ki, Vəli inəyini tərifləyir, amma ipin ucuna bağlanan adamdı. Bu işlə çox maraqlandı. Tacir soruşdu:

—De görək inəyi neçəyə satırsan?

Vəli tərifləmək üçün inəyə sarı çevrildi və ipin ucuna Əlinin bağlandığını görüb işin nə yerdə olduğunu başa düşdü. Tez dedi:

—Dünyada mənim inəyim kimi ağıllı heyvan yoxdur: lazım olanda adama çevrilir, lazım olanda inəyə. İnək olanda südünü sağırıq, adam olanda qapıda-bacada işlədirik. Özü də çox güclüdür. Belinə neçə pud buğda qoysan götürər.

Tacir fikirləşdi ki, lap yaxşı oldu, həm südünü sağaram, həm də işlədərəm. Lap ucuz qiymətə Əlini alıb evə aparmağa başladı. Əli işin xarablaşdığını görüb fikirləşdi ki, neyləsin. Bu zaman tacir soruşdu:

—Sən təkcə adama çevrilə bilirsən, yoxsa əlindən başqa işlər də gəlir?

Tacir fikirləşirdi ki, bəlkə bu inək adamdan başqa, məsələn maşına, təyyarəyə də çevrilə bilər. Belə olsa onda kefidir.

—Mən hər şeyə çevrilə bilərəm. Amma sahibim bir şeyi yaddan çıxartdı desin ki, mən ayda bir gün ilana da çevrilirəm. Onda mənim ipimdən tutan adamı çalmasam ürəyim sakit olmaz. Yarım saatdan sonra ilana çevrilməliyəm. Yalvarıram, heç yana qaçma. Yoxsa mən partlayaram.

Tacir bu sözləri eşidən kimi bir götürüldü ki, gəl görəsən. Əli inəyin ipini də götürüb qayıtdı evlərinə.

Əlini aldadandan sonra kefi durulan Vəli səhəri gün inəyini örüşdən tapıb yenə bazara aparırdı. Əli isə aydın işdir ki, Vəlini pusurdu. Bu dəfə Əli inəyin ipini açıb ucuna öz keçisini bağladı. Vəli ipin tərpəndiyini hiss etdi, amma özünü bilməməzliyə vurdu. Gözünün altı ilə baxıb gördü ki, ipin

uçuna bağlanan Əlinin keçisidir. Bazara çatan kimi qışqırmağa başladı.

—Ay keçi alan, ay keçi alan!

Xəsis tacir yenə bazara çıxmışdı. Vəlinin keçi satdığını görüb onun yanına gəldi və dedi:

—Dünən səndən aldığım inək qaçdı. Tez ol pulumu ver.

Vəli dedi:

—Al bu keçini həmin pulun əvəzinə verim. Çox yaxş keçidir. Gündə bir litr süd verir.

Tacir keçini alıb apardı. Uzaqdan bu işlərin axırını gözləyən Əli yenə də uduzduğunu görüb əl-ayağa düşdü. Kəsə yolla gedib dünənki yerdə tacirin yolunu gözləməyə başlndı. Tacir ona çatanda qəfildən qabağına çıxdı. Tacir Əlini görən kimi tirtap yerə yıxıldı. Əli keçini götürüb evə gəldi.

Deyirlər ki, həmin əhvalatdan sonra xəsisin ürəyi partlayıb ölüb.

2

Əli ilə Vəli dişlərini bir-birinə göstərib mübahasə etdilər. Əli dedi:

—Mənim dişim şüşə kimi parlaqdır.

Vəli baş barmaqlarını dodağının iki tərəfinə salıb dartdı və qışqırdı:

—Parlaq diş belə olar! Sənink qurumuş çaylaq daşına oxşayır.

Əli bağırdı:

—Sənin dişin boranı toxumu kimidir, parıldayıb eləmir. Qışqırıb bağırdılar. Axırda bir-birinin saçından tutub dalaşmağa başladılar. Çənələr şaqqıldadı, burunlar qanadı. Yorulub yerə sərildilər.

Baxıb gördülər ki, hərəsinin bir dişi əskikdi. Barışdılar, sonra başladılar itirdikləri dişlərini axtarmağa.

3

—İkisi də yanaşı oturmuşdular. Daha köhnə zarafatları unutmuşdular. Bütün fikirləri onda idi ki, görsünlər kim çox balıq tutur. İşin tərsliyindən Əlinin qarmağına balıq düşür, Vəlinin qırmağına isə heç qurbağalar da yaxın gəlmirdi. Vəlinin qanı qaralırdı. Fikirləşirdi ki, axşam nənəsinə nə deyəcək. Buna görə də balıq tutmaqdan daha çox bu vəziyyətdən çıxmaq üçün yollar axtarırdı. Birdən Əli dedi:

—Mən daha yorulmuşam. Özü də beş balıq tutmuşam. Kəndə qayıtmaq istəyirəm.

Vəli dedi:

—Onda nənəmə de ki, Vəlinin yükü ağırdır, qoy arabanı qoşub dalımca gəlsin. Yoxsa bu boyda balığı kəndə apara bilmərəm.

Əlinin gözləri bərələ qaldı:

—Hanı sənin balığın?

Vəli özünü itirmədi:

—İndi qarmağı atmışam, əgər bir nərə düşsə, sonra qarmağı bir də atacam, əgər yenə də nərə düşsə, onda mənim iki böyük balığım olacaq. Ağzında nərə deyirsən, azı on—on beş kilo əti olur. Bu boyda yükü tək gətirə bilmərəm axı...

Əlini gülmək tutdu.

—Qardaş, səninki olmadı. Bu boyda da yalan olar? Vəli sakitcə dedi:

—Hər halda nənəmə arabanı gətirməyi tapşır. Yoxsa yüküm ağır olar.

Əli dərin fikrə getdi! Vəlinin sözlərini yoxlamaq üçün kəndə getməyə başladı. Çatan kimi Vəlinin sözlərini eynilə nənəsinə çatdırdı. Vəlinin nənəsi dedi:

—Bilirdim ki, nəvəm dünyanın ən qoçaq uşağıdı. Bu saat arabanı qoşub onun dalınca gedərəm.

Əli bütün kəndə səs saldı ki, Vəli çoxlu balıq tutub geri qayıdır. O qəsdən belə deyirdi ki, qoy hamı çölə çıxıb Vəlinin əliboş qayıtdığını görsün. Onda camaat içində biabır olar. Bax, kef buna deyərəm.

Tez balıqlarını evə qoyub kənd yoluna çıxdı. Elə yerdə gizləndi ki, Vəligil gəlib keçəndə onu görməsinlər. Əli Vəlinin doğru danışıb-danışmadığını yoxlamaq istəyirdi. Xeyli gözlədi. Bir də gördü ki, araba səsi gəlir. Təkərlər cırıldayırdı. Deməli araba dolu idi.

İndi sənə deyim Vəlidən. Əli təzəcə aralanmışdı ki, Vəli qanad səsi eşitdi. Nəhəng bir qutan onun yanına qondu. İri dimdiyi, ağ tükləri vardı. Lap yorulmuşdu. Buna görə də daha heç yerə uçmaq fikri yox idi. Vəli onu qucağına götürüb sığalladı. Elə bu vaxt nənəsi gəlib çıxdı. Nənə quşu görüb sevindi.

—Balıq olmasın, quş olsun, — dedi, — təki kəndə əliboş qayıtmayaq.

Onlar qutanı nənənin gətirdiyi səbətə qoyub ağzını örtdülər ki, quş uçub getməsin. Beləcə kəndə qayıtdılar.

Əli gördü ki, araba düz onun tuşuna çatıb. Yavaşca arxadan arabaya mindi və tez səbətə baxdı. Quşu gördü. Əgər Vəli bu quşla kəndə girsəydi camaat içində hörməti artardı. Onda gör nə olardı?! Buna görə də tez səbətin ağzını açıb quşu buraxdı. Vəli qanad səsi eşidib geri çevrildi. Əli işi belə görüb tez səbətə girdi ki, onu görən olmasın. Sonra düşüb qaçmaq asan olardı. Vəli işin nə yerdə olduğunu başa düşüb səbətin ağzını lap bərk bağladı.

Onlar kəndə çatanda çöldə dayanıb onları gözləyən adamları gördülər.

—Afərin, Vəli! — deyə hamı onu tərifləməyə başladı. —Deyəsən ovun uğurlu olub!

—Hə, bu gün çox uğurlu gündür. Bir nərə tutmuşam ki, azı iyirmi kilo əti olar.

—Ay bala, nərə nədi, o ki quş idi? — deyə nənəsi sözə başladı.

—Yox, nənə, yaxşı baxmamısan, əsl nərədir. Adamlar səbəti açdılar. Səbətin içindən Əli çıxdı. Nənə soruşdu:

—Bu nə işdi, ay bala? Biz səbətə quş salmışdıq, sən haradan gəlib çıxdın?

Əli gözlərini ovuşdura-ovuşdura dedi:

—Nənəmin sözünə baxmadığım üçün mənə qarğadı. Dedi görüm səni quş olasan. Bir azdan doğrudan da quş oldum. Uçub dostum Vəlinin yanına getdim ki, görüm neyləyir. Balıqları gətirə bilir, ya yox. Axı o, çoxlu nərə tutmuşdu. Bu boyda yükü gətirə bilməzdi. Siz isə balıqların əvəzinə məni səbətə saldınız.

—Yaxşı, bəs balıqlar necə oldu? — deyə nənə Əlinin sözünə inanıb Vəlidən soruşdu.

—Doğrusu, quşu görüb balıqları suya buraxdım. Axı, onların hamısını gətirib çıxarmaq olmazdı, — deyə Vəli də dostunu darda qoymayıb yalan danışdı.

İT ŞƏHƏRİ

ilmirəm Biləndərin bu söhbətinə inanım ya yox. Axı, ömrümdə İt şəhəri görməmişəm. Amma Biləndər deyir ki, bu əhvalat doğrudan da olub. Sən demə dünyanın hər tərəfindən itlər toplaşıb bir yerdə yaşamaq fikrinə düşürlər. Onlar özlərinə ev tikmək və şəhərlərinə ad qoymaq haqqında fikirləşirlər.

—Bura baxın, — deyə tükləri pırtlaşmış bir it mırıldanır, — mənə elə gəlir ki, biz bu şəhərin adını elə beləcə də qoyaq: İt şəhəri! Vəssalam. Yəqin ki, dünyada ikinci belə bir şəhər olmaz.

—Sən də söz danışdın da! — deyə Qara köpək onun sözünü kəsdi. — Biz buranın adını Köpəklər şəhəri qoymalıyıq. Bax belə! Köpəklər şəhəri.

Küçüklər zingildəşib bir-birinə qarışdı. Onların qarışıq səsindən yalnız bunu eşitmək olardı: Küçük şəhəri. Yəni ki, bu şəhərin adı gərək Küçüklər şəhəri olsun. Beləliklə mübahisə çox uzun çəkdi. İtlər boğuşmağa başladılar. İş bununla qurtardı ki, onların hamısının qulağı qanadı, bədənləri cırıq-cırıq oldu. Axırı belə qərara gəldilər ki, əvvəl şəhəri salsınlar, sonra onun adını yenə də müzakirə edərlər. Amma şəhəri tikib qurtara bilmirdilər. Çünki onlar ən adi bir şeyin üstündə mırıldanıb dalaşırdılar. O qədər boğuşur, bir-birinin qulağını o qədər dartırdılar ki, axırda tamam gücdən düşürdülər.

—Bura baxın, — deyə Boz köpək dilləndi. — Əgər belə getsə biz bu şəhəri nə zaman salıb qurtararıq? Gəlsəniz

gedək yaxındakı şəhərlərə, görək insanlar bu işləri necə görürlər?

Yaxşı ki, bu sözə etiraz edən tapılmadı. Yoxsa yenə də cırmaqlaşma başlayacaqdı. Onlar yola düşdülər. Şəhərə çatanda gördülər ki, burada böyük evlər tikilib və bir binada az qala yüz ailə yaşayır. Qoca köpək işi belə görüb dedi:

—Bizim ki, cırmaqlaşmağa çoxlu həvəsimiz var, belə bir evdə yaşaya bilmərik. Yaxşısı budur ki, hərə öz ölkəsinə qayıtsın.

O vaxtdan daha itlər şəhər salmaq haqqında fikirləşmək belə istəmirlər.

YAŞIL KƏRTƏNKƏLƏ

aşıl Kərtənkələnin bütün çiçəklərlə arası dəymişdi.

—Siz bunlara baxın, — deyə özünü öyürdü, — mənim belimin rəngləri elə çiçəkdən də gözəldir. Bunların isə balaca bir mehdən də ürəkləri gedir, başlarını elə tərpədirlər ki, guya dünyada bunlardan gözəl heç nə yoxdur.

Bu söhbətdən sonra daha çəmənlikdə yaşamaq olmazdı. Yaşıl kərtənkələ yola düzəldi. Çənəsini torpağa sürtüb surətlə ətrafı yoxladı ki, görsün hansı tərəfə getsə yaxşıdır. Sonra tələsə-tələsə çəmənlikdən çıxdı və dərəyə tərəf getməyə başladı. Yolda tovuzquşu onun qabağına çıxıb salam verdi:

—Eşitdim özünə dost axtarırsan? Gəlsənə dost olaq! Üstümün zərləri çiçəklərinkindən əskik deyil!

Kərtənkələ gördü ki, tovuzquşu doğru deyir. Onun quyruğuna elə bil bir topa çiçək bağlamısan. Tovuzquşu par-par parıldayırdı. Kərtənkələ özünü dartıb dedi:

—Bizimki tutmaz. Mən hər dəfə sənə baxanda o yaltaq çiçəklər yadıma düşəcək. Axı, onlar küləyə elə yaltaqlanırlar ki... Yaxşısı budur gedim özümə başqa dost axtarım.

Bu sözləri deyib cavab gözləmədən uzaqlaşdı.

Kərtənkələ dənizə çatanda gözlərinə inanmadı. Ona oxşayan nəhəng bir kərtənkələ sahildə uzanıb gözlərini yummuşdu.

—Salam, ey dünyanın nəhəng kərtənkələsi! — deyə yaşıl kərtənkələ təzə tanışına baş əydi. Sən demə sahildə uzanıb mürgü döyən Kərtənkələ-zad deyilmiş, timsahmış. O, sağ

kirpiyini azca qaldırıb saymazyana baxdı və yenə gözlərini yumdu.

«Deyəsən bəxtim gətirib» — deyə kərtənkələ fikirləşdi. — Gör nə qədər ağıllıdır ki, gözlərinin biri ilə də baxa bilir. Yəqin ki, səsimi eşitmədi, ona görə də gözlərini azca aralayıb yenə də qapadı. Nə olur-olsun onunla dost olmalıyam. Mənim axtardığım elə budur ki var!

Kərtənkələ yaşıl burnunu irəli uzadıb zil səslə yenə də qışqırdı:

—Salam, əziz dost!

Timsaha elə gəldi ki, kimsə lap uzaqda yavaşdan fit çaldı, vəssalam. Buna görə də gözlərinin ikisini də açıb tənbəl-tənbəl ətrafa boylandı.

—Mən buradayam, — kərtənkələ gülümsündü. — Sizinlə dost olmağa gəlmişəm.

Timsah fit səsinin lap burnunun ucundan gəldiyini indicə başa düşdü. Bu balaca Kərtənkələ doğrudan da ona bənzəyirdi. Amma o qədər balaca idi ki, otların içində keçi saqqalına oxşayırdı.

—Yaxşı, — deyə Timsah razılaşdı. — Ancaq biz necə dost olaq?

—Belə də, — deyə sevindiyindən özünü itirən Kərtənkələ bilmədi ki, dost olanda neyləməlidi. — Məsələn, belə edək — haçandan-haçana özünə gəlib: — Mən sənə qonaq gəlim, sən də mənə.

—Yaxşı, mən sənə qonaq getməyə hazıram. De görək günortaya nəyin var?

Kərtənkələ udqundu. Timsahın yekə ağzına baxdı və düşündü ki, onun az qala nehrəyə oxşayan qarnını heç bir inəklə də doyuzdurmaq olmaz.

Deyəsən Timsah kərtənkələnin nə fikirləşdiyini başa düşüb onu çətinlikdən qurtardı.

—Gəl, hələlik sən mənə qonaq ol. Sonrasına baxarıq, — dedi.

Elə bil kərtənkələnin üstündən dağ götürüldü.

—Buyur çayın içinə, — deyə Timsah onu evinə dəvət etdi. «Çayda boğulub ölərəm ki…» — deyə kərtənkələ fikirləşdi. Amma dostunun təklifini yerə salmaq olmazdı. Gözlərini yumub suya tullandı. Elə o saat da boğulmağa başladı. Birtəhər əlləşib sahilə çıxdı və arxasına baxmadan ayağı tutduqca qaçdı. Çaydan uzaq bir yerə gəlib çıxdı. Bura sıldırım qayalıq idi. Kərtənkələ dərindən nəfəs alıb sevindi ki, nə yaxşı sağ qaldım. O vaxtdan Kərtənkələ qayalıqlarda — Timsahdan və çiçəklərdən uzaq bir yerdə-yaşayır. O, qayadan-qayaya sürətlə tullanır və ətrafa tez-tez boylanır ki, görsün Timsah gəlir, ya yox.

TƏMİZKAR AYSEL

əli, təmizkar Aysel evi bəzəməyə başladı. Əvvəlcə stolun ustündəki dəsmalları dartıb yerə saldı. Sonra qabı əyib meyvələri dağıtdı. Stolun üstü ilə diyirlənən almaların dalınca baxıb güldü və əlini qrafinə atdı. Onu necə səliqəli şəkildə əydisə suyun hamısı stolun üstünə, oradan isə döşəməyə süzüldü. Əlini su damcılarının altına tutub xeyli beləcə qaldı. Bir azdan gözü güldana sataşdı. Güldanın yeri qətiyyən xoşuna gəlmədi. Bir anda dartıb yerə saldı.

—Bax, belə, — o, fikirləşdi. İndi deyəsən otaq səliqəyə düşdü.

Bu zaman anası gəldi və yəqin ki, qızının çox səliqəli olduğunu görüb, yerindəcə donub qaldı. Aysel gördüyü işləri anasına göstərib dedi:

—Dızza, dızza.

Yəni necədi, xoşuna gəlirmi?! Məncə evimiz indi daha səliqəli görünür.

Amma Ayselin bu işguzarlığı anasının xoşuna gəlmədi. Bu ədalətsizlik deyil, bəs nədir?!

NAĞILIN SONUNDAKI ALMA

Budağın lap yerə yaxın hissəsində, yarpaqların arasında bitən balaca alma gözdə-qulaqdaydı ki, nağıl nə vaxt qurtaracaq. Üzünün bir tərəfi Ayselin yanağına oxşayırdı. Alma özü qəsdən üzünün bir yanını günəşin qabağına tutmuşdu ki, qoy qızarıb Ayselin yanağına oxşasın. Bəli, günlərlə yanağını günəşin rəngbərəng şüalarının qabağına tutub durmuşdu. İndi daha üzünün bir tərəfi lap balaca qızcığazın yanağına oxşayırdı. Düz üç gün idi ki, alma üstdən aşağı baxır, babanın nağılı nə vaxt qurtaracağını gözləyirdi. Baba isə elə bil qəsdən nağılı nağıla calayırdı. Alma bu nağılları bəlkə də on dəfə eşitmişdi. O, yaxşı bilirdi ki, baba bütün nağılları dalbadala düzür, qızın yatması üçün elə hey özündən cürbəcür rəvayətlər uydururdu. Alma bir neçə dəfə qışqırıb qızı başa salmaq istədi ki, baba nağılın birini qurtarıb o birinə başlayır. Axı, belə yaramaz. Hər nağılın sonunda göydən üç alma düşməlidi, ya yox? Amma deyəsən almalar babanın tamam yadından çıxmışdı. Bu dərdə dözmək olardımı? Alma elə hirsləndi ki, kölgədə qalan üzü bir az da saraldı.

Amma bu almanın bir şeydən qətiyyən xəbəri yox idi. Xəbəri yox idi ki, cəmi iki budaq yuxarıda, eynilə ona oxşayan başqa bir alma üzünün sol tərəfini günəşə tutub səbirlə yanağını qızardırdı. Özü də məhz sol yanağını. Bu almanın da hardansa ağlına gəlmişdi ki, Ayselin yanağı kimi yanaq ola bilməz.

Yazıq balaca almalar gecə-gündüz babanı gözləyirdilər ki, görsünlər nağılı nə vaxt qurtaracaq. Doğrusu, onlar iki gün idi ki, budaqdan üzülmüşdülər. Elə təkcə ilişəcəkləri qalmışdı. Nağıl qurtaran kimi tappıltı ilə düz süfrənin ortasına düşəcəkdilər. Amma baba hər dəfə bir nağılı qurtarıb dəyirmi papağını bir az yuxarı itələyir və təzəsini başlayırdı. Bu ədalətsizliyə daha dözmək mümkün deyildi. Balaca Aysel hər gün nağılların hansınınsa ortasında yuxuya gedir, onu

aparırdılar. Səhəri baba yenə də dünənki nağılı danışmağa başlayırdı. Almalar üstdən aşağı nə qədər qışqırdılarsa xeyri olmadı. Görünür, insanlar alma dilini bilmirdilər. Buna görə də nə Aysel, nə də babası heç başlarını qaldırıb yuxarı da baxmadılar. Almalar hərdən Ayselin qəşəng qırmızı yanaqlarını və toppuş əllərini görür, bununla da özlərinə təskinlik tapırdılar.

Ayselin yanağı kimi qızaran aşağıdakı alma daha dözə bilmədi. Baba elə nağılını qurtarıb təzəsinə keçmək istəyəndə əlini budaqdan buraxdı. Göydə iki dəfə mayallaq aşıb, babanın papağına dəydi və süfrəyə düşdü. Ondan iki budaq yuxarıdakı alma elə bil ki, bunu gözləyirdi. Yuxarıdan necə tullandısa düz Ayselin qarşısına düşdü. Baba hər iki almanı əlinə götürüb dedi:

—Görürsənmi, qızım. Mən deyəndə ki, nağılların sonunda göydən alma düşür, inanmırdın. Hər dəfə nağılın bu yerində ağlayıb deyirdin ki, yox göydən hələ alma düşməsin, alma yox, alma yox, nağıl istəyirəm. Mən də əlacsız qalıb yazıq almaları göydən düşməyə qoymurdum. Bu qəşəng balaca almalar yəqin ki, dözə bilməyib özlərini ağacdan atdılar.

Baba sözünün ardını deyə bilmədi. Ağacın lap hündür budağından iri bir alma da süfrəyə düşdü. Balaca almaların bir üzü qızarmışdısa bu alma qıpqırmızı idi. Axı, Günəş onun hər tərəfini qızartmışdı.

—Bu da üçüncü alma, — deyə baba sevincək dilləndi. — Almalar gəldi ki, sən nağılın qurtardığını bilib daha yatasan.

Almalar qışqırışdılar ki, yox, biz də nağıla qulaq asmaq istəyirik.

Amma nə baba, nə da Aysel alma dilini bilmədikləri üçün onları başa düşmədilər. Aysel gözlərini yumdu. Almalar da budaqdan tez düşdükləri üçün deyəsən bir balaca qəmləndilər...

HEÇ NƏ HAQQINDA NAĞIL

iri var idi, biri yox idi, bir dənə heç nə var idi.. Amma heç kəs bilmirdi ki, bu heç nə nə olan şeydir. Bilmirdilər ki, məsələn onun başı var, yoxsa yoxdur. Bədəni və quyruğu haqqında da bir şey bilən yox idi.

İlk dəfə həmin bu heç nə haqqında beş yaşlı Günel bilir. Doğrudur, Günelin heç nəyin xarici görkəmi haqqında tam təsəvvürü yox idi. Təkcə onu bilirdi ki, bu heç nəyin deyəsən iti dırnaqları var. Qız gecə təzəcə yuxuya gedəndə qulağı acışmağa başladı. Nə qədər qulağını qaşıdısa bir şey çıxmadı. Axırda anası yuxudan durub uşağın qulağını işığa tutub baxdı:

—Orda nə var? — deyə Günel maraqlandı.

—Heç nə! — anası rahat nəfəs alıb gülümsündü.

Bax, elə onda Günelin heç nə haqqında ilk təsəvvürü oldu. Deməli, heç nə adamın qulağını, bəzən lap hər yerini qaşındıra bilir. Elə buna görə də belə qərara gəldi ki, heç nəyin balaca və iti dırnaqları var. O, görünməz dırnaqları ilə qulağını qıdıqlayır, sən də başlayırsan qaşımağa...

Amma sən demə bu heç nə Günelin düşündüyündən də böyük və qorxulu imiş. Görünür, o balaca uşaqlarla az maraqlanır. Amma bəzən böyüklərin əməlli-başlı qanını qaraldır.

Bir dəfə Günelin atası işdən qayıdanda bərk dilxor idi. Eynəyini çıxarıb dəsmalla siləndə hiss olunurdu ki, əlləri titrəyir. Günelin anası soruşdu:

—Nə dedilər?

—Heç nə!

Ana təəssüflə köksünu ötürdü.

—Deməli, bu il də təzə evə köçə bilməyəcəyik!

Bu danışıqdan Günel bir şey başa düşmədi. Bu heç nə nə idisə onların təzə mənzilə köçməsinə mane olurdu.

Amma təzə mənzilə keçəndən sonra qızcığaz heç nəyi o saat unutdu. Əgər ata ilə ana yenidən bu heç nə haqqında söhbət salmasaydılar, yəqin ki, Günel onu heç zaman yadına salmayacaqdı.

Eynilə onlara mənzil verilməyən günlərdəki söhbət yenidən təkrar olundu. Bu dəfə ata işdən çox kefi kök gəlmişdi.

Ana soruşdu:

—Nə dedilər?

Ata sevincək dedi:

—Heç nə!

Hər ikisi güldü. Bax, Günel onda başa düşdü ki, bu heç nə bəzən xeyirxah, bəzən də bədniyyət olur. Çünki indi ana ilə ata onun, adını eşidən kimi necə gülüşdülərsə elə bil onları qonaqlığa dəvət etmişdilər.

Bir dəfə Günel anasına dedi:

—Qulağıma heç nə girib. Tez ol, onu çıxart.

Anası qızın üzünə baxdı. Əslində onun bu baxışları Güneli də çaşdırdı. Elə bil Günel nəsə olmayan bir şeydən danışır, ana isə başa düşmürdü.

—Bir az tez elə — deyə qışqırdı — Qulağımı qıdıqlayır axı.

Ana işıqda yenə də onun qulaqlarına baxdı. Orada heç nə yox idi.

—Qulağında heç nə yoxdu.

—Var! Görmürsən necə qıdıqlayır?

Günel bir az böyüyəndən sonra heç nə haqqında geniş təsəvvürü oldu. Adamlardan eşitdiyi qırıq-qırıq söhbətlərdən başa düşdü ki, bu heç nə bəlkə də hər şeydən güclü və böyükdür.

—Nə var, nə yox!

—Heç nə!

Deməli, insanlar heç nəsiz dayana bilmir.

Qarğalar həmişə fəxr edirlər ki, onlar üç yüz il yaşayırlar. Amma bilmirlər ki, heç nə bu dünya durduqca durur. O, bəzən adamları, bəzən hətta ölkələri bir-biri ilə vuruşdurur.

—Filan ölkələr nəyin üstündə müharibə aparır?

—Demək olar ki, heç nəyin!

Görürsünüzmü, bu heç nə nədirsə hər yerə burnunu soxur. Deməli, onun burnu da var. Amma hələ ki, onun xarici görünüşü haqqında əməlli-başlı bir şey bilən yoxdur.

UŞAQLARI QORXUTMAQ İSTƏYƏN PƏLƏNG

üz əlli iki il idi ki, bu pələng şəhərin ortasında, mərmər duracağın üstündə dayanıb gəlib-gedənlərə baxırdı. Yüz əlli iki il idi ki, bu pələng bərkdən nərə çəkib şəhər camaatını qorxutmaq istəyirdi. Amma heyf ki, bu müddət ərzində heç bircə dəfə də nərə çəkə bilməmişdi.

—Mən pələngəm, yoxsa qorxaq bir dovşanam hə?! — Hər gecə adamlar yatandan sonra öz-özünü danlayırdı. — Axı, mən necə pələngəm ki, heç uşaqları da qorxuda bilmirəm. Yox, buna qətiyyən dözmək olmaz. Mən öz gücümü heç olmazsa uşaqlara göstərməliyəm.

Pələngi yandırıb-yaxan o idi ki, sarısaç, qırmızıköynək bir oğlan demək olar ki, hər gün gəlib onun ağaran dişlərini qurdalayır, barmaqlarını pələngin gözlərinə tuşlayıb onu qorxutmaq üçün boğuq səslər çıxarırdı:

—UUU! Sən bir buna bax! — deyə oğlan onun pəncələrindən yapışıb özünə tərəf dartırdı. — Bəlkə güləşək. Hə?

Yazıq pələng yalnız dişlərini ağardır, pəncələrini mərmər oturacağa daha bərk basmaqla qəzəbləndiyini bildirirdi.

Oğlan onun acıq ağzından çıxan dilini dartıb bir az da uzatmaq istəyirdi. Aydın məsələdir ki, pələngin dilini çəkib uzatmaq o qədər də asan məsələ deyildi. Amma neyniyəsən ki, oğlan sözünün üstündə möhkəm dayanmışdı. Oğlan pələngin dilini çəkdi, çəkdi, amma bir şey çıxmadı. Pələng ürəyində fikirləşirdi. «Lap yaxşı vaxtdır. Daha bundan münasib vaxt

olmayacaq. Gəlsənə bir bunun barmağını dişləyəsən hə? Heç olmazsa başqalarına da ibrət dərsi olar». Pələng oğlanın barmağını dişləməyə hazırlaşırdı ki, sarısaç, qırmızıköynək oğlan əlini onun ağzından çəkdi.

Bəli, düz yüz əlli iki ildir ki, bu pələng uşaqları qorxutmaq üçün fürsət axtarır, heyf ki, belə bir fürsət hələ də əlinə düşməyib. Yüz əlli iki ildir ki, onun ağ mərmərdən düzəlmiş ağzı açıla qalıb. Bu pələng nə qədər beləcə qalacaq? Onu bilən yoxdur. Mən isə onu bilirəm ki, pələng uşaqları qorxutmaq üçün məqam gözləyir. Uşaqlarsa ondan bir damcı da qorxmur.

AĞACLARIN SUYA DÜŞƏN KÖLGƏSİ

Ağacların suya düşən kölgəsi dərin fikrə getmişdi. Hətta onlar demək olar ki, tərpənmədən fikirləşirdilər ki, görəsən nə dadırlar və nə üçün balıqlar yosun yemək üçün onları tapdalayıb keçir, amma bu gözəllikdə söyüd kölgəsinə əhəmiyyət belə vermirlər. Bu, əlbəttə tam ədalətsizlik idi və yəqin kı, belə bır özbaşınalığa dözmək olmazdı.

—Ehey, Xəşəm, bəlkə bir mənim də dadıma baxasan hə?! — deyə salxım söyüdün kölgəsi dilləndi.

Xəşəm isə onun yanından elə sürüşüb keçdi ki, eləbil bu boyda ağacın kölgəsi ondan heç nə soruşmamışdı.

Bu zaman külək başladı. Külək söyüdə nə deyirdisə, ağac qəti etiraz edərək başını bulayırdı. Bundan hirslənən külək bir az da şiddətləndi ki, bəlkə söyüdü yola gətirə. Amma söyüd daha böyük qəzəblə onu rədd edirdi.

Kölgələr isə eynilə öz sahiblərini yamsılayır, başlarını bulayır və beləliklə balıqlara yandı-qındı verirdilər. Bir sözlə aləm bir-birinə dəymişdi.

—Eybi yoxdur, yaramazlar, deyə kölgələr balıqları hədələyirdilər. İndi görərsiniz!

Bir azdan doğrudan da maraqlı bir iş oldu. Hardansa ördəklər bu gölə qondular. Bu zaman kölgələr heç bilirsinizmi neylədilər? Onlar başlarını qaldırıb ördəklərin ayaqlarını sığallamağa başladılar. Ördəklər isə bədənlərində xoş bir sığal hiss etdikləri üçün xoşbəxt-xoşbəxt üzməyə başladılar. Bax bu zaman həmin ördəklərin xoşbəxtliyinin bir hissəsi kölgələrin payına düşdü. Axı onlar kimisə xoşbəxt edə bilmişdilər.

KAĞIZ PARÇASI

Bir kağız parçası çoxdan bəri göyə uçmaq istəyirdi. Amma əlinə bir fürsət düşmürdü. Günlərin birində burulğana oxşar bir külək onu göyün yeddinci qatına qaldırdı və kağız parçası gözünü açıb özünü buludların yanında görəndə fikirləşdi:

—Nəhayət ki, ədalətli bir gün gəlib çatdı.

Külək isə təkcə onu uçurmamışdı. Yarpaqları, köşkləri, hətta bəzi avtomaşınları da havaya qaldırmışdı. Bir sözlə dünyada hələlik belə bir tufan görünməmişdi. Onunla birlikdə az qala bütün şəhərin göyə qalxdığını görən kağız parçası coşmuşdu:

—Bax buna deyərəm səyahət!

Kağız parçası bir də ona görə sevinirdi ki, göyə uçanların demək olar ki, hamısı ondan aşağıda idi. O isə gah buludun içində yox olur, gah da yoldaşlarına baxmaq üçün arabir aşağı enib qışqırırdı:

—Yolumuz mavi dənizin üstündən keçir. Ehtiyatlı olun, aşağı çox enməyin.

Əslinə qalsa uçanların komandiri elə bu Kağız parçası idi və burada ədalətsiz bir şey yox idi. Çünki o, hamıdan yuxarıda uça bilirdi. Amma heç kəs ona əhəmiyyət vermirdi. Hər kəs öz başının hayında idi.

Kağız parçası bircə şeyi başa düşə bilmirdi ki, axı nə üçün adamlar bu qədər narahatdır. Onların rəngi saralmış, özlərini itirmişdilər. Uçmağın nəyi pisdir ki? Uçuruq, vəssalam.

Xoşbəxtlikdən külək yavaş-yavaş azalmağa başladı və uçanlar eynilə təyyarə kimi yavaş-yavaş torpağa düşdülər. Heç kəsin burnu belə qanamadı. Təkcə kağız parçası havada xeyli ləngər vurduqdan sonra yerə düşdü. Xeyli heç kəs ona əhəmiyyət vermədi. Nəhayət bir uşaq götürüb ondan quş düzəltdi və havaya atdı. Amma nə qədər göyə tulladısa kağız uçmadı ki, uçmadı. Kağız parçası isə ürəyində fikirləşirdi: «Görünür qocalmışam. Heç elə bil dünən buluda kimi uçan mən deyildim. Eh namərd qocalıq». Kağız parçası beləcə qocalıb bu dünyadan köçdü. Amma heç kəs bilmədi ki, o, göyün yeddinci qatına kimi qalxa bilmişdi.

PƏNCƏRƏ PƏRDƏSININ ÜSTÜNDƏKI DOVŞAN

əncərə pərdəsinin üstünə bir dovşan şəkli çəkilmişdi. O, səhərdən axşama kimi küçəyə baxırdı. Pərdə nazik olduğu üçün dovşan çölü əla görürdü. Pəncərə qalın meşəyə baxırdı.

Bir dəfə səhərə yaxın bir tülkü gəlib çıxdı və ağzının suyunu axıda-axıda gözünü pəncərəyə zillədi.

—Nə var? — deyə dovşan ona gözlərini ağartdı.

Tülkü dovşanın ondan qorxmadığını görüb çaşdı və qorxusundan bir az geri çəkildi. Sonra ürəklənib quyruğunun üstündə şöngüdü. Adətən canavarlar belə oturur. Tülkü qəsdən belə əyləşmişdi ki, bəlkə dovşan qorxa və pərdənin üstündən düşüb qaçmağa başlaya. Onda onu tutmaq olardı. Amma deyəsən o, pərdənin üstündən düşmək istəmirdi.

—Məndən qorxmursan? Bir bax, Uuuuuuu!

—Bu nədir? Sən çaqqalsan, yoxsa tülkü! Məgər tülkülər belə ulayır?

«Yox deyəsən dünya tamam dəyişir. İndi dovşanlar tülküyə ulamaq öyrədir. Bundan sonra acından ölmə görüm, necə ölmürsən».

Tülkü beləcə fikirləşib dovşanı qorxutmaq üçün başqa yollar axtardı.

—İstəsəm, qarı bu saat sənin gözünə sovuraram!

—Bunun sənə elə bir xeyri olmaz, — deyə dovşan çox sakitcə dilləndi.

—Baxarıq — tülkü hirslənib canavarları yamsılamağa başladı. Arxasını pəncərəyə tərəf çevirib qarı sovurmağa başladı. Qar sovruğu pəncərəyə dəydikcə dovşan uğunub gedirdi. Doğrudur onun güluşünü eşidən olmurdu. Çünki dovşan ürəyində gülürdü ki, ev sahibi oyanmasın. Amma pəncərə şaqqıltısı ev sahibini yuxudan oyatdı və o, tülkünün cani-dildən necə işlədiyini görəndə bərkdən şaqqanaq çəkib güldü. Tülkü bu gülüş səslərini qətiyyən gözləmirdi. Bircə anda işin nə yerdə olduğunu başa düşdü və qaçıb meşədə gözdən itdi.

Dovşan isə ev sahibini ehtiyatsızlıq üstündə qınadı. Axı belə bir səfeh tülküyə kim bilir, bir də nə zaman rast gələcəkdilər.

QARA ADAMLAR

iz bəlkə də belə adamları ömrünüzdə görməmisiniz. Onlara Qara adamlar deyirlər. Bədənləri, paltarları, hətta gözləri də qara olur. Gecə qaranlığında gəzəndə onları görmək demək olar ki, mümkün deyil. Elə güman etməyin ki, mən zəncilərdən danışıram. Yox canım, zəncilərin dişləri və bəbəkləri qar kimi ağ olur. Elə zənci var ki, hətta adam onun nə qədər gözəl olduğuna heyran qalır.

Amma Qara adamlar başqadır. Belələrinin fikri xəyalı da qara olur. Ona görə də gecələr gəzirlər ki, onları görüb tanıyan olmasın. Onların adları da bir-birinə oxşayır: Qara Mirzə, Qara Gürzə, Qara Fərzə, Qara Hürzə...

Günəş olan yerdə qara adamları görmək çətindir. Çünki Günəş onların gözlərini qamaşdırır. Bir də onlar qorxur ki, günəş bu adamların ürəyindəki qara-qura fikirləri açıb göstərə bilər. Bax buna görə də onlar həmişə qaranlıq yerlərdə gəzib dolanırlar.

Bir dəfə qara adamların hamısı dərin bir dərəyə toplaşdı. Bura o qədər qaranlıqlaşdı ki, göz-gözü görmədi. Qara adamlar çox danışdılar, az danışdılar bilmirəm, axırda belə qərara gəldilər ki, dünyada onların yeganə düşməni varsa o da Günəşdi. Günəş olmasa xalqın canı rahatlanar, camaatın gözü qamaşmaz, qara adamlar bu dünyada rahat ömür sürər. Onlar axırda belə qərara gəldilər ki, Günəşi söndürsünlər.

Qərar qəti idi. Qara adamların ən güclüləri bir yerə toplandı. Onlar qaranlığın ən qatı yerindən özlərinə qılınc

qalxan düzəltdilər. Qara fikirlərdən patron hazırladılar. Doğrusu çox qaranlıq olduğu üçün onların daha nə iş gördüklərini ayırd edə bilmədim. Qapqara döyüş paltarlarını geyinib Günəşin yolunu gözləməyə başladılar.

—Sabah xalqın canı bu parlaq avaradan qurtaracaq — deyə bir—birinə ürək dirək verirdilər.

Qara Mirzə üzünü qara buludlara tutub dedi:

—Hətta buludlar da bizimlədir. Bütün xalq bizim tərəfimizdədir.

Qara Hürzə ehtiyatla onun sözünü kəsib dedi:

—Mən bir dəfə təyyarənin kölgəsinə çevrilib buludun o biri üzünü görmüşəm. O, ikiüzlü və yaltaqdır. Yerə baxan üzünün qaralığı sizi aldatmasın. Günəşə baxan tərəfdə onun rəngi ağdır. Özü də o biri üzü ilə Günəşə elə yaltaqlanır ki, görsəniz hirsinizdən ağararsınız.

Qara Mirzə onun sözünü kəsdi:

—Sən hələ uşaqsan və yəqin ki, belə şeyləri başa düşməzsən. Buludlar bizim dostumuzdur. Birləşməsək Günəş kimi bir düşmənin öhdəsindən gələ bilmərik. Qara Gürzə, Qara Fərzə və başqa qara adamlar Qara Mirzənin sözünü təsdiq etdilər və Qara Hürzə daha danışmadı.

Bu zaman buludlar da baş-başa verib Qara adamların barəsində düşünürdülər. Onların üst üzü də daha elə sən deyən ağ deyildi. Günəş görünmədiyinə görə onlar kimə yaltaqlana bilərdilər?! Qara buludların da ürəyində qara sular cövlan edirdi. Onların da maraqlı adları vardı: Ala Bulud, Tala Bulud, Qala Bulud, Çala Bulud...

—Biz sabah bütün gücümüzü göstərməliyik. Günəşin nazı ilə bu qədər oynamağın mənası yoxdur — deyə Ala bulud coşmuşdu.

—Qara adamlar da bizim tərəfimizdədir, — deyə Tala Bulud onun sözünə qüvvət verdi.

—Ancaq onlar olduqca qorxaq və yaramazdılar. —Heç bilmirəm bu söz Qala Buludun dilindən necə çıxdı. Orasını deyim ki, Qala Bulud cavan olsa da sözü üzə deyə bilirdi və buna görə də o biri buludların ondan xoşu gəlmirdi.

—Nə danışırsan, canım, Qara adamlar bu sözü eşitsə bizdən inciyə bilər və bütün işlərimiz alt-üst olar — deyə Ala Bulud Qala Buludu danladı və bərkdən guruldadı ki, Qara adamlar onun səsini eşidib ürəklənsinlər. Amma birdən Qala Bulud Şimşək yaratdı və Şimşək dərəni necə işıqlandırdısa Qara adamlar bir anda gözdən ilim-ilim itdilər. Onların bu qədər qorxaq olduğunu görən Qala Bulud necə şaqqanaq çəkib güldüsə dağ-daş lərzəyə gəldi. Belə anlarda onun gözündən bir qığılcım çıxıb ildırıma cevrildi və qaranlıq dərədəki nəhəng bir qayanı parça-parça elədi.

—Bir az yavaş gül də, deyə yoldaşları onu danladı. Bir də belə gülsən dünyanı yandırarsan ki.

Amma Qara adamların qorxaqlığı Qala Buludu elə həyəcanlandırmışdı ki, o, uzun müddət gülüşünü saxlaya bilmədi və gözlərindən çıxan ildırımlar daha bır neçə qayanı ovxaladı.

İldırım çaxanda dərədəki daşlar bir anda necə parıldadısa elə bil nəhəng bir tonqalın qığılcımlarıdı. İşıq sönən kimi Qara adamlar dərəyə toplaşdılar və parıldayan daşların hamısını yığıb çaya tulladılar:

—Onlar hamısı Günəşin qohumlarıdı. İldırım çaxanda bir görsəydiniz sevincdən necə parıldaşırdılar —deyə Qara Mirzə bütün daşları çaya tulladı ki, daha heç zaman parıldaya bilməsinlər.

Amma Qara Mirzə çayın necə parıldadığını görməmişdi. Göydə ildırım parıldayanda çayın gümüşü ləpələri xoşbəxt-xoşbəxt gülümsünmüşdü və bununla da Günəşin dostu olduğunu bildirmişdi.

Əslində işıqda çox şey parıldadı. Əgər Qara Mirzə onların hamısını məhv etmək niyyətinə düşsəydi kim bilir nə olardı.

Göydə isə aləm qarışmışdı.

Buludlar dəhşətə gəlmişdilər. Bu, açıq düşmənçilik idi. Ən yaxın dostların üzünə belə gülüb onları təhqir etmək dözülməz idi. Buludlar sözü bir yerə qoyub Qala Buludu dəstədən çıxartdılar. Qala Bulud öz dostlarını da götürüb aran yerlərinə çəkildi ki, oralara yağış yağdırıb tarlaları suvarsın.

Qala Bulud gedəndən sonra buludlar belə qərara gəldilər ki, onun Günəşlə qohumluğu varmış. Yoxsa necə ola bilər ki, bircə gülüşüylə bu qədər şimşək və ildırım yarada bilir.

—Aydın məsələdir ki, Qala Günəşin doğmaca qardaşıdır — deyə Ala Bulud mübahisələrə yekun vurdu. Onu bizim dəstəmizə yaxın qoymaq olmaz.

Sonra hər şey qaydaya düşdü. Buludlar dərəyə azca yağış göndərməklə Qara adamlara xəbər verdilər ki, sözümüz sözdür, sabah Günəşi məhv etməliyik.

Buludlar da silahlandılar. Nəhəng buludlar qılınc taxdılar, qalxan götürdülər. Bir sözlə səhərin açılmasını səbrsizliklə gözlədilər.

Günəş isə hər şeydən xəbərsiz gülümsünə-gülümsünə dağların dalından qalxmağa başladı. O elə gülürdü ki, bu qədər xoş təbəssümün qabağında təkcə Qara adamlar və Qara Buludlar deyil bütün qara fikirlər əriyib heç oldu. Maraqlı bu idi ki, Qara adamlar o saat başlarını itirdilər və qışqırdılar.

—Geri çəkilin, düşmən odlu nizələrdən istifadə edir.

Qara adamlar ağacların altında kölgəyə çevrildilər ki, Günəş onlardan əl çəksin. Günəş isə demək olar ki, heç onları görmürdü. Öz qızılı şölələrini səpələyirdi ki, dünyanın otu, cücüsü, böcəyi bu şüalardan cana gəlsin.

O vaxtdan gör neçə illər keçib. Amma həmin o Qara adamlar və Qara buludlar hələ də Günəşi yox etmək fikrindən dönməyiblər.

Təkcə Qala bulud öz dostları ilə uzaqda gəzir. İstidən yanan tarlaları, bağları sulayır və hərdən ildırım çaxdırmaqla bu Qara adamlara və Qara buludlara öz nifrətini bildirir.

Qara adamlar demək olar ki, hər gecə bir yerə yığışır, Günəşi məhv etmək haqqında danışırlar. Amma hələ ki, onlar Günəşin gözünə belə görünə bilmirlər.

KARVANA HÜRƏN QAPLAN

u balaca küçükcüyəzin adı Qaplan idi. Kənddə demək olar ki, onu it yerinə qoyan yox idi:

—Buna baxın, deyirdilər, Qaplan da özünü it hesab edir.

Onu pişiklər daha çox lağa qoyduqları üçün Qaplan lap bərk hirslənirdi.

—Eybi yoxdur — deyirdi bir gün sizə göstərərəm.

Amma həmin o gün gəlib çıxmırdı ki, çıxmırdı. Qaplan böyüdükcə daha da qorxaq olurdu və kənddəki pişiklərin demək olar ki, hamısı onu cırmaqlayıb vaxtında aradan çıxa bilirdi.

Bir dəfə kəndin içindən böyük bir dəvə karvanı keçirdi. Qaplan əvvəlcə öz həyətlərindən alçaq səslə hürməyə başladı.

—Havvvv, havvvv!

Amma ona əhəmiyyət verən olmadı. İşi belə gördükdə Qaplan bir az ürəkləndi və həyət qapısından çölə çıxıb xeyli aralıda gedən dəvələrə hürdü:

—Haaaavvv, haaaavvv!

Dəvələr addımlarını yavaşıtmadan gedirdilər. Onların dodaqları aramla açılıb-yumulur, gövşəyirdilər. İri və yaraşıqlı gözlərini qabağa zilləyərək gedir, Qaplana əhəmiyyət belə vermirdilər. Qaplan bundan daha da cəsarətləndi və irəli cumub karvanın beş-altı metrliyinə gəldi və hürməyə başladı:

—Huuuuvvw, huuuuvvvv!

Ona flkir verilmədiyini görüb hirsləndi.

—Karsınız nədi, görmürsünüz hürürəm?

—Görürük ki, boğazını yırtırsan. Amma neyniyək? Sənin borcun hürmək, bizim borcumuz getməkdi. Nə qədər istəyirsən hür.

Karvan aramla yoluna davam edib getdi. Gözəl bir fürsəti əlindən buraxdığına görə Qaplan özünü danlamaq üçün bir iki ağız da hürdü:

—Uuuuaaa, uuuuaaa!

Bax belə.

QAPLAN ULDUZU NECƏ SÖNDÜRDÜ

ir dəfə Qaplan ağzını göyə tutub hürürdü. Elə belə. Darıxdığı üçün ağzını göyə tutub zingildəyirdi.

—Uuuuuuaaaaa!

Gecənin bu vaxtında göydə nə ola bilərdi?! Heç olmazsa gecəquşu uçsaydı, Qaplan onu məmnuniyyətlə qorxudardı. Amma onlar da yox idi. Yəqin ki, hardasa başqa yerlərdə uçurdular və onları başqa küçüklər qorxudurdular. Qaplanın gecəquşularını qorxudan itlərə paxıllığı tutdu və onların acığına bir az da bərkdən hürdü:

—Uuaauuaauuuuuuu!

Birdən göyün tən ortasında gözünə parlaq bir ulduz dəydi. Bu ulduz o qədər parlaq idi ki, az qala Qaplanın gözünü qamaşdıracaqdı. Qaplan həmin o sarsaq ulduza hürməyə başladı:

—Uuuu!

Səsini kəsib bir anlıq dayandı. Kəndin başqa itləri də ona səs verdilər. Bu lap yaxşı oldu. Qaplan bu dəfə cani-dildən hürdü:

—Uuuuuuuuuuuu!

Bir anlıq dayanıb ulduza baxdı. Eləbil ulduzun işığı azca azalan kimi oldu.

—Aha, yaxşı əlimə düşmüsən. İndi mən səni kömür kimi qaraldaram. — Bu sözləri deyib Qaplan uzun bir səslə uladı. O elə uladı ki, kəndin bütün itləri səslərini kəsib dinşədilər, görsünlər Qaplana nə olub. Amma Qaplan elə

ulayırdı. Boğazını mümkün qədər göyə uzatmışdı ki, ulduzun işığını lap tez söndürə bilsin.

Bir anlıq dayanıb baxdı. Ulduzun işığı deyəsən əməlli başlı azalmışdı. Bundan sonra Qaplanı saxlamaq olmazdı. Demək olar ki, səhərəcən uladı və günəş doğmağa az qalmış hiss etdi ki, boğazı bərk ağrıyır. Dincini almaq üçün dayananda gördü ki, təkcə o parlaq ulduz deyil, göydəki ulduzların hamısı görünməz olub.

—Bax belə — deyə Qaplan bir-iki ağız da hürdü ki, hamı onun igidliyini başa düşsün. Bəli bir dəfə Qaplan belə bir igidlik göstərə bilmişdi.

QAPLAN VƏ KƏPƏNƏKLƏR

Bir dəfə Qaplan gördü ki, həyətlərində bitən sarı çiçəklər bir anda qanadlanıb uçdular. Əlbəttə uçan sarı kəpənəklər idi, amma Qaplan işin nə yerdə olduğunu başa düşənə kimi onlar həyətin ortasına qədər uçdular.

—Hav, hav, hara belə, sarsaqlar?! Harda görünübdü ki, çiçək uçsun?!

Kəpənəklər Qaplanı heç veclərinə də almadılar. Bir-birini qova-qova dağlara tərəf üz tutdular. Yox, yox, buna dözmək olmazdı. Bu ağılsız çiçəkləri harda olsa tutub öz yerlərinə qaytarmaq lazımdı.

—Kimin ağlına nə gəlir, onu da edir — deyə Qaplan kəpənəklərin dalınca yorta-yorta qaçır və fikirləşirdi.

Kəpənəklər isə bal arılarının yanına uçurdular. Arılar dağın gözəl bir yarğanında bal hazırlayıb öz qonaqlarını gözləyirdi. Kəpənəklər sarı yaylıq kimi süzür, bəzən də uçan sarı çiçəkləri xatırladırdılar. Qaplan isə boğazı yırtılana qədər hürürdü və onları bir an da gözdən qoymurdu. Kəpənəklər dərin dərələrin üstündən asanca keçdikləri halda Qaplan dərənin dibinə kimi gedib yenidən dağa dırmaşmalı olurdu. Buna görə də kəpənəklər ondan xeyli uzaqlara uça bilmişdilər. Qaplan uzaqdan baxıb gördü ki, kəpənəklər nəhəng qoz ağacının yaxınlığındakı çəmənliyə qondular.

—İndi sizin ağlınızı başınıza gətirərəm — deyə fikirləşdi və çəmənliyə doğru götürüldü.

Çəmənlikdə isə arılar öz dostlarını çox mehriban qarşıladılar. Soruşdular ki, nə olub, niyə belə həyəcanlıdırlar.

—Odur bax, deyə Sarıköynək dilləndi. — Bax bu avara bizi səhərdən qovur.

Sarıköynək bu kəpənəyin adı idi. Onun dostunun isə adı Ballıbəy idi. Sarıköynək sözünü təzəcə qurtarmışdı ki, Sarıləçək gözünün yaşını tökdü:

—Siz bir buna baxın, kənddən bura kimi bizi qovub. — Sarıləçəyin sözü Dadlı bəyi riqqətə gətirdi. Axı Dadlıbəy də Sarıləçəyin dostu idi.

—Eybi yoxdur — deyə Dadlı bəy xəncərini qurşadı, nizəsini götürdü və döyüşə hazır dayandı. Qaplan isə hələ də çiçəklərin arasında öz həyətlərindən uçan çiçəkləri axtarırdı. Birdən arılar onun üstünə atıldılar. Ballıbəy onun qırmızı burnundan vaxtında bir dişdəm ala bildi. Dadlıbəy də xəncərini Qaplanın dodağına sancdı. Bundan sonra nələr baş verdiyini Qaplan özü də başa düşmədi. Ayağı gəldikcə bu çəmənlikdən qaçır, başının üstündə isə bal arıları vızıldaşırdı. Onlar Qaplanı düz evlərinə qədər qovdular.

Qaplan kölgədə başını qoltuğunun altına soxub xeyli zingildədi. Ağlı başına gələndən sonra baxıb gördü ki, sarı çiçəklər elə öz yerlərindədir. Amma daha onlar tərəfə baxmaq belə istəmədi.

QAPLAN VƏ ARABA KÖLGƏSI

ay günəşi göydən od ələyirdi. Bir ulaq arabanı çəkib apara bilmirdi və buna görə də yolun qırağında dayanmışdı ki, dincini alsın. Bu zaman hardansa Qaplan gəlib çıxdı və arabanın kölgəsində dincəlməyə başladı. Kölgə sərin və ləzzətli idi. Bayaqdan istidən dili çıxan itin keyfi kökəlmişdi. Quyruğunu şeşəliyib gərnəşdi. Birdən gözünə uzunqulaq dəydi. İt fikirləşdi ki, bu uzunqulaq deyəsən özünü yaman dartır. Əslində isə o, qanmaz və avaradır.

—Hav-hav, deyərək uzunqulaqa hürdü. Sən avara bir uzunqulaqsan: Camaat işində gücündədir, amma sən bu yolun qırağında avaralanırsan.

—Mən avaralanmıram — deyə uzunqulaq izah etdi. Bir az dincimi alıram. Arabanı çəkmək sənə asan gəlməsin.

—Hav-hav, inandıra bilməzsən. Yer üzündəki bütün uzunqulaqlar sarsaq və avaradır.

—Başqaları ilə nə işin var? — deyə uzunqulaq qəzəbləndi və arabanı dartıb apardı.

Aydın məsələdir ki, araba ilə birlikdə onun kölgəsi də getməyə başladı. Özünü ağıllı hesab edən Qaplan əvvəl qulağını salladı və sonra quyruğunu dik tutub arabanın dalınca qaçmağa başladı.

—Kölgəni hara aparırsan? Onu özüm tapmışam. Axıra qədər də mənim olmalıdır.

Uzunqulaq isə mümkün qədər sürətlə qaçırdı ki, itin zəhlətökən səsini eşitməsin. Kölgə də eyni sürətlə yolun qırağı ilə şütüyürdü.

QAR ŞƏHƏRİ

Bir şəhər vardı, burda adamlar da, heyvanlar da qardan yaranmışdılar. Adamlar səhərdən-axşamacan bir-birinə qonaq gedirdilər. Bir də görürdün ki, qar adamların, qar telefonları zəng çalır.

—Xrıp, xrıp, xrıp!

Bəs necə! Bu sənə adi telefonu deyil ha, belə etsin: Dzınn! Dzınn! Dzınn!

Ya da cingildəsin «Cırrınt!» Ya da quş kimi oxusun «Fia-fia-fia». Hətta yəqin beləsini də eşitmisən «Dalalay!» «Dalalay!»

Amma ağzında qar telefonu deyirsən. O, hökmən belə səslənə bilər: Xırıp! Xırıp!

—Bəli — deyə Qargəlin dəstəyi qaldırdı.

—Salam! Sizinlə danışan Qarxanımıdı. Axşama hamınızı qonaq çağırıram. Gələndə Qarbəbəni də gətirməyi unutmayın. Çox zaman yekə qarınqulların hamısı gəlir, yazıq Qarbəbələr evdə çığıra-çığıra qalır. Heç insafınız-zadınız yoxdu.

Qarxanım beləcə üyüdüb tökdü və axırda dedi:

—Əla qarplovu hazırlamışam. Qardan kokteyli də yanında.

—Bəh-bəh — deyə Qargəlininin ağzı sulandı Kokteylə buz lülələri qoymağı unutma. Qartortu da olsa daha bu qonaqlığın heç əvəzi olmaz.

—Bir halda ki, ürəyinizə qartortu düşüb, daha neynəyim, onu da hazırlayaram Onlar ordan-burdan danışıb xudahafizləşdilər.

Əgər axşam orda olsaydınız görərdiniz ki, bu qonaqlar necə qarşılanır. Əvvəlcə qar karetalarda qargəlin gəldi. Onun qar şlyapası parıldayır, gümüşü boyunbağısı bərq vururdu. Yanında Qaroğlan durmuşdu. Hər ikisi dümağ yay kostyumunda idi. Qarbəbənin bələyi də ağ idi və ayın işığında parıldayırdı.

Sonra qar maşınlarda başqa qonaqlar gəldilər.

Təkcə Qarqırmızıpapaq bu qonaqlığa piyada gəlirdi. Onun fikrincə dünyada açıq havada gəzməkdən ləzzətli heç nə yox idi. Birdən Qarqırmızıpapağın qabağına bir Qarcanavar çıxdı:

—Hara belə, ay Qırmızıpapaq. Yoxsa yenə də nənənin yanına gedirsən, hə? Əlindəki də yəqin ki, yeməkdir.

—Yox, nənəmin yanına getmirəm — deyə Qırmızıpapaq canavarın ağ ağzından çıxan dümağ dişlərindən heç nə ilə fərqlənməyən ağ dilinə bic-bic baxdı. İndi qonaqlığa gedirəm. Əlimdəki də hədiyyədir. Qarxanımı tanıyırsan? Yenə də qonaqlıq edir. Şəhərimizin adamlarının demək olar hamısını evinə dəvət edib. Bir vurçartlasın olacaq ki, gəl görəsən.

—Bəs mən neynəyim — deyə Qarcanavar dilləndi. Acsusuz bu şəhərdə yaşa görüm, necə yaşayırsan?!

—Bilirsən — deyə Qarqırmızıpapaq dedi:

—Əgər keçən dəfəki kimi məni udmaq fikrinə düşsən bəri başdan bir şeyi yadında saxla. Hökmən angina olacaqsan.

—Eh, orasını mən də bilirəm — deyə acığından Qarcanavarın alt dodağı sallandı. Qar yeməkdən az qalıram öləm.

Bu zaman onların yanından bir qardovşanı qaçdı. Amma Qarcanavarı onu heç qovmadı da. Bu şəhərdə Qardovşanı Qarcanavarlarından Qartülkülərindən və Qarçaqqallarından qətiyyən qorxmurlar. Hətta Qarpələnglərini də veclərinə almırlar. Qarpələngləri hərdən hirslənib deyirlər:

—Bu necə ölkədir belə, dovşanlar da səndən qorxmur?!

Amma onlar nə qədər bağırsalar da xeyri yoxdur. Qardovşanları onları heç veclərinə də almırlar.

Qarcanavarı baxıb gördü Qarqırmızıpapaqla danışmağın heç bir xeyri yoxdur. Buna görə də çıxıb getdi işinin dalınca.

Qarxanımın evindəki qonaqlıq isə düz səhərəcən davam etdi. Adamlar yalnız gündoğana yaxın evlərinə dağılışdılar. Onlar danışırdılar ki, ömürlərində belə gözəl qonaqlıq görməmişdilər. Qarxanım doğrudan da səxavətli imiş və onunla dostluq etməyinə dəyərmiş.

QAR ADAMLAR

evlağa hələ heç zaman belə qar yağmamışdı. Hətta Kürün sahili boyu uzanıb gedən yarğanlar da qarla örtülmüşdü. Cəfərlə Səfər çoxdan belə bir fürsət gözləyirdilər. Onlar səhər açılan kimi meşəyə gəldilər və qardan adam düzəltməyə başladılar. Cəfər kişi qar adamı düzəldirdi. Bu adamın burnu qırmızı kökdən, bığları şam budaqlarından, papağı isə köhnə bir vedrədən idi.

Eh siz bir bu adamın qollarına baxaydınız. Cəfər fərəhlə deyirdi:

—Mənim düzəltdiyim adam boksyordur bəlkə də lap karate ustasıdır. Qollarının musquluna baxın.

Doğrudan da onun musqulları qurbağa kimi belini qaldırmışdı. Bu adamın enli kürəyi onun çox güclü olduğunu bildirirdi. Amma Səfərin düzəltdiyi adam gözəl bir qız idi. Səfər onun burnunu fındıqdan düzəltmişdi. Dodaqlarına qırmızı plastilin yapışdırmışdı. Gözlərinə isə kömür qoymuşdu. Bir sözlə bu, dünyanın ən gözəl qızı idi.

Cəfər ilə Səfər o qədər işlədilər ki, bir də baxdılar daha axşamdır.

Qar adamları da meşədə qoyub evlərinə getdilər. Bax bütün əhvalatlar bundan sonra başladı. Cəfərin düzəltdiyi kişi öskürüb ayağa qalxdı və dedi:

—Pah atonnan, nə yaman yatmışıq. Qaranlıq düşüb ki!

Səfərin düzəltdiyi gözəl qız da yuxudan ayıldı və hər tərəfin bu qədər ağ olduğuna heyrət etdi:

—Doğrudan da əməli-başlı yatmışıq — dedi.

—Mən bilən sənin adın Qarçiçək xanımdır. Elə deyilmi?

Qız bu adı xoşladı və kömür gözlərini süzdürüb dilləndi:

—Tamamilə haqlısınız. Mən bilən sizin də adınız Qarkişi bəydir.

Qarkişi bəy adını eşidən kimi qolunda bir az da artıq güc hiss etdi və dedi:

—Əlbəttə Qarkişi bəydir. Mən bilən boş dayanmaq-dansa qaçdı-tutdu oynasaq yaxşıdır.

Qarçiçək xanım Qarkişi bəyin bu təklifini eşidən kimi başa düşdü ki, bu adam çox ağıllıdır.

Onlar qaçdı-tutdu oynamağa başladılar. Gecənin bir aləmində meşənin içində hay-küylə qaçışan bu adamları görəndə dələlər qorxudan ağac koğuşunun lap dərin qatına endilər və bu işlərin axırını gözləməyə başladılar. Yalquzaq canavarlar bir az da bərk uladılar ki, bəlkə qar adamlar onlardan qorxarlar. Amma qar adamlar bu vəhşini heç veclərinə də almadılar.

Bir dəfə Qarkişi bəyin dəmir papağı başından düşüb yerdə dığırlandı və bərk səs çıxartdı. Bir dəfə də Qarçiçək xanımın ağ sırqaları qarın içinə düşdü və onlar ay işığında xeyli bu sırqaları axtarmalı oldular.

Bir sözlə Qar adamlar beləcə oynadılar və bir-birini ürəkdən sevdilər. Onlar o qədər oynadılar ki, axırda əriyib bir-birinə qarışdılar.

LARI XORUZUN RƏNGBƏRƏNG NƏĞMƏLƏRİ

u xoruzun təkcə pipiyi və gözləri qırmızı olsaydı bəlkə də o, heç belə fikirlərə düşməzdi. Onun bütün tükləri qırmızı idi. Hətta tüklərinin içində qırmızılıqdan qaralıb tünd şabalıdı rəngə çalanı da vardı. Bax buna görə də o ları xoruz günlərin birində belə qərara gəldi ki, bir qırmızı nəğmə oxusun. Elə qırmızı nəğmə ki, dünyanın bütün rənglərini çevirib qırmızı eləsin.

Səhərin açılmasına bir az qalmış var gücü ilə banladı:

—Quq qulu quuuuu? Quq qulu quuuuu!

Səsi qulağına lap xoş gəldi. Meşələr onun quqqulusunu əks etdi və birdən xoruz baxıb gördü ki, günəş onun nəğməsindən elə qızarıb, elə bil nəhəng dağ laləsidir. Hətta günəşin bu qədər qızarmasından xoruz bir az çaşdı da. Özünə gəlib dedi:

—Bax, belə qızararsan!

Sonra gördü ki, quqqultusu gilənara çevrilib budaqdan sallanır. Başqa bir quqqultu isə pomidora çevrilmişdi. Quqqultular lalə olub çəmənliyə səpələnmişdi. Hətta bu səsdən almanın da yanaqlarına qırmızı xal düşmüşdü.

Bir dəfə xoruz çinarın bütün yarpaqlarını rəngləmək niyyətinə düşdü:

—Bütün yarpaqları qırmızı olsa qəşəng görünər —dedi və işə başladı. Çinarın nəhəng kölgəsində dimdiyini göyə qaldırıb qanadlarını şaqqıldatdı və bərkdən banladı:

—Quqqulu quuuu! Quq qulu quuuu!

«Quqqulu quuu»sunu bir az çox elədi ki, çinarın yarpağı qırmızı olsun. Səsini kəsib ağacın başına baxdı. Yarpaqlar xoruza əl edib onun nəğməsini alqışlayırdılar. Amma xoruz diqqətlə baxıb gördü ki, çinarın yarpaqları yamyaşıldır və belə qərara gəldi ki, bu dəfə onun ququltusu qırmızı deyil, yaşıl ququltu imiş.

—Mənim nəğmələrim rəngbərəngdir, — deyib qışqırdı.

Quqqultusunun rəngbərəng olduğunu bildikdən sonra daha onu saxlamaq olardımı?! Gündə üç dəfə uzun-uzadı quqquldadı ki, dünyanın rənglərini öz bağçalarına toplasın. Gözlərini yumub dimdiyini göyə tuşlayır, nazik uzun boğazını mümkün qədər bərk dartırdı ki, səsi gur və təsirli olsun. Hətta ürəyində belə qərara gəlmişdi ki, kəndin o biri başından onun səsinə cavab verən bütün xoruzlar lap havayı zəhmət çəkirlər. Çünki, onların nəğməsi rəngbərəng ola bilməz. Bütün xoruzların səsini batırmaq niyyətinə düşdü və bir səhər lap hündürdən banladı:

—Quqqulu quuu! Quqqulu quuu! Quqqulu quuu!

Başqa xoruzların hamısı səsini kəsib ları xoruzu dinlədilər. Çünki, onlar başa düşürdülər ki, bu xoruzun işləri o qədər də yaxşı getmir. Axı o nə üçün bu qədər uzun «quqquluquu!» eləməlidir?! Bizim qəhrəman isə xeyli beləcə quqquldadı və səsini kəsib gözlərini açanda gördü ki, ağacların yarpaqları sap-sarı saralıb. Qanadlarını şappıldadıb çəpərə sıçradı və hamıya elan elədi ki, bu gün onun nəğməsi sap sarı imiş. Nəğmələrini belədən belə səpəliyib hətta otları, çiçəkləri də saraltdı və sonra bilmədi ki, neynəsin. Çünki, bütün yarpaqlar və otlar saralandan sonra bağ-bağça yaman qəmli görünürdü.

Ları xoruz daha bir neçə dəfə banladı ki, yarpaqlar yenidən yaşıllaşsın. Amma hər dəfə səsini kəsib gözlərini açanda başa düşürdü ki, yarpaqlar bir az da saralıb. Hətta bəzi yarpaqlar deyəsən onun səsindən çürüməyə başlamışdı.

—Bu, nə iş idi mən tutdum. Bu sarı nəğmə haradan gəlib məni tapdı?

Tutduğu işdən peşiman olub bir müddət banlamadı. Hamı elə bildi ki, ları xoruz xəstələnib. Amma o, yarpaqların əvvəlki rəngini qaytarmaq haqqında düşünür və bilmirdi necə banlasın ki, dünyanın əvvəlki gözəlliyi geri qayıtsın.

Bir dəfə xoruz gördü ki, çil toyuq bərkdən qaqqıldayır.

—Buna nə olub, — deyə hirsləndi. Hinə baxıb gördü ki, çil toyuq yumurtlayıb. EIə o saat başa düşdü ki, yumurtanı belə ağardan çil toyuğun qaqqıltısıdır.

—Yumurtanı ağartdın bəsindir, səsini kəs! — deyə onun üstünə xoruzlandı.

Amma çil toyuq səsini kəsmədi. Axşamacan qaqqıldadı və bir də baxıb gördülər ki, qar yağır.

Xoruz hirslənməyib neyləyəydi? Çil toyuq o qədər qaqqıldadı ki, axırda bütün dünya ağardı. İndi yazıq ları xoruz nə qədər banlamalı idi ki, qar əriyəydi və dünya əvvəlki qırmızı, yaşıl, sarı, mavi rəngini alaydı?!

QUYUNUN DIBINDƏKI ADAM

ir quyu var idi və həmin quyunun lap dibində bir adam oturmuşdu. Bu adam quyuya ona görə girmişdi ki, öz nəğmələrini yaratsın. Bu adam quyunun dibində bir-birindən gözəl nəğmələr bəstələyir və onu insanlara çatdırmaq haqqında fikirləşirdi. Fikirləşdi, fikirləşdi, axırda belə qərara gəldi ki, öz nəğmələrini quyunun suyu ilə yuxarı göndərsin. Belə də elədi. Quyunun suyunu içən qamışlar özləri də bilmədən həmin nəğmələri də içdilər. Sonra bu qamışlardan kimsə tütək düzəltdi və çalmağa başladı. İlahi, bunlar necə gözəl nəğmələr idi. Adamlar bu nəğməni dinlədikcə xoşbəxt xəyala dalırdılar. Başqa bir nəğmə isə onları oynamağa məcbur edirdi. Adamlar sümükləri ağrıyana qədər oynadılar və bu nəğmələri çalanlara təşəkkür edib getdilər. Amma heç kəsin ağlına gəlmədi ki, həmin nəğmələri yaradan adam ömrü boyu quyunun içində yaşayır və insanlara xoşbəxtlik gətirən həmin bu nəğmələri yaradır.

Quyunun dibindəki adam öz nəğmələrinin çalındığını eşidəndə çox sevindi. Hətta durub quyunun dibində əməlli başlı oynadı da. Bəs necə, onun nəğmələri adamları xoşbəxt edə bilmişdi!

Adamlar eviərinə dağılışandan sonra o, əyləşib təzə nəğmələr haqqında düşünməyə başladı. Eh, bəzən həyatda elə işlər olur ki, adam az qalır inanmasın.

BAĞIRMAQ İSTƏYƏN ADAM

Dostum Fikrət Sadığa

lk baxışda onun qeyri-adi adam olduğunu hiss etmək çətindi. Enlikürək, kök adamdı. Gizlənqaç oyunu zamanı enli kürəyinin arxasında dördünüz rahat gizlənə bilərsiniz. Ağarmış gur saçlarının dibi hələ də qaralığını saxlayır. Bundan hiss olunur ki, əvvəl onun saçlarının ucu ağarmağa başlayıb. Nə isə, bu adam günlərin birində bərkdən bağırmaq fikrinə düşdü. Amma şəhər yerində belə bir işi görmək qeyri-müşkül məsələ idi. Qarşısına çıxan dost-tanışa deyirdi:

—Səsim gəldikcə bağırmaq istəyirəm. Amma bilmirəm neyləyim.

—Meşəyə getmək lazımdır, qardaş, meşəyə, — deyə ona məsləhət görürdülər.

Bu adamın axırda əlacı kəsildi və bağırmaq üçün meşəyə getdi. Gonbul budlarını oynada-oynada yeridikcə şalvarının enli balaqları yellənirdi. İşıq zolağı kimi ağaran dar cığırlar onu Şamaxı dağlarının qalın meşələrinə gətirib çıxartdı.

— Bu başqa məsələ, — deyə bağırmaq istəyən adam canı-dildən nəfəs aldı. Əlini qulağının dibinə qoydu, ağzını geniş açıb bağırmaq istədi və bu zaman gözü palıd ağacının başına sataşdı. Ağacda səbətə oxşayan bir yuva vardı. Yuvadan bir leylək baxırdı. Qanadlarını və dimdiklərini şaqqıldadırdı. Lap diqqətlə baxanda gördü ki, yuvada bir yumurta ağarır. Bu yumurtanın qırıldığını və onun içində ətcə leylək balasının necə

çıxdığını gözləri ilə gördü. Bu zaman bir sığırçın cır səslə qışqırdı:

—Cır, cırrrr.

—Suss! — deyə bağırmaq istəyən adam barmağını dodağına qoyub sığırçından xahiş etdi ki, oxumasın!

Sığırçın isə cani-dildən cəh-cəh vurdu:

—Cırrr, cırrr.

—Elə bil meşədə böyümüsən, görmürsən təzə körpə doğulub? Sakit ol da!

Yox, deyəsən bu sığırçın sakit olmaq fikrində deyildi. Bağırmaq istəyən adam sığırçın qonan budağı bərk-bərk silkələdi, yalnız bundan sonra quş uçub getdi.

Bağırmaq istəyən adam rahat nəfəs aldı. Yuvaya baxıb uzaqlaşdı. Leylək qanadlarını şaqqıldatdı. Ona elə gəldi ki, Leylək deyir:

—Sağ ol, qardaş, sığırçını qovduğuna, bir də yuvamın yanında bağırmadığına görə sənə təşəkkür edirəm!

Yollar onu yaşıl bir talaya çıxartdı. Göz işlədikcə çəmənlik idi.

—Burda nə qədər desən qışqırmaq olar, — deyə o düşündü.

Torpağa uzandı və bərkdən bağırmaq üçün dərindən nəfəs aldı.

—Ay aman, qarışqalara baxın! Bunlar neynəyir belə?!

Qarışqalar sırayla yuvalarına dən daşıyırdılar. Qarşı-qarşıya gələn qarışqalar hökmən burun-buruna toxunur, bir-birinə nəsə deyir, sonra yollarına davam edirdi.

Körpə qarışqalar da böyüklərdən geri qalmır, buğdanın ən irisini aparmaq istəyirdi.

Adam öz-özünə fikirləşdi ki, əgər bu saat bağırsa qarışqaların bağrı yarılar. Onda gör nə olar?! Buna görə də qışqırmadı. Qarışqaların ürəklə işləmələrinə heyrətlə baxa-baxa qaldı...

—Bura bax, gəlsənə elə şəhərdə, lap bu mərkəzi küçələrin birində qışqırasan, hə? — deyə bir dəfə o, öz-özündən soruşdu və qəfildən bağırdı. Bağırdı deyəndə ki, əvvəl bir nərə çəkdi. Sonra boğuq bir gurultu adamları səksəndirdi. Qarşıdakı nəhəng binanın pəncərələri cingildədi, çilçıraqlar yelləndi. Adamlar heyrətlə ətrafa boylanıb baxdılar ki, görsünlər nə olub. Qoca bir qarı deyirdi:

—Qaz partladı. Evin bir qolu tamam uçdu. Başqa birisi qarının sözünü yarımçıq kəsdi:

—Nə danışırsan? Bir bina elə dağıldı ki, daşı da qalmadı.

Bu adam isə arzusuna çatmışdı. Nəfəsi gəlincə, bağırmışdı. Heç bir ev uçmamışdı, hətta bir adamın burnu belə qanamamışdı. Yox. Yox, belə bir iş qətiyyən olmamışdı. Sadəcə olaraq bu qəribə adam ürəkdən bağırmışdı, vəssalam. Həmin adam hələ də doğma şəhərinin küçələrində xoşbəxt-xoşbəxt gəzir. Axı o, səsi gəldikcə bağıra bilmişdi...

BÜTÜN DÜNYANI FƏTH EDƏN PADŞAHIN TACI

ir padşah bütün dünyanı fəth etmişdi. Buna görə də belə qərara gəldi ki, dünyanı fəth edən padşahın tacı da gərək həm yekə, həm də yaraşıqlı ola. Əmr etdi ki, ölkənin bütün zərgərləri saraya yığışıb, ona təzə bir tac düzəltsinlər.

Səhəri saraya o qədər zərgər yığışdı ki, hamısı şahın sarayına yerləşmədi, xeyli hissəsi küçədə gözlədi ki, görsünlər onları niyə çağırıblar. Padşahın əmri zərgərlərə çatdırıldı. Zərgərlər hərəsi bir fikir söylədi. Birinci zərgər dedi:

— Mənə elə gəlir ki, təzə tac yalnız brilyantlarla bəzənməlidir.

İkinci dedi:

—Qətiyyən yox. Brilyant qiymətli olsa da tac üçün yaramır. Qoy onu qızlar barmaqlarında oynatsınlar. Şah uşaq ha deyil, durub brilyant oynada.

Doğrudan da şah uşaq deyildi ha.

—Tac almaz və yaqutla bəzənməlidi, — deyə ikinci usta təntənə ilə sözünü tamamladı.

Üçüncüsü dedi:

—Canım, yaqut, almaz nədi. Bunlar boş-boş şeylərdi.

Tac balıq qulaqları ilə bəzənməlidir ki, şahımızın qulağı balıq kimi həssas olsun. Dördüncüsü dedi:

—Məncə bu tac balaca çay daşları ilə bəzənsə daha sadə görünər.

Beləliklə, hər zərgərin ağzından bir avaz gəldi. Axırda padşah:

—Yaxşısı budur ki, təzə tacı hər zərgər öz bildiyi kimi bəzəsin. — dedi. — Onda o həm gözəl olar, həm də başıma ağıllı fikirlər gətirər.

Zərgərlər işə başladı, nə başladı. Sən demə padşahın sarayına yeddi min yeddi yüz yetmiş yeddi zərgər gəlibmiş.

Onların hamısı tacı bəzəməklə məşğul oldu. Bax buna deyərəm tac! Doğrudur o adi taclardan on dəfə böyük idi. Sizə zarafat gəlməsin yeddi min yeddi yüz yetmiş yeddi zərgər ona yeddi min yeddi yüz yetmiş yeddi naxış vurub, yeddi min yeddi yüz yetmiş yeddi qiymətli daş asmışdı. Tac təxminən pendir çəlləyi boyda olardı. Onun üstündə müxtəlif qiymətli daşlar parıldayırdı. Hətta bu qəşəng tacın üstündə çay daşlarından tutmuş mərmərə qədər hər şey var idi. Hansı zərgər isə onun üstünə iki qılınc, bir qalxan və iyirmi pudluq bir dəyirman daşı da bağlamışdı. Tac hazır olandan sonra padşah saraya gəlib əmr etdi ki, böyük bir məclis düzəlsin. Yemək-içmək, başlandı, nə başlandı. Çalğıçılar istedadlarını göstərdilər. Zurnaçı ordunu elə şişirtmişdi ki, elə bil hər ordunda bir qarpız gizlətmişdi. Bəs, necə, belə bir məclisdə də çalmayıb daha harada çalacaqdı?! Sonra tacqoyma mərasimi başlandı. Əvvəlcə iki pəhləvan tacı gətirməyə getdi. Sonra deyəsən onların gücü çatmadığı üçün daha iki pəhləvan da onların köməyinə yetişdi. Padşah sevindiyindən bilmirdi ki, neyləsin. Hələ ömründə heç bir padşah bu ağırlığında tac qoymamışdı. Belə gündə də sevinməyib nə vaxt sevinməliydi? Pəhləvanlar bu nəhəng tacı padşahın başına qoyub aralandılar. Padşah boğuq bir səs çıxartdı. Əvvəlcə camaata elə gəldi ki, bu səs quyunun dibindən gəlir. Sonra gördülər xeyr bu pələng bağırtısına oxşayan səs padşahın ağzından çıxır. Adamlar lap sevindilər. Həmişə olduğu kimi zirək adamlar yenə də özlərini hamıdan çox bilən kimi göstərib dedilər:

—Tac dünyanın bütün ağlını bizim padşahın başına yığır.

Camaat sevinclə yemək-içməyə başladı. Zurnaçı ordunu daha bərk doldurub necə üfürdüsə padşahın pələng bağırtısına oxşayan səsi o saat eşidilməz oldu.

Camaat yeyib-içməkdən ayılandan sonra baxıb gördülər ki, padşah tacın ağırlığına davam gətirməyib çoxdan ölüb. Kimsə dilləndi:

—Heyf, əcəl imkan versəydi şahımız dünyanın ən ağıllı əmrlərini verəcəkdi. Onda əlbəttə yaşamağına dəyərdi.

DÜNYANI ÖZÜ İLƏ APARMAQ İSTƏYƏN BƏŞİR

İnsafla desək, Bəşirin bu işdə qətiyyən təqsiri yox, idi. Axı bu adam neyləsin ki artıq qocalmışdı və yəqin ki, bir neçə aydan sonra daha dünyadan köçməli idi. — Hara köçməliyəm? — deyə özündən soruşurdu.

Hə, yadıma düşdü... Yadına düşməyinə düşürdü, amma Bəşir hara köçəcəyini qətiyyən dilinə gətirmirdi. Bunun elə bir mənası da yox idi. Axı hamı bilir ki, insan öləndən sonra hara köçür.

Bəşir tədbirli adam idi. Bu qədər var-dövlətini qoyub hara köçürdü? Heç olmazsa qızıl küpəsini özüylə apara bilsəydi qətiyyən dərdi olmazdı. Bir dəfə o qəbiristanlığa gəlib özünə qəbir qazdırdı. Əvvəl xahiş elədi ki, qəbiri elə ev boyda qazsınlar. Amma qəbirqazanların gözləri heyrətdən elə böyüdü ki, yazıq Bəşir dediyinə peşman oldu. Axı bu qəbirqazanlar hardan biləydi ki, Bəşir evini qəbirə daşıyıb özü ilə o dünyaya aparmaq istəyir. Bir düşünün. Axı yazıq Bəşir paltarlarını, qızıl-gümüşünü bu dünyada qoyub hara gedə bilərdi? Heç bu paltarlarını çoxunu bircə dəfə də geyinməmişdi. Eləcə bayram günlərində onları çıxarıb bir-iki dəfə sığallamış, sonra güzgüyə baxıb göz vurmuşdu. Bu o demək idi ki, öz aramızdı, heç kəsin belə qəşəng paltarları yoxdu. Sonra həmin paltarları büküb sandığın lap altında gizlətmişdi ki, ələ-zada keçməsin. Hələ bir dəfə də işlətdiyi maqnitofonu, televizoru, tozsoranı, paltaryuyanı, qatı açılmamış xalçaları, ömründə içində yatmadığı yorğan-döşəkləri demirəm. Bəs bu necə ədalətsizlik idi? Bəşir indi başa düşdü ki, qəbirqazanlar dünyanın ən ədalətsiz adamları imiş. Axı bu qəbiri bir az iri qazmaq nə çətin işdir ki, Bəşiri belə zülmə salırlar.

Çox fikirləşəndən sonra Bəşir belə qərara gəldi ki, əvvəlcə qızıl küpəsini aparıb qəbirdə gizlətsin. Bu elə sən

deyən çətin iş deyil. Gecə əl-ayaq çəkiləndə Bəşir əyilə-əyilə, bütün dünyadan gizlənə-gizlənə qəbiristanlığa gəldi. Təzəcə qazılmış qəşəng qəbirin qırağına qalanmış nəm torpağın yanında çömbəlib saqqalını qaşıdı. Sonra ətrafda kimsənin olmadığını görüb qəbrin içinə düşdü.

Qoltuğunun altında gizlətdiyi bellə qəbirin içində balaca bir quyu qazdı.

—Bu da sənin qəbrin, — deyə qızıl küpəsinə göz vurdu —bu gündən sən də öldün. İkimiz də birlikdə gedirik o dünyaya. Bəşir küpəni basdırandan sonra gəldiyi kimi də əyilə-əyilə, bütün dünyadan gizlənə-gizlənə geri qayıtdı.

—İndi qaldı bunlar, — deyə o ev əşyalarına baxıb dərindən bir ah çəkdi. O necə yanıqlı ah çəkdisə ağzından iki qığılcım çıxdı və döşəkağına düşüb yandırdı. Bəşir yanğın düşməsin deyə tez su gətirib döşəkağını söndürdü.

—Bu dünya niyə belə ədalətsiz qurulub? — deyə o dərin fikrə getdi. Necə dərin fikrə getdisə birdən qonşu Sənəm arvad və onun üç nəvəsi gəlib durdu Bəşirin qabağında.

—Məndən nə istəyirsiniz? — deyə Bəşir bağırdı. — Yox, sizə bağışlamağa heç nəyim yoxdur. Çıxın gedin.

Sonra inildəməyə başladı.

—Sənəm arvad, yalvarıram sənə, mən öləndən sonra paltarlarıma heç kəs toxunmasın. Uşaqlara tapşır ki, maqnitafonu qurdalamasınlar. Özün bilirsən ki, bir ətək pul vermişəm. Kasıb adamam. Televizor, tozsoran, paltaryuyan hər saat alınmır. Üstünə bir şey atın ki, paslanmasın.

—Arxayın ol, Bəşir qardaş. Lap arxayınca ölə bilərsən. Ancaq Sənəm arvad gedəndən sonra Bəşir lap dərin fikrə getdi. Arvadın səsinin ahəngi Bəşirin qətiyyən xoşuna gəlmədi. Necə yəni "arxayın ol, Bəşir qardaş". Yəni, Bəşir qardaş, lap arxayın öl! Sən öləndən sonra bütün var—yoxunu götürüb özümüzünkü edəcəyik.

Buna Bəşir deyərəm. Elə həmin dəqiqədən işə başladı.

Gecədən xeyli keçməsinə baxmayaraq ev əşyalarını yavaş-yavaş qəbiristanlığa daşıdı. Qəbiri o qədər enlətdi ki, bütün əşyaları oraya sığışdırdı. Ancaq televizoru yerləşdirmək üçün yalan olmasın az qala səhərəcən əlləşdi. Axırı ki, hər şeyi qəbrin içində gizlədə bildi. Öz aramızdı, onu da deyim ki, Bəşir hətta Sənəm qarının axşamdan çöldə qalan səhəngini, qəbirqazanların burda qoyub getdikləri iki bel və bir külüngü də gətirib qəbirdə basdırdı ki, lazım olar. Sonra tərini silib, yaş torpağın üstündə oturdu və bərkdən güldü.

—Hi-hi-hi... Sənəm qarı, bax indi rahat ölə bilərəm. Lakin hər şeyi basdırandan sonra Bəşir yuxusuzluq xəstəliyinə düşdü. Axı onun gözlərinə yuxu necə getsin? Var-yoxun qəbiristanlıqda, özün get, evdə yat görüm, necə yatırsan. Gözlərini basdırdığı əşyalara zilləyib şirin xəyallara dalırdı. Bəli, onun var-dövləti hətta öləndən sonra da, özününkü olacaqdı. Ancaq bu ölüm zəhrimara qalmış hardaydısa gəlib çıxmırdı ki, çıxmırdı. Bəşir nə qədər pencəyini çıxarırdı, qəbirin yanında lap lüt otururdu ki, ona soyuq dəysin, amma soyuq ona kar eləmirdi. Günlərin bir günü Bəşir yuxusuzluqdan öldü. Qəbirin yanında o qədər yuxusuz qalıb şirin xəyallara daldı ki, bir də baxdı ki, daha ölüb. Amma ədalətsiz bir iş oldu. Bəşir ölməmişdən bir az qabaq qəbiristanlığa təzə ölmüş bir adam gətirdilər və xahiş etdilər ki, adamı hazır qəbirlərdən birinə basdırsınlar. Həmin adamı Bəşirin qəbrində basdırdılar. Qəbirqazanlar Bəşirin öldüyünü sonra eşitdilər və bərk əl-ayağa düşdülər:

—Kişinin yanında xəcalətli olduq. Tez olun, ona lap dərin bir qəbir qazaq.

Bəşirə ürəyi istəyəndən də dərin bir qəbir qazdılar və basdırdılar.

Yazıq Bəşir...

SİÇANLARIN PADŞAHI PİŞİK

ir ölkə vardı və bu ölkədə siçanlar yaşayırdı. Siçanların ölkəsi o qədər sakit idi ki, ağac budağı qırılsaydı səsi eşidilərdi. Əlbəttə siçanlar bu sakit ölkədə çox rahat yaşayırdılar. Di gəl ki, bir iş həmişə çətinlik törədirdi. Onlar qazandıqlarını bölə bilmirdilər. Siçanlar fikirləşdilər-fikriləşdilər axırda belə qərara gəldilər ki, özlərinə bir padşah seçsinlər. Amma padşah seçmək məsələsi çox çətin oldu. Sən demə Siçanların özlərindən layiqli bir padşah tapmaq mümkün deyilmiş. Buna görə də onlar Pişiyi özlərinə padşah seçməyi qərara aldılar. Dünyagörmüş siçanlar yığıb saxladıqları bir qab yağı Pişiyə aparıb dedilər:

—Ey dünyanın ağıllı Pişiyi, bu yağı qəbul elə və bizim padşahımız ol!

Pişik yağı yeyib, bığlarını yaladı və qapısına gələnlərə dedi:

—Əgər bir qab da yağ gətirsəniz bu barədə fikirləşmək olar.

Daha dayanmaq olardımı? Siçanlar əl-ayağa düşdülər. Kəndə hücum edib, daha iki cam yağ gətirdilər. Pişik həmin yağı da aşırıb dedi:

—Bir halda ki, zəhmət çəkib gəlmisiniz, daha sizin sözünüzü yerə salmayacağam ki. Gedəyin!

Görəydiniz ki, siçanlar bu işə necə sevinirdilər. Onlar bir-birinin quyruğundan tutub atıla-atıla gedir və qışqırırdılar:

—Yol verin, siçanlar ölkəsinin padşahı Pişik gəlir. Pişik fikirləşdi ki, əgər o elə əvvəlki kimi yerisə padşaha oxşamaz. Buna görə də arxa ayaqlarının üstündə yeridi. Onun qabaq ayaqlarını iki siçan çiynində saxlamışdı. Əlbəttə, padşahın ayaqlarını çiynində saxlamaq üstündə bərk basabas düşdü.

Hamı belə bir səadətə çatmaq istəyirdi. Amma hər yerdə olduğu kimi burada da zirəklər qabağa düşdü və Pişiyin qabaq ayaqlarını çiyninə götürüb, aramla irəliləməyə başladılar.

Pişik əlinin altında irəliləyən kök siçanlara baxıb ağzının suyunu güclə saxlayırdı.

—Bura bax, — deyə o düşünürdü. — Bu qədər siçanın hamısını tək necə yeyəcəksən, hə?

Pişik beləcə şirin xəyallara dalmışdı ki, yuvasının ağzında dayanıb gözləri qamaşa-qamaşa siçanlara baxan bir porsuq soruşdu:

—Ay camaat, bu nə vur-çatdasındı belə?!

—Geri çəkil, ayaq altında qalıb əzilərsən! Görmürsən padşah gəlir?!

Porsuq yuvasına çəkilib yox oldu.

Pişik siçanlar ölkəsinin padşahı olandan sonra doğrudan da hər şey ədalətlə bölünməyə başladı. Məsələn siçanlar bir sərnic yağ tapıb gətirmişdilər. Pişik onu ədalətlə belə böldü:

—Yarısı mənim, yarısı da sizin hamınızın.

Siz görəydiniz siçanlar bu ədalətli bölgüdən sonra necə sevinirdilər. — Bax, padşah buna deyərəm. Yoxsa indiyə kimi tapdığımızı bölə də bilmirdik, — deyə onlar atılıb düşürdülər.

Siçanlar öz paylarını yuvalarına aparana qədər Pişik payını yeyib qurtardı və qışqırdı:

—Bura baxın bəs öz payımzdan padşaha verməyəcək-siniz?

Siçanlar əl-ayağa düşdülər. Doğrudan da bu qədər axmaqlıq olmazdı. \Necə olub ki, onlar bu barədə fikirləşmə-yiblər. Axı hər kəs gərək öz payından padşaha da verəydi, ya yox?!

Yenə də zirəklər hamıdan qabağa düşdü. Onlar paylarının çoxunu pişiyə verib padşahın onu necə yediyinə baxıb ləzzət alırdılar. Siçanlar böyük pişiyin padşahlığı altında beləcə yaşayırdılar. Amma vəziyyətləri gündən-günə

ağırlaşırdı. Çünki pişiyin iştahası hər gün artır, siçanların tapıb gətirdikləri şeylərin demək olar ki, hamısını tələb edirdi.

—Əlinizə düşən ən ləzzətli şeyləri mənə gətirə bilərsiniz, sizə qətiyyən acığım tutmaz, — deyə Pişik onlara mehribanlıq göstərirdi. İlk vaxtlar bu mehribanlıq siçanların ürəyindən idi. Onlar belə bir padşahları olduğu üçün hətta günlərlə ac qalmağı özlərinə şərəf hesab edirdilər. Amma şərəf öz yerində, yeməsən ölə bilərsən, axı! Siçanlar həqiqəti başa düşəndə artıq çox gec idi. Demək olar ki, hər gün kolların dibindən 3-4 siçan ölüsü tapılırdı. Pişik həmin siçan ölülərini görüb deyirdi:

—Padşahın yolunda ölümə gedən siçanlar da bizim üçün əzizdir. Bu siçanların ətini yeməliyik ki, onların da ruhu şad olsun. Bu sözləri deyib özü işə girişirdi. Siçanlar gözlərini açana qədər Pişik onları yeyib qurtarırdı.

Günlərin bir günü siçanların ən axmağı dedi:

—Deyəsən bu Pişik bizim axırımıza çıxacaq axı.

Ağıllı siçanlar o saat axmaq yoldaşlarını başa saldılar ki, boş-boş danışmasın. Belə danışdığı üçün onu hamı sarsaq adlandırırdı.

—Yox, axı, — deyə həmin o sarsaq siçan davam etdi. —Necə edək ki, bu Pişikdən canımız qurtarsın.

Yaxşı deyiblər ki, dəlidən doğru xəbər. Siçanlar elə bil indicə ayıldılar və başa düşdülər ki, Pişik həqiqətən onların axırına çıxacaq.

Pişik gələndə hamıdan zirək tərpənən, padşahın ayaqlarını çiynində gətirən həmin o siçanlar indi deşiklərindən çölə çıxmayıb əhvalatın axırını gözləyirdilər. Dünyanın işini nə bilmək olardı. Siçanlar sözü bir yerə qoyub yuvalarından çölə çıxmadılar. Pişik əvvəlki kimi yuxudan durub gərnəşdi, bığlarını yağlayıb iştahla dedi:

—Acımışam mənə yağlı kökə gətirin!

Amma nə qədər gözlədisə ona yağlı kökə gətirən olmadı.

—Bura baxın, siz deyəsən kar olmusunuz, eşitmirsiniz, yağlı kökə istəyirəm?

Siçanlar balaca yuvalarından balaca burunlarını çıxarıb diqqətlə baxırdılar. Onlar Pişiyin çıxıb getməsini istəyirdilər. Amma hələ Pişik işin nə yerdə olduğunu başa düşmürdü.

Bayaqkı axmaq siçan balaca burnunu bir az da çölə çıxardıb dedi:

—Biz daha sənin padşahlığını istəmirik, çıx get!

Bu zaman yüzlərlə yuvadan eyni vaxtda hər siçan iki dəfə "ah" və üç dəfə "uyy" edib işin axırını gözlədi. Pişik işi belə görüb yuvalara hücum çəkdi. Amma siçanlar o saat geri çəkildilər. Pişiyin pəncəsi onlara çatmadı.

Axşamüstü Pişik o qədər acıdı ki, haldan düşdü. Bayaqkı sarsaq siçana dedi:

—Bura bax, dost, bunların içində yenə sən yaxşısan, çıx çölə səni yeyim. Onsuz da siçanlar arasında elə bir hörmətin yoxdu. Daha yaşamağının da bir mənası qalmayıb.

—Mənasız yaşayan sənin kimi olar. Biz qazanırıq sən ötürürsən içəri.

Bundan sonra daha siçanlarla danışmağına dəyməzdi. Beləcə Pişik çıxıb getdi və siçanlarla ömürlük düşmən oldu. İndi pişiklər harda siçan görsələr babaları Pişik padşahın intiqamını almaq üçün onların üstünə atılırlar.

PUL ŞƏHƏRİNİN ƏHVALATLARI

iri var idi, biri yox idi, bir pul şəhəri var idi. Həmin bu pul şəhərində Şahı şahlıq edirdi. Günlərin bir günü bu Şahı fikirləşdi ki, bir halda ki, mən şaham, onda gərək ləqəbim də olsun. Yoxsa ləqəbsiz də şah olar? Axırda belə qərara gəldi ki, özünə Abbası ləqəbi götürsün. Doğrudur, tarixdə onun adına və ləqəbinə uyğun bir şah da yaşamışdı: Şah Abbas. Amma diqqətlə fikir versəydiniz bu şahın həm adının, həm də ləqəbinin axırına bir "ı" hərfi artırılmışdı ki, bunun da mən bilən çox böyük mənası vardı. Əvvəla Şahı Abbası pul şəhərinin şahı idi. İkincisinə qalanda onun fıkrincə o, Şah Abbasdan çox-çox ədalətli idi. Elə bugünkü nağılımız Şahı Abbasının ədalətli işləri haqqındadı.

Elə ki, şahlıq tacını başına qoydu, əvvəl belə bir ədalətli qərar çıxardı. Bütün Şahılar, üçqəpikliklər, ikiqəpikliklər və birqəpikliklər saraya işləməyə dəvət olunur. Çünki Şahı Abbasının fıkrincə bu pullar onun nəslindən idi və şah gərək öz nəslinin qədrini biləydi. Şahın dəvət etdiyi adamlar saraya toplaşandan sonra qohum əqrəbaları şahın ləqəbindən narazılıq etməyə başladılar. Necə ola bilərdi ki, bu qədər qohum əqrəbası olan bir şah özünə Abbası ləqəbi götürsün. Axı sarı rəngli pullardan birini ləqəb götürmək olardı. Məsələn, Üçqəpiklik. Nəyi pis idi hə? Yox, bu şah deyəsən ağlını itirmişdi. Abbası nə pul idi ki, onu da özünə ləqəb götürsün. Axırda qohumlar arasında dedi-qodu o qədər genişləndi ki, gedib şahın qulağına çatdı. Şah qohum-əqrəbalarını başına yığıb dedi:

—Bilin və agah olun. Mənim sizdən başqa qohumum yoxdur. Abbası ləqəbini isə ona görə götürmüşəm ki, qeyri ölkələrin şahları məni qohumbazlıqda təqsirləndirməsinlər. İndi isə mənim əmrimə qulaq asın. Ölkədəki bütün pullar siyahıya

alınmalıdır. Kim nə işlə məşğuldur. Kimin əlindən nə gəlir və s. Axı bizim şahımızın özü bir iş görməlidir ya yox? Kənardan baxan elə bilər ki, əlimizdən padşahlıq-zad gəlmir.

Qohumlar özlərinin işgüzarlığını bir-birinə sübut etmək üçün əl-ayağa düşdülər. Əvvəl bazarı nəzərdən keçirməyə başladılar.

Ay aman, bazarda nə dəhşətli işlər baş verirmiş. Əgər şahın adamları vaxtında bu işlərdən xəbər tutmasaydılar görəsən nə olardı. Əvvəl qapının ağzında cındır geyimli bir adamla qarşılaşdılar:

—Ey, adın nədir?

—Qızıl, — deyə həmin cındır geyimli adam dilləndi.

—Qızıl? — deyə birqəpiklik mümkün qədər özünü dartdı ki, onun daha qiymətli olduğunu başa düşsünlər. — Yaxşı, ey qızıl, de görək nə işlə məşğul olursan.

—Mən torpaq adamıyam. Əkirəm, biçirəm, gətirib bazarda satıram.

—De görək buğdanın pudunu neçəyə verirsən?

— Kilosu bir şahıdı. Çox götürsən, tonunu bir qızıla verə bilərəm.

—Axmaq qoca, — deyə birqəpiklik necə hirsləndisə üç dəfə fırlandı. — Bu necə bazardı belə?! Deməli kilosunu bir şahıya, tonunu bir qızıla? Nə danışdığını bilirsən? Bəs sən başa düşmürsən ki, əksinə danışmalısan. Məsələn belə: kilosu bir qızıl, tonu bir şahı. Şahı qızıldan bahadı axı. Cındır geyimli kişi birqəpikliyin sözünü ağzında qoydu.

—Oğul, sən hələ cavansan, ona görə də pulları yaxşı tanımırsan. Şahı nədi ki, qızıldan qiymətli ola. Ağzında qızıl deyirsən.

—Gör bir nələr eşidirəm? — deyə üçqəpiklik qıyya çəkdi. — Necə yəni qızıl şahıdan bahadı?! Məgər sizə xəbər verməyiblər ki, Şahı ölkənin padşahıdı. Sən, cındırından cin ürkən qoca, Şahdan qiymətlisən?

Bundan sonra daha bazarda başqaları ilə söhbət etməyinə dəyməzdi. Saray adamları bazara necə əl gəzdirdilərsə bir də baxdılar ki, təkcə özləri qalıb.

—Bu başqa məsələ, — deyə bayaqdan söhbətlərə səbirlə qulaq asan ikiqəpiklik dilləndi. — İndi istədiyimiz qiymətləri yaza bilərik.

Onlar təcili yaxşı bir qiymət yazan tapıb gətirdilər. Bazarın qiymətini müəyyənləşdirdilər. Balın kilosu bir şahı, Yağ üç qəpik. Ayranın kilosu bir qızıl, suyun stəkanı beş qızıl. Belə-belə qiymətlər yazılıb görkəmli bir yerdən asıldı.

Onlar köhnə bazara təzə qiymət qoyub üz qoydular şəhərə. Başladılar adamların danışığına qulaq asmağa. Adamlar nə biləydilər ki, bu saat bir qəpiklər və üçqəpiklər qulaqlarını şeşələyib onların bütün sözlərinə qulaq asırlar. Bu, onların ağlına gəlsəydi yəqin ki, danışmazdılar.

Ağac kölgəsində əyləşib öz müəllimini tərifləyən bir kişi əllərini ölçə-ölçə deyirdi:

—Canım, o müəllim deyildi, qızıl idi ey, qızıl! Bu sözləri eşidən uçqəpiklik ağacın dalından çıxıb necə bağırdısa danışan adamın bağrı yarıldı.

—Sənin sözündən belə çıxır ki, o dediyin adam pis adam idi, hə?

—Yox canım, — deyə o başının tükləri çoxdan tökülmüş uzunburun kişi gözlərini qıyıb gülümsəməyə başladı:

—Nə danışırsınız, mənim müəllimim qızıl kimi qiymətli idi.

—Sizin xəbəriniz yoxdu ki, ölkənin başçısı Şahı Abbasıdı? Bəs belə olan bir vaxtda siz bilən qızıl qiymətlidi, yoxsa şahı?

Bax, deyəsən bu çətin məsələ oldu. Daz adam başının keçəlini qaşıyıb dərin fikrə getdi. O, işin nə yerdə olduğunu anladı və birdən şaqqanaq çəkib güldü.

—Bilirsiniz, əgər mən müəllimimi şahıya oxşatsaydım onu çox şişirtmiş olardım.

—Bu başqa məsələ, — deyə üçqəpiklik çıxıb getdi.

Bir azdan bütün şəhərə yayıldı ki, danışığa qulaq asırlar. Camaat bir-biri ilə söhbət etməyi tamam kəsdi. Şahı Abbasının adamları nə qədər vurnuxdularsa söhbət edən bir adama rast gəlmədilər. Axırda qabaqlarına çıxan bir adamdan soruşdular:

—Bura bax niyə söhbət eləmirsiniz?

Həmin adam şişmiş ordunu göstərib susdu. Birqəpiklik onun dişinin şişdiyini güman edib soruşdu:

—Dişin ağrıyır?

Həmin adam dodaqlarını bir-birinə çıxıb başı ilə işarə etdi ki, yox.

—Bəs onda nə olub?

Birqəpikliyin qarşısına çıxan adam Abbası idi. Şahın təxəllüsünün Abbası olmasına baxmayaraq bu ölkədə abbasıların qətiyyən hörməti yox idi. Abbası birqəpikliyin özünü dartıb şax dayanmasına baxdı və birdən özünü saxlaya bilməyib güldü. Yalnız bu zaman birqəpiklik onun ağzından su süzüldüyünü gördü. Deməli, ölkənin adamları ağızlarına su almışdılar ki, bir-biri ilə danışmasınlar.

Bu şəhərin adamları o qədər danışmadılar ki, axırda danışmağı tamam yadırğadılar. Sizə deyim ki, indi o vaxtdan görün nə qədər illər keçib. Dünyaya çoxlu Abbasılar gəlib-gedib. Amma pullar danışmağı tamam unudublar. Onlar ən yaxşı halda cingildəyirlər. Və belə cingildəməklə vaxtilə danışa bildiklərini kədərlə xatırlayırlar.

PENDİR DEŞİKLƏRİ

mrümdə Pendir deşiyinin başına belə bir iş gələcəyinə inanmırdım.

Günlərin birində Pendir deşiyinin ürəyindən keçdi ki, onu yesinlər. Axı, hər dəfə pendirin özünü yeyir, deşiklərinə isə məhəl qoymurdular. Düzdü, bir dəfə pendir yeyən Siçanın iynə kimi nazik dişi düz onun bədəninə batdı və Pendir deşiyi bundan xoş bir təmas hiss etdi. Ona elə gəldi ki, Siçan dişinin onun bədəninə işlədiyi bu an o, dünyanın ən xoşbəxtidir. Amma xoşbəxtliyin də ömrü həmişə az olurmuş. Siçan pendirdən iri bir dişdəm alıb çıxıb getdi. Pendir deşiyi nə qədər ağladısa heç ona tərəf baxan belə olmadı.

Bax, indi bütün pendirin yeyilib qurtardığı bir vaxtda siçanlar onun yanından dəhşətli bir sükutla keçib gedirlər. Heç elə bil ki, o həmin ləzzətli Pendir deşiyi yox, nəsə başqa bir şey idi və heç kəsə lazım deyildi. Bax, bu fikir onun başını gicəlləndirdi və Pendir deşiyi belə qərara gəldi ki, özü gedib siçanı qonaq etsin.

—Tuq, tuq, tuq.

Qapısının döyüldüyünü eşidən Siçan yuvasında bir az da geri çəkildi və astadan ciyildədi:

—Kimdir? Əgər pişikdirsə zəhmət çəkib getsin. Bu gün boğazım bərk ağradığına görə siçan-pişik oynamayacağam.

—Pişik nədir canım, mənəm, tanımadın? Məşhur holland Pendirinin deşiyi. Sənə qonaq gəlmişəm.

Siçan bir anlıq heç nə başa düşmədi.

—Bura bax, bəlkə sən elə pendirsən, hə!

—Təəssüf ki, pendir deyiləm. O, vəfasız çıxdı. İnsanlar onu yedi. Amma mən sənin vəfalı dostun Pendir deşiyiyəm.

Aydın məsələdir ki, Siçanın ağzı sulanmışdı. Ürəyindən keçirdi ki, Pendirin deşiyindənsə elə özünü yeyərəm. Deşiyi isə birtəhər başdan eləmək olar.

—İçəri keçsənə? — deyə Siçan sevincək onu evinə dəvət etdi.

—Bu da mən! — deyə Pendir deşiyi Siçanın yuvasına girən kimi atılıb-düşməyə başladı.

—Mən səni görmürəm, — deyə Siçan qaranlıqda çox iti görən gözünü nə qədər ora-bura zillədisə heç nə seçmədi.

—Mən sənin lap burnunun ucundayam, istəsən bir tamıma baxa bilərsən.

Amma Siçan heç nə görmədi. Hər cür iyi bir-birindən seçməyi bacaran burnunu irəli uzadıb qoxuladı. Heç bir pendir-zad qoxusu gəlmədi.

—Bura bax, axı sənin heç iyin də yoxdur. Özünü isə nədənsə görə bilmirəm.

—Bilirsənmi, — deyə Pendir deşiyi qızardı. — Axı, mən pendirin hava ilə dolu deşiyiyəm, vəssalam. Mənsiz heç bir pendir yaşaya bilməz. Amma Pendirsiz də məni görmək çətindir. İy məsələsinə gəlincə isə deməliyəm ki, pendirlə olanda məndən əla ətir gəlir. Amma elə-belə yəqin ki, heç bir qoxu gəlməyəcək. Amma buna baxmayaraq dadıma baxa bilərsən. Səhv etmirəmsə gərək mən çox dadlı olam.

Siçan ağzını açdı. Pendir deşiyi özünü onun ağzına soxdu. Siçan xeyli çeynədi. Amma heç bir dad hiss eləmədi. Hələ deyəsən ümumiyyətlə ağzında bir şeyin olub-olmadığını da başa düşmədi. Xeyli çənəsini havayı şaqqıldadandan sonra dedi:

—Düzdü, ləzzətlisən. Amma sənə deyim ki, dadın demək olar ki, yoxdu.

Pendir deşiyi Siçan dişlərindən aldığı ləzzəti xəyalında yaşadaraq dilləndi:

—Mənim ləzzətim elə heç bir dadımın olmamağındadır. Əlbəttə, əgər mənə bir az pendir əlavə etsəydin lap dadlı olardı.

Siçan isə pendir yemək üçün ağzının suyunu axıdırdı. Fikirləşdi ki, əgər bütün pendir deşikləri bir yerə yığılsa yəqin ki, pendirin özü də ola bilər. Buna görə də dedi:

—Gəlsənə bütün pendir deşiklərini buraya dəvət edəsən?

Bir azdan Siçan yuvası pendir deşikləri ilə dolmuşdu. Qəribə burası idi ki, təxminən iki yüz kilo pendirin bütün deşikləri yuvaya dolmuşdu, hələ deyəsən bir az yer də qalmışdı. Siçan onların hamısını çeynədi-çeynədi, sonra hiss etdi ki, ağzına bir şey getmir. Pendir deşiklərini yuvasından qovdu.

Pendir deşikləri də həmin gündən Siçandan küsdülər və daha maraqlı bir əyləncə axtarmağa başladılar.

Bir dəfə onlar elə həmin bu Siçanın yuvasının yanında böyrü üstə yıxılmış bir boş vedrə gördülər.

—Gəlsənə burada qaçdı-tutdu oynayaq? — dedilər.

Bu təklif hamının xoşuna gəldi. Onlar boş vedrənin içinə girib necə sürətlə qaçırdılarsa vedrədən qəribə səs çıxırdı: uuuu. Onlar sürətlərini bir az da artıranda vedrə əъdaha kimi bağırmağa başladı: uuğğğuuu...

Ən maraqlısı bu oldu ki, Siçan uğultunu eşidən kimi qaçıb yuvasına girdi və uzun müddət quyruğunu qısıb tir-tir titrədi.

Pendir deşikləri uğunub getmişdilər. Bundan sonra dünyada yaşamağına dəyərdi. Onlar təkcə Siçanı deyil, hamını qorxutmaq fikrinə düşdülər. Bəs necə? Gərək bilsinlər ki, dadı olmasa da dünyada pendir deşikləri var və onlar çox şeyə qadirdir.

Onlar adamların ən çox toplaşdığı çimərliyə gəldilər, Xeyli çimərliyin üstü ilə uçub istədilər ki, uşaqları, bacarsalar lap böyükləri də qorxutsunlar.

Birdən çimərlik radiosu səsləndi və nəsə elan etdi. Pendir deşikləri çimərliyin radio qovşağına tərəf tələsdilər, Xoşbəxtlikdən mikrofonlar açıq idi. Diktor isə bir az kənarda saçlarını darayırdı. Fürsəti əldən buraxmaq olmazdı, Pendir deşikləri özlərini mikrofona necə çırpdılarsa çimərliyin bütün radioları uğuldamağa başladı. Adamlar elə bildilər ki, bu saat buludlar qırılıb torpağa töküləcək. Çimərlikdə yatmağı xoşlayan qarpızsifət gəlin qışqırdı:

—Bu saat dolu yağacaq!

Bir qaçaqaç düşdü ki, gəl görəsən. Pendir deşikləri işi belə görüb daha da həvəsləndilər. Adamlar hətta paltarlarını geyinməyə imkan tapmadılar. Onlar çətirlərini və paltarlarını qoltuqlarına vurub qaçmağa başladılar.

Diktor bilmədi ki, bu nə olan şeydi. Tələsdiyindən mikrofonu açıq qoyub qaçmağa başladı. Pendir deşikləri həmin gün hamını çimərlikdən qova bildi.

Bir dəfə onlar sözü bir yerə qoyub təyyarə motoruna girdilər. Elə ki təyyarə uçmağa başladı onlar güllə kimi motordan çölə tullandılar və əcaib bir səs çıxartdılar:

—Vıyyı!

Düzdür, bu səsdən heç kəs qorxmadı. Uşaqlar sadəcə olaraq gözlərini qırpdılar. O saat başa düşdülər ki, təyyarə uçur, ona görə də belə səs çıxarır. Amma pendir deşikləri özlərini xoşbəxt hiss edirdilər. Geniş səmada belə bir səslə bağırmaq hər kəsə nəsib olan iş deyildi. Onlar doğrudan da böyük igidlik göstərə bilmişdilər.

Sonra hansı zavoddasa təzə pendir düzəltdilər. Bikarçılıqdan darıxan pendir deşikləri təzə pendirdə öz yerlərini tutdular. Onlar pendirin duzlu suyundan içə-içə başlarına gələn əhvalatları xatırlayıb gülümsünürdülər. Əgər ağızlarına su dolmasaydı bu əhvalatları yəqin ki, bir neçə dəfə bir-birinə danışacaq və doyunca güləcəkdilər. Heyf ki, ağızları su ilə dolu idi. Onlar yalnız yavaşdan qurt-qurt etməklə kifayətləndilər və səbirsizliklə pendiri yeyəcək adamın yolunu gözlədilər. Axı, hər dəfə pendir yeyənin dişi mütləq onlara toxunurdu və bundan demək olar ki, ləzzət alırdılar.

Sən də pendir yeyəndə bax gör dişin onun deşiyinə toxunurmu?

BUYNUZ

iz yəqin ki, İsgəndərin buynuzu haqqında eşitmisiniz. Qədim Yunan padşahı İsgəndərin başında bir cüt buynuz bitibmiş və yazıq İsgəndər buynuzunu gizlətmək üçün nə qədər əziyyət çəkibmiş. Axırda onun başını qırxan dəllək bu sirri quyuya deyir. Həmin quyuda bitən qamışlardan qayrılmış tütəklər bu sirri dünyaya yayır. Amma Zəbinin dərdi İsgəndərinkindən olsaydı, bunu heç özünə dərd eləməzdi. Əksinə, başını açıb fəxrlə öz qəşənk buynuzlarını camaata göstərərdi. Yox, yazıq Zəbinin əhvalatı buna qətiyyən oxşamır. Ən pisi budur ki, Zəbinin buynuzu qarnında bitmişdi. Bəli, qətiyyən təəccüblənməyin. Buynuzun çox hissəsi onun qarnının içində idi. Yonulmuş qələmə oxşayan barmaq boyda hissəsi isə Zəbinin göbəyindən çölə çıxmışdı. Sizcə Zəbi onu necə gizlədəydi? O buna əlac tapmışdı: üst-üstə bir neçə köynək, bir də dəri pencək geyinirdi ki, buynuz çöldən görünməsin. Birdən uşaqları onun qucağına atılmaq istəyəndə işlər lap çətinləşirdi. Zəbi çalışırdı ki, qucağına uşaq götürməsin, götürdüyü körpəni isə məcbur olub bir az aralıda tutsun ki, buynuz onun qarnına girməsin.

Zəbi bircə şeyi dəqiq bilmirdi ki, görəsən bu buynuzdan hamının qarnında olur, yoxsa təkcə onun qarnında buynuz var? Bir dəfə o, yoldaşlarının birinin qulağına əyilib soruşdu:

—Bura bax, sənin də qarnında buynuz varmı? .

Həmin adam bərk hirsləndi və üz-gözünü elə turşutdu ki, elə bil bir kilo turş alça yemişdi.

—Buynuz nədir? Heç adamın da qarnında buynuz olar?

Zəbi kəkələdi:

—Əlbəttə, buynuz başda olar. Mən səfeh deyəsən danışdığımı bilmirəm.

Günlər keçdikcə buynuz da böyüyürdü. Bir dəfə Zəbi baxıb gördü ki, qarnındakı buynuz xəncər kimi köynəklərini deşib dəri pencəyinə ilişib qalıb. Fikirləşdi ki, neyləsin. Axı bu buynuz bir işə yaramalıydı, ya yox. Xeyli fikirləşəndən sonra belə qərara gəldi ki, buynuzun iti olub-olmadığını yoxlasın. Əvvəlcə qarşısına çıxan ilk adamın üstünə şığıdı. Buynuzu onun qarnına çaxdı. Həmin adam yerə yıxılıb çapaladı. Zəbi isə qarnındakı buynuzun bu qədər iti olduğuna sevinib çıxıb getdi işinə.

Bundan sonra kimdən bir balaca xoşu gəlmirdisə buynuzunu işə salırdı. Ən maraqlısı bu idi ki, heç kəs Zəbini günahlandıra bilmirdi. Axı, kimin ağlına gələrdi ki, adamın qarnında belə iti buynuz olsun?!

Əgər siz böyüklərdən eşitsəniz ki, filankəsin buynuzu qarnındadı, onda qətiyyən təəccüblənməyin. Çünki qarnında buynuzu olan təkcə Zəbi deyil. Başqa adamların da bəzən qarnında buynuz olur. Heyf ki mən onları tanımıram. İşdi tanısam, onlar haqqında da bir şey yazaram.

ƏL

Bu qəribə əlin uzun barmaqlarının ucundakı dırnaqlar qartal kimi əyri idi. Əlin içi boşqab kimi dərin, üstü isə ayı pəncəsi kimi tüklüydü. Amma bütün bunların hamısına dözmək olardı. Maraqlı burası idi ki, bu Əl bədəndən ayrılıb kefi istəyən ölkəyə gedə bilirdi. Əlin uşaqlığı haqqında eşitməmişəm. Amma gəncliyi haqqında eşitdiklərimi sizə danışım. Elə ki bu Əl cavan bir oğlanın oldu, başladı oğurluğa. Hansı ölkədə qiymətli bir şey vardısa elə o dəqiqə də oğurlayıb gətirirdi sahibinə. Amma onun sahibinin kim olduğunu bilmirəm. Təkcə bildiyim odur ki, günlərin birində bu Əl ölkələri oğurlamağa başladı.

—Bu daha ağ oldu! — deyə adamlar hiddətləndilər. — Bir əlin də öhdəsindən gələ bilmiriksə onda daha niyə yaşayırıq?

Adamlar sözü bir yerə qoydular ki, harada gördülər həmin Əli dibindən kəssinlər. Amma onu daha görmək mümkün deyildi. Görünməz adam kimi qapıdan girib bacadan necə çıxırdısa adamlar bir də onda ayılırdılar ki, Əl ən qiymətli bir şey oğurlayıb.

Təkcə evlər və həyətlər deyil, yavaş-yavaş ölkələr əldən gedirdi.

—Belə getsə bir də ayılıb görəcəyik ki, bu Əl bizim hamımızı oğurlayıb. Təcili bir iş görmək lazımdır!

Amma adamlar bilmirdilər ki, bu «təcili iş» nədir və yazıqlar neyləsələr bu Əldən yaxalarını qurtara bilərlər.

Əl dünyadakı işlərini sahmana salandan sonra bilmədi ki, neynəsin. Ürəyi istəyən qədər ölkə oğurlaya bilmişdi.

Amma yenə nə isə mühüm bir iş görməli idi. Ağlına qəribə fikir gəldi. Necə sevindisə uzun bir fit çaldı və işə başladı.

O, əvvəlcə yanaşı duran iki nəfərin saçından dartıb gizləndi.

—Saçımdan niyə dartırsan? — deyə ağsaçlı kişi dilləndi.

—Sən dartırsan, yoxsa mən? — deyə qarasaçlı adam onun üstünə qışqırdı.

Əl bu zaman onların saçını yenə dartışdırdı. Daha buna dözmək olmazdı. Bu adamlar necə dalaşdılarsa ikisinin də burnu əzildi. İkisinin də gözünün altı qaraldı.

Bu zaman Əl görüşə gəlmiş iki dövlət başçısının qulluğunda hazır dayanmışdı. Dövlət başçıları mühüm bir məsələni müzakirə etdikləri üçün otağa heç kəsi buraxmamışdılar. İşin şirin yerində Əl onların hərəsinin burnundan bir çimdik aldı. Dövlət başçıları tez ətrafa baxdılar ki, görsünlər otağa arılar haradan doluşub. Amma otaqda arızad yox idi. Əl necə çimdikləmişdisə hər ikisinin gözündən yaş gəlmişdi. Tez gözlərinin yaşını, silib gülümsündülər. Birinci dedi:

—Sizinlə söhbət etmək mənə o qədər xoşdur ki, hətta gözümdən yaş gəlir.

O biri də bundan geri qalmaq istəmədi:

—Nə danışırsınız? — dedi, — bu söhbətlər mənə o qədər ləzzət verir ki, hətta gözlərimin sevinc yaşlarını silməyə belə vaxt tapmıram.

Onlar gözlərinin yaşını silib yenə də gizli söhbətə (başlamaq istəyəndə Əl onların hər ikisini qıdıqladı.

Padşahlar yenə də ətrafa boylandılar ki, görsünlər bu nə işdi. Yenə bir şey başa düşmədilər. Əl daha dözmədi. Onların hərəsinə yağlı bir şillə ilişdirdi.

Bir azdan içəridə səs-küy qopdu. Adamlar tökülüb gəldilər, gördülər ki, padşahlar dalaşır. Daha bundan sonra

dözmək olardımı? Ölkələr arasında müharibə qızışdı, nə qızışdı.

Əl isə hər iki ölkəyə çoxlu silah verirdi ki, qoy lap yaxşı vuruşsunlar.

Deyirlər ki, həmin o Əl çox ölkələri beləcə vuruşdurub. Bəlkə hələ də dünyada müharibələri həmin o Əl qızışdırır. Amma bu saat o dururmu, bax bu, məlum deyil. Ola bilər ki, hələ də durur. Yoxsa bu ölkələrə nə düşüb ki, bir-biri ilə vuruşur?!

SÜSƏNİN SÖZ DAĞARCIĞI

slində bu lap adi bir dağarcıq idi. Süsən qarı onu çiyninə salıb başlayırdı şəhəri gəzməyə. Harada təzə söz eşitsə tez onu qoyurdu dağarcığına. Amma maraqlı burası idi ki, Süsən axşam yığdığı sözləri haqq-hesaba vururdu. Görürdü ki, onun topladığı sözlər eşitdiklərindən bir az artıqdır.

Süsənin dağarcığındakı sözlər olduqca qiymətli idi: Səkinənin yaylığının, ucu geri qatlanmışdı, görünür kefi lap kökdü. Ya da Həsən yeriyəndə şalvarını yellədirdi, görünür dünya yavaş-yavaş dəyişir.

Süsənin dağarcığında birdən o qədər söz olurdu ki, qarı onu sürüyüb gətirə bilmirdi. Buna görə də beli elə «S» hərfi kimi qabağa əyilirdi. Belə vaxtlarda onun kefi lap kök olurdu. Sizə zarafat gəlməsin. Dağarcıq ağzına kimi sözlə dolandan sonra daha Süsən qarının dünyada nə dərdi ola bilərdi?!

Bir dəfə Süsən fikir verib gördü ki, keşikçi Həsən dişini qurdalayır. Çox şübhəsiz ki, burada nəsə vacib bir söz olmalıydı. Süsən o saat dağarcığına yığdı ki, Həsənin dişinin dibində sümük qalıb. Özü də çox güman ki, ağbalığın qəlsəmə sümüyüdür. Bundan sonra Süsən çox mühüm bir şey də kəşf etdi. Sən demə həsən kişi böyük bir balığı elə diri-diri yeyirmiş. Bəlkə də balıq yox, balina imiş. Süsən fikirləşdi ki, indi ov vaxtı deyil və keşikçi Həsən bir balinanı yeyibsə qanunu pozub, aydın məsələdir ki, bu barədə gərək camaata xəbər verilə. Beləliklə Süsən dağarcığını birtəhər sürüyə-sürüyə getdi camaatın içinə. Sən demə Həsən balina-zad

yeməyib. Sadəcə olaraq bu adam dişinin dibini qurdalamağa adət edibmiş, vəssalam.

Bir dəfə Süsənin söz dağarcığı deşildi. Uşaqlardan kimsə dağarcığın altını kəsdi. Yazıq qarı axşama qədər yığdığı sözlərin hamısını bir dəqiqənin içində itirdi. Əlbəttə, buna dözmək olmazdı. Qarı bu dərdə dözə bilməyib öldü. O vaxtdan bu dağarcığı heç kəs gəzdirmir. Cırıq bir dağarcıq kimə lazımdır ki...

Buna görə də daha sözlər bir yerə yığılmır. Eləcə səpələnir bu dünyaya. Harada insanlara rast gəlsələr orada da danışılmağa başlayırlar.

OĞURLUQ EDƏN DƏVƏNİN AXIRI

Bir bostançı çox fikirləşəndən sonra Dəvəni qarovulçu qoydu. Axı, onun boyu hamınınkından uzun, gözləri hamınınkından iti idi. Gecə ehtiyatla yeriyəndə ayağının altından heç səs-zad çıxmır. Buna görə də bostançı tutduğu işə çox sevindi. Bostançı hər gün bazara yemiş-qarpız aparır, satıb həm Dəvəyə, həm də özünə yemək alırdı. Bu dostluq o qədər möhkəmlənmişdi ki, Dəvə daha bostana yalnız qarovul çəkmir, dostuna yaxından köməklik göstərir, yeri şumlayır, xülasə can-dildən işləyirdi. Dəvənin çox danışmaqla arası yox idi. Yalnız çox isti olanda deyirdi:

—Puff.

Bostançı da o saat başa düşürdü ki, dostuna su lazımdır. Böyük bir çəlləyi doldurub qoyurdu onun qabağına. Dəvə gözlərini çəlləyə zilləyib ləzzətlə suyu sorurdu. Tamam qurtarandan sonra deyirdi:

—Puff, yəni çox sağ ol. Lap doyana qədər içdim.

—Nuş olsun! — deyə bostançı dostunu sığallayırdı.

Bir dəfə bostançı bazara getmişdi. Dəvə isə gözdə-qulaqdaydı ki, bostana heç kəs girməsin. Bir də gördü ki, şıqqıltı gəlir. Diqqətlə baxan kimi Tülkünün sarı quyruğunu gördü və qışqırdı:

—Puff! Yəni bostandan cəhənnəm ol!

Tülkü quyruğunu altına qatlayıb oturdu. O, Dəvəyə baxıb dedi:

—Ay ağlı topuğunda olan uzundıraz! Gör sən nə qədər axmaqsan ki, axşamacan işləyirsən, qarovul, çəkirsən, nədir-nədir bostançı sənə bir qarın çörək verəcək. Halbuki, bu

bostanın demək olar ki, hamısı sənə çatır. Amma sən elə əvvəlki kimi axmaqsan.

Tülkü bu sözləri Dəvəyə qəsdən deyirdi. Axı, Dəvə buralara qarovul çəkəndən bəri heyvanlar demək olar ki, oradan heç nə oğurlaya bilmirdilər. İndi Tülkü Dəvə ilə dostunun arasını vurmaq istəyirdi ki, onlar dalaşsın, bəlkə bostançı Dəvəni qovsun.

Dəvə Tülkünün sözlərini dinləyib dedi:

—Puff! — yəni sənin danışdıqların boş sözdür. Yaxşısı budur ki, çıxıb rədd olasan.

Bu sözləri deyib Tülküyə tərəf yeridi. Tülkü gördü ki, durub qaçmasa Dəvə onu tapdalayıb öldürəcək. Ona görə meşəyə tərəf götürüldü.

Tülkü gedəndən sonra Dəvə «puff» edib dərin bir fikrə getdi. «Deyəsən axı bu topaquyruğun sözündə bir həqiqət var. Axı, mən bütün günü işləyirəm, amma axırda zəhmət haqqım ancaq bir qarın yemək olur. Yaxşısı budur bir-iki qarpız götürüb bazarda satım, özümə bir şey alıb tez də qayıdım. Günün batmağına hələ çox var. Bostançı qayıdana qədər gələrəm.

Dəvə bostana girib iki iri qarpız seçdi və dalına götürüb bazara getdi. Yolun yarısında gördü ki, dostu gəlir. Dəvələr uzağı yaxşı görürlər. Dəvə yalnız indi başa düşdü ki, lap səfeh iş tutub. Tülkünün sözünə aldanıb. Amma daha gec idi. Qarpızları harada gizlədəcəyini götür-qoy edənə kimi bostançı onu gördü. O, təəccüblə dostuna baxıb ona tərəf yüyürdü. Bu zaman Dəvə necə xəcalət çəkdisə qarpızlar onun dərisinin altına girib onu qozbel etdi. Deyəsən bostançı dostunun xəyanətini başa düşdü və həmin gündən onunla dostluğu kəsdi. Ona görə də indi dəvələri bostana yaxın buraxmırlar. Onlar nə qədər çalışırsa bellərindəki qarpızı əridib qurtara bilmirlər ki, bilmirlər.

KAĞIZ ADAMLAR

mrümdə belə adamlar görməmişəm. Biləndər deyir ki, onlar kağız adamlardır və buna görə də belə ağ və zərifdirlər. Əgər onlara rast gəlsəniz gülməkdən ölərsiniz. Əvvəla onlar çox şax yeriyirlər ki, birdən əzilərlər. Kağızı sonra necə düzəltmək olar?! Əzildi, vəssalam! Yağış yağanda bu adamların işi lap müşkül olur. Gərək çətiri elə tutsunlar ki, üstlərinə bir damla da yağış düşməsin. Bəs necə, bircə damla yağış onların axırına çıxa bilər. İşləmək haqqında isə gəlin heç danışmayaq. Axı, kağız adamlar nə iş görə bilərlər ki... Bir də heç insafdandırmı deyəsən:

—Gəl bu ocağı qala.

Axı, o saat onlar alışıb yanarlar. Ağzında kağız deyirsən.

Kağız adamlar o qədər zərifdirlər ki, onlara baxmağa cürət etmirsən. Qorxursan ki, birdən üzlərinə ləkə düşər. Hə, orasını da deyim ki, onların həyatda ən çox qorxduqları şey üst-başlarına düşən ləkədir. Əgər paltarlarına bir ləkə düşsə (yaxşısı budur ki, belə bir bədbəxtlik baş verməsin) sonra kağız adamların ah-naləsini kəsmək mümkün olmaz.

Siz onların əllərinə baxın. Kağızın özündən də ağ əlləri o qədər zərifdir ki, belə bir əllə yalnız rəqs etməkdən başqa bir iş görmək əlbəttə ki, qəbahətdir. Bir dəfə kağız adamlardan biri işləmək fikrinə düşdü. O, xeyli düşünəndən sonra cəsarətə gəlib fikrini ata-anasına dedi. Anası əvvəl zərif və ağ əlləri ilə saçlarını tumarladı. Amma özünü elə göstərdi ki, guya hirsindən saçlarını yolur; bərkdən ağlamaq istədi. Amma

qorxdu ki, göz yaşları üzünün rəngini aparar. Kağızla suyunku tutmaz axı. Bircə damla düşdü (lap göz yaşı olsa belə) qurtardı. Buna görə də yalandan ağladı və dedi:

—Gör biz necə bədbəxt olmuşuq ki, uşağımız işləmək fikrinə düşüb! Ağılsızlıqdır!

Ata barmağını dik tutub dedi: — Buna ancaq ağılsızlıq demək olar! Hələ ömründə kağız adamların işlədiyini görən olmayıb.

Oğlan isə sözündən dönmədi. İstixanada ocaqçı vəzifəsində işə girdi. Az sonra xəbər gəldi ki, tüstü uşağı qap-qara qaraldıb. Baxan onun kağız adam olduğuna inanmaz!

Ana bu xəbəri eşidib ürəkdən ağlamaq istədi. Amma bilmədi necə ağlasın ki, bu şoqərib göz yaşları axmasın. Buna görə də yalandan ağlamalı oldu. Bir də ki, heç ağlamağına dəyməzdi. Axı, onların uşağı tamam özbaşınalıq etmişdi. Belə uşaqdan ötrü heç qan qaraltmağına dəyməzdi.

GÜLMƏK ÜÇÜN MÜHARİBƏ

ir dəfə Biləndər gülənlər ölkəsinə gəlib çıxdı. Orasını da bil ki, bu ölkənin sakinləri əsasən uşaqlar idi və onlar elə-belə hər şeyə gülmürdülər. Onları güldürmək sizə o qədər də asan gəlməsin. Fikirləşməyin ki, bir yalançı pəhləvan üz-gözünü qırışdırsa bu ölkənin adamları başlayacaqlar gülməyə. Yox, yox, qətiyyən belə deyil. Bu uşaqlar özləri gülməli şeylər axtarıb tapır və ona doyunca gülürlər. Gülməyə başlayanda oğulsan gəl onları sakitləşdir. Bir dəfə həmin bu ölkənin adamları hər şeyə gülüb qurtarmışdılar və fikirləşirdilər ki, gülməli bir şey tapsaydılar heç pis olmazdı. Gənc tarixçi qədim kitabdan bir söz tapdı. «Müharibə» sözü. Aydındır ki, sözün mənasını başa düşmədi. Axı, haradan başa düşəydi... Çoxdandı müharibə olmurdu və buna görə də onun mənası da tamam yaddan çıxıb getmişdi. Daha doğrusu insanlar başa düşmüşdülər ki, dünyada müharibədən pis şey yoxdur.

Hə, cavan tarixçi kitabları eşələdi və axırı ki, bu sözün mənasını öyrəndi. Elə sözün mənasını öyrənəndən sonra onu bir gülmək tutdu ki, gəl görəsən. O qədər güldü ki, axırda ondan soruşdular:

—Canım, bu sözün mənasını bir bizə də başa salsana!

—Yaxşı, — deyə cavan oğlan köynəyinin yaxasını düzəltdi və yenidən güldü. — Sən demə keçmişdə insanlar müharibələr edib bir-birini qırırmış.

—Bu ola bilməz, — deyə ona heç kəs inanmadı. — İnsan da bir-birini öldürərmi?

—Siz təsəvvür edin ki, məhz belə imiş. Təyyarələrdən şəhərlərə bombalar yağırmış. Özü də bunu yekə-yekə adamlar edirmiş. Lap bığlı-saqqallı əmilər və dayılar.

Tarixçi bu sözü deyəndən sonra daha uşaqları saxlamaq olardımı? Onlar keçmiş babalarının işlərinə doyunca güldülər. Sonra tarixçinin dediklərini təsdiq etmək üçün bir müharibə düzəltməyə başladılar. Əvvəl iki ölkə və bu ölkələrin başçılarının balaca fiqurlarını düzəltdilər. Ölkə başçıları əllərini ölçür, bir-birinə anlaşılmaz sözlər deyirdilər. Sonra bombardmançı təyyarə maketləri işə düşür, torpaqdan alov qalxırdı. Gülənlər ölkəsinin adamları bu səhnələrə baxıb o qədər güldülər ki, axırda hərəsinin bir dişi əskik gəldi.

QAZI VƏ ŞEYTAN

iri var idi, biri yox idi, iki qonşu vardı. Bu qonşular o qədər mehriban yaşayırdılar ki, hamı onlara qibtə edirdi. Onların qonşuluğunda uzunquyruq bir Şeytan da yaşayırdı. Bu Şeytan şəhər qazısının yaxın dostu idi. Gördüyünü, eşitdiyini Qazıya xəbər verirdi. Qazı da yumurtadan yun qırxmağı bacarırdı. Şeytanın gətirdiyi hər xəbərdən pul çıxarda bilirdi. Elə buna görə də neçə il idi ki, qazılıq eləyirdi.

Şəhərdə elə bir adam qalmamışdı ki, Şeytan onu Qazının ayağına gətirməmiş olsun. Amma bu qonşular elə bil sözü bir yerə qoymuşdular.

Qazı hərdən hirslənirdi:

—Sən necə şeytansan ki, bu iki qonşu ilə bacarmırsan.

Qazı hirslənəndə şeytan qocalırdı.

— Mənə bir az möhlət ver, ağa.

— Get gör onların arasını necə vura bilərsən.

Şeytan gecə-gündüz nə qədər əlləşirdisə bu iki qonşunun arasına girə bilmirdi. Elə bil qonşu kişilər qardaş, qadınları isə bacı idi. Paxıllıqdan Şeytanın quyruğu uzanmış, saqqalı sinəsinə tökülmüşdü. Bir gün Şeytan gördü ki, qonşu arvadlardan biri təzə ayaqqabı geyinib. Şeytan tez irəli cumub dedi:

—Başmaqların mübarək, ey dünyanın nadir gözəli. Dünyada sənin başmağın qədər parlaq başmaq görməmişəm. Sən bizim qonşuların ən gözəlisən.

Bu zaman o biri qonşunun arvadı həmin sözləri eşitdi. Ərini məcbur etdi ki, gedib ona da belə parlaq başmaq alsın.

Qonşu kişi arvadına elə başmaq aldı ki, lap günəş kimi yanırdı. Qadın ayaqqabını geyinib küçəyə çıxanda Şeytan elə bil yerin altından nazil oldu.

—Bəh, bəh, bəh! Doğrusu, mən elə bilirdim ki, dünyada qonşunun başmağından parlaq başmaq yoxdu. Amma sənինkini görəndə onun başmaqları o saat parlaqlığını itirir.

Bu sözləri qonşu qadın eşitdi. Ərindən tələb etdi ki, bu saat ona dünyanın ən parlaq başmağını tapsın. Qadının sözlərini Şeytan da eşitdi. O saat saqqalı yox oldu, gözləri parladı, quyruğu qısaldı, bir sözlə düz əlli il cavanlaşdı. Onun işləri əla gedirdi.

Qonşu qadınların arası tezliklə dəydi. Çünki dünyada nə qədər parlaq başmaq vardısa ərləri alıb qurtarmışdı. Amma arvadların mübahisələri getdikcə qızışırdı. Axırda iş o yerə çatdı ki, arvadlar saçyolmasına çıxdılar. Sonra növbə kişilərə çatdı. Elə bil onlar bir-birinə "can" deyib "can" eşidən dostlar deyildi.

Əvvəlcə biri o birinə dedi:

— Qaşqaldaq.

Qaşqaldağın söyüşə bənzər adını eşidən qonşu daha tutarlı söz axtardi:

—Balqabaq.

—Mənə balqabaq deyirsən, ay öküz! Öküzün şiş buynuzlarını gözlərinin qarşısında canlandıran qonşu dözmədi:

—Heyvan!

Bəli, saçlar yolundu, boğazlar sıxıldı, köynəklər cırıldı və qonşular qazının yanına gedəsi oldular.

Şeytan tez fəaliyyətə başladı. Əvvəlcə birinci qonşuya başa saldı ki, Qazının yanına əliboş getməsin. Yoxsa qazının qəzəbinə gələr.

Sonra ikinci qonşuya dedi ki, əl-əli yuyar, əl də üzü. Qazıya bir şey verməsən cəzalana bilərsən.

Qonşulardan biri həyətindən yekə bir qaz tutub qoltuğuna vurdu ki, qazıya pay aparsın.

O biri qonşu isə ağzına bir qızıl onluq qoyub qazının yanına yollandı. Bu zaman Şeytan o qədər cavanlaşmışdı ki, lap uşağa oxşayırdı. Şeytan özünü qazının yanına yetirdi.

Qazı xalçanın üstündə bardaş qurub şeytana yer göstərdi, sonra şikayətçiləri dinləməyə başladı. Qoltuğunda qaz tutan qonşu qabağa yeriyib dedi:

—Ey ədalətli qazı, bu qonşu məni bihörmət etdi. Yaxamdan tutub məni əzişdirdi. Onun cəzasını ver.

Onun arxasında dayanan qonşu isə hərdənbir dodaqlarını aralayıb ağzındakı qızıl onluğu qazıya göstərir və heç nə demirdi. Qazı başa düşdü ki, onluq qızıl ona pay gəlib. Buna görə də qaz gətirən qonşuya dedi:

—Sən qaz kimi boynunu uzadıb nahaq qabağa keçmisən. Görmürsən qonşun ağzında qızıl kimi söz danışır?

Bu zaman Şeytan işə qarışdı.

—Hörmətli qazı, mən bu kişini tanıyıram. Qazları da çox dadlıdır. Qızılın qaza, qazın qızıla maneçiliyi yoxdu.

Qazı Şeytanın nə demək istədiyini başa düşdü. Birinin qazını, o birinin qızılını əlindən aldı. Ədalətli hökm çıxardı ki, daha onların qonşuluğu yaramaz.

Qazı ilə Şeytan həmin günü qaz əti yedilər, şərab içdilər.

Qonşular isə ömürlük düşmən oldular. İndi onların biri şəhərin bu başında, biri də o biri başında yaşayır. Deyirlər ki, hər axşam onlar uşaqlarına qazı ilə Şeytanın ədalətindən şirin-şirin nağıllar danışırlar.

TEYMURLƏNGİN NÖKƏRİ

iri var idi, biri yox idi, Əmir Teymurun çox ağıllı bir nökəri var idi. Deyirlər, Teymurləng Şirvana gələndə həmin nökəri də gətiribmiş. Şirvanda bir neçə gün qaldıqdan sonra ağıllı nökərini, bir dəvəsini və ov tulasını Şirvan hökmdarına tapşırıb şəhərə çıxır. Hökmdara tapşırır ki, onun əmanətinə xəyanət eləməsin.

—Bax, budu sənə tapşırıram. Onlardan hər hansı birinin "öldü" sözünü dilinə alan adamı dar ağacı gözləyir.

Əmir Teymurun sözünün qabağında kim bir söz deyə bilərdi ki?! Şirvan hökmdarı Teymurun qapısında ikiqat olub əllərini gözünün üstünə qoyub deyir:

—Ey böyük hökmdar, sizin nökəriniz bizim ağamızdır. Onu gözümüzün üstündə saxlayacağıq.

Teymurləng nökəri, iti və dəvəsini onlara tapşırıb uzaq səfərə yola düşür.

Bu hadisədən xeyli keçir. Teymurləngdən bir soraq çıxmır. Camaat fikiriəşir ki, yəqin daha Teymurləng nökərini, itini və dəvəsini yadından çıxardı. Bir də bu tərəflərə dönməz. Buna görə də yavaş-yavaş nökərə hörmət azalır, dəvəyə və itə yemək vermək yaddan çıxır.

Dəvə yemək tapmaq üçün gəzməyə çıxır. Gəzə-gəzə gəlib taxıl zəmisinə çatır. Zəmiyə girib hələ yamyaşıl otu xatırladan taxılı yeməyə başlayır. Taxılın qoruqçusu işi belə görüb hökmdara xəbər verir. Hökmdar hələ də Teymurləngin gələcəyinə inandığı üçün belə deyir:

—Gedin, birtəhər zəmidən çıxardın. Amma dəvəni döyməyin ha...

Teymurləngin nökəri də bu əhvalatı eşidir və zəmiyə gəlir. Nökər zəmiyə çatanda görür ki, qarovulçu dəvəyə deyir:

—Xox, xox, ay dəvə, zəmidən çıx. Dəvə qarovulçunun sözlərinə əhəmiyyət verməyib yeməyində olur. Qarovulçu dəvəni qorxutmaq üçün bir daş götürüb deyir:

—Xox, xox, xox deyirəm sənə. Tez ol zəmidən çıx! Yoxsa vuraram ha...

Heç elə bil bu sözlər dəvəyə deyilmir. Yekə ağzını açıb göy taxılı yeməyində davam edir.

Teymurləngin nökəri qarovulçuya yaxınlaşıb deyir:

—Ay kişi, bu dəvənin belində Teymurləngin topları atılıb. Onun adını eşidən düşmənlər sərçə kimi qabağından qaçıb. Sənin "xox"undanmı qorxacaq?

Nökərin səsini eşidən dəvə başını qaldırıb ətrafına baxır. Nökər dəvənin ovsarından yapışıb şəhərə dönür. O vaxtdan dəvəyə hər gün yemək verilir.

Camaatın başı dəvəyə qarışdığı üçün Teymurləngin tulası tamam yaddan çıxır. Yazıq tula nə qədər zingildəyir, mırıldayır, harayına çatan olmur. Bir gün səhər durub görürlər ki, tula ölüb. Hökmdar nə qədər başına döyürsə xeyri olmur. Daha öləni diriltmək olmaz.

Bu yandan da xəbər çıxır ki, Teymurləng Muğandadır. Bu gün-sabah gələsidir.

Muğan hökmdarından bir çapar gəlir ki, eviniz yıxılsın, nə yatmısınız, oyanın. Teymurləng Muğan padşahına elə bir çətin tapşırıq verib ki, onu heç kəs yarıda bilməz.

Soruşurlar ki, o nə tapşırıqdı elə.

Çapar deyir:

—Muğanda çoxlu gölməçə, bu gölməçələrdə də çoxlu qurbağa var. Teymurləng Muğan padşahına üç gün möhlət verib. Deyib ki, bu üç gündə qurbağaların səsini kəsməsəniz hamınızı qılıncdan keçirəcəm. Möhlətin bir günü qurtarır. İki günə də bu boyda qurbağanı qırıb qurtarmaq olmaz. Lap elə qırsan da təzəsi doğulacaq. Şah hər şəhərə bir çapar göndərib ki, bəlkə bu işə bir əncam çəkə bilən adam tapıldı.

Şirvan padşahı xeyli fikirləşib deyir:

—Teymurləngin burada bir nökəri var. Çox ağıllı və hazırcavab adamdı. Bəlkə o bir çarə edə.

Çaparla hökmdar nökərin yanına gəlib əhvalatı danışırlar. Hökmdar deyir:

—Mən sənə qarşı çox diqqətsiz olmuşam. Amma sənin ağlın, kamalın qarşısında baş əyməyə hazıram. Sənə iki işimiz düşüb. Muğandakı qurbağaları necə edək ki, səslərini kəssinlər. Bunu ancaq sən bacararsan. Bir də Teymurləngin tulasının ölüm xəbərini ona kim çatdırsa başı bədənindən ayrılacaq. Bu iki işdə bizə kömək etsən səni qızıla qərq edəcəyik.

Nökər bir az fikirləşib deyir:

—Hörmətli hökmdar. Mən sənin çörəyini yemişəm, Şirvan dağlarının suyunu içmişəm, onları tapdalaya bilmərəm. Əmr edin məni Muğana aparsınlar.

Elə o saat atlar yəhərlənir, dəm-dəstgahla nökəri çaparla birlikdə Muğana yola salırlar.

Onlar Muğana gecə çatırlar. Qorxudan Muğan hökmdarının gözlərinə yuxu-zad getmirdi. At ayaqlarının səsinə nökərlərdən qabaq özü çölə çıxır. Görür ki, Şirvana göndərdiyi çaparla bir adam gəlib. Başa düşür ki, bu adam onun qanının arasına girən bir igiddir. Onu qonağa layiq bir hörmətlə qarşılayır. Nökərlər də yuxudan qalxıb əl-ayağa düşürlər.

Teymurləngin nökəri deyir:

—Vaxt itirmək olmaz. Sabah Teymurləng çıxıb gölməçələri gəzəcək. İşimizi bu gecə başa çatdırmalıyıq. Əmr edin yüz dənə inək kəsilsin. Onların bağırsaqlarını hava ilə doldurub uclarını bərk bağlayın ki, hava çıxmasın. Bu bağırsaqları gölməçələrə atın. Qurbağalar onları ilan hesab edib səslərini kəsəcəklər.

Gecə bütün gölməçələrə həmin bağırsaqlardan atılır. Səhər Teymurləngin adamları gölməçələri gəzəndə qulaqlarına

inanmırlar. Qurbağaların hamısı səsini kəsib gələnlərə mat-mat baxır. Onlar əhvalatı Teymurləngə çatdırırlar.

Teymurləng çox ağıllı adam idi. Bir az fikirləşib deyir:

—Bu ətrafda mən qurbağaları susdurmaq üçün mal bağırsaqlarından istifadə etməyin mümkünlüyünü bilən adam tanımıram. Düzünü deyin, görüm bu işi hansınız Muğan hökmdarına başa salmısınız.

Hamı bir-birinin üzünə baxır. Teymurləng deyir:

—Anamın müqəddəs ruhuna and içirəm ki, ona heç nə eləməyəcəyəm. Mən ancaq bu ağıllı adamı tanımaq istəyirəm.

Teymurun belə and içdiyini görən ağıllı nökər gizlən-diyi yerdən çıxır, qabağa gəlib baş əyir. Teymur nökərini tanıyır və ürəyində onu unutduğu üçün özünü danlayır.

—Deməli, bu sənsənmiş. De görüm dəvə ilə it necədir?

Nökər deyir:

—Teymur sağ olsun, dəvə çöldə-biyabanda istədiyi otlardan yeyib kökəlir. İndi iki dəvə boydadı. İt isə uzanıb və gözlərini yumub.

—Necə yəni gözlərini yumub? Əməlli danış görüm.

—Əməlli deyəndə ki, sizə necə başa salım, başını qabaq ayaqlarına söykəyib, dişlərini ağardır. Quyruğu da yerdədir. Tükləri də daha əvvəlki kimi qabarıq durmur.

—Bəlkə it ölüb? — deyə Teymur qışqırır.

—"Ölüb" sözünü siz dediniz. O sözü deyən adamı nələr gözlədiyini özünüz bilirsiniz.

Teymur əvvəl hirslənir. Sonra nökərinin ağlını qiymətləndirir. Deyirlər, Səmərqəndə qayıdanda Teymur həmin nökəri özünə məsləhətçi götürür. Ömrünün sonuna kimi onun məsləhətinə qulaq asır.

TƏRS ADAMLAR

Proloq

Hər şey elə bu evin nömrəsinin paylanmağından başladı. Onda hələ bu tərslərin heç biri dünyaya gəlməmişdi. Və deyəsən dünya indikindən xeyli darıxdırıcı idi. Bunu ilk dəfə tərsinə tikilən evə nömrə paylayan Abdulla baba başa düşdü:

—Axı, bu dünya niyə belə darıxdırıcıdı, — deyə qoca qalın qaşlarını canı-dildən qaşıdı və bərkdən güldü:

—Bu saat düzəldərik!

O, evlərə sırayla nömrə paylaya-paylaya gəlib bu evin qabağında dayananda fikirləşdi ki, qoy bu evin nömrəsi 31 yox 13 olsun. Bütün işləri beləcə dolaşdırdığına görə mən əvvəl həmin o qoca haqqında burada heç nə yazmayacağımı qərara almışam. Axı, belə insafsızlıq olmazdı. Qoca 31 əvəzinə 13 yazan günün səhəri bu əhvalatlar başladı. Daha doğrusu evin böyük qızı Kəmalə dünyaya gəldi.

I TƏRSİN DÜNYAYA GƏLMƏSİ

vvəl onun tərs adam olduğunu heç kəs başa düşmədi. Axı haradan biləydilər? Təkcə ana gördü ki, bütün uşaqlar doğulanda:

—İnqaaaa! — deyir.

Ancaq onun ilk qızı Kəmalə belə ağlayırdı:

—Aaaaqinnn!

—Belə də ağlamaq olar? — deyə ana səksəkəli şəkildə tibb bacılarından soruşdu:

—Canım, siz niyə həyəcan keçirirsiniz — deyə təcrübəli tibb bacısı eynəyinin üstündən uşağa baxdı. Amma uşaqdan ağlı bir şey kəsmədiyi üsün daha sözünün dalını gətirmədi. Bu zaman Kəmalə dabanını ağzına soxub sorurdu. Yazıq tibb bacısı dərindən bir ah çəkməklə kifayətlənməli oldu. Cəmi ikicə gündən sonra ana hər şeyi başa düşdü. Başa düşdü ki, onun qızı dünyanın ən tərs uşağıdı. Uşaqlara süd əmizdirəndə Lalə gördü ki, hamı əmzikdən əmdiyi halda Kəmalə şüşənin arxa hissəsini ağzına soxub qışqırır. Ağzına süd getmədiyi üçün elə bağırır ki, eləbil elektrik qatarı stansiyaya yaxınlaşır. Ana əmziyin ucunu onun ağzına vermək istəyəndə qız daha zil səslə qışqırdı. Yalnız ağcaqanad dəstəsi belə səs çıxara bilərdi.

—Başa düşdüm! Mənim qızım tərsdir. Bəlkə də dünyanın ən tərs uşağıdır. Bu sözləri eşidəndə Kəmalə qığıldandı. Bu, körpə dilində o demək idi ki, sən tamamilə haqlısan, ana. Mən dünyanın ən tərs uşağıyam və heç kəsə imkan vermərəm ki, məndən də tərs olsun.

Ana öz taleyi ilə lap tez barışdı. Neynəmək olardı, tərs də olsa Kəmalə heç də pis uşaq deyildi. Sadəcə olaraq tərs idi, vəssalam.

—İndi kim tərs deyil ki, — deyə ana özünə təskinlik verirdi. Hərdən gözünün yaşını hamıdan gizlətsə də camaatın içində deyirdi:

—Mənim tərs uşaqdan elə əvvəldən xoşum gəlir. Sən ona bir iş tapşırırsan, o da tamam tərsinə hərəkət edir. Bir sözlə evdə həmişə söhbət etmək üçün mövzu olur. Yoxsa hamı eyni xasiyyətdə olsa onda adamın bağrı çatlayar ki.

Ancaq ana bu xəbəri ərinə necə çatdıracağını bilmirdi. Əslində onun əri də bir balaca tərs idi. Lap düzünü desək ananın özünün də damarlarında tərslik vardı. Amma Kəmalənin işi başqa idi. Onun bu qədər tərs olduğunu eşidən kimi kişinin yəqin ki, bağrı çatlayacaqdı.

Bir neçə gündən sonra xəbər gəldi ki, ana hazırlaşsın gəlib onu xəstəxanadan çıxaracaqlar. Lalə fikirləşdi ki, hələlik qızının tərsliyini heç dilinə də gətirməsin. Onsuz da bir azdan ata özü bunları görüb başa düşəcək. Ata əlindəki gül dəstəsini arvadına verib uşağı qucağına götürmək istəyirdi ki, qızın elektrik qatarının fitinə oxşayan cingiltili səsi dünyanı başına götürdü. Ana əvvəl elə bildi ki, uşağın hardasa yarası var və yəqin ki, bilməyib ona toxunubdu. Ata uşağın başını sinəsinə tərəf tutub ayaqlarını qollarının üstünə almışdı. Əslində düz doğulan uşaqları belə götürmək lazımdı. Amma ata hardan biləydi ki, onun uşağı tərsinə doğulub və gərək o, öz uşağını qucağına tərsinə alaydı. Əgər ana özünü bir az tez yetirməsəydi elektrik qatarının fitinə oxşayan səsi paravoz səsinə çevriləcəkdi və yəqin ki, adamlar bərk təşvişə duşəcəkdi. Ana uşağı alıb tərsinə tutmağı tapşırdı. Kəmalənin başı aşağı düşən kimi səsini kəsdi və hətta deyəsən mahnı oxumağa başladı. Mahnı oxumasa da hər halda ona bənzər bir səs çıxardı.

Kərim gözünün altı ilə güllü yorğana bükülən qızına baxıb dərindən bir ah çəkdi.

Bu həngamə bir də maşina minəndə oldu. Onlar maşina minib elə təzəcə tərpənmək istəyirdilər ki, Kəmalənin cin səsi aləmi bürüdü.

—Yenə nə oldu? — deyə ata qəzəblə arxa oturacaqda qızını bağrına basan anaya tərəf çevrildi.

—Gərək mühüm bir şeyi biləsən ki, bizim qızımız tərsdir. Buna görə də gərək maşını dala-dala sürəsən ki, o səsini kəssin.

—Necə? — deyə ata həyacanla nə təhər qışqırdısa Kəmalə o saat səsini kəsdi. Qız hiss etdi ki, ata ondan da tərsdi.

Amma Kərim maşını dala-dala sürməyə məcbur oldu. Bayıldan Yasamala qədər yolu beləcə necə getmək olardı? Başqa əlac da yox idi. Döngələrin birində ata qızını yatmış bilib maşını qabağa sürdü. Bu zaman yanğınsöndürən maşının fitindən də dəhşətli bir səs onların qulağını az qala kar etdi. Kərim maşını yenə də dala sürməyə məcbur oldu.

—Fışşşşş!

Polisin təxminən Kəmalənin səsinə oxşayan fiti onları dayanmağa məcbur etdi.

—Sənədlərinizi — deyə kök polis işçisi ayaqlarını cütləyib əlini şapkasının günlüyünə yaxınlaşdırdı.

—Neynəmişik — deyə Kərimdən də qabaq Lalə dilləndi.

—Daha bundan artıq neynəyəcəksiniz. Bayaqdan fikir verirəm, bütün yolu maşını dala-dala sürürsünüz. Məgər küçə hərəkəti qaydalarını bilmirsiniz?

—Bilirik! — deyə ata kəkələdi. İşin tərsliyindən bizim uşaq bir az tərsdir...

—Uşaq?! — polis işçisi ananın qucağındakı bələkli uşağı indi gördü. Sizi o uşağa bağışlayıram. Haydı!

—Bilirsiniz, biz bütün yolu beləcə getməliyik, yoxsa uşaq bərkdən qışqırır. Adamın ona yazığı gəlir.

—Yoxsa deyəcəksiniz bu uşaq tərslik edir hə? Bəlkə elə tərs doğulub? Ay sizin! Zarafat etməyə vaxtım yoxdur! İrəli!

—Yox mən zarafat eləmirəm. Bilirsən bu uşaq doğrudan da bir az tərsdi. İcazə versəydiniz elə dala-dala sürüb gedərdim.

—Bu daha ağ oldu. Guya sən qabağa sürsən uşaq onu başa düşəcək. Bir qabağa sür görüm.

Kərim maşını elə birinci sürətə keçirmişdi ki, əvvəl qurbağa qurultusuna, sonra arı vızıltısına bir an sonra paraxod fitinə oxşayan səs bütün maşınların səsini batırdı. Yazıq Kərim o saat əyləci basıb mağmun-mağmun polisin üzünə baxdı. Polis işçisi boynunun dalını qaşıyıb dərin fikrə getdi və dedi:

—Otuz illik təcrübəmdə hələ belə bir əhvalata rast gəlməmişəm. Eybi yoxdu. Ürəyin necə istəyir, elə də sür. Mən bütün polislərə xəbər verərəm ki, sizi saxlamasınlar...

Onlar bütün yolu beləcə gəldilər.

EV ƏŞYALARININ YERI DƏYIŞIR

Kəmalənin evə gəlişi ilə bütün işlər baş ayaq oldu. Əvvəlcə ev əşyalarına bir əl gəzdirildi. Aydındır ki, Kəmalənin çarpayısından başlandı. Çarpayı tərsinə qoyuldu. Ana əvvəlcədən bilirdi ki, əgər Kəmalənin çarpayısının yeri dəyişməsə qızının qırıq patefon ciyiltisinə oxşayan cır səsi aləmi başına götürəcəkdi. Çarpayı tərsinə qoyulandan sonra gərək döşək də tərsinə salınaydı. Ancaq ana nə qədər əlləşdisə bunu edə bilmədi. Çünki döşəyi hansı üzünə saldısa elə düz göründü. Qızın isə səsi kəsmirdi ki, kəsmirdi. Yaxşı ki, ata işə qarışdı. Onlar yorğanı uşağın altına döşəyi isə üstünə saldılar. Bu başqa məsələ. Kəmalə belə bir yatacaqda keyfi istəyən qədər qığıldana bilərdi.

Ancaq oyuncaqlar məsələsinə gələndə işlər yaman çətinə düşdü. Bunları hara yığmaq olardı? Çarpayının altına qoydular, qızın zil səsi qalxdı. Göydən asdılar paravoz fışıltısına oxşayan səsi qonşuları gecə yarısı yuxudan hövlnak oyatdı. Yaxşı bəs neynəmək olar?

—Axı mən başıma haranın daşını salım? — deyə Lalə qızının gülümsünən gözlərinə baxdı. Başa düşmədi ki, bu gözlər kələkbazlıqdan gülümsünür, yoxsa elə onların quruluşu beləcə tərsinədi. Camaat hövsələdən çıxanda o gülür?! Əslində heç orasını başa düşməyə yazıq anada hal qalmamışdı.

—Gəl belə edək, — deyə ata axırı ki, çıxış yolunu tapdı. — Oyuncaqları qızın yatacağının altında qoyaq! Sən demə Kəmalə də elə bunu istəyirmiş. Oyuncaqlar onun yastığının altına köçən kimi qızı şirin bir yuxu apardı.

Yavaş-yavaş evdə hər şey öz həqiqi yerini tapırdı. Ana bir dəfə hətta belə fikrə gəldi ki, bu əşyalar məhz belə də düzülməliymiş. Ayaqaltılar evin yuxarı başında, pianino koridorda, şifoner və şkaflar isə evin tən ortasında olmalıymış. Bir müddətdən sonra hamı bu vəziyyətə öyrəşdi və heç kəsin ağlına da gəlmədi ki, belə olmaz. Kəmalənin iki yaşı olanda 13 №-li evin sakinləri bütün dünyadan fərqli bir həyat keçirirdi. Onlar daraqla ayaqlarını qaşıyır, ayaqqabı ilə su içir, corablarını papaq əvəzinə geyinirdilər.

Evin nömrəsini qəsdən dolaşdıran Abdulla baba bir bəhanə ilə bura gəldi. Bəh-bəh doğrudan da bu ev aləm idi. Ən maraqlısı bu idi ki, şifonerin altına ayaq əvəzinə dörd futbol topu qoyulmuşdu ki, onu itələmək asan olsun.

Qoca əllərini bir-birinə sürtüb demişdi:

—Bax bundan sonra dünyada yaşamağına dəyər. Daha heç kəs gileylənə bilməz ki, dünya çox darıxdırıcıdır.

—Nə dediniz? — deyə Lalə qocanın sözlərindən bir şey başa düşmədi.

—Deyirəm qazınız, suyunuz lap əladır.

—Nə danışırsınız? Biz istifadə etmədiyimiz üçün qazımızı lap dibindən kəsdirmişik. Xörəklərimizi eləcə sərin suda bişiririk. Bilirsiniz necə ləzzətli olur? İstəsəniz hazır xörəyimiz var. Bir qab çəkim yeyin.

Əslində qoca ac deyildi. Amma belə bir fürsəti də əldən vermək olmazdı.

—Nə deyirəm, gətirin!

Lalə qocaya bir qab dolma kələmi verdi. Təəccüblənməyin, siz kələm dolması yeyirsinizsə gərək biləsiniz ki, bu evdə kələm dolmasının əvəzinə dolma kələmi bişir. Özü də dadı heç də o biri xörəklərinkindən əskik deyil.

Dolma kələmi o qədər ləzzətli idi ki, qoca iki tikədən artıq yeyə bilmədi. Belə ləzzətli xörəkləri çox yemək olmur.

Abdulla baba gedəndən sonra ana hər yana belə bir xəbər göndərdi: «Dünyanın ən ağıllı uşağı olan Kəmaləyə dayə axtarıram. Nə qədər tez olsa o qədər yaxşıdı».

Bu xəbəri hamıdan əvvəl Kəmalə eşitdi. Ana başa saldı ki, qəşəng bir xala gələcək və onun tərbiyəsi ilə məşğul olacaq. Kəmalə əvvəl istədi bir qışqırsın. Hətta boğazını hind toyuqlarının boğazı kimi qabağa uzatdı da. Amma birdən fikirləşdi ki, bəlkə o xala elə Kəmalənin ürəyincə olacaq. İndidən səs-küy salmağın elə bir mənası yoxdu. Elə həmin gündən dayəsinin yolunu gözləməyə başladı.

İKİNCİ TƏRSİN DÜNYAYA GƏLMƏSİ

II Tərs doğulanda Gün tutuldu. Yayın cırcıramasında günün tutulmasını hərə bir şeyə yozdu. Amma heç kəs bilmədi ki, Bayıldakı doğum evində II Tərs dünyaya gəldi.

Ana bircə şeyə əmin idi ki, uşaq bu saat doyunca dabanlarını əmir. Bunu görmək üçün heç uşaq tərəfə baxmaq belə istəmirdi. Axı camaatın içində xəcalət çəkirdi. Bütün uşaqlar mışıl-mışıl əmzik əmdikləri halda onun balası dabanlarını sorurdu. Bir dəfə necə oldusa Lalə qızına tərəf baxdı. Gördü ki, bu uşaq qətiyyən dabanlarını əmib eləmir. Sadəcə olaraq gözlərini tərsinə çevirib tavana baxır.

—Mənim Cuppulu balam deyə — ana onu oxşamaq istəyəndə əvvəl qazan danqıltısına oxşayan səs çıxdı. Sən demə ikinci tərs birincidən daha dəhşətli tərs imiş. İndiyə qədər ana onun tərəfə baxmadığı üçün o da sən demə tavandan gözünü çəkməyib heç nə yemirmiş.

—Belə de! — deyə ana işin nə yerdə olduğunu başa düşəndən sonra dərindən bir ah çəkdi. — Deməli aclıq elan etmisən!

Balaca gözlərini tavandan ayırmadı. Gözlərinin qarası lap çevrilmişdi. Əvvəl tibb bacıları elə bildi ki, qız ölübdü. Əl-ayağa düşdülər. Amma ananın sakitcə dayanıb acı-acı gülümsündüyünü görüb sakitləşdilər.

—Yemə — deyə ana da acıqlandı. Öl görək, kimə nə olacaq.

—Sən demə ikinci tərs elə bu sözə bənd imiş. Bir də gördülər ki, elə əmir gəl görəsən.

Ata yenə də ağ «Jiquli»də gəldi. Lalə arxa oturacaqda yerini tutandan sonra ata ehtiyatla soruşdu:

—Tərsdi?

Lalə təqsirkar şəkildə başı ilə təsdiq etdi:

—Tərsdi!

Kərim daha işini bilirdi. Maşını dala-dala sürməyə hazırlaşdı. Elə maşını təzəcə tərpətmişdi ki, gurultu qopdu. Bu, dağ selinin yaratdığı gurultuya daha çox oxşayırdı.

Kərim əyləci basıb göyə baxdı. Günəş şüalarını torpağa göndərir və sanki bununla fəxr edərək gülümsünürdü. Bəs bu sel gurultusuna oxşayan nə idi?! Ata maşını bir də tərpətdi. Bu dəfə dağdan üzü aşağı yumalanan boş dəmir çəlləyin çıxartdığı səs qulağı batırdı. Ata yalnız indi başa düşdü ki, qışqıran onun balaca qızı Nurgüldü.

—İndi biz neyləyək? — deyə ata maşını saxlayıb Lalədən soruşdu.

—Bir qabağa sür görək! Bəlkə bu dilsiz körpə maşının qabağa getməsini arzulayır!

Ata maşını qabağa sürdü. Bu dəfə boş vedrə danqıltısı eşidildi. Sonra bu səs göy gurultusu ilə əvəz olundu.

—Qulağımız getdi, saxla!

Maşın dayanan kimi uşağın səsi kəsildi. Ana artıq işin nə yerdə olduğunu başa düşmüşdü. Uşaq maşında getmək istəmirdi.

Ana maşından düşüb piyada getməyə başladı. Nurgül isə o saat mahnı oxudu. Mahnı olmasa da hər halda bu, bağırmaq səsi deyildi. Ata onların yanı ilə maşını yavaş-yavaş sürməyə başladı.

Onlar beləcə bir saatdan çox getdilər. Birdən yenə də kök polisin fiti eşidildi:

—Ehey, bu necə maşın sürməkdi?

Kərim güzgüdən baxıb gördü ki, maşını yavaş sürdüyünə görə yalan olmasın az qala Bakının bütün maşınları

onu keçə bilmirdi. Milis işçisi işarə elədi ki, sağa verib saxlasın.

Kərim daha polisin sənəd tələb etməsini gözləmədi. O saat sənədlərini uzatdı və dedi:

—İşin tərsliyindən təzə bir tərs də dünyaya gəlib. Maşını da ona görə beləcə yavaş sürürəm.

Kök polis boynunu qaşıyıb iki il əvvəl qarşılaşdığı bu adamı indicə xatırladı:

—Təbrik edirəm, böyük qız olsun!

Kərim demək istədi ki, axı hələ cəmi on günlükdü, amma hikkəsinə dözə bilmirəm. Böyüyəndən sonra işlərim necə olacaq? Amma bu sözləri polisə deməyi lazım bilmədi. Axı bu şikayət olunmalı bir iş deyildi ki, gedib hökümət nümayəndəsinin vaxtını alaydı. Sadəcə olaraq yalandan gülümsünüb sənədlərini geri aldı. Lalə isə bu müddətə xeyli yol getmişdi. Əgər düz yolla getsəydi çox uzağa düşərdi, elə buna görə də evlərin arasındakı tərs cığırla 9 mərtəbəli binaya tərəf addımlayırdı.

Kərim maşını tərpətdi. Qulağına polis fiti gəldi. Güzgüdən gördü ki, kimsə keçiddən yox, elə yolun ortasından küçəni keçdiyi üçün milis onu dayandırdı. Kərim ürəyində bir yüngüllük hiss etdi. Bax küçəni keçən o adam da elə tərs kimi bir şeydi. Deməli mənim qızlarım dünyada heç də tək deyillər. Daha bundan ötrü qan qaraltmağına dəyərdimi?!

EV ALT-ÜST OLUR...

əli qətiyyən təəccüblənməyin. II Tərs evə girən kimi necə qıyya çəkdisə 1 Tərs yuxudan ayıldı və yəqin ki, təzəcə dünyaya gəlmiş bacısını tanıdı. Çünki bu cür qıyya çəkən uşaq onun bacısı olmayıb, daha kim olmalıydı. Kəmalə əvvəl bir şey başa düşmədi. Görəsən bacısı niyə qışqırırdı. Bir azdan hər şey məlum oldu. Sən demə ev əşyalarının quruluşu II Tərsin xoşuna gəlməmişdi. Ata ilə ana əl-ayağa düşdülər. Əvvəl şifonerin altına qoyulmuş topları götürdülər. Sonra şifoneri başı üstə çevirdilər. Ümumiyyətlə evdə nə qədər əşya vardısa hamısı başı üstə çevrildi və yalnız bundan sonra Nurgülün hikkəli səsi qığıltı ilə əvəz olundu.

Kərimlə Lalə dərindən bir nəfəs aldılar və hər ikisi alnının tərini silib eyni vaxtda iki dəfə «ah», bir dəfə «uff» etdilər.

Birdən elektrik qatarının fiti eşidildi.

—İşə düşdük — deyə ana həyəcanla Kəmaləyə baxdı. Qız qulaqlarının dibinə kimi qızarmışdı. Amma yenə də qışqırırdı. O bütün gücü ilə sübut etməyə çalışırdı ki, bu evin əsil tərs qızı məhz odur. İndicə dünyaya gələn bir uşaq gör nə işlərdən çıxır. Evi alt-üst edir. Buna dözmək olmaz!

Kərim qulaqlarını bərk-bərk qapayıb o biri evə qaçdı. Lakin o biri otaqda da səs elə buradakı kimi hündürdən gəlirdi. Lalə də səsə dözə bilməyib o biri otağa keçdi. Tərslərin qışqırtısı bir birinə qarışmışdı. Sanki onlar daha bərk çığırmaq yarışına girmişdilər. Pəncərələr cingildəyir, küçədən ötüb gedənlər dördüncü mərtəbədə nəsə qeyri adi bir əhvalat baş verdiyini güman edib dayanırdılar. Yazıq ata ilə ana bilmirdilər ki, harda gizlənsinlər. Bir azdan qonşular çıxdılar. Ağca nənə əlində pay gətirmişdi. Amma o payı bir qırağa qoyub əvvəl

qulaqlarını tutdu. Sonra geri çəkilib dəhlizə çıxdı ki, bəlkə səs-küy sakitləşdi. Kəmalə elektrik qatarının səsindən paravoz fitinə keçmişdi. Nurgül sel gurultusunu yamsılayıb qurtarandan sonra coşqun dağ çaylarının ürəkaçan səsini məşq edirdi. Amma insafla desək bu səslər birlikdə qəribə ahəng yaradırdı. Heyf ki, insanlar bu qəribə ahəngə öyrəşməyiblər. Onlarınkı ancaq musiqidi, çalına onlar da sındıralar. Amma bu cür orkestr, əlbəttə, hələlik öz həqiqi qiymətini almayıbdır.

İkisi də səsini birdən kəsdi. Bilən olmadı ki, nə baş verib. Səssizlikdən o biri otaqda ata ilə ananın dəhlizdə Ağca nənənin qulaqları cingildədi. Belə də səssizlik olar? Yox bu cür səssizliyə dözmək olmazdı. Nə qədər qəribə olsa da bu saat onların hər üçü uşaqların yenidən qışqırmasını istəyirdi. Amma uşaqlar susurdular. Nurgül gözlərini tavana zilləyib yenidən qışqırmaq üçün fürsət gözləyirdi. Kəmalə qaşlarını çatıb bacısına baxırdı. Əgər bu saat o qışqırsaydı, Kəmalə elə bağıracaqdı ki, çilçıraq titrəyəcəkdi. Hər yerindən duran onun işinə qarışmamalıdır.

Ağca nənə nəhayət ki, fürsət tapıb içəri girdi. Uşaqlara gətirdiyi qoğalı anaya verib dedi:

—Maşallah, ağıllı qızların var.

Pah atonnan bu söz nə idi ki, belə, aləm yenə bir-birinə dəydi.

Daha mən həmin qışqırtıları təsvir edə bilmirəm. Yük qatarları toqquşanda bəlkə belə səs çıxa bilər. Yox, yox görünür onların qışqırığı mənim qələmimdən daha güclüdür və buna görə də həmin səsləri vermək üçün sadəcə olaraq söz tapmıram.

Yazıq nənə necə getdisə daha bir dəfə də qonşunun qapsını açmağa cürət eləmədi.

ABDULLA BABA

bdulla baba II Tərsin dünyaya gəldiyini eşidib yenə də bir bəhanə ilə Kərimgilə gəldi.

—Suyunuz gəlirmi? – deyə baba bilmədi ki, nəyi bəhanə edib təzə qıza baxsın. Amma bu zaman Lalə fikir verib gördü ki, baba iki il qabaqkından xeyli cavanlaşıb. Sanki onun yaşı iki il azalıb.

—İçəri buyurun — deyə babanı evə dəvət etdi. Artıq Lalənin də Kərimin də bu qocadan xoşları gəlirdi. Onun gözlərində böyük bir həyat eşqi vardı və bunun hökmən bir sirri olmalı idi. Abdulla baba içəri girən kimi ev əşyalarının başayaq durduğunu o saat başa düşdü və II Tərsin daha güclü olduğunu anladı. Kişinin gözləri gülürdü. Axı bu işlərin əsil səbəbkarı o idi. Əgər o, evlərin nömrəsini tərsinə verməsəydi yəqin ki, bu uşaqlar da adi adamlar kimi doğulardı. Onda dünya necə də darıxdırıcı olardı.

Abdulla baba uşaqları görmək istədiyini bildirdi. Lalə yenə də səs-küy qopacağından bərk qorxuya düşdü. Nurgül təzəcə yatmışdı. Kəmalə olub keçənləri tamam unudub oyuncaqları ilə oynayırdı.

Bu yandan da qocaya icazə verməkdən qorxurdu. O, babanı könülsüz uşaqların yanına buraxdı. Nurgül eləbil heç yatmamışdı. O saat gözlərini açdı. Kəmalə bayaqdan bəri babanın yolunu gözləyirmiş kimi onun üstünə atılıb kepkasının uzun dimdiyini oynatmağa başladı. Nurgül gülümsünüb babanın üzünə baxırdı. İşlərin belə şəkil alacağını gözləməyən Lalə sevincindən bilmirdi ki, nə etsin.

—Mənim tərs balalarım — deyə qoca onları dindirdi. Yaxşı ki, siz varsınız, yoxsa mən kefimi açmaq üçün hara gedərdim.

Lalə gördü ki, babanın sifəti birdən birə elə cavanlaşdı ki, elə bil yetmiş yaşlı qoca deyildi.

—Bu gündən oldum sizin babanız. Bir az böyüyün gəlib sizi gəzməyə aparacağam.

Uşaqlar qətiyyən ağlamadılar. Bircə Nurgül gözlərini çevirib tavana baxdı, sonra yadına nə düşdüsə gülümsündü.

Lalə əl-ayağa düşdü. Çay dəmlədi. Ağca nənənin indicə bişirib gətirdiyi qoğalları stolun üstünə düzdü.

O gündən Abdulla babanı hamı Kəmalə ilə Nurgülün babası kimi tanıdı. O uzaqdan gələndə deyirdilər:

—Odur bax, tərslərin babası gəlir. Amma Abdulla baba bu «tərs» sözündən qətiyyən incimirdi. Çünki uşaqların tərsliyi ona xüsusi ləzzət edirdi. Axı babanın özü də bir az tərs idi...

Baba Lalə ilə Kərimə bir sirr öyrətmişdi:

—Uşaqları bir çarpayıda başayaq yatızdırın. Onda dünyanı istədikləri şəkildə görəcəklər.

Doğrudan da belə yatandan sonra daha onlar elə sən deyən ağlamırdılar. Ata ilə ana isə babaya dərin minnətdar idilər.

ÜÇÜNCÜ TƏRSİN DÜNYAYA GƏLMƏSİ

III Tərs doğulan gün toplardan yaylım atəşi açıldı. Şəhər başdan ayağa bayramsayağı bəzənmişdi. Axı həmin gün Mayın biri idi və hər yerdə olduğu kimi Bakıda da əsil bayram idi. Toplardan yaylım atəşi açılanda yazıq ananın ürəyi düşdü. Axı ağrıları güclü olduğu üçün o demək olar ki, ayın günlərini tamam unutmuşdu. Küçələrdən adamlar «ura» deyə-deyə keçirdilər. Ana gözlərini tavana zilləyib bu saat onu məzəmmət edəcəklərindən qorxurdu. Ana elə bilirdi ki, bütün bu hay küyün əsil səbəbkarı təzəcə doğulan uşaqdı. Amma sonra başa düşdü ki, belə deyil və yalnız bundan sonra gözlərini yumub dərin yuxuya getdi.

Ananı yuxudan yenə də top səslərinin gurultusu ayıltdı. Lalə gözlərini açıb gülümsündü. Şəhər camaatının belə şənliyinə sevindi və ətrafdakılara baxdı. Lakin ağ xalatlı adamların qəmli-qəmli ona baxdıqlarını görəndə birdən çaşdı. «Bunlara nə olub? Məgər bu gün bayram deyil?!»

Yazıq ana indi başa düşdü ki, gecə guruldayan top səsi deyil, onun balaca qızının səsidi. Cəmi bir günlük uşağın boğazı nə yoğunluğunda idi ki, onun ağlaması beləcə top atəşinə bənzəyəydi. Ana indi ürəyində özünü danladı. Axı o neyləmişdi ki, doğduğu bütün uşaqlar beləcə tərs olurdu. O, həmişə fikirləşirdi ki, heç olmazsa üçüncü uşaq tərs doğulmayaydı. Axı o da anadı və tərbiyəli bir uşağın anası olmaqdan yaxşı nə ola bilərdi. Amma budur III Tərs doğulmuşdu və deyəsən bu balaca tərslikdə bacılarının hər ikisini keçmişdi.

Yox Lalə daha bu qızın üzünə də baxmayacaqdı. İstəyir lap acından ölsün. EIə beləcə fikirləşirdi ki, birdən traktor səsinə oxşayan dəhşətli bir gurultu doğum evindəkilərin hamısını ayağa qaldırdı. Ana məcbur olub uşağı yedirtmək istədi və yalnız indi körpəsinin üzünə baxdı. Qız qaşqabağını sallayıb gözlərini yummuşdu. Balaca dodaqları çevrə kimi açılmışdı. Bu balaca çevrədən hava necə güclü şəkildə axırdısa yazıq ana əlləri ilə uşağın ağzını qapamasaydı gecə növbətçiləri nəsə bir hadisə baş verdiyini zənn edib ora-bura vurnuxmalı olacaqdılar.

Sən demə III Tərs bu gecə daha burada qalmaq istəmirmiş. Əvvəl top gumbultusuna, sonra da traktor trıltısına oxşayan səslər çıxarmasının da səbəbi bu imiş.

—Səsini kəs — deyə ana onun üstünə qışqırdı. Birdən birə otağı tank gurultusu doldurdu. Bu dəfə gecə növbətçiləri həqiqətən bu pəncərəyə tərəf qaçışmağa başladılar. Adətən bayram günlərində keyfi yuxarı olan adamların şuluq saldığını bilən növbətçilər o saat pəncərənin ağzını kəsdilər. Lakin sonra bu səsin bapbalaca bir uşağın olduğunu görüb başlarını bulaya-bulaya çıxıb getdilər.

Tərslərin atasına gecə zəng vuruldu. Məsələnin təxminən nə yerdə olduğunu başa düşən Kərim ağ «Jiqulisi»ni işə saldı. Gecə pis yuxu göməsinə baxmayaraq o, xəstəxanaya hökmən getməliydi. Kərim yaxşı bilirdi ki, əgər gecə yarı evə zəng vurulubsa deməli doğulan uşaq tərsdir və bütün bu həngamələr də onunla bağlıdır.

Xoşbəxtlikdən uşaq maşina minən kimi səsini kəsdi.

Kərim daha bu uşağın nazı ilə oynamayacağını qət edib maşını irəli sürdü. Bu zaman körpə qığıltısı eşidildi. Deməli bu tərs o birilərin tamam tərsidir.

—İndi gəl bunları dolandır, görüm necə dolandırırsan? — Kərim dodaqaltı deyindi.

—Niyə elə deyirsən, hər şeyimiz də var?! Təki uşaqların canı sağ olsun.

—Əşşi mən orasını demirəm ey! Axı bunların biri ala deyir, biri — kürə! Hansının sözünü eləsən o birinin xoşu gəlməyəcək.

—Orası elədir — deyə Lalə mızıldandı.

III Tərs elə rahat yatmışdı ki, heç eləbil bayaqkı tank səsini çıxaran uşaq deyildi. Ata onun balaca üzünə baxıb dedi:

—Adını Aysel qoyuram. Bir bax göydə ay necə də yanır. Işığı sel kimi axır. Qoy belə olsun, Aysel!

—Ana bircə şey fikirləşirdi ki, əgər bu ad uşağın xoşuna gəlməsə bu saat səsi dünyanı başına götürəcək. Amma belə olmadı.

ATANIN SAÇININ AĞARMASI

u dəfə hər şey III Tərsin yatacağı çarpayıdan başladı. Siz artıq bilirsiniz ki, əvvəlki bacıları yorğanı altlarına döşəyi isə üstlərinə salırdılar. III Tərs bu işə qəti etiraz etdi. Onun yatacağını yerdən saldılar. Çarpayını isə ağzı üstə çevirilər ki, qız lap rahat yatsın. Kəmalə ilə Nurgül balaca bacılarının bu qədər tərs olduğuna təəccüb etdilər.

—Belə də tərs adam olar? — Kəmalə qaşlarını çatmaqla təəccübünü bildirdi.

—Mən ömrümdə belə tərs görməmişəm — deyə Nurgül çiyinlərini çəkməklə həmin fikri təsdiq etdi.

Lakin onlar ürəklərində and içdilər ki, balaca bacılarına özlərinin daha tərs və hikkəli olduqlarını hökmən sübut edəcəklər. Yoxsa bu dünya xali zad deyil.

Aysel ev əşyalarının da yerini tamam dəyiştdirdi. İndi bütün çarpayılar ağzı üstə qoyuldu. Stolüstü lampalar stolların altında gizlədildi. Televizorun yandırılıb keçirilməsi də Ayselin ixtiyarına keçdi.

Bax tərs bacılar beləcə doğuldu və böyüməyə başladı. Bu tərslər böyüdükcə yazıq Kərimlə Lalənin saçlarına yavaş-yavaş dən düşdü. Aysel isə atasının ağarmış saçlarına baxıb deyirdi:

—Bir baxın, mənim atamın saçı kimi ağ saç ola bilməz. Onu əlbəttə mən ağartmışam.

Bu zaman qazan danqıltısı, dağ şəlaləsinin gurultusu bir-birinə qarışdı. Sonra bu səsləri boş çəllək səsi əvəz etdi və nəhayət Nurgül dedi:

—Xeyr! O saçları mən ağardanda, sən ananın qarnında idin!

Aysel təəccüblə bacısının üzünə baxdı.

—Anam məni nə vaxt yemişdi ki?

Nurgül bu suala cavab verənə qədər elektrik qatarının cır səsi eşidildi:

—Atanın saçını ağardan tərslər padşahı mənəm!

Yenə də aləm bir-birinə qarışdı...

KÜR SAHİLİNDƏ HADİSƏ

Qızlar böyüyürdü. Artıq Kəmalənin 6, Nurgülün 4, Ayselin isə iki yaşı vardı. Ana ilə ata məsləhətləşirdilər ki, bu qızları yəqin ki, uşaq bağçasına vermək lazımdır. Elə bu sözü eşidən kimi Kəmalə ağır yük daşıyan paraxod kimi uğuldadı:

—Mən bağça istəmirəm!

Nurgül əvvəl gözlərini tavana zillədi. Sonra boğazını hind toyuqları kimi arıtladı və var gücü ilə bağırdı. Bu, bağırtıdan daha çox boş çənlərin diyirlənən zaman çıxardığı səsə oxşayırdı:

—Bağça pisdi!

Səsboğanı partlamış maşınlar kimi Aysel fəğan etdi:

—Biz bağaçaya getmiyəcəyik.

Bax işlər burda xarablaşdı. Üç tərsin sözü bir olandan sonra dünyanın bütün təbliğatçıları yığılsa da bir şey çıxmaz. Ağzında tərs deyirsən, ölər, sözündən dönməz!

—Yaxşı boğazlarınıza hayıfınız gəlsin. Qoy, soraqlaşaq görək hardan bir dayə tapırıq.

Dayə sözünü eşidən kimi əvvəl Kəmalə zil səslə qışqırdı:

—Yaşasın dayə.

Sonra Nurgül eləbil abugərdəni boş qazana döyəclədi:

—Dayə, ağzında dayə deyirsən!

Ayselin səsi xırıldadı:

—Biz dayə istəyirik!

Bax həmin gündən dayə soraqlamağa başladılar. Axı indi dayə işləmək istəyən demək olar ki, yoxdu. Camaatın işi-gücü var. Kim gəlib dayəlik edər? Bu suallar yazıq valideynləri gecə-gündüz narahat edirdi. Günlər ötür, dayə gəlib çıxmırdı ki, çıxmırdı.

Bir dəfə ata uşaqlarını Yevlağa babasıgilə aparmışdı. Yevlax Kür çayının sahilində yerləşən rayon mərkəzidir. Buranın elə gəzməli yeri də Kür çayının sahilidir. Ata dedi:

—Hazırlaşın Kürün sahilinə gedirik.

Mən deməsəm də sən bilirsən ki, qızlar sevinəndə hansı səsləri çıxardırlar. Doğrusu daha həmin sözləri təkrar etməyəcəyəm.

Çünki tənqidçilərdən qorxuram. Bir də gördün ki, ağzıgöyçəyin biri başladı ki, nağılçının danışmağa başına söz qəhətdi. Elə hər dəfə elektrik qatarını, paraxodu, nə bilim boş qazanları narahat edir. Nə olar, onların xətrinə daha həmin sözləri təkrar etmirəm. Amma sənə elə-belə, öz aramızda onu deyim ki, tərslərin həyəcanlandığını görəndə o saat xəyalına həmin səsləri gətir. Onda nağılımız daha ləzzətli təsir bağışlaya bilər. Bəli uşaqlar hazırlaşdılar. Ancaq yəqin onların ağlına gəlməzdi ki, bu gün Kürün sahilində gələcək dayələrinə rast gələcəklər. Onlar sahilə çatanda iyul günəşi adamı yandırırdı. Hələ səhərin təzə açılmasına baxmayaraq hava qızmışdı. Quşlar cəh-cəh vururdu. Uşaqlar torpaq yolla taxıl zəmilərinə tərəf addımlayan kişi ilə bir qadın gördülər. Kişinin üzündəki tüklərin biz durmasından bilinirdi ki, dediyindən dönən adam deyil. Qadının başına bağlayıb sonra boğazının altında bərk bərk düyünlədiyi kalağayısı yellənirdi. Qadın yerə baxa-baxa gedirdi. Eləbil ətrafda bu qədər quşların oxumasının ona

qətiyyən dəxli yox idi. Uşaqlar maraqla bu iki kəndliyə baxırdı. Onlar isə heç qızlara tərəf baxmadan düz sahilə tərəf gəldilər. Sahilə çatanda kişi dedi:

—Hə biz gərək taxılımızı lap tez biçək.

—Əlbəttə, nə qədər tez olsa o qədər yaxşıdı — deyə arvad başını torpaq yoldan qaldırmadan dilləndi.

—Sən heç ömründə əllə taxıl biçmisən?

—Yox — deyə qadın əvvəlki sərt səslə cavab verdi. Onun səsindən hiss olunurdu ki, yaşı 40-dan çox olmayan bu qadın da dediyindən dönən adama oxşamır. Qızlar bu iki kəndlidə həmin cəhətləri ona görə tez hiss etdilər ki, özləri də sözlərindən dönən deyildilər. Bəlkə də başqa xasiyyətli uşaqlar heç həmin cəhətlərə fikir verməzdilər də!

—Əgər taxıl biçməmisənsə onda gərək biləsən ki, taxılı oraqla, bax belə biçirlər!

Kişi sol qolunu dairəvi şəkildə elə tutdu ki, eləbil sünbülü qomlayıb qolunun arasında saxlayıb. Sonra sağ əlindəki orağı sünbül qomunun ortasına gətirib guya onu biçməyə başladı.

Qadın kişinin hərəkətlərinə qətiyyən əhəmiyyət vermədi. Sanki kişi bu sözləri elə belə havaya deyirdi. Gözlərini torpaq yola necə zilləmişdisə eləcə də dayanıb kişinin sözünün qurtarmasını gözləyirdi. Elə ki, kişi qurtardı, qadın dedi:

—Yox, sən düz demirsən, taxılı bax beləcə qayçılayıb biçirlər.

Qadın sanki hər iki əli ilə nəhəng qayçının sapından tutub taxılı biçirdi.

Kişinin üzündəki tüklər bir az da sərtləşdi və dedi:

—Sənə deyirəm ki, belə biçirlər!

Qadın gözlərini eyni nöqtədən ayırmadan qəti səslə dedi:

—Mən də deyirəm, belə biçirlər!

Bu saat burada nəsə maraqlı bir iş olmalıydı. Sən demə dünyada bu qızlardan başqa da tərs adamlar var imiş. Kişi səsini qaldırdı:

—Belə biçirlər!

Qadın bağırdı:

—Belə biçirlər!

Kişi var səsi ilə bağırdı:

—Xeyir, belə biçirlər.

Qadın qıyya çəkdi:

—Sənə deyirəm, belə biçirlər.

Kişi birdən qadını götürüb Kürə atdı.

Bax bunu heç kəs gözləmirdi. Uşaqlar necə qışqırdılarsa Kərim bu tərəfə çevrildi və gördü ki, yazıq qadın suda batır. Kişi isə sərt nəzərləri ilə ona baxır və qətiyyən qadına kömək etmək fikrində deyil. Kərim özünü paltarlı suya atdı. Qadının saçından tutub sahilə dartdı. O sahilə çıxan kimi boğula-boğula qışqırdı:

—Sənə deyirəm taxılı belə biçirlər — yenə də elə hərəkət elədi ki, sanki nəhəng qayçı ilə taxıl biçirdi.

—Mən daha səninlə taxıl biçməyə getməyəcəyəm. Bu gündən şəhərə köçürəm — deyib suyu süzülə-süzülə çıxıb getdi. Kişi heç o tərəfə çevrilmədi də. Uşaqların qətiyyən ağlına belə gələ bilməzdi ki, həmin bu qadınla onlar bir dəfə də görüşəcəklər və bu adam tərs bacıların dayəsi olacaq.

DAYƏ GƏLIR

Uşaqlar həmişəki kimi evin böyük pəncərəsini qoyub balacasından çölə baxırdılar. Amma üç baş bu balaca pəncərəyə sığışmırdı. Kəmalə Nurgülün qıvrım saçlarını bir tərəfə itələdi:

—Görürsən ki, mən baxıram, hara soxulursan?

—Mən də baxmaq istəyirəm. Bir buna bax! — deyə Nurgül Kəmalənin başını itələdi.

—Əşşi bir o yana durun görüm də! — bunu Aysel deyirdi.

Üç baş bir-birini itələdi. Axırı bununla qurtardı ki, hər üçünün burnunda balaca bir cızıq yarandı. Başlarda fındıq boyda şişlər peyda oldu və yalnız bundan sonra onlar mehribanlaşıb çölə baxmağa başladılar. Amma küçədəki işlər tamam darıxdırıcı idi. Maşınlar elə əvvəlki kimi dörd təkərin üstündə qabağa şütüyürdülər. Adamlar əllərini qoyub yenə də ayaqları ilə harasa tələsirdilər. Dünya elə darıxdırıcı idi ki, uşaqlar qışqırmaqdan başqa əlac tapmadılar. Ordlarını doldurub bağırmaq istəyirdilər ki, birdən küçədə qəribə bir adam gördülər. Plaşını tərsinə geyinmiş bir qadın yüngül addımlarla dala-dala gəlirdi. Uşaqlar gördülər ki, o arxaya baxmadığı halda kanalizasiya quyusunun yanından elə məharətlə adladı ki, heç quyunun qırağına da toxunmadı. Qadın beləcə gəlib düz dördüncü mərtəbəyə qalxdı. Aysel hamıdan qabaq basa düşdü ki, bu qadın onların qapısını taqqıldadır. Bəli, zəngi çalmaq əvəzinə qapını taqqıldadırdı. Lalə qapını açan kimi həmin o qəribə qadın dala-dala içəri girdi və nəzakətlə baş əydi.

—Mən tərbiyəçiyəm. Amma uşaqlarınız xoşuma gəlməsə qəbul edə bilmərəm.

Əvvəl Aysel qışqırdı:

—Dayə gəldi!

Sonra Nurgül dilləndi:

—Gələn dayə imiş.

Kəmalə özünə xas olmayan lap alçaq bir səslə dedi:

—Mən bu qadını hardasa görmüşəm.

Lalə sevindiyindən elə çaşmışdı ki, stolu gətirib dayənin altına təpəsi üstü qoydu. Sonra tez səhvini düzəldib dedi:

—Siz allah, bağışlayın!

—Nə bağışlayım? — deyə dayə çox sərt danışdı. — Yaxşısı budur uşaqları göstərin. Yoxsa bu saat çıxıb gedərəm.

—Ay uşaqlar, gəlin görək! — deyə Lalə uşaqları səslədi.

Qızların üçü də eyni zamanda irəli cumdular. Bir-birinə necə mane oldularsa təxminən on dəqiqə qapıdan keçə bilmədilər.

—Bir-bir keçin də — deyə ana həyəcanını gizlədib dilləndi. Dalınızca atlı çapır, nədi?!

Axırı ki, Aysel sürüşüb qapıdan keçə bildi. Onun paltarı əzilsə də qapıdan keçmə yarışında qalib çıxdığı üçün sevinirdi. Nurgülün qıvrım saçlarının bir hissəsi Kəmalənin əlində yolunub qalmışdı. Çünki irəli keçə bilmədiyi üçün Kəmalə onun saçlarını əlinə keçirib necə dartmışdısa tüklər yolunmuşdu. Saçı yolunsa da Nurgül ikinci çatmışdı. Kəmalə isə gəlib çıxmadı. Çünki qapıdan üçüncü keçmişdi və bu, 1 Tərs adına qətiyyən yaraşmayan bir iş idi.

Dayə uşaqların alışıb yanan gözlərinə baxıb dedi:

—Deyəsən ağıllı uşaqlardı!

—Çox ağıllıdılar! — İlahi bu söz Lalənin ağzından necə çıxdı. Deyəsən axı o, «bunlar çox tərsdirlər» demək istəyirdi. Amma daha sözünü geri götürə bilməzdi. Söz də quş kimi bir şeydi. Ağızdan çıxdı, daha uçub getdi.

—Yaxşı, mən bu gündən sizə köçməyə razıyam.

Əgər bilsəydiniz Lalənin uçmağa qanadı yox idi. Heç özü də bilmədi ki, atılıb dayənin boynundan nə vaxt sallandı. Onun üz-gözünü tamam öpüşdən çıxarıb rahat nəfəs aldı.

Dayə qaşqabağını töküb dedi.

—Haydı otağa. Tərbiyə işində gecikmək olmaz!

TƏRBİYƏÇİNİN İLK SÖHBƏTLƏRİ

ta işdən gələndə eşitdi ki, artıq tərbiyəçi uşaqların otağındadır. Əlbəttə sevincindən bilmədi ki, neyləsin. Zarafat deyil axırı ki, tərbiyəçi işləməyə bir adam tapılmışdı.

Tərbiyəçi bir qarış fərqləri olan uşaqları süzüb dedi:

—Əvvəlcə müəlliməyə də bir stol gətirmək lazımdır.

Söz tərbiyəçinin ağzından çıxmamışdı ki, uşaqların uçu də götürüldü. Otağın qapısından məharətlə keçdilər. Aysel qabaqda olduğu üçün Nurgüllə Kəmalə qapıda ilişib qalmışdılar. Amma stola üçü də eyni vaxtda çatdılar. Aysel stolu iki əlli götürüb tərpənmək istəyirdi ki, Nurgül oıun ayaqlarını tutub özünə tərəf, dartdı. Kəmalə stolun söykənəcəyini necə çəkdisə üçü də yıxıldı. Yenə də Aysel hamıdan qabaq durdu. Elə o saat da stolu aparmağa başladı. Buna da Nurgül deyərəm. Elə uzandığı yerdə stolun ayağından yapışdı və bu zaman Kəmalə də ayağa durdu. Süpürləşmə yenidən başladı.

—Biabır olduq — ana o biri otaqdan hay-küyə özünü yetirdi. Qonağın yanında başımız yerə girdi.

Ata qapının ağzında dayanıb çeşməyini silirdi. Sanki çeşməyi təmizləyib bu mənzərəyə lap diqqətlə baxmaq istəyirdi ki, görsün nə var, nə yox. Onun sakit sifəti demək olar ki, heç nə ifadə etmirdi.

—Ataya bax! — deyə ana uşaqlarla bacarmadığı üçün onun üstünə hücuma keçdi.

—Heç ananı demirsən — Kərim sakitcə dilləndi. Belə də uşaq tərbiyə edərlər? Eləbil zooparkdan qaçıblar.

Ana yenidən hücuma keçdi:

—Tərslərin atası! Səni ancaq belə çağırmaq lazımdır!

—Səni isə gərək ki, belə çağırsaq heç də pis olmaz: Tərslərin anası! Necə səslənir? Mənə elə gəlir ki, lap şeir misrasına oxşayır.

Bu zaman müəllimə otaqdan çıxdı. Ana heyrətlə içini çəkdi. Kərim Lalənin onun yaxasından əl çəkdiyini görüb sevindi. Adətən ana mübahisəni başlayanda axıra qədər getməli idi. Onlar heç olmazsa küsüşənə qədər bu söhbəti davam etməli idilər.

—Stolu mən apararam — deyə tərbiyəçi heç nə olmayıbmış kimi içəri keçdi. Uşaqlar da onun ardınca.

Kərim böyürdən üzünü gördüyü tərbiyəçini hardansa tanıdığını xatırlamağa çalışdı. Amma qətiyyən yadına sala bilmədi.

—Mənə elə gəlir ki, bu qadını hardansa tanıyıram.

—Onu uşaqların nənəsi soraqlaşıb Yevlaxdan tapıb. Yazığın ev eşiyi yoxdu. Deyəsən əri ilə dalaşıb, bizə pənah gətirib. Gərək bir azdan aparıb əri ilə barışdıraq.

—Əgər əri ilə barışdırsaq onda çıxıb gedəcək ərinin yanına. Sonra bu od parçaları yenə də qalacaq bizim öhdəmizdə.

—Getməz — deyə ana səsini qaldırdı.

—Gedər — Kərim də borclu qalmadı.

Yaxşı ki, mübahisə yenə qızışmadı. Çünki o biri otaqda tərbiyəçi uşaqlarla söhbətə başlamışdı. Ata ilə ana özləri də hiss etmədən tərbiyəçinin söhbətlərinə qulaq asmağa başladılar.

Tərbiyəçi deyirdi:

—Siz uşaq bağçaları haqqında çox eşitmisiniz. Amma budur siz mənim tərbiyəmi almalı olacaqsınız! Niyə? Ona görə ki, Lətifə xanımın adı gələndə bütün uşaq bağçaları öz əhəmiyyətini itirir.

Lalə ərinə altdan yuxarı baxıb fəxrlə köksünü ötürdü. Bunun mənası o idi ki, belə bir tərbiyəçi ilə fəxr etməyinə dəyər.

—Biz günü sabahdan səfərə çıxmalıyıq. Tərbiyə işini mən yaxşı bilirəm. Onu dörd divarın arasında həyata keçirmək olmaz.

—Səfərə çıxırıq — deyə yenə də hamıdan əvvəl III Tərs qışqırdı. Kəmalə ilə Nurgül isə yalnız Ayseldən sonra xorla dedilər:

—Səfərə çıxmaqdan yaxşı nə ola bilər?!

—Ay aman, o, bu körpələri hara aparmaq istəyir görən? — deyə Lalə ərindən soruşdu.

Bu dəfə Kərim fəxrlə köksünü ötürdü. Bu o demək idi ki, buyur, tərbiyəçini qəbul elə! Axı sənə dedim ki, uşaqları baxçaya qoymaq lazımdır. Ölkənin bütün uşaqları bağçaya getdiyi halda sən lap keçmişdəki kimi xanımlıq iddiasına düşmüsən.

Deyəsən Lalənin sualını dayə eşitdi. Qapıya kimi gəlib gözlərini ayaq barmaqlarının ucuna zilləyib dedi:

—Mənim işimə valideynlər qarışmamalıdır!

Bax Kərim də vaxtilə Kürdən xilas etdiyi qadını indicə tanıdı.

—Tərsin yekəsi!

Bu söz Kərimin dilindən necə çıxdığını heç özü də bilmədi. Yaxşı ki Lətifə xanım eşitmədi. Yoxsa biabırçılıq olardı.

—Sən onu tanıyırsan? — deyə ana soruşdu. Axı deyəsən bayaq deyirdin ki...

—Tanıyıram. Lap düzünü deyim ki, bu tərbiyəçi bizim uşaqların hamısından tərsdi. Buna görə də fikirləş, gör bu işlərin axırı nə ola bilər?

—Təki uşaqlarımız tərbiyəli olsun — deyə ana tərəddüdlə dilləndi.

Hamı səfər tədarükünə hazırlaşdı. Heç kəs bilmirdi ki, bu körpələri yolda nələr gözləyir.

Əlbəttə Kürü görən kimi Yevlax meşəsini Kəmalə o saat tanıdı. Nurgüllə Aysel də burada gəzdiklərini yadlarına saldılar. Qalın meşənin arası ilə burula-burula gedən cığır uzaqda yaşıl ağacların arasında itirdi.

Qovağın alçaq budaqlarının birində iki meşəxoruzu dalaşırdı. Onların qırmızı pipikləri şeşə durmuşdu. Tükləri pırpızlanmışdı.

—Gör neçə illərdi ki, bu xoruzlar balaca bir budağın üstündə dalaşır — deyə Lətifə izah etdi. Onların hər ikisi bax aşağıdakı o budaqda yaşamaq istəyir. Heç biri də o birinə güzəştə getmir.

—Yaxınlıqda bir o qədər budaq var... — deyə Aysel soruşmaq istədi ki, məgər bu böyüklüyündə meşə onların başına dardı ki, balaca bir budağın üstündə vuruşurlar?

—Onlar düz edir. Axı gərək hərə öz istədiyi budaqda yaşaya — deyə Lətifə addımlarını yeyinlətdi. Birdən xoruzların ikisi də təpəsi üstə yerə gəldi.

Sonra Aysel gördü ki, onlar eyni cəldliklə həmin budağın üstünə sıçradı və dava yenidən qızışdı.

—Ehey hara belə? — kimsə Lətifəni səslədi. Düz getmək olmaz!

—Niyə olmur, qoruq zad deyil ki.

—Qoruq olmağına qoruq deyil. Amma düz getsəniz hökmən azacaqsınız. Kim bilir haralara gedib çıxacaqsınız.

Onların qabağını kəsən qoca bir kişi idi. Üzündən zəhmətkeş adama oxşayırdı. Əllərində qabarlar aydınca görünürdü.

—Yox, biz elə düz getməliyik — deyə Lətifə gözlərini ayaq barmaqlarından çəkmədən dilləndi.

—Uşaqları aparıb azdırarsan. O yolla hələ gedənlərdən geri qayıdan olmayıb.

—Hələ olmayıb, indi olar — deyə Lətifə sözünün üstündə dayandı. Əslində uşaqları da maraq götürmüşdü. Axı o yolla getsələr nə olardı?!

—Biz elə bu yolla getməliyik — deyə Kəmalə Lətifəni müdafiə etdi.

—Yalnız bu yolla! — deyə Aysellə Nurgül həyəcanla qışqıranda qoca onlara baxıb dodaqlarının altında dilləndi:

—Dördü də tərsdir.

—Nə dediniz? — deyə Lətifə qocadan soruşdu.

—Heç nə. Deyirəm sizin yolunuz ancaq buradır. Əslində sizin kimilər başqa yolla gedə bilməzlər.

Qoca bu yolla gedənləri xatırladı. Doğrudur o adamların heç biri geri qayıtmamışdı. Kim bilir bəlkə də bu yolun o biri ucunda gözəl bir həyat vardı.

—Sizə uğur olsun, əziz balalar!

Ancaq bu sözləri nə Lətifə eşitdi nə də onun tərs dəstəsi. Çünki artıq dəstə ağacların başına dolana-dolana gedən cığırla uzaqlaşmışdı.

Bu yollar doğrudan da qəribə idi. Heç şübhəsiz ki, həmin yolu tərs adamlar və tərs heyvanlar salmışdı. Çünki adi halında yollar düzünə getdiyi halda bu cığır az qala bütün ağacların başına dolanandan sonra irəli gedirdi. Amma cığırın belə olması dəstənin lap ürəyindən idi. Onlar o qədər dolandılar ki, axırda başları gicəlləndi və tərs keçilərlə də bu zaman qarşılaşdılar. Bax bu tərs keçilərin əhvalatını sənə əməlli-başlı danışmalıyam.

TƏRS KEÇİLƏR

nlara baxan kimi o saat başa düşürsən ki, tərs keçilərdir. Hər ikisinin buynuzu nəhəng asılqana oxşayır. Saqqalları haqqında isə gəlin heç danışmayaq. Onun əvəzinə süpürgə də bağlamaq olardı. Bu saqqallar yerlə süründü. Amma quyruqları qəşəng idi. Eləbil hər keçi bədəninə quyruq yerinə şümal bir oxlov bağlanışdı.

Lətifə ilə Kəmalə ağacların başına dolanan cığırları hələ fırlanıb qurtarmamışdılar ki, Nurgüllə Aysel hərəsi bu tərs

keçinin birinin boynuna mindi. Bayaqdan tənbəl-tənbəl yeriyən keçilər isə bircə anda iki dal ayaqlarının üstünə qalxdılar və ox kimi qabağa tullandılar. Tərs keçilər dördnala çapanda Lətifə işin nə yerdə olduğunu başa düşdü. Amma daha iş-işdən keçmişdi. Nurgülün qıvrım saçları qara yaylıq kimi yellənirdi. Ayselin şabalıdı saçları bir çəngə ot kimi günəşin işığı altında parıldayırdı. Tərs keçilərin oxlova oxşayan quyruqları əl kimi qalxıb arxadan uşaqları tutmuşdu ki, yıxılmasınlar.

Lətifə donub yerində qalmışdı. Kəmalə isə əlifbanın ilk hərfini höccələyən uşaqlar kimi təkcə belə deyə bildi:

—Aaaaaaa!

Vəssalam! Nurgüllə Aysel gözdən itdi.

Gözlənilmədən ikinci bir hadisə də baş verdi. Yəhərli-yüyənli iki at onların qarşısında dayandı. Onlar sizin hər gün gördüyünüz atlardan heç nə ilə fərqlənmədiyi üçün daha təsvir edib vaxtmızı almıram. Amma bu atların bircə cəhəti o saat Kəmalə ilə Lətifənin diqqətini cəlb etdi. Onların yəhəri tərsinə qoyulmuşdu. Atın üstündə gərək böyrü üstə oturaydın. Amma daha bundan keçmişdi. Onlar tərs keçilərin üstündə gedən Nurgüllə Ayselə çatmalı idilər və əslində bu yəhəri tərsinə qoyulmuş atlar onlar üçün göydən düşmə oldu.

Lətifə əvvəl Kəmaləni ata mindirdi. Atın üstündə tərsinə oturmaq I Tərsin lap xoşuna gəldi. Sonra Lətifə aşırılıb mindi və atlar quş kimi uçmağa başladı. Lətifə qabağa baxırdı ki, görsün tərs keçilər necə oldu. Uzaqdan onların qaraltısı görünürdü. Atlar daha sürətlə getdiyi üçün keçilərə tezliklə çatacaqdılar. Amma Lətifənin nəzərini keçilərin çatmaqda olduğu bir şəhər cəlb etdi. İlk baxışda bura da adi şəhərlərə oxşayırdı. Amma nədənsə şəhərin girəcəyindəki çinar ağacının başında müxtəlif rəngli bayraqlar külək vurduqca yellənirdi.

—Deyəsən çox maraqlı bir ölkəyə gəlib çatmışıq.

Kəmalə çiyninin üstündən qarşıdakı şəhərin dalğalanan bayraqlarına baxıb fərəhlə qışqırdı:

—Əlbəttə qeyri adi bir ölkəyə gəlib çıxmışıq. Gör bir ölkənin nə qədər bayrağı var.

Onlar tərs keçilərə yetişəndə bir lövhə diqqətlərini cəlb etdi. Aysellə Nurgül keçilərin dayanmağından istifadə edib yerə düşdülər. Lətifə ilə Kəmalə də atları dayandırıb yerə atıldılar. Tərslərin dördü də bu lövhənin qabağında dayandılar. Bir müddət onu oxuya bilmədilər. Lövhədə belə yazılmışdı: «isəklö ralmada srət».

İlk dəfə Aysel bu sözü oxudu: «Tərs adamlar ölkəsi», Bəli bir diqqətlə baxın. Hansı tərs adamsa lövhəni tərsinə çevirib. Onlar diqqətlə baxanda Ayselin sözlərini təsdiq etdilər. Bax bundan sonra yaşamağına dəyərdi. Tərs adamlarla dil tapmaqdan asan nə ola bilər?!

Onlar indi başa düşdülər ki, Yevlax meşəsində rast gəldikləri qoca bu tərəfə gəlməyi niyə məsləhət bilmirdi. Bəlkə də dünyanın bütün tərsləri həmin çığırla gəlib burada məskən saldıqları üçün bir də heç zaman geri qayıtmamışlar.

QULAMIN QƏRİBƏ QARNI

ulamın bu qəribə qarnı haqqındakı nağılı eşidəndə məni necə gülmək tutdusa dişlərimin ikisi birdən düşüb itdi və nə qədər əlləşdimsə onları tapa bilmədim.

Məsələ belə idi ki, Qulamın bu qarnı hər gün həvəslə böyüyürdü. Qarın əvvəlcə adi adamlarınkı kimi iri və şiş idi. Sonra o elə bir sürətlə böyüdü ki, nəinki Qulam yazığın evini, hətta küçəni tutdu. Yolu kəsdiyinə görə insanlar əsəbləşirdilər:

—Zəhmət olmasa qarnınızı yığışdırın ki, keçib gedə bilək!

Amma kimə deyirsən? Qulam öz qarnı ilə bacara bilmirdi. Qarın elə sürətlə böyüdü ki, günlərin birində gedib maşın yolunu tamam kəsdi:

—Bibibbbb! Bababbbb!

Maşınlar lap havayı yerə boğazlarını yırtırdılar. Qulamın qarnı daha onlara yol verəsi deyildi. O elə sürətlə böyüyürdü ki, birdə baxıb gördülər nə, Qulamın qarnı gedib dəmir yol xəttini də o yana keçib. Elektrik qatarları zil səslə qışqırdılar, paravozlar necə hirslə "pufff" elədilərsə bütün şəhəri duman tutdu. Amma bütün bunların Qulamın qarnına qətiyyən dəxli yox idi. Adamlar bir səhər durub gördülər ki, qarın körpüləri, estakadaları, bütün keçidləri tutub. Buna görə də adamlar onun üstündən keçib işə güclə getməyə başladılar. Hətta Qulamın qarnına o qədər alışdılar ki, onsuz öz həyatlarını ağıllarına belə gətirmirdilər. Qulamın qarnı olmasa onlar nə edə bilərdilər?

Qulamın qarnı isə getdikcə böyüyürdü. Adamlar bir də gözlərini açıb gördülər ki, o nəhəng meşələrin, səhra və dənizlərin üstündən adlayıb, yalan olmasın az qala bütün dünyanı tutub.

— Bəs indi biz neyniyək! – deyə adamlar fikirləşdilər. Əkin sahələrimizin hamısı Qulamın qarnının altında qalıb.

Hardasa paravoz bar–bar bağırır, paraxodlar dəhşətlə nərildəyirdilər. Qulamın qarnı isə bütün dünyanı tutmaq üçün gündə iyirmi-iyirmi beş metr şişirdi.

Əslində daha yazıq Qulam heç nə yemirdi. Bütün yeməli şeylər maşınlar və qatarlarla, paraxod və təyyarələrlə onun qarnına dolurdu.

Maraqlısı bu idi ki, bu qarın qətiyyən partlamaq fikrində deyildi. Həkimlər iddia edirdilər ki, Qulamın qarnı xüsusi bir qarındır və o heç zaman partlamaz. Hətta bu elmi həqiqəti kəşf etdiklərinə görə on iki adam elmlər namizədi, yeddisi elmlər doktoru, üçü isə akademik oldu. Əlbəttə, bu elmi kəşflər kosmosun kəşfindən az əhəmiyyət kəsb etmirdi ki?!

Qarın o qədər şişdi ki, axırda çevrilib böyük bir ölkəni tutdu. Adamlar yaşamağa yer tapmadıqları üçün qarının içinə köçməli oldular. Sən demə qarnın içi lap yaşamalı yer imiş, hamı bir-birini təbrik edir və deyirdi:

—Qulamın qarnından başqa daha bizim nəyimiz var. Bizi qardan, soyuqdan qoruyur. Hətta deyim ki, üstümüzə qəfil düşmənlər gəlsə də bizi tapa bilməz. Axı, kimin ağlına gələr ki, böyük bir ölkə bir qarına yerləşib. Bundan sonra yaşamağına dəyərdi.

Deyirlər insanlar hələ də həmin qarının içində ləzzətlə yaşayırlar.

Nə qədər and-aman eləsəniz də mən buna inanmıram.

Belə də qarın olar?

TÜKLÜCƏ

Hər şey gül kolunun əyri və yöndəmsiz tikanının Zərifənin qolunun cızmasından başladı. Qızcığaz qızılgülü dərərkən həmin tikan onun qoluna sancıldı və qız:

—Ay ana! — deyib geri çəkiləndə tikan onun qolunu əməlli başlı yaraladı.

Zərifə tikanı birtəhər qolundan çıxardıb, əli ilə qanayan yerinin üstünü örtdü. Qan görünməz oldu. Amma Zərifənin göz yaşları yanağından aşağı süzülməyə başladı.

Birdən kimsə onun ayağını yaladı. Zərifə göz yaşlarını silib aşağı baxdı. Bu nə idi belə?! Yekə bir çoban papağını xatırladan quyruğunu, ağzını, çənəsini, qara qıvrım tük basmış balaca bir küçük onun ayaqlarına qısılmışdı. Qara tükləri gözlərini də örtmüşdü. Qıvrılmış qara tüklərin arasından parıldayan gözləri güclə seçilirdi. Zərifə gül tikanını tamam unudub dedi:

—Sən hardan çıxdın belə?! Necə də gözəlsən! Adın yəqin ki, Tüklücədir. Sənə bu ad lap yaraşır. Bu hündürlükdə hasarı necə keçib gəlmisən?

Zərifə birdən nə fikirləşdisə yavaşca dedi:

—Səni burda görsələr aparıb küçəyə atarlar. Bizim evdə he ç kəs iti sevmir.

Tüklücə onun paltarını yaladı. Başını qızın balaca toppuş ayaqlarına qoyub xoşbəxt -xoşbəxt mırıldandı.

—Olmaz! Mırıldanmaq olmaz. Orxan bilsə aləm biləcək. Ağzında söz saxlaya bilmir. Gedək, səni gizlədim.

Zərifə həyət-bacaya göz gəzdirib lap dibdə elektrik dirəyinin yanında bitən və bütün ili yaşıl olan kolu görüb sevindi:

—Bax burda həmişəlik qala bilərsən. Qorxma, hər gün suyunu, yeməyini gətirəcəm. Amma hürməyəsən, ha... Hürdün, qurtardı. O saat duyuq düşəcəklər. Yaxşı?

İt yavaşca zingildədi. Yəni hər şeyi başa düşürəm. Zərifə evə qaçdı. Çörəyin üstünə qaymaq çəkdi. Sonra onu balaca-balaca doğrayıb Tüklücənin yanına gəldi. İt qaymaqlı çörəyi ləzzətlə yedi. Zərifə konserv qutusunda su gətirib onun qabağına qoydu. Tüklücə doyunca su içdi.

—Zərifə, dərsə gecikirsən. O kolun dibində nə edirsən?

Az qala işin üstü açılacaqdı. Zərifə barmağını dodaqlarına yapışdırıb, Tüklücəyə axırıncı dəfə xəbərdarlıq etdi:

—Sss! Sonra sürətlə evə tərəf qa çdı.

Zərifənin yanaqları qıpqırmızı idi. Elə bil ona dünyanı bağışlamışdılar. Ana bir qədər şübhələnsə də, qız dərsə getdiyi üçün daha ondan bir söz soruşmadı.

Zərifə tüklücədən çox razı idi. Kolun dibində səssiz dayanıb, Zərifənin yolunu səbirlə gözləyir, arabir çox astadan hürürdü. Səsini kəpənəklər güclə eşidirdi.

Son günlər Orxan bacısının hərəkətlərində bir qəribəlik duymuşdu. Bir də görürdün Zərifə qaymaqqabını götürüb tələsik çörəyin üstünə yaxır və onu bir tərəfə qoyub nəyisə gözləyirdi. Lap aydınca görünürdü ki, o, ətrafındakılardan mühüm bir şeyi gizləyir. Gecələr hərdənbir nazik səsli it hürməsi də ona qəribə gəlirdi. Bu it haradasa yaxınlarda olmalı idi.

Orxan bacısını izləməyi qərara aldı. O, içəri otağa keçib pərdənin arxasından Zərifənin nə edəcəyini gözləməyə başladı. Kinolarda olduğu kimi özünü çox səbirli aparırdı.

Zərifə qardaşının otağa girdiyini görüb qaymaq yaxmasını götürdü və həyətin aşağı başına doğru qaçdı. Orxan

evdən çıxmadan onun hara getdiyini və bacısının tezliklə geri qayıtdığını gördü. Qaymaq yaxılmış çörək Zərifənin əlində yox idi.

—Kolun dibində kimsə yaşayır! Zərifə yaxmacı yəqin ki, ona apardı!

Daha Orxanı saxlamaq olardımı?!

Zərifə Orxanla həyətin ortasında qarşılaşdı. Orxan düz kolluq tərəfə götürüldü.

—Orxan, ora getmə! — deyə qız həyəcanla qışqırdı. Orda bilirsən nə var?

—Nə var — deyə Orxan dayanmadan soruşdu.

—Zərifə əvvəl istədi desin ki, orda adamyeyən var. Amma fikirləşdi ki, Orxan buna inanmaz.

—Orda ilan var. Vallah düz deyirəm, yekə ilandı.

Buna da Orxan demişəm. Atası deyir ki, Orxan şeytana papış tikər, ortasına da deşik qoyar. Onu aldatmaq olardımı.

Orxan Tüklücəyə çatanda it onun ayaqlarını yaladı. Onun qara, qıvrım tükləri necə də cod idi.

Zərifə də özünü yetirmişdi. Tərəddüdlə gah Orxana, gah da Tüklücəyə baxırdı.

—Ataya demə, iti azdırarlar! Kişi kimi söz ver.

—Orxan orda nəyə baxırsınız? — Ananın səsi eşidildi.

—İtə! – deyə Orxan qışqırdı: — Burada qəşəng bir it var.

—İt? İt nədir? Onu kim gətirib? Yüz dəfə demişəm ki, itlə oynamayın

Ana artıq onların başının üstünü kəsmişdi. Tüklücə güclə seçilən bəbəklərini ananın üzünə zilləyib, quyruğunu cani dildən bulayırdı. O, heç zaman belə sevinməmişdi.

—Ölmüş necə də göyçəkdi!

Ananın bu sözlərini elə bil ki, Tüklücə də başa düşürdü. İki dal ayaqlarının üstünə qalxıb tullanır, həyət boyu qaçırdı. Axı, daha gizlənməyə dəyməzdi.

Amma Tüklücənin sevinci uzun çəkmədi.

Ata işdən gələn kimi qərara alındı:

—İt sabah azdırılmalıdır!

Uşaqların göz yaşı böyüklərin ürəyini yumşaltmadı. Ana qəti bəyənat verdi.

—Ya mən, ya da Tüklücə! İkimizdən birini seçin — dedi.

Hər şey bitdi.

Zərifə qəzəblə Orxanı süzdü və yataq otağına qaçdı.

Hamı yuxudan durmuşdu. Tüklücə hələ də xoşbəxt həyatını yaşayır, həyətdə o tərəf bu tərəfə qaçır, kəpənəklərə hürür, göy çəmənlikdə yumalanırdı.

Ata qaşqabaqlı idi. Zərifə bunun nə demək olduğunu başa düşürdü. Demək Tüklücə indicə ağ jiqulinin yük yerində oturacaq və bu həyətdən həmişəlik gedəcək. Orxanın da qanı qara idi. Doğrudur, səhər fürsət tapıb, Tüklücəni sığallaya bilmişdi. Amma eşidəndə ki, ata onu aparıb azdıracaq, lap dilxor olmuşdu.

—Budur, maşının yük yeri açıldı. Zərifə heç olmasa son dəfə Tüklücəyə toxunmaq üçün onu qucağına götürdü və atasının sərt baxışlarına dözməyib yavaşca iti maşının yük yerinə qoydu. Sonra göz yaşlarını silə-silə evə qaçdı.

Küçük maşına mindiyi üçün bilsəniz nə qədər sevinirdi. Axı, hələ indiyə kimi heç kəs onu maşınında gəzdirmək haqqında düşünməmişdi. İndi belə bir fürsət düşdüyü üçün Tüklücənin sevinci yerə-göyə sığmırdı. O, geri qayıdanda bu barədə uşaqlara danışacaqdı.

Bir azdan maşın dayandı. Ata yük yerini açıb dedi:

—Düş görək!

Tüklücə əllərini yük yerinə qoyub dik dayandı. Ətrafına baxıb bir-iki ağız hürdü. Amma yerə tullanmağa ürək eləmədi. Ayaqlarının əziləcəyindən qorxdu. Ata onun belindən tutub yerə qoydu.

—Di get, qoçaq! — dedi. Çalış ki, ac qalmayasan. Elə buralarda hərlənsən əlinə bir şey düşəcək. Yaxınlıqda yeməkxana var. Burdan uzaqlaşma!

Ata özü də harasa getdi. Tüklücə ağ maşının yanında quyruğunu şeşələyib o tərəf-bu tərəfə qaçırdı. O, hərdən arxasını maşına dirəyib, yeməkxananın arxasında sülənən itlərə hürürdü.

—Ham, ham, ham... — Bu bizim maşındır. Mən bu maşında gəlmişəm! Bir azdan ata gəlib maşına mindi və sürüb getdi. Tüklücə maşının dalınca xeyli qaçdı. O qətiyyən başa düşmədi ki, ata onu niyə götürmədi. Maşın uzaqlaşıb gözdən itəndə Tüklücə quyruğu üstə çömbəlib, bir-iki dəfə qəmli - qəmli hürdü.

Ata maşının güzgüsündən Tüklücənin necə qaçdığını görürdü. Amma maşını saxlamadı...

—Ağlayırsan? — Kimsə kal bir səslə Tüklücənin yanında çömbəldi. Bu qara, uzun tükləri olan bir it idi. Qırmızı, uzun dili ağzından xeyli qabağa çıxmışdı.

—Məni qoyub getdi. Yəqin indi qayıdar. Burada oturub heç yana getməyəcəyəm. O, hökmən gələcək. Bilirsən, bizim nə gözəl maşınımız var? Doğrudur, mən onun əsil oturacağına minməmişəm. Ancaq bilirəm ki, məni bir gün həmin o rahat oturacaqda gəzməyə aparacaqlar.

Tüklücənin gözlərinin yaşı qurumuşdu. O, birdən-birə elə dil açmışdı ki, yekə it xeyli dinlədi və birdən səbri tükəndi:

—Səfehsən, vallah. Uşaqsan və bu dünyanın işlərindən qətiyyən başın çıxmır.

Tüklücə key-key onun üzünə baxırdı.

—Məgər, mən bu ağ maşından düşəndə siz görmədiniz? Sadəcə olaraq gedəndə mən onun yadından çıxmışam. Bir azdan xatırlayıb geri qayıdacaq. Biz yəqin ki, dəniz sahilinə gəzməyə gedəcəyik.

Qara köpəyin daha səbri tükəndi. Ağzını geniş açıb əsnədi və cani -dildən gərnəşdi.

—Daha mənə tam aydındır ki, sən dünyanın ən səfeh kü çüyüsən. Hələ az qalıram deyəm ki, dəlisən. Tüklücə yerə uzanıb, əllərini qabağa uzatmışdı. Qara köpəyin sözlərinə qətiyyən məhəl qoymadan ağ maşının təkərlərinin izini iyləyirdi. Yarpız iyinə bənzəyən bu qoxu bəlkə də ömrünün axırına kimi onun yadından çıxmayacaqdı.

—Sən adi bir həqiqəti bilmirsən ki, bizim hamımız evlərdən azdırılan itlərik. Bundan sonra heç kəsə lazım deyilik. Harda nə görsən çək dişinə, qurtardı, getdi. İmkanın düşsə oğurla. Oğurluq mal şirin olur.

Tüklücənin enli yarpağa oxşayan sallaq qulaqları birdən-birə heyrətlə qalxıb düşdü. Qara nazik bığları titrədi:

—Siz nə danışırsınız? Oğurluq nədir? Zərifə oğurluğa pis bir söz deyirdi. Qoy görüm o söz nə idi!

—Axmaqlıq? — deyə qara köpək dilləndi.

—Yox, axmaqlıqdan daha pis sözdür.

—Səfehlik, dələduzluq, avaralıq, əclaflıq, alçaqlıq?!

—Bax, elə həmin söz idi, alçaqlıq! Bir ayrı söz də deyirdi. Nəsə şərəfə oxşayan bir söz idi.

—Şərəfsizlik?!

—Düzdür, siz bu sözləri hardan bilirsiniz?

—Eh, bu sözləri biz avara itlər demək olar ki, axşama kimi bilirik. Amma onu eşitməyin elə bir ziyanı yoxdur. İnsanlar sənə alçaq, oğru, dələduz deyir, amma sən ürəyin istəyən kimi yaşayırsan. Pisi odur ki, sən həqiqətən səfeh olasan. Şərəfli bir ömür sürüb acından öləsən. Bir məni başa sal görüm insanlar sənin şərəfli olduğunu hardan bilsinlər? Axı bu, heç kəsin alnında yazılmır, bütün itlərin hamısı eyni cürdür. Yemək görəndə quyruqlarını mümkün qədər bərk bulayırlar ki, bəlkə bir az yemək alsınlar.

Tüklücənin qulaqları sallanmışdı. Onlar sanki qara köpəyi eşitməmək üçün qapanmışdı. Amma qara köpək elə üyüdüb tökürdü...

—Ehey, kor şeytan, uşağın beyninə nə doldurursan?

Tüklücə qarşılarında dayanan boz iti indicə gördü. Onun iri bədəni və uzun tükləri var idi. Əgər bu it meşədə sizin qabağınıza çıxsa, onu yəqin ki, canavara oxşadardınız.

Tüklücə indi başa düşdü ki, bayaqdan onunla söhbət edən qara köpəyin adı Kor Şeytan imiş. Əslində o, bu itin kor olduğunu indicə gördü. Qara köpəyin bir gözü ağ idi və yəqin ki, görmürdü. Boz itin sözlərini eşidəndə Kor Şeytan nazik səslə uladı. Bu, it dilində "Mənə toxunma, yazığın gəlsin" demək idi. Sonra quyruğunu torpağa sürtə-sürtə boz itin ayaqlarının yanına qədər süründü və onun iri pəncələrini yalamağa başladı.

Boz itin adı Qurdbasar idi.

—Ey, balaca — deyə Qurdbasar dilləndi. Əlinə nə düşsə, gətirib mənə verə bilərsən. Heç kəsdən qorxub eləmə. Bircə özünü bu yaltaq Kor Şeytandan qoru. Çətinə düşsən mənə xəbər elə.

Amma Tüklücə öz taleyi ilə qətiyyən barışmaq istəmirdi. Axı, Zərifənin atası hökmən gəlməli idi. Onlar ağ maşında harasa, daha maraqlı yerə gəzməyə getməli idilər. Zərifə yadına düşdüyü üçün quyruğunu ayaqlarına qısıb bir tərəfə çəkildi və ağ maşının yolunu gözləməyə başladı. Yekə itlər harasa getmişdilər. Tüklücə qabaq ayaqlarını uzadıb, çənəsini pəncələrinə söykəmişdi. Yarpız iyi onun burnunda idi və hər dəqiqə həmin iyin sahibi olan ağ maşının yolunu gözləyirdi.

—Ay allah, nə gözəl küçükdü — bu söz Tüklücənin düz qulağının dibində necə səsləndisə yazıq dik atıldı. Qarşısında Zərifə boyda bir qız dayanmışdı. Onun qırmızı lenti, başının ortasında bir topa laləyə oxşayırdı. Əslində qızın sifətində də lalə rəngi var idi. Səhər mehinin təsirindənmi, ya nədənsə qız qıpqırmızı qızarmışdı.

Qız Tüklücənin belini sığalladı. İt quyruğunu bulayıb, üzünə qızın ağ ayaqqabılarına sürtdü. Bu ayaqqabılardan tünd

qərənfil ətri gəlirdi. Qızın ağ, uzun corablarından isə qaymaq çiçəyinin zərif qoxusunu hiss etmək o qədər də çətin deyildi. Amma bu, hər gün ona qaymaq yaxması gətirən Zərifənin ətri deyildi. Zərifənin əlindən qızılgülün zərif qoxusu gəlirdi. Tüklücə bu qoxunu yüzlərlə çiçəyi içindən asanca seçə bilirdi.

Qız gəldiyi kimi də uzaqlaşdı. Tüklücə burnunu yerə dirəyib yarpız iyisini axtardı. Azacıq dövrə vurub həmin iyi tapdı. Bu ağ jiqulinin təkərlərindən qalan izin ətri idi.

***

Gecədən xeyli keçmişdi. Yekə itlər yoxa çıxmışdılar. Maşınlar seyrəlmişdi. İnsanlar isə yəqin ki, yatırdı. Tüklücə yarpız iyini tutub yavaş-yavaş getməyə başladı. Dairəvi yolda yarpız iyinə başqa iylər də qarışır və Tüklücəni çaşdırırdı. O, dairəni bir neçə dəfə fırlanmalı oldu. Axırı ki, yarpız iyini tapdı.

Yol yoxuşa dirəndi. Tüklücə xeyli getdikdən sonra yaşıl darvazanı tapdı.

—Buradır. Özüdür ki, var. Zərifəgilin evi!

Hündür hasarın lap küncündən açılmış balaca deşiyi asanlıqla tapdı. İlk dəfə bu evə gələndə də həmin deşikdən girmişdi. Sürüşüb içəri keçdi. Kolun dibindəki doğma yatağına çatdı. Axşam Zərifə verən yaxmacın yarısı hələ də kolun dibində idi. Onu ləzzətlə yedi.

***

Zərifə hələ də yatmamışdı. Onun göz yaşları ananı da kövrəltmişdi. Ata daha əvvəlki kimi sərt deyildi.

—Zərifə yat. Söz verirəm ki, sabah sənə dünyanın ən gözəl küçüyünü alacam.

—Mən Tüklücəni istəyirəm. Dünyada ondan gözəli yoxdur!

—Sabah gedib onu taparam. Hökmən taparam. —Ata qəti söz verdi.

Zərifə isə ancaq göz yaşı tökürdü.

Gecənin tam sakitliyində it səsi gəldi. Bu səsi təkcə Zərifə yox, Orxan da eşitdi.

Zərifə yorğanını üstündən tullayıb oturdu. Orxan da qalxdı.

—Sən it səsini eşitdin?

—Hə!

—Bu Tüklücədi, yəqin ki, odur. Səsindən tanıyıram! Anada qalxdı.

—Bir küçükdən ötəri hamınız dəli olacaqsınız?!

Ancaq ananın sözü ağzında qaldı. Lap qapının ağzında Tüklücənin səsi eşidildi.

Onlar həyətə qa çdılar. Tüklücə balaca qara gözlərini onların üzünə zilləmişdi.

Zərifə onu qucağına götürüb həyəcanla:

—Mənim vəfalı Tüklücəm! Nə yaxşı gələ bildin?!

Tüklücə başını Zərifənin qoltuğuna soxub xoşbəxt — xoşbəxt mırıldandı.

ÜÇBUCAQ ÖLKƏNİN ADAMLARI

iz nə deyirsiniz deyin, mən ömrümdə belə ölkə görməmişəm. Həmin ölkə haqqında mənə səyahətçi Biləndər danışıb. Bu ölkənin evləri üçbucaq şəklindədi. Hamısı da bir boyda. Pəncərələri üçbucaq, evlərin damları üçbucaq. Bu ölkənin adamları ayaqlarını enli qoyub dayananda üçbucağa oxşayırlar. Belə bir qəribə ölkənin adamları ilə söhbət etməyinə dəyər.

—Bağışlayın, bu necə ölkədir belə — deyə Biləndər üçbucaq adamların birindən soruşdu.

—Bura belə ölkədir, sizi necə başa salım? Bax, iki dənə üçbucağı elə birləşdirə bilərsiniz ki dördbucaqlı alınar. Biz fikirləşmişik ki, bir dördbucaqlıdan iki üçbucaqlı almaq mümkündürsə onda niyə üçbucaqlı evlərdə yaşamayaq ki... Orasını da bil ki, bu ölkədə evlərin qapıları həmişə taybatay açıq olur. Bu, Biləndəri təəccübləndirdi.

Fikirləşdi ki, yaxşı tutaq bu ölkədə oğru yoxdur. Amma hər halda polis olmalıdır, ya yox. Bəlkə kiminsə kefi istədi vurub birinin evini dağıtdı. Onda necə olsun. Buna görə də soruşdu:

—Axı heç gözümə polis-zad da dəymir.

—Polis? Polis nədir? Dayan-dayan — o, cibindən balaca bir radioqəbulediciyə oxşayan aparat çıxartdı. Aparatdan səs gəldi. Dünyanın bir sıra ölkələrində ona polis, bəzilərində polis və s. deyirlər. Qaydaları pozanları tutub ağıllandırır.

—Gördün? Hətta sənin radionda da dedilər.

—Elədir. Amma bizdə nə polis, nə də başqa bir qayda yaradana ehtiyac yoxdur. Çünki heç kəs qaydanı pozmur.

—Sən də söz danışdın da. Bax, bu saat mən qaydanı pozsam onda nə olar?

—Bir qaydanı poz görək!

Biləndər ayağa durub üstündə əyləşdikləri skamyanı tərsinə çevirdi.

—Buyur, bu da sənə qaydanı pozmaq. İndi məni kim cəzalandıracaq. Üçbucaq kişini gülmək tutdu.

Haçandan-haçana özünə gəlib dedi:

—İndi o aşırdığın skamyanın üstündə otur görüm.

—Necə oturum? Onda gərək düzəldəm.

—Bu sənin oz ışındır.

Üçbucaq adam cibindən balaca bir dəsmal çıxardı.

Necə etdisə dəsmal şişib stol şəklinə düşdü. Stolun üstündə rahat oturandan sonra dedi:

—Bu mən. İndi sən otur görüm harada oturacaqsan? — Eh, ona nə var. Gedib başqa skamyada oturaram.

—Bu mümkün deyil.

—Niyə?

—Çünki sən hansı skamyaya yaxınlaşsan o saat tərsinə çevriləcək. Axı, sən belə sevirsən.

—Bura baxın, yəni doğrudan belədir?

Biləndər sualına cavab almamış yaxındakı skamyaların yanına qaçdı. Hansına yaxınlaşdısa tərsinə çevrildi.

—Axı bu necə olur?

—Çox asan, hər bir insanın bədənində azacıq cərəyan var. Biz düzəltdiyimiz bir əşyanın içinə balaca bir tənzimləyici qoyuruq. O lap balaca olur. Gözlə görmək mümkün deyil. Tənzimləyici insanın bədənindəki cərəyana qoşulan kimi başlayır işləməyə. Bizim ölkədə hamı bilir ki, əgər bir dəfə skamyanı tərsinə çevirsə daha heç bir skamyada ona yer olmayacaq.

—Belə belə işlər, — deyə Biləndər dərin fıkrə getdi, — yaxşı, bəlkə düşmənlər gəlib sizin şəhərinizi dağıtmaq fikrinə düşdü — onda necə?

Üçbucaq adam cibindən bayaqkı aparatını çıxarıb düyməsini basdı. Aydınca səs eşidildi.

—Düşmənlər cürbəcür olur. Məsələn, xarici düşmənlər öz dövlətlərini artırmaq üçün başqa ölkələrə hücum edib oranı talayırlar.

—Gördün! — Biləndər sevincək dilləndi. — Sənin bu radion yaman biliklidir ha.

—Bu radio deyil. Ensiklopedik maşındır. Bir şey lazım olanda düyməsini basıb soruşmaq kifayətdir. O saat hər şeyi izah edir.

—Yaxşı maşındır. Mənim bir belə maşınım olsa dərsə— zada hazırlaşmaram.

—Bu mümkün deyil!

—Niyə?

—Çünki bu maşın ancaq savadlı adamların sözünə qulaq asır. Əgər sən pis oxusan, o heç sənə cavab da verməz.

—Qardaş, səninki lap ağ oldu. Axı bu maşın hardan biləcək ki, onun düyməsini basan adam savadlıdır, ya da lap elə qanmazın biridir.

—Hər bir adamın barmaqlarında hiss üzvləri var. Bu maşının düyməsinə barmağı toxunan adamın bütün qabiliy-yəti haqqında o saat maşında ətraflı məlumat yaranır. Bundan sonra onun lampaları işləməyə başlayır. Bunlar hamısı bir anda olur. Görürsənmi, mən soruşduğum „ sözü dilimlə demirəm. Buna nə ehtiyac var. Maşın onu mənim sinir üzvlərimdən oxuyur.

—Çox maraqlıdır. Yaxşı, bəs düşmənlər nə olsun? Düzü siz yaxşı adamlarsınız. Ağıllı, mehriban. Birdən düşmən gəlib buraları alt-üst edər.

—Bu mümkün deyil.

—Niyə?

—Çünki, çünki. Bir bəri bax görüm.

Biləndər çevrilib baxdı. Üçbucaq adam yox idi.

—Qardaş, sən hardasan?

—Mən ki sənin qarşındayam. Məgər məni görmürsən?

—Yox. Özünü göstər görüm hardasan. Birdən üçbücaq adam yenə əvvəlki yerində göründü.

Ayağını ayağının üstünə aşırdıb oturmuşdu bayaqkı stolunun üstündə.

—Bu necə olan şeydir. Qardaş, sizin bu ölkə lap möcüzədir ki.

—Burda elə bir möcüzə yoxdur. Paltarımdakı balaca düyməni basdım, ətrafımda mikroiqlim yarandı. Daha doğrusu mən bütövlükdə hava rənginə çevrildim. Ona görə də məni görə bilmədin. Səncə düşmən dediyin o adamlar bizə bir şey edə bilər?

Əlbəttə, yox. Heç bu barədə danışmağına dəyməz. Bəli, bir dəfə belə bir əhvalat olmuşdu. Biləndər doğrudan da belə bir ölkəyə getmişdi.

COĞRAFİYA DƏRSİNDƏ TAXILAN EYNƏK

ir dəfə Kərəm usta Lətifin gözündə qəribə bir eynək gördü. Adi eynəyə az oxşayırdı. Eynəyin buruna keçən hissəsinin üstündə antennaya oxşayan uzun məftil var idi.

Əslində bu məftil antennadan daha çox pişik bığlarına oxşayırdı.

—Bu nədir? — deyə Kərəm ustadan soruşdu.

—Bu? Əşi heç nə. Bunu ancaq xəritəyə baxmaq üçün coğrafiya dərsində taxmaq olar. Hansı ölkədə nələr baş verdiyini o saat göstərir bu eynək.

—Bəs bu bığları nə üçündür?

—Bığları olmasa bu bir qəpiyə də dəyməz. Gözə görünməyən hər şeyi göstərən bu bığlardır.

—Lətif dayı, bircə günlüyə ver onu mənə, sabah coğrafiya dərsimiz var. Sonra yenə qaytararam. Usta Lətifin balaca moruq gözləri bic-bic güldü. Eynəyi Kərəmə verdi.

Coğrafiya müəllimi içəri girən kimi Kərəm əlini qaldırdı ki, müəllim onu çağırsın. "Deyəsən tənbəlliyin daşını atıb bu Kərəm" — deyə müəllim düşündü.

—Buyur Kərəm! — Müəllim onu dərsi danışmağa çağırdı.

Kərəm xəritənin qabağına çıxan kimi eynəyi gözlərinə taxdı. Uşaqlar pıqqıldaşdılar. Kərəm onlara əhəmiyyət verməyib xəritəyə baxdı. Birdən... Doğrudan da görünməmiş əhvalat baş verdi. Xəritənin ortasındakı çəhrayı rəngli ölkədəki adamları gördü. Kərəm gördü ki, onlar bərk vurnuxurlar. Kərəm balaca bir oğlandan soruşdu:

—Hara belə?

—Necə hara? Görmürsən düşmən gəlir? Atamgil qabaqda gedir. Qaçıram ki, onlara çatam. Odur, anam çağırır. Gəlirəm, ana, gəlirəm.

—Hara gəlir düşmən?

—Qardaş, sən aydan-zaddan gəlməmisən ki, bəs üç gündür harayçılar bazarda car çəkmir ki, düşmən qoşunları üstümüzə gəlir, başınızın çarəsini qılın?

—Məgər sizin radionuz, televizorunuz yoxdur ki, harayçılar verir xəbəri.

—Radio nədir? Sən nə danışırsan. Biz elə şeyləri bilmirik. Oğlanın qara qıvrım saçları var idi. Gözləri par-par parıldayırdı. Uzündən qan axırdı. — Bəs üzünə nə olub?

—Göydə nəsə part edib dağıldı. Üzümə nəsə dəydi.

Kərəm onun yarasını sarımaq istədi, amma vaxt yox idi. Oğlanın ata-anası və bacısı körpüdən keçib çayın o tayında gözləyirdilər. Kərəm coğrafiya müəllimin sözlərini yadına salıb dedi:

—Bəri bax, o enliyarpağı görürsən. Yarpağını sal suya, qayıq kimi sürüb keç atangilə tez çatarsan.

—Sağ ol qardaş, deyəsən sən lap ağıllı adamsan axı.

Qıvrımsaç oğlan yarpağın üstünə minib o taya keçdi. Coğrafiya müəlliminin cingiltili səsi Kərəmi fikirdən ayırdı.

—Bu saat, müəllim. Dərsimiz inkişaf etmiş ölkələrin coğrafı quruluşudur.

Kərəm xəritəyə baxdı. Bura başqa ölkə idi. Küçələrdə ikimərtəbə tramvaylar gedirdi. Adamlar vurnuxurdu.

—Hara belə? — deyə Kərəm bir nəfərdən soruşdu. Bu adam heç Kərəm tərəfə baxmadı da. Şlyapasını düzəldib sürətlə uzaqlaşdı. Kərəm kimin qabağmı kəsib tələsdiklərinin səbəbini soruşdusa ona cavab verən olmadı.

Axırda arıq bir kişinin qolundan yapışdı. Bu adamın ordu batmışdı. Gözləri sönməkdə idi. Kərəm soruşdu:

—Sənlə deyiləm, hara belə?

—Əgər sualına cavab versəm mənim xeyrim nə olacaq?

—Nə xeyir? Bir sözdü de, qurtarsın getsin də!

—Yox, aşna, havayı vaxtımı alma. Bizim ölkədə havayı heç nə yoxdur.

—Yaxşı səni dalıma mindirib yüz addım apararam.

—Bu başqa məsələ. İndi deyərəm. Biz gedirik müharibəyə! Başa düşürsən, necə kef olacaq?! — Necə yəni kef olacaq, sən dəlisən, nəsən?!

—Dəli olmadığıma tamam əminəm. İldə bir dəfə həkimdən keçirəm. — Bəs müharibədə nə kef olar?

—Əlbəttə! Bax biz elə ölkələrə gedirik ki, orada texnika mexanika yoxdur. Elə hücum eləməklə var-yoxlarını talan etməyimiz bir olur. Axı bizim texnikamız çox güclüdür. Kərəm bir anlıq fikrə getdi. Çəhrayı ölkə yadına düşdü. Kərəm bayaqkı oğlanın qorxudan əyilmiş sifətini yadına salıb qışqırdı:

—Yox, mən sizi oraya qoymaram. Kərəm elə bərkdən qışqırdı ki, şagirdlər qəhqəhə çəkib güldülər.

Ordubatıq kişi qaçıb uzaqlaşdı. Kərəm çəhrayı rəngli ölkəni bir də axtarmağa başladı. Qıvrımsaç oğlanın ata-anası qabaqda, bacısı arxada meşəyə qaçırdılar. Oğlanın özü lap axıra qalmışdı. Tez-tez geriyə baxırdı ki, görsün düşmənlər gəlir, gəlmir. Birdən nəsə partladı. Anası geri qayıdıb bərkdən qışqırdı. Kərəm səs gələn tərəfə baxdı. Bayaqkı ordu batmış adam əlində tüfəng tutub yerə sərilmiş oğlana baxırdı. Onun tüfəngindən hələ də tüstü çıxırdı.

—Əclaf, — deyə Kərəm qışqırdı. — Əclafın yekəsi!

Sinifdəki uşaqlar təəccüblə Kərəmə baxırdılar. Coğrafiya müəllimi ona əyləşmək işarəsi verdi. Kərəm ayaqlarını sürüyə-sürüyə keçib yerində əyləşdi.

Onu da bil ki, usta Lətifin düzəltdiyi həmin eynək hələ də durur. Amma heç kəs onun yerini bilmir.

KƏRƏMİN SEHRLİ QƏLƏMİ

Bax bu əhvalat doğrudan da olmuşdu. Amma neyləyim ki, uşaqların bəzisi ona inanmaq istəmir. Deyirlər, belə də şey olar, necə yəni qələm istədiyin zaman yazır, istəməyəndə yox. Ya da ürəyi istəyən hoqqalar çıxarır.

Hətta bu hekayəni oxuyan bir uşaq dedi ki, mən elə qələmin başını ağzımda o qədər əzişdirərəm ki, əzgilə oxşamır. Nə isə, qoy onlar inanmasınlar, biz də keçək nağılımıza.

Əvvəlcə bu qəribə qələm haqqında: o adi qələmə oxşayırdı. Ucu qarğa dimdiyi kimi əyri idi. O biri ucu isə o qədər uzun və donqar idi ki, elə bil kərtənkələ adama baş əyib salam verir. Adam belə bir qələmi heç əlinə almaq istəməz. Di gəl ki, Kərəm bu əyriburun, yöndəmsiz qələmdən bir gün də ayrı dura bilmirdi.

İndi də Kərəm haqqında. Bu Kərəm yaman tənbəl idi. Əgər çarpayıdan yıxılsa bu onun heç vecinə də gəlməzdi. Elə yıxıldığı yerdə də yatardı. Əl-üzünü yumaq haqqında isə gəlin heç danışmayaq. Həftədə bir dəfə onu sürüyə-sürüyə əl-üzyuyanın yanına gətirərdilər. Əl-üzünə su dəyəndə Kərəmi uğunmaq tutardı. Bəzən elə uğunurdu ki, elə bil çəpiş bəyirir. Belə hallarda onun toppuş sifəti çuğundur kimi qızarır, iri və dolu çiyni balıq kimi çapalayardı.

Kərəm məktəbə gedəndə ona bir tamaşa edəsən. Elə bil qaz yeriyir. Yanlarını sağa-sola elə əyir ki, deyirsən timsah quruda gəzir.

Hə, bir dəfə belə bir əhvalat oldu.

Kərəm hesab dərsini hazırlayırdı. Birdən deyinməyə başladı:

—Yazmır. Bu da təzə çıxdı. — Orda kiminlə danışırsan? — deyə ana mətbəxdən səsləndi.

—Heç, bu qozbeli deyirəm.

—Qozbel kimdir? — ana maraqlandı.

—Əşşi, bu qarğadimdiyi deyirəm də. Yazmır.

—Bəlkə mürəkkəbi qurtarıb?

—Yox.

Birdən Kərəm nəsə fikirləşib soruşdu.

—Ana, üçün üstünə beş gələndə on etmir?

—Əlbəttə yox. Bu ki, adi hesabdır.

—Bəs neçə edər?

—Əlbəttə, səkkiz.

—Ah, səkkiz!

Kərəm qələmin qarğa dimdiyi ilə səkkizin birinci yumrusunu çəkəndə gördü ki, yazır.

—Dərdi varmış.

—Kimin dərdi varmış?

—Heç, bunu deyirəm. Cavabı düz tapmayanda yazmır, qırxayaq.

O gündən Kərəm başa düşdü ki, onun qələmi adi qələm deyil. Sehrlidir. Bundan sonra bir-birinin ardınca çox maraqlı əhvalatlar oldu...

Bir dəfə Kərəm bikarçılıqdan şəkil dəftərini qabağına qoydu. Əyriburun qələmi dəftərin üstündə gəzdirməyə başladı. Və dodağının altında mızıldandı.

Ay qırxayaq qələmim
Gözəl-göyçək qələmim.
Gəl mənim dəftərimə
Xoruz çəkək qələmim.

Onu elə çəkək ki,

Tükləri ipək olsun.

Quyruğu qövsi-qüzeh
Gözü mərcimək olsun.

Qələm kağızın üstündə bir-iki dəfə o tərəf-bu tərəfə hərlədi. Birdən görünməmiş bir əhvalat oldu.

Dəftərdə quyruğu rəngbərəng, dimdiyindən qartala oxşayan bir xoruz çəkildi. Xoruzun gözləri par-par parıldayırdı. Caynaqları iti və gözəl idi. Birdən xoruz qanadlarını şaqqıldadıb düz stolun üstünə çıxdı və elə banladı ki, qorxusundan Kərəmin dili topuq çaldı. Rəsm dəftərindən xoruz boyda bir hissə qopmuşdu.

Xoruz servanta sıçradı. Çox qiymətli bir qabın üstündə dayanıb banladı:

—Quq-qulu-qu...

—İşə düşdük ki, — deyə haçandan-haçana özünə gələn Kərəm xoruza yalvarmağa başladı. — Aşağı düş, mənim qəşəngim. Düş aşağı sənə dən verim.

—Quq-qulu-qu... — deyə xoruz daha bərkdən haray—həşir saldı.

Bu zaman ölü qırxayaq kimi stolun üstünə uzanmış qələm birdən tərpənməyə başladı.

—Əşşi sən də bir sakit ol görək. Başıma iş açdığı bəs deyil, hələ bir çapalayır da.

Amma qələm birdən elə bərkdən atılıb-düşdü ki, Kərəm onu götürməyə məcbur oldu.

Qələm dəhrəyə oxşayan əyri və yöndəmsiz burnunu dəftərə doğru uzatdı. Kərəm qələmi dəftərin açıq vərəqində gəzdirməyə başladı.

Əvvəlcə bir cüt zoğala oxşayan göz çəkildi. Sonra hiyləgərliklə arxaya əyilmiş bir cüt qulaq və yumşaq şələquyruq göründü.

Bəli, şəkil çəkilib qurtaran kimi tülkü özünü stolun üstündən yerə tulladı. O, bircə sıçrayışla xoruzu boğazladı. Özü

də o qədər ehtiyatla tullandı ki, servantdakı qabların biri də tərpənmədi.

Kərəm gözlərini qırpmadan işin axırını gözlədi. Tülkü xoruzu elə sürətlə yedi ki, heç tükü də qalmadı. Cəld açıq qapıdan həyətə tullandı.

Sonra da belə oldu. Tülkü həyətə düşəndə bərk yağış yağırdı. Amma buna baxmayaraq xoruz-beçələr bu çağrılmamış qonağın üstünə cumdular. Başını, gözünü, qulağını dimdiklədilər. Taqətdən düşmüş Tülkü yerə uzandı. Kərəm bütün bunları uzaqdan görürdü. O, işin necə qurtardığını bilmək üçün küçəyə qaçdı.

Kərəm gəlib gördü ki, kağıza çəkilmiş tülkü ilə xoruz yerə düşüb qalıblar. O öz dəftərinin vərəqlərini tanıdı. Şəkillər pozulmuşdu. Rənglər bir-birinə qarışmışdı. Vərəqlər xoruz dimdiklərindən didik-didik olmuşdu...

YALANDAN YARANMIŞ ADAM

iri var idi, biri yox idi, yalandan yaranmış bir adam var idi. Əslində bu adamın nə əli, nə gözü, nə də ürəyi var idi. Aydın məsələdir ki, onun başı və bədəni də yoxdu. Amma siz bu adama baxsaydınız onu əsl adamlardan seçməzdiniz. Axı yalandan yaranmış bu adam başqalarından fərqlənmək üçün özünə bahalı bir paltar və bahalı çəkmə aldı. O, bahalı çəkməsini və bahalı paltarını yalandan yaranmış bədəninə və ayağına geyinəndən sonra yalandan yaranmış başına dünyanın ən qiymətli papağını qoydu:

—Görüm bundan sonra kim mənim yalandan yarandığımı deyə bilər? — deyə o qürrələndi. Lap əslinə qalsa mən həqiqi insanlardan daha yaxşı geyinmişəm. Mən istəsəm heç onlarla salamlaşmaram da!

Yalandan yaranmış adam həqiqi adamların içində yaşaya bilməzdi və buna görə də dünya səyahətinə çıxdı.

Sən demə dünyada yalandan yaranan adam təkcə o deyilmiş. Dünya belə adamlarla dolu imiş. Bax elə buna görə də bizim qəhrəmanın kefi lap kökəldi. O gəzib axırda yalandan yaranmış adamların ölkəsinə gəlib çıxdı. Bu ölkənin yalandan yaranmış adamları adamın üzünə lap yalandan gülümsünür, yalandan salam verirdilər. Amma bu yalanı o qədər nəzakətlə edirdilər ki, sən onların yalanlarını qətiyyən başa düşmürdün. Adamlar bizim qəhrəmana doyunca gülümsündülər. Bahalı paltar geyindiyinə görə onu özlərinin padşahı seçdilər. Hə, bundan sonra yaşamağına dəyərdi.

Yalandan yaranmış adam yalandan yaranmış adamların padşahı seçilən kimi belə bir göstəriş verdi:

—Dünyada nə qədər doğrudan yaranmış adamlar var hamısı bizə tabe olmalıdır.

Siz görəydiniz ki, yalandan yaranmış adamlar necə yalandan əl çalıb, qışqırırdılar. Hətta bir neçə yalançı fişəngdən yalançı atəş də açıldı. Doğrudu, atılan atəşin qətiyyən gurultusu olmadı. Amma bu ölkənin adamları qulaqlarını tutdular ki, atəşfəşanlığın gurultusu onları kar etməsin. Hamı bir-birini qucaqlayıb padşahlarının nə qədər ağıllı olduğunu yalandan tərifləməyə başladılar.

Ən pisi bu idi ki,bu yalançı ölkədə bir həqiqi adam var idi və bu həqiqi adam bilmirdi ki, neyləsin. Padşahın əmrindən sonra bu həqiqi adam ölkədən qaçmaq haqqında fikirləşdi. Bilet aldı. Pal-paltarını yığışdırdı və təyyarəyə mindi. Sən demə bu ölkənin təyyarələri də yalandan yaranıbmış. Çünki sürücü tələm-tələsik kabinaya keçib təyyarəni guya işə saldı. Sərnişinlər ciddi-cəhdlə yerlərini tutdular. Stüardessa radio ilə təyyarənin neçə min metr hündürlükdə uçduğunu söylədi. Amma həqiqi adam pəncərədən baxıb gördü ki, təyyarə elə yerindəcə dayanıb. Düz iki saat beləcə yalandan uçandan sonra stüardessa elan elədi ki, kəmərləri bağlasınlar artıq təyyarə düşür.

Sonra elə əvvəlki pilləkəni qoyub adamları düşürdülər. Əgər siz fikir versəydiniz görərdiniz ki, təyyarə meydanında nə qədər canlanma var. İkicə saat əvvəl camaatı yola salan adamlar elə buradaca onları qarşılayır, başqa şəhərlərdən gələn adamlar kimi onlara gül verirdilər. Bir kişi balaca nəvəsini bağrına basıb deyirdi.

—İlahi gör səni nə vaxtdı görmürəm. Atan-anan necədirlər? Yaxşı ki, sağ-salamat gəlib düşdün!

Həqiqi adam əlini alnına qoyub istiliyini ölçdü. O fikirləşdi ki, bəlkə xəstələnib. Bəlkə hər şeyi çaşbaş salır. Bəlkə

elə doğrudan da başqa ölkəyə gəlib çıxıbdı. Təyyarədən düşəndən sonra başa düşdü ki, xeyr, elə o bayaqkı ölkədir ki, var. Radiolar yalançı padşahın yalançı sözlərini oxuyurdular: "Bütün dünya bizim olacaqdır". Yalandan yaranmış adamların radiosu xəbər verirdi ki, küçədəki kranlardan süd axır. Vedrələrinizi südlə doldurandan sonra kranları bağlayın ki, axıb havayı getməsin. Ürəyiniz qaymaq istəsə həmin kranların yanındakı balaca düyməni basmaq kifayətdir. O saat qaymaq burumları süzülüb qabınıza dolacaqdır. Ən maraqlısı bu idi ki, adamlar əllərində vedrə və banka küçələrə axışıb kranları açırdılar. Sizi inandırım ki, kranlardan nəinki süd, ya da qaymaq, heç su da gəlmirdi. Amma yalandan yaranmış adamlar qablarını elə ehtiyatla aparırdılar ki, elə bil dolu qabların töküləcəyindən qorxurdular. Qoca bir arvad deyirdi:

—Mən ömrümdə belə şirin qaymaq yeməmişəm.

—Eh, sən heç südü demirsən, elə bil qaymaqdı, —deyə çalbaş bir kişi boş qabını göstərdi.

İlahi bunlar necə adam idi. Bu qədər yalanı da həqiqət kimi bir-birinə danışmaq olardımı.

Radio tez-tez müxtəlif yalançı elanlar verirdi:

Biz dünyanın ən xoşbəxt adamlarıyıq.

—Bəli, siz doğrudan da xoşbəxtsiniz, — deyə həqiqi adam dilləndi.

Bu zaman gözlənilmədən bir hadisə oldu. Qara rəngli "Limuzin" maşın həqiqi adamın yanında dayandı. Maşının içindən ağpaltar bir adam düşüb onun üstünə yüyürdü və dedi:

—Bayaqkı sözünüzü təkrar edin!

—Hansı sözümü, — deyə həqiqi adam dilləndi.

—İndicə dediyiniz sözü. Deyəsən siz bizim ölkəni bəyənirsiniz?

—Bəli, bəyənirəm, — deyə həqiqi adam rişxəndlə dilləndi. Ağpaltar adam əlindəki mikrofonu dodaqlarına yaxınlaşdırıb cürbəcür sözlər dedi. Məlum oldu ki, adam həmin yalandan yaranmış adamların radiosunun əməkdaşıdır. Hətta

həqiqi adamların da onların ölkəsini bəyəndiyindən ağız dolusu danışdı.

Bir dəfə həqiqi adam radioların bağıra-bağıra elan etdiyi həmin kranlardan birini yavaşca burdu ki, görsün ordan heç olmasa su da olsa gəlirmi? Birdən həqiqi adamın gözləmədiyi əhvalat oldu. Krandan doğrudan da süd axmağa başladı. Bu adam kranın yanındakı balaca düyməni basanda oradan qaymaq burumları axıb aşağı töküldü. Bu adam hər tərəfi qaymaq etdiyinə görə buradan qaçdı ki, onu görən olmasın.

Bu zaman onu təcili yardım maşınına qoyub xəstəxanaya apardılar. Həkimlər yalandan ora-bura vurnuxur, xəstəyə yardım etmirdilər. Hətta bu adam bir həkimin gah eynək taxdığını, gah eynəyini çıxardıb saçını daradığını, xəstəyə yardım etmək üçün guya tələsdiyini gördü. Xəstə içəri girən kimi həkim çörək yeməyə başladı. Xəstə belə başa düşdü ki, həkim ona lap dərindən baxmaq üçün əvvəl çörək yeyir. Həkim sonra çay içib tibb bacılarını ora-bura göndərdi. Xəstəxanada aləm bir-birinə dəymişdi. Tələsik ora-bura vurnuxan tibb bacıları həkimlə necə toqquşurdularsa yazığın iki dəfə gözlüyü, bir dəfə də qəlyanı əlindən düşdü. Maraqlıdır ki, onun gözlüyü və qəlyanı əlindən düşəndə sevinclə qışqırdı.

—Afərin! Bax belə! Tezliklə xəstə sağalmalıdır.

Sən demə, yalançı adamların xəstəxanası da yalançı imiş. Xəstə birtəhər həkimdən soruşmaq istədi ki, axı bu süd axmır, siz adama kömək etmək əvəzinə bir-birinizlə toqquşursunuz, belə də iş olar? Amma bunları deyə bilmədi. Təkcə dedi:

—Süd, kran...

Həkim tez krandan süd doldurulmasını əmr etdi. Xəstə qapalı gözlərini birtəhər ayırıb krana tərəf yüyürən tibb bacısına baxdı.

Bax, bu doğrudan da möcüzə oldu. Qızdırmadan gözlərini güclə açan xəstə az qaldı ki, ayağa qalxsın. Krandan doğrudan da süd axırdı. Hətta süd o qədər yağlı idi ki, kran hərdən axmağını dayandırıb "trpp" edir, sonra yenə də axırdı. Tibb bacısı düyməni basıb bir qab qaymaq doldurdu. Amma həkim göstəriş verdi ki, xəstəyə hələlik onların heç birini vermək olmaz.

Həqiqi adam 40 dərəcə qızdırma içində ürəyində özünü danladı və bu ölkənin adamlarının doğrudan da qoçaq olduğuna inandı. Həqiqi adam çaşıb qalmışdı. O bilmirdi ki, yalandan yaranmış adamlar yalandı, yoxsa onun özü yalandan yaranıb. Deyirlər həmin adam hələ də yaşayır. Amma bu sirri hələ də başa düşmür.

KÖLGƏLƏR

ən öz kölgəni görmüsənmi? Əlbəttə, günəşli havalarda! Hə, bax elə ki, günəş batdı, kölgələr də qaranlıq bir yerə çəkilir. Gündüz gördüklərindən bir-birinə danışır, ya da başlayırlar oynamağa.

Bir dəfə dovşanın kölgəsi tülkünün kölgəsinə dedi:

—Bura bax, sənin sahibin elə həmişə mənim sahibimi qovur. Mən də ki, özün bilirsən, ondan ayrıla bilmərəm. İndi gəl belə edək, səni qovum, qaç. Görək səni tuta bilərəmmi!

Tülkü kölgəsi başladı qaçmağa, dovşan kölgəsi də onun dalınca. Birdən tülkü kölgəsi dayanıb dedi:

—Sss.

—Nə olub? — deyə dovşan kölgəsi maraqlandı.

—Qabaqda it kölgəsi var. Bilirsən necə vahiməlidir?! Tüklərini qabardıb bizə baxır.

—Eh, bunun nəyindən qorxursan, qardaş? Mən də səni ürəkli hesab edirdim. Sən demə lap qorxaqsanmış.

Onlar it kölgəsinin yanından sürüşüb qaçdılar. Birdən tülkü kölgəsi dayandı:

—Sss.

—Yenə nə oldu? Elə mən sənə çatmaq istəyəndə sən dayanırsan. Oyunun qaydasını pozursan axı.

—Bura bax qabaqda iki kölgə söhbət edir. Özü də elə vahiməli kölgələrdi ki...

Kölgələr isə belə danışırdı:

—Yazıq sahibim, indi yuvasında yatır. Heç bilirsiniz ovçulardan necə qorxur? Bir dəfə yanında iki tulası olan lopabığ bir ovçu bizi qovurdu. Biz də qaç ki, qaçasan. Xeyli qaçandan sonra sahibim dayandı. İri, qəşəng buynuzlarını bir ağaca sürtməyə başladı. Aydındır ki, mən də onun hərəkətlərini təkrar etdim. Birdən ovçu lap mənim böyrümdə dayandı. Hətta buynuzlarım onun ayaqlarına toxundu. Amma o heç bunu başa düşmədi. Gözaltı sahibimə baxdım. O xeyli aralıda gizlənmişdi. Axı axşamüstü biz uzanırıq. Mən uzanıb lap uzaqlara getmişdim. Heç nədən də qorxub eləmirdim. Heç ovçunun yekə bığlarından da qorxmurdum. Ovçu xeyli ətrafa göz gəzdirib çıxıb getdi. Sahibim getdi yatmağa. Mən də ki bura gəldim.

Kölgə nağılını qurtaranda onun yanındakı dedi:

—Sənə bir sirr açım — indicə danışdığın ovçunun kölgəsi mənəm. Bilirsənmi, o yaman acgözdü. Dünən iki dovşan, beş kəklik, hətta bir canavar vurmuşdu. Yenə də gözləri doymurdu. Sizi itirəndən sonra bir ağac kölgəsində oturub xeyli fikrə getdi. Öz-özünə deyirdi:

—Axı hara getdi bu!

Doğrusu mən də sizi görürdüm. Amma sahibimin acığına demədim. Əlində ixtiyarı olsa bütün heyvanları öldürər.

Dovşan kölgəsi ilə tülkü kölgəsi kolun dibindən çıxıb salam verdilər.

—Bağışlayın ki, söhbətinizə gizlincə qulaq asdıq. Bilirik ki, bu pis şeydir. Amma qorxduq ki, birdən pis kölgə olarsınız. Amma görürük ki, ürəyi yumşaq kölgələrsiniz. — deyə dovşan kölgəsi üyüdüb tökdü. Tülkü kölgəsi dedi: — Qardaş, bəlkə yadında qalmış ola, iki gün əvvəl bir tülkü qovurdunuz?

—Lap yaxşı yadımdadı, şabalıd rəngli tülkü idi, amma quyruğu açıq sarıya çalırdı.

—Ozüdür ki, var — deyə tülkü kölgəsi sevincək dilləndi. Mən bax həmin tülkünün kölgəsiyəm. Sahibim gördü

ki, budu sinə-sinə gəlirsiniz. Mənə dedi: "İndi gör bunların başına nə oyun açacağam". Gizləndiyimiz kolun başına üç dəfə dolandıq. Sonra qonşu kolun da başına üç dəfə dolandıq. Soruşdum ki, neynirsən, bu saat çatıb dərini boğazından çıxaracaqlar. O mənə göz vurub dedi: "Mənim dərim o qədər ucuz deyil ki, hər yetən ovçu çıxarıb aparsın". Sonra lap sakit addımlarla gedirdi. Hərdən quyruğunu arxasınca sürüyürdü ki, ləpirlərini pozsun. Nəhayət, gəlib hündür bir yerdə gizləndik. Biz sizi lap aydınca görürdük. Amma siz bizi görə bilməzdiniz.

Gördük ki, budur ha, sizin tula kolların başına fırlanmağa başlayır. Biz uğunub getmişdik. Sahibim dedi: "Bilirsən it niyə kolun başına elə fırlanır?" Dedim ki, yox, hardan bilim. Dedi "Mən izlərimi elə qarışdırmışam ki, it onun sonra hansı tərəfə getdiyini tapa bilməsin. Görürsən necə fırlanır, elə bil fırfıradır". Axırda ovçu təngə gəlib başqa tərəfə getdi. O gün ay gülmüşük ha. Ovçu kölgəsi dedi:

—Əcəb eləmisiniz. Di gəlin qaçdı-tutdu oynayaq. Doğrusu mən sizi qovmaqdan yorulmuşam. Gəlin indi də siz məni qovun.

Onlar ovçu kölgəsini qovmağa başladılar. Birdən kolların arasından nəhəng bir heyvan sıçrayıb çıxdı.

Baxdılar ki, xallı pələngin kölgəsidir. Dişlərini qıcırtmışdı. Tükləri biz-biz durmuşdu. Hamı başa düşdü ki, pələng bərk hirslidir. O, ovçu kölgəsinin qabağını kəsib dedi: — Əlimdən qurtara bilməzsən. Beş gündür ki, sənin sahibin canımızı boğazımıza yığıb. Əslində mənim sahibim ovçudan-zaddan qorxan deyil. Onun dişləri xəncər kimi itidir. Görürsən? — Pələng kölgəsi bu sözləri deyib dişlərini göstərdi. Doğrudan da dişləri adamı vahiməyə salırdı.

—Ancaq məsələ burasındadır ki, sənin sahibinin tüfəngi var, bizi qorxudan budur. Ağzında tüfəng deyirsən. Bir dəfə buumbb elədi hər şey qurtardı.

—Elədir — deyə dovşan tələsik təsdiq etdi. Gözümün qabağında bir dovşanı vurub sərdi yerə.

Pələng kölgəsi heç dovşan kölgəsinin söhbətinə qulaq da asmadı. Dedi:

—İndi sahibimin qisasını səndən alaram. Pələng kölgəsi ovçu kölgəsinin üstünə tullandı, Ona bir pəncə ilişdirdi. Pəncəsi yerdə nəyəsə dəydi. Axı kölgələr cansız olur. Pələng kölgəsi nə qədər əlləşdisə ovçu kölgəsinə heç toxuna da bilmədi. Axırda yorulub əldən düşdü. Ovçu kölgəsi dedi:

—Sən nahaq özünü yorursan. Bundan bir şey çıxmaz. O ki, qaldı sahibimin işlərinə, mən onu sevmirəm, vəssalam. Elə bil hamı yatmışdı birdən oyandı. Ceyran, tülkü və dovşan kölgələri bir ağızdan dedilər:

—O yaxşı kölgədir. Lap yaxşı. Nə təqsiri var ki, gedib ovçu kölgəsi olub. Axı biz öz başımıza deyilik! Pələng kölgəsinin hirsi soyudu.

—Yaxşı, gəlin onda oynayaq. Hələ səhərə çox var. Qoy sabah üzümüzə xoşluqla açılsın.

Onlar oynamağa başladılar. Meşəyə bir səs-küy düşdü ki, gəl görəsən.

YEYİMCİLLƏR ÖLKƏSİ

ir dəfə Biləndər yeyimcillər ölkəsinə gedib çıxır. Buranın necə ölkə olduğunu təsəvvür etməkdən ötrü gərək mən səndən bir şey soruşam. Məsələn, sən gündə neçə dəfə yeyirsən? Özündən olsa üç dəfə, ancaq anan məcbur edir ki, dörd dəfə yeyəsən.

Ancaq yeyimcillər ölkəsində cəmi üçcə dəfə yemirlər. Biz yeməyə oturanda onlar yeməkdən tənəffüsə çıxırlar. Biləndər baxıb gördü ki, burada yemək elə işləmək kimi bir şeydi. Az yeyənləri bu ölkədən o saat çıxarırlar. Buna görə ölkənin əhalisi ildən-ilə azalır.Bu ölkənin də işgüzar adamları var. Gündə ən çox yeyən adam bu ölkənin ən qabaqcıl adamı sayılır. Əgər o yeyəndən sonra yarım saat fısıldaya bilirsə, deməli işgüzar adamdı.

Bu ölkədə padşah ən yoğun adamdı. Ağırlığı beş yüz səksən üç kilo iki yüz əlli qramdı. Onu xüsusi maşın gəzdirir. Bir özün fıkirləş bu adam adi maşınlara necə sığışa bilər ki? Bir dəfə hər yana xəbər göndərir ki, kimin çəkisi 300 kilodan az olsa iki aylıq həbs cəzasına məhkum ediləcək. Sən demə bu ölkənin həbs düşərgələri də adi ölkələrinkindən fərqlənirmiş. Məsələn, həmin ölkədə adama cəza vermək onu daha çox yeməyə məcbur etmək imiş. Buna görə də adamlar gündəlik yeməklərini səliqə ilə yeyir gecə-gündüz çalışırdılar ki, çəkiləri aşağı düşməsin.

Amma bir məsələ də var ki, heç kəsin padşahdan kök olmağa ixtiyarı yox idi. Padşah belə adamları ədalətlə güllələdirdi. Bu doğrudan da ədalətli qanun idi.

Bu ölkənin adamlarının ən çox əziyyət çəkdikləri şey çarpayı cırıltısı idi. Kök adamların ağırlığına dözməyən çarpayılar başlayırdı gecə nəğməsini oxumağa. Aydın məsələdir ki, çarpayıların içində biri daha zil səslə oxuyurdu. Bu padşahın çarpayısı idi. Gecə nəğmələri hamının zəhləsini

töksə də səhər adamlar dişlərini ağarda-ağarda padşaha deyirdilər:

Sizin çarpayının səsi bülbül cəhcəhindən də ləzzətlidir. Belə bir çarpayı ancaq sizə layiqdir.

Padşah isə bu tərifdən xoşlanıb daha iştahla yeyir, kökəlmək üçün xüsusi adamlar tərəfindən qulluq görürdü.

Şəhərə gecə nabələd adam gəlsəydi yəqin ki, qulaqlarına inanmazdı. Çarpayıların yeknəsək səsinə adamların dəhşətli fısıltısı qarışırdı. Bu fısıltılar növbənöv idi. Elə bil ki, onlar fısıldamaq yarışına çıxmışdılar. Eləsi vardı ki, qəfildən deşilən maşın təkəri kimi "fıss" edirdi. Bəzisi isə daha incə səs çıxardırdı. Adi çöl donuzları kimi xoruldayırdı. Əlbəttə it kimi hürən, pişik kimi miyoldayanları qətiyyən nəzərə almıram. Çünki onların xorultusu incə xorultuların yanında bir qədər kobud görünürdü.

Bir dəfə bu ölkədə qəribə bir hadisə oldu. Padşah o qədər yedi ki, qarnı partladı. Partladı deyəndə ki, əvvəl heç kəs nə baş verdiyini bilmədi. Sadəcə olaraq bərkdən nəsə "gomb" elədi. Sonra ətrafa tam sakitlik çökdü. Ölkənin adamları bir an yeməklərini yarıda qoyub fıkirləşdilər ki, yəqin təzə silahlar sınaqdan keçirilir. Axı mən tamam yadımdan çıxartdım sizə deyim ki, bu ölkə silah sarıdan həmişə qabaqda gedirdi. Yəqin fıkirləşirsən ki, bu adamların yeməkdən nə vaxt başı açılırdı ki, hələ bir silah da istehsal etsinlər. Məsələ burasında idi ki, yaxınlıqda az yeyənlər və çox düşünənlər ölkəsi var idi. Onlar o qədər düşünmüşdülər ki, bir də baxıb görmüşdülər ölkəni çox yeyənlər işğal edib.

Az yeyib çox düşünənlər yeyimcillər ölkəsinin tabeliyinə keçmişdir. Az yeyib çox düşünənlər balaca adamlardı. Amma başları demək olar ki, lap yaxşı işləyirdi.

Onlar bütün silahları istehsal edib yeyimcillər ölkəsinə bağışlayırdı. Yeyimcillərin də yeməkdən başları açılan kimi silahları sınaqdan keçirməyə başlayırdılar. Boş vaxtlarında onlar əylənməyi xoşlayırdılar. Bir də görürdün sərçəyə topdan

atəş açdılar. Əlbəttə sərçənin heç tükü də —yerə düşmürdü. Amma ölkənin adamları irəli çıxmış yoğun qarınlarını tutub bir gülürdülər ki, gəl görəsən.

Hə, padşahın qarnının partladığı gün elə bildilər ki, təzə silah sınaqdan keçirilir. Hər kəs ürəyində özünü danladı ki, niyə belə gözəl tədbirdən vaxtında xəbər tutmayıb. Axı belə günlər lap həqiqi bayrama çevrilirdi. Təzə silah böyük bir ərazini yandırır, bu adamlar isə uğunub gedirdilər. O qədər gülürdülər ki, bir də baxırdılar qarınları xeyli əriyib. Belə biabırçılığa isə dözmək olmazdı. Adamlar yenidən yeməyə cumurdular. Kimi qoyunun budunu gəmirir, kimi də boş qazanı başına çəkirdi. Bu gün hamı ürəyində deyinə-deyinə səs gələn tərəfə qaçdı. Bir də baxdılar ki, silah-zad nədi, padşahın qarnı iki partlayıb. Belə vaxtlarda hər yerdə olduğu kimi burada da çox şeylə maraqlanan adamlar tapıldı. Bu adamlar tez padşahın qarnına baxdılar ki, görsünlər onun içində nə var, nə yox.

Bu adamlar sayıb gördülər ki; padşahın qarnında iyirmi iki çolpa, üç yüz otuz bir yumurta, altı kilo qoyun ətinin kababı, üç kilo kartof kababı, on litr çaxır var. Padşah araq içmirdi. Çünki onun fikrincə araq adamı kökəltmir. Əgər kökəlmək istəyirsənsə çaxır iç.

Hamı fəxrlə padşahın partlayan qarnına baxırdı. Əlbəttə belə bir padşahla fəxr etməyinə dəyərdi. Döşünə döyən ən böyük padşah da heç onun yarısı qədər yeyə bilməzdi.

Adamlar padşahlarınm belə şərəfli ölümünü görüb ona heykəl qoymağı qərara aldılar. Ancaq bu məsələ xeyli mübahisəyə səbəb oldu. Heykəllərin ayaqlarının altındakı hissəyə podstament deyirlər, axı. Hə, bax həmin podstamentin üstündə bərk hay-küy düşdü. Heykəltaraş belə bir fikir söylədi ki, mərhum padşaha hansı yeməyi çox sevirdisə ona uyğun da podstament düzəltmək lazımdır. Bax, mübahisə buradan başladı. Biri dedi ki, şahımız balıq kababını dünyada ən çox

sevirdi. Biri quş ətini, bir başqası südlüsıyığı ortalığa atdı. Lakin hamı axırda belə qərara gəldi ki, şahın ən çox sevdiyi şey şərab imiş. Buna görə də onun ayaqlarınm altında çaxır çəlləyinin fıqurunu düzəltdilər. Heykəl gözəl çıxmışdı. Padşah iri qarnını irəli verib gözünü uzaqlara zilləmişdi. Bu, heykəltaraş dilində o demək idi ki, padşah uzaqgörən adam imiş.

Heykəl quraşdırılıb qurtarandan sonra adamlar özlərini ona oxşatmağa çalışdılar. Hamı istəyirdi onun haqqında desinlər ki, yaman uzaqgörən adamdı. Amma bu iş çox böyük çətinlik törədirdi, çünki belə qarınlarla şax dayanıb uzaqlara baxmaq olmurdu. Belə adamlar ancaq gərək yeriyəndə ulduzlara baxaydılar. Buna görə də, tezliklə padşahın heykəli unuduldu və adamlar özlərinə təzə padşah seçmək haqqında düşündülər.

Amma heç kəsin ağlına gəlməyən bir iş oldu. Az yeyib çox düşünənlərin biri necə oldusa gəlib bu ölkənin padşahı seçildi. Seçildi deyəndə ki, seçilmədi, elə özü gecələrin birində keçib oturdu padşahın stolunda və başladı fərmanlar verməyə.

Lap tezliklə köhnə padşahın əmrlərindən əsər-əlamət qalmadı. Təzə padşah fərman verdi ki, hamı işləməlidir.

İşləməyənə yemək verilməyəcək. Yeyimcillər ölkəsinin adamları əvvəl bir şey başa düşmədilər:

—Məgər biz işləmirik, bəs nə edirik?! Səhərdən axşama kimi ağzımız işləyir. Hələ qaşıq və çəngəl tutan əllərimizi demirik.

Bilirsən, — deyə onlardan bir başqası dilləndi. —Bizim padşah demək istəyir ki, balaca adamlar kimi axşamadək tarlalarda günün altında yanmalıyıq. Ağılsızlıqdır!

—Mən buna ağılsızlıq yox, ədalətsizlik deyirəm.

Əlbəttə, doğrudan da ədalətsizlik idi. Axı bu adamların yeməkdən başqa əllərindən bir iş gəlmirdi. Amma balacaboy

padşah sözünün üstündə bərk dayandı və bir də baxıb gördülər ki, adamların qarnı yavaş—yavaş əriməyə başlayır.

—Başa düşdüm. Padşahımız bizi öz gününə salmaq istəyir, — deyə həmişə şahın verdiyi fərmanların əleyhinə danışan adam yoldaşının qulağına pıçıldadı. Onu da deyim ki, köhnə padşahdan sonra ölkənin ən bədheybət adamı o idi. Çəkisi də beş yüz kilonu çoxdan keçmişdi. Əslində köhnə padşahın vaxtında bir az ehtiyatla yeyirdi ki, onu ötüb keçməsin. Amma indi daha heç kəsdən qorxusu yox idi. Balaca padşahın gözündən yayınıb özünü verirdi gizli bir yerə və gündə yalan olmasın bir dananı ötürürdü içəri.

Bir məsələ də var ki, bu adamın tərəfdarları da az deyildi. Onlar gizlincə çoxyeyənin evinə yığışır, onun yeməyinə tamaşa etməklə keçmiş günlərini yana-yana yad edirdilər. Əslində buna gizli təşkilat da demək olardı. Padşahın fərmanının əleyhinə gedən belə məclisə daha nə ad vermək olardı? Bir dəfə bu adam mərc gəldi ki, quzunu diri-diri uda bilər. Camaatın heyrətdən az qaldı gözləri pırtlayıb çıxsın Axı hələ ömründə belə bir qəhrəmanlıq göstərən olmamışdı. Hamı yığışdı. On kiloluq bir quzunu ortalığa gətirdilər. Bu adam əvvəl qollarını çirmələdi. Ağzını geniş açdı və quzunun başını ağzına soxdu. Quzunun qabaq ayaqları və başı ortasına kimi onun ağzına getdi. Qabaq ayaqlar onun mədəsinə çatanda camaat gördü ki, yox, quzu kişinin boğazında qalıb. Nə o tərəfə gedir, nə də bu tərəfə. Əl-ayağa düşdülər. Nə qədər dartdılarsa, quzunu onun boğazından çıxara bilmədilər. Quzu yazıq kişinin boğazında qalıb onu öldürdü. Heyf bu adama. Qalsaydı bəlkə də gələcəkdə padşah ola bilərdi.

Deyirlər ki, balaca adam hələ də o ölkədə padşahlıq edir.

KRALIN KRESLOSU

Bu skamyalar hara gedirdi belə, bilən yox idi?! Təkcə onu bilirdilər ki, ayaqlarını enli qoya-qoya tələsik sahil parkına tərəf addımlayırdılar. Heç kəs sıranı pozub qabağa keçmək istəmirdi. Söykənəcəksiz skamyalar daha təvazökar görünürdülər. Onlar yolun qırağı ilə bir-birinin arxasından yapışıb gedir, gözlərini qabaqdan çəkmirdilər. Bir də gördülər ki, budur ha, arxa söykənəcəyi sarılı-qırmızılı rənglərlə bəzənmiş mavi skamya sürətlə onların yanından keçdi. Söykənəcəksiz skamyalardan biri başını bulayıb narazı-narazı dilləndi:

—Heç böyük-kiçik tanıyan yoxdur. Hər kəs nə bilirsə onu da edir.

Amma bu qocanın sözlərinə məhəl qoyan olmadı. Elə bil heç nə olmamışdı.

Bir azdan lap dəhşətli hadisələr baş verdi. Söykənəcəkli skamyalar sürətlə gəlib elə gedirdilər ki, onların hansı rəngdə olduğunu da ayırd etmək mümkün deyildi. Bayaqkı qoca yenə də nəsə vacib bir söz üçün ağzını doldurmuşdu ki, qulağının dibində bir vıyıltı eşitdi. Baxıb gördülər ki, dəyirmi bir kreslo ildırım kimi şütüyüb keçdi. Onun söykənəcəyi deyəsən qızıldan idi. Qızıldan olmasa da hər halda adi metal deyildi. Çünki günəşin şüası altında par-par parıldayırdı.

Söykənəcəksiz skamyalar içlərini çəkib onun arxasınca baxdılar. Kreslonun bütün skamyaları necə keçib getdiyinə və bircə andan sonra görünməz olduğuna baxıb köks ötürdülər. Qoca susub yerə baxa-baxa yavaş-yavaş irəliləyirdi. Dırnağı ilə yola düşən balaca daşları vurub bir tərəfə atırdı.

—Ay qardaşlar, hara belə? — deyə kimsə necə həyəcanla soruşdusa qoca skamya fikirdən ayıldı. Baxıb gördü ki, bu, köhnə bir ayaqaltıdır. Tikintidə ayaq altına qoyub üstünə o qədər çıxmışdılar ki, ayaqları tamam sıradan çıxmışdı. Qoltuqağacına söykənib güclə yeriyən ayaqaltı qoca skamyanın yanı ilə addımlaya-addımlaya sualına cavab gözləyirdi. Onsuz da əsəbiləşən qoca skamya dedi:

—Eşitməmisən, kral dəniz sahilinə gəzməyə çıxıb?

—Lap kralın özü? — deyə Ayaqaltı nəfəsi tıncıxa-tıncıxa soruşdu.

Qoca qaşqabağını sallamışdı. Ayaqaltının çərənçiliyi onun heç xoşuna gəlmirdi.

—Yaxşı, bir deyin görüm, axı nə üçün bu kralın görüşünə ancaq skamyalar gedir, hə. Yox də, hər halda biz də bilsək dünya dağılmaz ki?!

—Ay axmaq, — deyə yaşılpaltar, söykənəcəksiz skamya dilləndi. — Əgər onun görüşünə yalnız skamyalar və kreslolar tələsirsə, — burada başa düşülməməli nə var? Deməli bizim hər birimiz ona öz sədaqətimizi göstərməyə tələsirik. Kral bizim hansı birimizin üstündə oturası olsa heç bilirsənmi nə olar?

Ayaqaltı key-key gözlərini döyüb baxırdı. Onun, duruşundan başa düşmək olardı ki, bu suala cavab verməkdə acizdir. Yaşılpaltar söykənəcəksiz skamya dedi:

—O bizim hansımızın üstündə otursa başqa skamya və kreslolar paxıllıqdan öləcək, anladın?! Üstəlik həmin skamya skamyaların başçısı olacaq. Bundan sonra dünyada yaşamağına dəyər. İstəyirsən parkda otur, istəyirsən lap gedib kralın öz sarayında əyləş, bu, sənin öz işindir. Hamı sənə baş əyib təzim edəcək:

—Budur bax, — deyəcəklər, — kralın kreslosu bu cənabdır.

Ayaqaltı bir istədi ağzını doldurub desin ki, «axı biz ki, kreslo deyilik. Heç sizin özünüzü də kreslo saymaq olmaz. Kreslo olmaq xoşbəxtliyi məgər hər adama nəsib olur?» Amma bu sözləri demədi. Bu saat özlərinin kreslo olmadığını yada salmaq elə sən deyən ağıllı bir iş olmazdı. Dodaqaltı bu sözləri mızıldandı:

—Bu kral deyilən şəxs yəni doğrudan oturmağı bu qədər sevir? Birdən o sahildə gəzdi, gəzdi sonra da çıxıb getdi işinin dalınca. Onda bu qədər yolu getməyin nə xeyri oldu?

Yaşılpaltar söykənəcəksiz skamya dedi:

—Ay ağılsız, hələ indiyəcən bilmirsən ki, bizim kralın hər iki ayağı yoxdur?

Yaşılpaltarın sözü ağzında qaldı. Bir də gördülər ki, küçə fənərləri diyirlənə-diyirlənə onların yanından ötdülər. Onlar yerə diqqətlə baxırdılar ki, heç olmasa əzilməsinlər. Nə qədər diqqətcil olsalar da hər halda əzilirdilər. Əzilənlər elə yoldaca qalırdı. Onları yerdən götürüb kənara atan da olmurdu.

—Bəs bunlar hara tələsir? — deyə Ayaqaltı yenə də soruşdu.

Yaşılpaltar dedi:

—Eh, sənin dünyadan xəbərin yox imiş ki? Elə ancaq ayaqlar altında qalıb işləməkdən başqa bir şey bilmirsən. Axı bizim kralın gözləri də kordur.

Ayaqaltı çaşıb qalmışdı. Yaxşı, tutaq ki, kralın gözləri kordur. Belə isə onda fənər onun nəyinə lazımdır?

—O, istədiyi fənəri əlinə alıb gedəcək. Əlində fənər olsa heç kəs kralla toqquşmaz. İndi bildin, fənər onun nəyinə lazımdır?

Ayaqaltı xeyli fikirləşib dedi:

—Bir halda ki, belədir onda nə üçün bu qədər ayaqlılar və gözlülər bu şikəstin qabağına yüyürür?

Yox, daha lap ağ oldu. Ayaqaltı ilə danışmağına dəyməzdi. Belə çərənçi olduğuna görə onu dəstəyə qoymadılar.

Axırı ki gəlib dənizin sahilinə çatdılar. Burada skamya, kreslo, stol və stul əlindən tərpənmək mümkün deyildi. Bir neçə yaylı çarpayı lap ləpədöyənə kimi soxulmuşdu.

Fənərlər, lampalar, cürbəcür rəngli işıqlar hara gəldi səpələnmişdilər. Birdən basabas düşdü. Sahildəkilər bir-birini çimdiklədi, ayaqlar tapdalandı, hətta bir neçə başa qapaz da dəydi. Bunlar hamısı o demək idi ki, kral gəlir.

Kral cəmi bir neçə addım atıb yanındakı oturacaqda əyləşmək istədi. Daha doğrusu əli ilə onu tutub altına tərəf sürüdü. Sahildəkilərin hamısı içini çəkib durmuşdu. Onlar gözlərini dəhşətlə açıb baxır və heç nə başa düşmürdülər. Axı kralın can—dildən öz altına sürütləmək istədiyi oturacaq bayaqkı Ayaqaltı idi. Kral onun üstündə oturanda Ayaqaltı cırıldadı. Krala elə gəldi ki, onun kreslosu nəğmə oxuyur. Buna görə də dodaqaltı gülümsündü və özünü dartıb lap rahat oturdu.

Bəli, bir dəfə bədbəxt bir Ayaqaltının bəxti beləcə gətirdi. Amma bilmirəm bu əhvalat olub, ya yox...

TƏRSİNƏ TİKİLMİŞ EVDƏ YAŞAYAN NAĞILÇI

elə də biabırçılıq olar? Hansı mühəndisinsə ağlına gəlib ki, bir evi tərsinə tiksin. Bu, çox qəribə bir evdi. Binanın özülü yerin üstündə, qalan mərtəbələri isə yerin altında idi. Biz adətən düzünə tikilən evlərin ən hündür mərtəbəsini xoşlayırıq. Axı, oradan baxanda hər yeri görmək mümkündür. Amma tərsinə tikilən evdə hamı birinci mərtəbəni xoşlayırdı. Çünki birinci mərtəbə yerin səthinə bir az yaxın idi. Aydın məsələdir ki, bu evdə adamlar başı üstə gəzirdilər.

Bu qəribə evin on altıncı mərtəbəsində qoca bir nağılçı yaşayırdı. Ona bu otağı verəndə demişdilər:

—Sənə ən axırıncı mərtəbəni veririk. Əlbəttə lift işləyir. Oradan baxanda dünya ovcunun içində olacaq.

Qoca nağılçı sevinmişdi ki, buradan baxıb uşaqları görəcək və onlar üçün məzəli nağıllar uyduracaq. Amma evin tərsinə tikildiyini görəndən sonra qoca nağılçının az qalmışdı qanı qaralsın. Orasını da deyim ki, bu adam ən ağlamalı vəziyyətdə belə gülməyə bir şey tapırdı. İndi evin tərsinə tikildiyini görüb dedi:

—Bu evi tikdirən mühəndis görünür həmişə ayaq-qabılarını tərsinə geyinərmiş.

Adamlar xeyli güləndən sonra mühəndisin anasını tapıb soruşdular. Ana utana-utana qoca nağılçının sözlərini təsdiq etdi.

Hə, axırıncı mərtəbədə əyləşib nağıllar uydurmağın da ayrı bir ləzzəti var idi. Qoca nağılçı tərsinə tikilən evdə oturduğuna görə onun nağılları da tərsinə idi. Həmin

nağıllardan bir neçəsi təsadüfən mənim əlimə düşdü. Fikirləşdim ki, qoy uşaqlara çatdırım. Onsuz da onlar qoca nağılçının hər şeyi tərsinə yazdığını biləndən sonra əsl həqiqəti yəqin ki, başa düşəcəklər.

Qoca hər nağılın sonunda bir nəsihət verib. Onun nəsihətlərini də tərsinə başa düşün. Məsələn belə: əgər nağılçı yazırsa heyvanları incit, deməli onları sevmək lazımdır. Ya da yazır ki, ağacı sındır, deməli. onu qorumaq gərəkdir. Bax belə.

Mən bu əhvalatı bəlkə də danışmazdım. Axı, heç bir nağılçı istəməz ki, onun uydurduqları kədərli olsun. Amma mən tərsinə tikilmiş evin on altıncı mərtəbəsindən gördüyüm və eşitdiyim bu əhvalatı sizə ona görə danışmaq istəyirəm ki, bəlkə xoşunuza gəldi.

Bizim yeraltı şəhərin məktəblərində aydın işdir ki, uşaqlar başı üstə oturur və dərslərini də əlləri üstə danışırlar. Qiymətləri də tərsinədir. Yaxşı oxuyanlar iki, pis oxuyanlar isə beş alır. Burada təəccüblü nə var ki, axı bizim məktəblər də tərsinə tikilib. Qonşuluqda Ayxan adlı bir uşaq yaşayır. Sizə deyim ki, dərslərindən həmişə iki alır. Atası onun belə çalışqan olduğunu görüb deyir: — Sənə velosipedli təkər alacağam.

Qaşlarınızı çatıb qətiyyən, təəccüblənməyin. Əgər siz təkərli velosiped sürürsünüzsə gərək başa düşəsiniz ki, bizim həyətdə o heç kimə lazım deyil. Amma velosipedli təkər tamamilə başqa şeydi. Onun təkərlərinin üstündə oturursan, sürüb gedirsən işinin dalınca. İş belə gətirdi ki, Ayxanın atası ona velosipedli təkər alandan sonra onlar evlərini bir az da böyütmək məqsədilə dəyişəsi oldular. İşin tərsliyindən yeni mənzilləri düzünə tikilən evdə oldu və ailə xeyli qəmləndi. Daha qəmlənməyin bir mənası yox idi.

Ayxan təzə mənzildə velosipedli təkərini nə qədər sürmək istədisə bir şey çıxmadı. Buna görə də onu bir tərəfə tullayıb başladı dərslərini oxumağa. Velosipedli təkər hirslənib təqaüdə çıxdı.

Ayxan dərsə getdiyi birinci gün həmin kədərli hadisə baş verdi. Elə müəllim təzəcə içəri girmişdi ki, tələccübdən yerindəcə donub qaldı. Arxa cərgədə bir uşaq əlləri üstə dayanmışdı. Müəllim onun üzünü görmədiyinə görə bilmədi ki, o kimdir.

—Bura bax, —deyə onu səslədi. — İdman dərsi axırıncı saatdı. Sən deyəsən riyaziyyatla idmanı dəyişik salmısan?

Uşaqlar da yalnız bu zaman çevrilib müəllim baxan yerə boylandılar.

Ayxan müəllimin sözünə tələccüblənib dedi:

—Bizim məktəbdə yalnız idman dərslərində ayaq üstə durmağa icazə verilirdi.

Uşaqları gülmək tutdu. Müəllim eynəyinin üstündən Ayxana tələçcüblə baxdı və onun yeni şagird olduğunu indi başa düşdü.

—Sən indiyə qədər hansı məktəbdə oxuyurdun ki? — deyə müəllim soruşdu.

Ayxan isə hələ də əlləri üstə dayanıb mərifətlə cavab verdi:

—Tərsinə tikilmiş evlər şəhərciyində.

Müəllim uşaqların üzünə baxdı ki, görsün onlar belə bir şəhər adı eşidiblərmi. Heç kim dinmədi. Deməli eşitməyiblər. Müəllim hirslə dedi:

—Bəsdir dəcəllik etdin! Yerində adam kimi otur. Ayxan çevrilib uşaqlar kimi skamyada oturdu. Amma belə oturmaq olduqca çətin idi. Amma Ayxan kimi yaxşı şagirdlər belə çətinliklərdən qorxmaz. Buna görə də o, bütün iradəsini toplayıb gözləyirdi. İstəyirdi bir az əllərinin üstündə dursun ki, ayaqları yorğunluğunu çıxsın.

Bu zaman müəllimin cingiltili səsi onu fikirdən ayırdı:

—Dərsi kim bilir?

Hamı əlini qaldırdı. Ayxan isə öz şəhərlərində olduğu kimi ayağını qaldırdı. Uşaqlar yenə pıqqıldaşdılar. Müəllim dedi:

—Təzə şagird gəlsin, görək nə bilir?

Ayxan tez əlləri üstə çevrilib yüngül bir hərəkətlə yazı taxtasının qabağına çıxdı. Uşaqlar onun əlləri üstə bu qədər çevikliklə yeridiyinə heyran qaldılar.. Ayxan elə bil ki, əlləri üstə yox, lap bizim kimi ayaqları ilə yeriyirdi. Müəllim dedi ki, ayağı üstə dursun. Ayxan o saat çevrilib ayağı üstə dayandı. Axı, bədən tərbiyəsindən də həmişə beş alırdı. Amma Ayxan lap azacıq zəhmət sərf etməklə ayaq üstə dayana bilmişdi.

—De görək altını ikiyə vursan neçə edər?

—Üç! — deyə Ayxan o saat cavab verdi. Belə suallar onun üçün lap adi idi.

—Mən bölmək demirəm, vurmaq deyirəm. Ayxan dedi:

—Altını ikiyə vursan üç edər, bölsən on iki.

—Bu necə adamdı, başa düşmürəm? — müəllim hirsləndi.

—Sən hər şeyi tərsinə danışırsan. Yaxşısı budur ki, əyləşəsən.

Həmin gün Ayxan evlərinə çox qanıqara qayıtdı. Bu kədərli əhvalatdan sonra xeyli özünə gələ bilmədi. O, bir şeyi də qətiyyən başa düşmədi ki, müəllim ondan narazı qaldığı halda nə üçün gündəliyinə iki yazdı. Axı, onların məktəbində ikini ancaq əlaçılara yazırdılar.

Siz də dərsi danışmaq üçün ayaqlarınızı qaldırın. Skamyada isə oturmaq ağılsızlıqdır. Yaxşı olar ki, ya skamyanın üstündə oturasınız, ya da onun altına girəsiniz. Müəllimin üstünə çəmkirməkdən yaxşı şey yoxdur. O səndən bir söz soruşur, sən isə deyirsən:

—Əşi, nə var ey! Dərsimi bilmirəm vəssalam. Yaz ikimi qurtardı getdi.

Hə, məktəbə gedəndə üst-başınıza bir az palçıq sürtməyi də unutmayın. .

Bax, buna deyərəm görünməmiş əhvalat. Yəqin ki, çoxunuz ona inanmayacaqsınız. Öz işinizdir. Mən həmin

əhvalatı eşidən kimi doyunca güldüm və Rəşadın özü də işin nə yerdə olduğunu başa düşüb mənə qoşuldu. Doyunca güldük. Sonra məlum oldu ki, Rəşad lap nahaq gülür. O bir dəqiqə də vaxtı itirmədən itinin dalına düşüb onu tapmalıdır.

Əhvalat belə olmuşdu. Rəşadın köynəyinin yaxasına tikilən küçük Ayselin köynəyinin yaxasına tikilən dovşandan qorxub qaçmağa başladı. Aysel sevincək qışqırdı:

—Siz işə bir baxın! Küçüyün bu qədər qorxaq olduğunu ömrümdə görməmişəm.

Rəşad dovşanın qorxusundan nəfəsi tutula-tutula qaçan küçüyünə baxıb bərkdən ağladı. Elə ağladı ki, camaat əvvəlcə elə bildi ki, yəqin uşaq gülür. Sonra onun hönkürtü ilə ağladığını görüb birtəhər sakitləşdirdilər. Uşaqlar dovşanla itin hara qaçdığını bilmədikləri üçün kolların dibini axtarmağa başladılar. Amma bir şey çıxmadı. Axşam ikisi də doyunca ağlayıb yatdılar. Aysel səhər köynəyini geyinəndə gördü ki, dovşanı əvvəlki yerində dayanıb, gözləri yenə də bic-bic gülür, qulaqlarını isə dik tutub ki, küçüyün yerini bilən kimi onu yenə də qovsun. Fikirləşdi ki, neyləsin. Anası ona südlü sıyıq yedirdəndə qəsdən bir az üstünə dağıtdı ki, qoy dovşan da yesin. Yazıq dünəndən küçüyü o qədər qovub ki, yemək tamam yaddan çıxıb. Gözaltı üstünə tökülən sıyığa və südün açdığı ağ cığıra baxıb sevinirdi. Axı, dovşanı doyunca sıyıq yeyəcəkdi.

Rəşad da səhər duran kimi gördü ki, küçüyü əvvəlki yerindədir. Yenə də dilini çölə çıxarıb ləhləyir. Amma Rəşadın qətiyyən ağlına gəlmədi ki, sıyıq yeyəndə bir az üstünə dağıtsın ki, küçük də yesin. Buna görə də Rəşad günorta yatanda küçük yavaşca sürüşüb onun köynəyindən düşdü və qaçıb meşəyə getdi.

Ayselin anası hər gün onu danlayır ki, pintidir. Yeməyini üstünə tökür, hətta görün iş nə yerə çatıb ki, təmizkarlıqda Rəşadı misal gətirir. Axı, böyüklər haradan bilsinlər ki, hətta uşaqların üstündəki heyvanlar da nəsə yemək istəyirlər. Ona görə də məsləhətim budur ki, bir şey yeyəndə

hökmən üstünüzə dağıdın. Böyüklərin hirslənməsini isə qətiyyən vecinizə almayın.

Əgər ananız sizi yedirtməyə gəlirsə əvvəlcə bərkdən qışqırın. Görsəniz ki, sizin səsinizə hay verən yoxdur, onda elə bir qıyya çəkin ki, qonşular da eşitsin. Çay içəndə ağzınızı doldurub hara gəldi pufuldadın. Ağzınıza doldurduğunuz xörəyi bərk üfürün. Əgər yaxınlığınızda oturanların üstünü də ləkələyə bilsəniz, olar əla. Yox, bunları edə bilməsəniz, barı, xörək qabını ağzı üstə çevirin.

Bu Div uşaqlardan bərk qorxurdu. İşin tərsliyindən də uşaqlar hər gecə gəlib girirdilər onun yuxusuna. Div nəfəsi kəsilənə qədər qaçırdı. Uşaqlar ona-çathaçatda elə qışqırırdı ki, öz səsinə ayılırdı. Amma xeyli müddət özünə gələ bilmirdi. Zarafat deyil uşaqlar az qalmışdı ki, onu tutsun.

O xeyli fikirləşdi. Axırda belə qərara gəldi ki, gedib uşaqların yuxusuna girsin. Heç olmazsa onlardan intiqamını alsın. Axı, bu Div yuxulara gedən qapıları tanıyırdı. Gecə yuxunun ən şirin yerində bir yuxunun qapısını yavaşca açıb içəri girdi. Yuxunu görən uşaq qorxmaq əvəzinə elə sevinclə onun üstünə qaçmağa başladı ki, Div bilmədi neyləsin. Daha yuxudan da çıxmaq olmazdı. Yuxunun qapıları bağlanmışdı. Divin oradan çıxması üçün bircə yol var idi. Gərək oğlan yuxudan ayılaydı. Div oğlanın onun üstünə gəldiyini görüb bir az qaçdı. Amma elə kök idi ki, oğlan bir-iki sıçrayışla onu tutdu, elə o saat da boynuna tullandı. Div dedi:

—Səndən bir xahişim var. Heç olmazsa məni qıdıqlama. Dünyada ondan zəhləm gedən şey yoxdu.

Oğlana da elə bu lazım idi. Divin yastı boynunu qıdıqlamağa başladı. Div götürüldü. Elə bil dalınca bir qoşun düşmüşdü. Oğlan isə şaqqanaq çəkib gülürdü. Div qaça-qaça fikirləşirdi: «Gərək bunu o qədər güldürəm ki, bəlkə öz səsinə yuxudan ayıla. Yoxsa bu uşaq məni öldürəcək».

Div həm qaçır, həm də şıllaq atırdı. O, şıllaq atdıqca uşaq uğunub gedirdi. Oğlan birdən neçə şaqqanaq çəkdisə o saat yuxudan ayıldı.

Elə həmin vaxtdan Div özünə söz verib ki, bir də uşaqların yuxusuna girməsin. Doğrudur, hərdən sözünə əməl etmir, uşaqların yuxusuna girir. Amma bu çox nadir hallarda olur.

Əgər sizin yuxunuza Div girsə ondan qorxub eləməyin. İşdi, birdən elə-belə Divə, ya da elə başqa bir heyvana rast gəlsəniz, əvvəlcə ona daş atın. Görsəniz ki, qətiyyən vecinə almır, ağacların budaqlarını sındırıb cumur onun üstünə. Yaxşı olar ki, bərkdən bağırasınız. Yoxsa sizin qəhrəmanlığınızı kim eşidəcək? Həmin heyvanı möhkəm döyəndən sonra özünüz bilərsiniz, istəsəniz buraxarsınız, istəməsəniz bir az da döyərsiniz. Heyvanları nə qədər çox incitsəniz o qədər yaxşıdır.

Bəlkə də Orxanı tanımırsan. Səhər evdən çıxanda əl-ayağı, hətta burnu da yerində olur. Di gəl ki, axşam qayıdanda hər şeyini itirib gəlir.

—Əzizim, — deyə ana onu sığallayır. — Ayaqlarını neyləmisən?

—Ayaqlarımı? Hə, ayaqlarımı qaçış yarışına göndərmişəm. Əgər yüz metri on saniyəyə qaça bilsələr mən dünya çempionu olacağam.

Ana isə inanır ki, onun ayaqları yüz metri lap bir saniyəyə də qaça bilər, buna görə də oğlunu qucaqlayıb öpür və təbrik edir:

—Mənim çempion oğlum! — deyə ona fəxrlə baxır. — Yaxşı, bəs deyə bilməzsənmi əllərin harada qalıb, hə? Bəlkə onları da güləş yarışına göndərmisən. Pis fikir deyil. Eyni vaxtda idmanın iki növü üzrə çempion olmaq sənə zarafat gəlməsin!

—Yox, ana, əllərimi sinifdə qoyub gəlmişəm. Həm yazı taxtasını təmizləyəcək, həm də divar qəzeti vurmaqda uşaqlara kömək edəcək.

Ana gözlərini yumub sevinclə gülümsünür:

—Afərin! Həmişə belə ictimaiyyətçi ol. Hə, axı, heç demədin qulaqlarını neyləmisən? Sənin qulaqlarını mən bir verstlikdən tanıyıram. Demək olar ki, bütün uşaqlarınkından iridir. Belə bir qulaqla dovşan da olmaq mümkün idi.

—Qulaqlarımı sinifdə qoymuşam. Axı, bu saat ədəbiyyat dərsidir. Gərək diqqətlə qulaq asam ki, sonra dərsi hazırlayanda çətin olmasın.

—Lap yaxşı. Ala, dəsmalını yumuşam. Baho, sənin burnuv da yerində deyil ki...

—Hə, burnumu qızların çantasında qoymuşam. Yəqin ki, kim tapsa sabah hökmən gətirər.

—Bax, bu huşsuzluq oldu. Sən heç olmasa onu kimin portfelinə soxduğunu biləydin. Di gəl xörəyini ye. Başım söhbətə qarışıb səni ayaq üstə saxlamışam.

—Anacan, — deyə Orxan gülümsünür. — Ağzım uşaqlarla söhbətə qarışıb. Uzaqda deyil, bu saat velosipedimlə gedib gətirərəm.

Hə, Orxanın velosipedi haqqında danışmağı unutdum. Velosipedin isə həmişə bütün hissələri yerində olurdu. Orxan əl-ayağını itirən kimi, velosiped əl-ayağa düşürdü. Bütün evləri, qonşuları dost-tanışları bir-birinə vururdu. Axşamüstü Orxanın hər şeyi yerində olurdu. Bu əhvalat səhər yenə də təkrar edilirdi. Amma heç kəs qətiyyən narahat olmurdu. Çünki Orxanın bütün hissələri yerində olan sədaqətli velosipedi var idi.

Bir yoxlayın görün sizin də əl-ayağınız yerindədirmi? Birdən unudub məktəbdə qoyarsınız ha!

Məktəbdən qayıdanda şeylərini yığışdırmağı qətiyyən yadına salma. Sənin yerində olsam elə çantamı kitab-dəftərlərlə birlikdə məktəbdə qoyub gələrəm və ata-anamın üstünə düşərəm ki, hər gün təzəsini alsın. Təzə kitab-dəftərin ayrı ləzzəti var. İşdi, pencəyini və ayaqqabılarını da məktəbdə

qoysan onda sənlə danışmağa dəyər. Ata-ananızdan isə qətiyyən qorxub-eləməyin, Bir az danışıb-danışıb yorulacaqlar. Uzaq-başı ananız ürəyini tutub:

—Valakardin! — deyə qışqıracaq. Valakardin ürək dərmanıdır. Deməli ananızın ürəyi ağrıyacaq.

Atanız isə yəqin ki, əlləri titrəyə-titrəyə bir papiros yandırıb otaqda var-gəl edəcək. Vəssalam.

«ATALAR SÖZÜ» ŞƏHƏRİ

ir dəfə Biləndər «Atalar sözü» şəhərinə gedib çıxdı. Yüz dəfə ölçülüb bir dəfə biçildiyinə görə bu şəhərin küçələri ox kimi dümdüzdü. Evlərin həyətlərindən adamın burnuna təzə bişmiş çörək ətri gəlirdi. Burada çörəyi doğrudan da gözəl bişirirlər. Axı, onlar çörəyi çörəkçiyə verirlər. Buradakı adamların cavanı da, yaşlısı da demək olar ki, eyni ağıldadı. Hamı bir-birinə diqqətlə qulaq asır və bir sözü qəti yaddan çıxarmırlar: ağıl yaşda deyil, başdadı.

Biləndər baxıb gördü ki, bu şəhərin qızları bir-birindən qəşəng don geyinib küçələrə çıxır, sanki hər kəs daha yaxşı geyinməyə çalışırdı. Biləndər soruşdu:

—Sizə nə olub belə? Dedilər:

—Gözəllik ondu, doqquzu dondu.

Biləndər fikirləşdi ki, deyəsən bunlar doğru deyirlər. Bu şəhərin adamları elə bil ki, hər kəsə əvvəlcədən cavab hazırlamışdılar. Biləndər, şəhərdən çıxmaq istəyirdi ki, qəribə bir adamla qarşılaşdı. Yayın ortası olmasına baxmayaraq bu adam ayaqlarına uzunboğaz çəkmə, əyninə çoxlu paltar geyinmişdi. Əlindəki enli qara çətiri başına tutub tər tökə-tökə gedirdi.

—Bağışlayın, — Biləndər onu dayandırdı. — Siz də bu şəhərdənsiniz?

Kişi açıq-aydın eşitdiyi bu suala xeyli fikirləşib cavab verdi:

—Bəli, — onun səsində bir ehtiyatlılıq duyulurdu. Elə bil nədənsə çox ehtiyat edirdi.

—Sizin adınız nədir?

Həmin adam bu suala təxminən yarım saat cavab axtardı.

Elə güman etməyin ki, adını yadından çıxarmışdı. Xeyr, qətiyyən belə deyildi. Sadəcə olaraq o ehtiyatlı adam idi. Hər halda sözü adam ağzından gərək ehtiyatla çıxarsın. Xeyli fikirləşib dedi:

—Ehtiyat igidin yaraşığıdır.

—Bunu bilirəm, — deyə Biləndər hövsələdən çıxmış halda dilləndi, —sizin adınızı soruşuram.

Bu adam daha qırx beş dəqiqə fikirləşəndən sonra qımıldandı:

—Bu elə mənim adımdı. Bəli, bəli, tamamilə əmin ola bilərsiniz.

Biləndər istədi ona desin ki, axı bu sözü sən qırx beş dəqiqə əvvəl də deyə bilərdin. Daha bu qədər fikirləşməyə nə ehtiyac var. Amma demədi. Bu qəribə adamın atasının adını soruşdu. Bu dəfə ehtiyatlı adam düz bir saat fikirləşməli oldu. Bir saatdan sonra istədi ki, Biləndərin sualına cavab versin, amma susdu və daha on dəqiqə fikirləşməyi də lazım bildi. Axırı ki dilləndi:

—Atamın adı belədir: igidin igiddən ehtiyatı artıqdır. Amma çoxdan xəstədir və sağalmağına baxmayaraq açıq havaya çıxmağa hələ də ehtiyat edir. Olduqca ağıllıdır.

Ehtiyatlı adam gözlənilmədən dil açmışdı. Atasını bir həvəslə tərifləyirdi ki.

—Mənim atam, — deyirdi, — yayda çimməyə gedəndə əvvəl paltosunu götürür. Onun fikrincə çimərlik üçün su paltarından da vacib paltodur.

—Bura bax, deyəsən məni qərib görüb xamlayırsan ha! —deyə Biləndər hirsləndi. — Yayın cırhacırında palto adamın nəyinə gərəkdir, hə?

Ehtiyatlı adam bir saat iyirmi iki dəqiqə fikirləşəndən sonra dedi:

—Siz lap nahaq hirslənirsiniz. Eşitməmisiniz ki, deyirlər: yayda evdən çıxanda pencəyini mütləq götür, paltonu özün bilərsən? Belə müdrik bir sözü yaddan çıxarmağa bizim haqqımız yoxdur.

—Yaxşı, heç demədin atan nədən xəstələnib? — deyə Biləndər soruşdu.

Düzdü, başqalarının işinə qarışmaq olmazdı. Amma Biləndər hiss etdi ki, bu qəribə adamın xəstəliyi də qəribə ola bilər.

Biləndər sualını verəndən sonra o saat cavab almayacağını, bilirdi. Buna görə də sual verən kimi ürəyində saymağa başladı. Elə-belə: bir, iki, üç, dörd...

İki min üç yüz iyirmi beşə çatanda ehtiyatlı adam dedi:

—Əslində boş bir şeydən əllərini yandırdı.

—Əllərini yandırdı? — deyə Biləndər həyəcanlandı. Daha bilirsən ki, ehtiyatlı adam Biləndərin suallarına çox gec cavab verir. Təxminən Biləndər iki min üç yüzəcən sayandan sonra o, dillənir. Bundan sonra həmin sözləri yazmayacağam. Özün onun nə qədər darıxdırıcı adam olduğunu təsəvvür etmək istəyirsənsə onun cavabını oxumamışdan qabaq hər dəfə iki min üç yüzəcən say. Onda hər şey sənə aydın olacaq.

—Bəli, — deyə ehtiyatlı adam yavaş-yavaş dilləndi. — Yolla gedirmiş, görür ki, alov yana-yana neft anbarına tərəf gəlir. Əvvəl istəyir ki, səs-küy salıb camaatı oyatsın. Sonra fikirləşir ki, bəlkə heç alov ora gedib çatmayacaq. Daha bu camaata əziyyət verməyin nə mənası var? Beləcə fikirləşib hər ehtimala qarşı dayanıb gözləyir. Birdən «buumb!» — anbar alışır və o, ehtiyatla yerindən tərpənənə qədər alov onu da bürüyür. Yaxşı ki bizim şəhərdə hamının dəli kimi tanıdığı Bəhruz böyürdən çıxıb. Ağıllılar fikirləşənə kimi o vurub arxı keçib və birtəhər yanğını söndürüb. Amma həmin o Bəhruz

şəhərin su quyusuna bir daş atıb, yüz ağıllı fikirləşib onu sudan çıxara bilmir. Bəlkə bu işdə bizə kömək edəsiniz?

Yox, daha buna dözmək mümkün deyildi. Biləndər əllərini ölçə-ölçə danışırdı. Ehtiyatlı adamın sözünə məhəl qoymayıb soruşdu:

—Bəs bu yayın ortasında bu nə paltardı belə geyinmisən, çətirin də ki, paraşütdən böyükdür?!

Ehtiyatlı adam qətiyyən hirslənmədi. Amma Biləndərin sualına cavab vermək üçün əvvəlki kimi xeyli fikirləşdi. Biləndər dözməyib uzun bir fit çaldı. Ehtiyatlı adam isə heç nə olmayıbmış kimi sakitcə dedi:

—Ehtiyat üçün götürmüşəm. Olmadı elə, oldu belə.

Biləndər daha dözə bilməyib bu şəhərdən çıxdı. Ehtiyatlı adam isə hər cür ehtimala qarşı bir az dayanıb gözlədi ki, birdən o yenə qayıdıb nəsə soruşar. Amma Biləndər bir də bu şəhərə qayıtmadı.

Ehtiyatlı adam istədi yüyürüb ona desin ki, nahaq hirslənirsiniz, hirsli başda ağıl olmaz. Amma bu sözu demək üçün iki saat fikirləşdiyinə görə daha Biləndər çıxıb getmişdi.

BOZ YALAN

şaqlar doyunca yalan danışıb qurtardıqdan sonra evlərinə dağılışdılar. Yalanların hamısı küçədə qaldı. Bax həmin o əhvalat da bu zaman baş verdi.

—Getdilər, — deyə yekə bığlarını qulaqlarının dibində həlqələmiş Qaraqabaq Boz yalan heç kəsə baxmadan dilləndi.

—Mən bilirdim ki, insanların vəfası bu qədərdir. Nə qədər ki, onlara lazımsan, səni əzizləyirlər. Elə ki, daha gərəkləri deyilsən, küçəyə atırlar.

Balaca yalanlar körpə quyruqlarını oynadib bu deyingən qocaya baxdılar. Axı burada qeyri-adi bir şey yox idi. Sabah uşaqlar yenə də yığışıb gələcək, doyunca güləcəklər. Lap gün batana qədər onlarla bir yerdə olacaqdılar.

—Siz niyə bu qədər qəzəblisiniz, — deyə balaca Dümağ yalan qocadan soruşdu və deyəsən soruşmağına peşman oldu. Çünki, bu zaman boz yalanın uzun saqqalını necə titrətdiyini gördü. Qoca beləcə xeyli baxıb dilləndi:

—Siz bir buna baxın, bu da özünü yalan yerinə qoyur. Çömçəquyruq! Sənin əsl yalan olmağına hələ çox var.

Dumağ ağ bantını oynadıb daha bir sual verdi:

—Yalanlar nə qədər yaşaya bilər ki?

Qoca saqqalını qaşıyıb, qaşlarını çatdı və dedi:

—Sənin kimilərin ömrü az olur.

—Niyə? – deyə Dümağ həyacanla qışqırdı. Doğrusu o heç ölmək istəmirdi. Uşaqların yanında günü olduğca xoş idi.

—Sən geyiminə baxsan yaxşı olar. Sualının cavabını da özün taparsan.

Qız ağ quyruğuna, ondan da ağ bədəninə baxdı. Yoldaşları da qar kimi şölələnirdi.

—Çünki siz ağ yalanlarsınız. Belələrini yaxşı tanıyıram. Dünən Fərid anasının qızıl saatını qoluna taxıb, güzgüdə özünə baxırdı. Anası isə işə tələsdiyi üçün ora—bura vurnuxur, saatını tapmırdı ki, tapmırdı.

—Fərid, mənim saatımı görməmisən ki? Sualı esidən kimi eynilə sənə oxşayan ağ bir yalan Fəridin üz-gözündən öpüb dedi:

—De ki, yox.

Fərid bu ağ yalanın gözəlliyinə aldanıb, anasına dedi.

—Harda gördüm onu. Yəqin salıb itirmisən. Yada kim bilir özü hara yox olub.

Ana saatını Fəridin qolunda görəndə heç bilirsənmi nə oldu? Sənin doğmaca bacın olan o ağ yalan iki damla yaşa çevrilib Fəridin yanağından aşağı süzüldü. Bununla da ömrü qurtardı. Bax siz beləsiniz. Dünənki qız yadındadırmı? O dərslərini hazırlamamışdı. Bəs sən ona nə deyirdin? Yadına sal görək! «Qorxma, dərsini hazırlamasan da 5 alacaqsan, çünki, gözlərin mavidir. Mavi gözlü qızlar gərək heç dərs hazırlamayalar», — deyə qoca onun dünənki sözlərini yadına saldı. Bəs sonrası nə oldu. Qız 5 ala bildimi?

—Nə olsun, amma o, mənimlə yenə də dostluq edir. Çünki, mən ona şirin yalanlar danışıram.

—Şirin yalanı biz də danışırıq. Amma içinə azca həqiqət də qatırıq ki, ona inansınlar. Amma siz ağ yalanlarsınız?

Bu qocanın uzun qara quyruğu var idi. Quyruq o qədər qoca idi ki, tükləri ağarmışdı.

—Babacan, siz gecələr harda yaşayırsınız, — deyə bu gün doğulmuş ağ yalanlardan biri soruşdu. —Doğrusu mən bilmirəm ki, yalanlar harda yaşayır.

—Heç bilməyəcəksən də. Çünki, ağ yalanlar doğulan kimi ölür. Ona görə də onların harda yaşaması heç vacib də deyil. Amma biz köhnə palanların içində, isti və yaraşıqlı mənzillərdə yaşayırıq, çunki, biz yaxşı yalanlarıq.

—Bu lap ağ oldu. — Ağ yalanlar qəşəng quyruqlarını yellədib qışqırdılar:

—Yalandır! Biz hamımız eyni nəsildənik. Hələ az qala demək istəyirəm ki, sən bizim babamızsan.

Qoca bu sözləri eşidəndə dik atıldı. Elə bil ayağının altına iynə batırdılar.

—Bir o qalıb ki, sizin babanız olum. Mənim nəvələrim yoxdur. Olsa da onlar qara, boz və başqa rənglərdə ola bilər. Siz isə o qədər ağsınız ki, adamın gözləri qamaşır. Bax, məsələn, sən yalan danışmağı da bacarmırsan. Anar dərsini bilməyəndə ona başa saldın ki, müəlliməni aldatsın. Desin ki, nənəsi tapşırmışdı, oxumasın. Adam çox oxuyanda başı xarab olur. Nənə isə axşam müəllimə zəng edib Anarın iki almasının səbəbini ondan soruşanda paxırınız açıldı.

Birdən ağ yalanlardan biri qocadan soruşdu:

—Yaxşı babacan, bəs sən nə barədə yalansan?

Qoca gözlərini yumub özünü mürgüləyən kimi göstərdi. Haçandan—haçana dilləndi:

—Dünyada nə qədər yaltaq və hiyləgər adam varsa mənim sahibim onlardı. Mənim necə yalan olduğumu ancaq böyüklər bilir. Uşaqlarla işim yoxdur.

Dümağ yalan Boz yalanın söhbətindən kədərlənsə də onu dinləmək istəyirdi. Çünki, Bozun yaşı gör nə qədər idi.

—Babacan, heç olmasa bir-iki xatirə danışın. Axı biz sizi o qədər də yaxşı tanımırıq.

Elə bil qoca bu sözə bənd idi. Dili o saat açıldı:

—Bir dəfə görürəm camaat harasa tələsir. Sən demə şahın iti ölübmüş. Belə vaxtlarda mənim işim başlayır. Adamların üzünə elə bir pərdə çəkdim ki, güya şahın itinin

ölümündən kədərlənirlər. Şah çox şad oldu. Sizə deyim ki, həmin gün Saray Yalanından gözəl bir hədiyyə aldım. O mənə elə gülümsündü ki, hələ də yadımdan çıxmır. Eh, indi həmin o şah çoxdan zəhmətə qayıdıb. Pis adam deyildi. O öləndə fikirləşdim ki, daha camaatın üzünə yalançı pərdəni çəkməyim. Qoy camaatın üzü necə var, elə də görünsün. Heç bilirsiniz nə oldu?

—Nə oldu, —deyə Dümağ yalan dilləndi və hamı qocanın üzünə baxdı.

—Məlum oldu ki, şahın ölümünə bir-iki adam kədərlənir. Qalanları heç veclərinə də almırdı. Adamların çoxu heç o rəhmətliyin dəfninə gəlmədi. İti öləndə canfəşanlıq edənlərin çoxu heç gözə görünmədi.

Bu zaman onların yanından bir fayton keçdi. İçində olduqca gözəl bir yalan oturmuşdu. Başına qızılı fəs qoymuşdu. Yaxasında rəngbərəng boyunbağılar sallanırdı. Ən maraqlısı bu idi ki, bu gözəl yalanın quyruğu yox idi. Diqqətlə baxmasan elə bilərdin bəs o, gözəl bir xanımdır. Qoca faytonu görən kimi söhbəti yarımçıq qoyub ayağa durdu. Faytonun qabağında necə əyildisə saqqalı az qala yerə dəydı:

—Möhtərəm xanıma salam olsun!

—Xanım isə azca başını tərpətməklə salamı aldı və fayton ötüb keçdi.

Dümağ yalan soruşdu.

—Baba, bu kim idi belə?

—Böyük adamdır. Bizim tayımız deyil. Adına Saray Yalanı deyərlər. Bütün şah sarayının qayğıları onun çiynindədi. Vəzir, vəkil onun sözü ilə oturub-durur. Padşah özü də onsuz keçinə bilmir. Amına o bizim kimi palanların içində ömrünü çürütmür. Günü sarayda keçir, sarayın ən rahat otaqlarında yaşayır.

—Baba, yəqin ki, onun heç bir dərdi olmaz?

—Onun da dərdi var, ay bala.

Qoca özündən asılı olmayaraq yumşalmışdı. Sanki, həm özünə, həm uşaqlara yazığı gəlirdi:

—Onun dərdi odur ki, nə qədər əlləşir uşaqları aldada bilmir. "Hətta deyərdim ki, sizə qibtə edir. Siz heç olmasa bir dəfə uşaqları yaxşıca aldada bilirsiniz. Amma Saray Yalanı dünya ölkələrini bir-birinə vuruşdurduğu halda hələ ömründə bircə uşaq belə aldada bilməyib.

İTALYAN ŞLYAPASI

llahqulu müəllim enli şlyapanın qırağını yuxarı qatlayıb güzgüyə baxırdı. Elə bil qalın şüşənin arxasından özü yox, elə həmin o komissar Kataninin özü boylanırdı. Xirtdəyinin qabağa çıxmasını və armud saplağına oxşayan boynunu nəzərə almasaq Allahqulu müəllimin aləmində o, komissar Katani idi ki, durmuşdu. Ürəyində xəfif bir titrəyiş duydu və 25 il arxada qalmış həmin o xəfiyyə olmaq arzusu eləbil bircə göz qırpımında peyda oldu. Hətta Allahqulu müəllimə elə gəldi ki, arzuları həyata keçib, o, düz iyirmi beş ildir ki, «mülki paltarda» gəzən görkəmli bir xəfiyyədir. Bu ani hiss onu elə coşdurdu ki, «pirimerka» üçün başına keçirdiyi İtalyan şlyapasının qırağını bir qədər yuxarı qatlayıb boğazını arıtladı. Müəllim yoldaşları onu dövrəyə almışdılar, güzgüdən ona zillənən yeddi cüt gözü elə indicə gördü. Əvvəlcə Tofiq müəllimin ona zillənən qonur gözlərinin dərinliyində ani bir gülüş sezdi. Həmin o gülüşə bənzəyən nəydisə onun əks sədası Tofiq müəllimin qıyılmış kirpiklərinin səyriməyində də hiss olunurdu. Allahqulu müəllimin belə şeyləri o saat duyması özünə ləzzət edirdi. Deməli onun «xəfiyyə» gözlərindən yayınmaq asan bir iş deyildi. «Görüm qəbul imtahanında mənə tarixdən iki yazan o müəllimin qələmi iki parça olsun. İndi mən də dünyanın görkəmli bir xəfiyyəsi idim. Amma iyirmi ildi uşaqlara «cıq», «cik» şəkilçilərini öyrətməkdən boğazım hinduşka boynu kimi uzanıb». Birdən ona elə gəldi ki, Tofiq müəllim Allahqulunun özünü hind toyuğuna oxşatdığını başa düşdüyü üçün bir az da qımışdı.

—Nəyə qımışırsan ə, qırışmal, yaraşmır?

—Nə danışırsan — Tofiq müəllim İtalyan şlyapasının o biri ucunu qurdaladı, — hələ sənin bu cür yaraşıqlı papağın olmayıb.

—Allaha and olsun — deyə rəsmxəttdən dərs deyən Məmməd müəllim irəli yeridi -mən dünyada bu gözəllikdə şlyapa görməmişəm.

Rəsm müəllimin geyim barədəki zövqünə tam inanan Allahqulu onun da mavi gözlərinin dərinliyində nə isə anlaşılmaz bir sirr gizləndiyini elə göydəcə tutdu. «Bu nəyə gülür görəsən?» Şlyapaya böyürdən baxmaq üçün çevriləndə o biri yoldaşlarının da nəsə mübhəm bir sirri ondan gizlətdiklərini duydu. «Bunlara nə olub, görəsən? Ölsəniz də yeddi manat bir abbasıdan keçib bu şlyapanı alacağam». Allahqulu müəllim orasını yaxşı başa düşmüşdü ki, həmin bu şlyapanı başına qoymaqdan ötəri o iyirmi beş ildir ki, yol gəlir. Güzgüdə özünü bir ayrı adama da oxşatdı. «Malbra» siqaretinin simvolu kimi şəkli vurulan o oğlanın da başındakı elə bu şlyapadan deyildimi?! Onda bu biveclər mənim nəyimə gülür, görəsən?!

Portmanatını açıb qırmızı onluqların arasından bir göy beşlik və iki təklik tapdı. Bir abbasını pencəyinin yan cibindən piştaxtanın üstünə tulladı və şəstlə «Univermağ»ın çıxış qapısına doğru yollandı.

—Mübarək, sağlığına qismət olsun. —Tofiq müəllim bu sözləri deyəndə gülməkdən özünü güclə saxladı.

«Mübarək» sözünün biri bir qəpiyə çıxdı. Yalan olmasın bu sözü müəllimlərin hərəsi on dəfə təkrarladı. Allahqulu müəllim gözünü yumub açınca özünü yaşıl «Jiqulinin» arxa oturacağında gördü. O biri dörd nəfər arxadakı ağ «Volqa»ya mindilər. Maşınlar vıyıltı ilə rayon mərkəzindən Bərdəyə tərəf üz tutdu. Hələ də bir şey başa düşməyən Allahqulu müəllim rayondan çıxhaçıxda soruşdu:

—Ə Tofiq, hara sürürsən belə?

—Necə yəni hara? Belə bir şlyapanı yumasaq sabah Sədi müəllim bizi məktəbə qoymaz. Deyər hardan gəlibsiniz, ora da gedin.

«Qocaman xəfiyyə» bayaqki bic gülüşlərin əsil mənasını indi başa düşdü. Portmonatdakı qırmızı onluqları görmüşdülər. Daha geriyə yol yox idi. Yalandan gülümsəməkdən başqa çarə qalmamışdı

Allahqulu müəllimin yaddaşında bayaqkı bic gülüşlərdən əsər əlamət yox idi. İndi Quzunun qabırğasından çəkilmiş kabab gəldi. Qonşu stolda deyəsən kəllə paça yeyilmişdi. Quzu kəlləsi Allahqulu müəllimin üzünə hırıldıyırdı. Kəllə o qədər güldü ki, dişləri ağara qaldı və axırda Allahqulu müəllim buna dözmədi. Ofisantın üstünə qışqırdı ki, qonşu stolu niyə yığışdırmır.

Maşınlar geri qayıdanda birdən-birə Allahqulu müəllimin keyfi durulmuşdu. Qırmızı onluqlardan on ikisi stola qurban getmişdi. Sanki xörək paylayanın əlində gülümsünən bu on iki qırmızı onluq özləri ilə birlikdə Allahqulu müəllimin dərdini-kədərini də aparmışdı. Onu dəli bir gülmək tutmuşdu.

Maşından düşüb evlərinə tərəf addımlayanda nəyi isə xatırlamağa başladı. Maşınlar ondan xeyli aralananda birdən onu bayaqkından da betər bir gülmək tutdu. Allahqulu müəllim maşınların dalınca qışqırdı:

—Dayanın, dayanın deyirəm sizə.

Amma onun səsini eşidən olmadı. Allahqulu müəllim yavaşca sanki ayaqqabılarına dedi:

—Ay yaramazlar, şlyapa kababxanada qaldı.

Amma daha gec idi. Allahqulu müəllim darvazalarına doğru yönəldi.

İnsafla desək İtalyan şlyapası doğrudan da gözəl idi.

GÖYCƏ

ən qabaqda dananın boğazına bağlanmış ala çatıdan tutub çəkirdim. Atam ayaqlarını sürüyə-sürüyə arxadan gəlirdi. Hərdən çevrilib tünd mavi tükləri adamın gözlərini qamaşdıran danaya, onun iri qonur gözlərinə və uşaq papışlarına oxşayan zil qara dırnaqlarına baxırdım. Atam isə hərdən ah çəkir, arxamızca könülsüz-könülsüz addımlayırdı. Uzundimdik şapkasını gözünün üstünə basmışdı. Hirsli olanda belə edərdi. Göy darvazamızdan içəri girəndə anam çaşqın-çaşqın bizə baxdı. Axı, bazara gedəndə atama bərk-bərk tapşırmışdı:

—Sağmal inək al. Uşaqlar yavanlıqsız qırılır. Amma inək əvəzinə bu göy dananı almışdıq. Onu elə lap bazarın bəri girəcəyində gördük. Dana bizi görəndə elə mələdi ki, ikimiz də dayandıq. Doğrudur, dananın gözəlliyinə bizdən başqa da baxanlar vardı. Amma mən özümü onun üstünə necə atdımsa, atam sağmal inək alacağını yadından çıxartdı. Dananı aldıq. Atam dedi ki, eybi yoxdur, bir-iki ay dözərik. Pulun başını düzədib inək alarıq. Göy dananı satan motal-papaq kişi pulu sayıb cibinə qoyandan sonra iri bığlarını sığallayıb əl uzatdı.

—Xeyirli olsun – dedi – cins heyvandır. Necə sevindiyimi təsəvvür edə bilməzsiniz. Dananın çatısını əlimə alanda ürəyimin döyüntüsünü aydınca eşitdim. Mənə elə gəldi ki, bu saat başqa bir möcüzə də ola bilər. Bir də çevrilib baxaram ki, kəndirə göy dananın əvəzinə başqa bir heyvan bağlanıb. Ona görə də tez-tez çevrilib, arxaya baxır və evimizə yaxınlaşdıqca atamın qaşlarının necə çatıldığını görürdüm.

Anam sağ ovucunu yumurulayıb dodaqlarına yapışdırdı. Və heç nə başa düşmürmüş kimi heyrətlə dedi:

—Bu nədi, az?…

Atam boğazını arıtladı. Atamın sualına mən cavab verdim.

—Bilirsən necə gözəldi!

Anamın göz yaşını yaylığının ucu ilə sildiyinə və atamın çox yanıqlı bir ah çəkməyinə qətiyyən əhəmiyyət verməyib, çölə qaçdım. Yolun yarısında baxıb gördüm ki, itimiz Qöllən məndən qabaqda qaçır.

—Sən hara, qayıt geri?!

Bircə anlıq ayaq saxlayıb, iti geri qaytarmaq istədim. Amma o, yerə yıxılıb, üz-gözünü ayağıma necə sürtdüsə yazığım gəldi.

—Yaxşı, gəl. Amma tez qayıtmalıyıq, dana acından ölər.

Qöllən sevincindən necə tullandısa, başının üstündən uçan kəpənəklər pərən-pərən oldu.

Yığdığımız otu dananın qabağına tökdüm. Bir vedrə su gətirib, onun yanına qoydum. Elə həmin gün danaya ad da qoydum: Göycə. Bu ad deyəsən Qöllənin də xoşuna gəldi. İki dəfə astadan hürdü.

Anam taleyi ilə heç cürə barışmaq istəmirdi.

—Gələn bazar apar, sat! – deyə atamın başına ağıl qoydu – bircə danamız çatmırdı. Özü də sonra mənə tərəf çevrildi.

—Yavanlıqsız acından öləndə səninlə danışacağam – dedi. Heç bilmirəm uşağın bazarda nə ölümü var.

Bir həftədən sonra anamın hirsi soyudu:

—Ay bala, heyvan bağlı qalanda kökəlməz. Onu çölə aparmaq lazımdır — dedi.

Həmin gün bilsəniz necə sevindik. Mən ona görə sevinirdim ki, anam bizimlə barışmışdı. Qöllən ona görə sevinirdi ki, daha günümüz çəmənlikdə keçəcəkdi.

Dərsdən gələn kimi çörəyimi yeyib, çantamı çiynimə keçirdim və cöngəni qabağıma qatdım. Qöllən qapıda hazır idi. İt dananın qabağında kürəyini yerə sürtməklə ona dostluğunu bildirdi. Göycə onun nə demək istədiyini anlamayıb bərkdən mələdi.

Çəmənliyə çatan kimi sarı çantamı bir tərəfə tullayıb Göycəyə çiçək yığmağa başladım. Yumşaq otun onun ağ dişlərinin arasında necə ləzzətlə xırçıldadığını görən Qöllən eşələnməklə sevincini bildirirdi. Cürbəcür çiçəklərdən hazırladığım dəstəni Göycəyə aparmaq üçün ayağa duranda yerimdəcə quruyub qaldım. Göycə ucu qapqara qotaza oxşayan mavi quyruğunu qaldırıb mənim çantamı buladı. Onun qarnından tökülən mayenin sarı çantamı necə qaraltdığını görəndə bilmədim neyləyim.

—Ax sənin… Bu boyda dünyada başına yer qəhət idi, gərək portfelin üstünə eləyəydin?!

Göycə qəşəng, qara kipriklərini göyə tuşlayıb bərkdən:

—Mooooo! — elədi və birdən çəmən boyu götürüldü. Nə hadisə baş verdiyini anlamayan Qöllən də hürə-hürə onun arxasınca qaçdı. Meşəyə çathaçatda dayandılar. İri bir kirpi iynələrini qabardıb onların qarşısını kəsmişdi. Bircə anlıq fikirləşdim. Yaxşı ki, danada insan ağlı yoxdu. Yoxsa kirpinin yanından keçib getməyə nə vardı. Mən onlara yaxınlaşanda Göycə ürəkləndi və kirpini ağzına basmaq üçün burnunu onun iynələrinə sürtdü. Görünür, kirpinin iynələri onun dodaqlarına batmışdı. Çünki, Göycə hirslə fınxırıb geri çəkildi və yenidən götürüldü. Qöllən kirpiyə bir-iki ağız hürdü. Amma kirpi iynəsini başına bürüyüb ona heç əhəmiyyət də vermədi. Qöllən anladı ki, kirpiyə baş qoşmağa dəyməzdi. Tez danaya çatmaq lazım idi.

Meşəyə çatan kimi Göycə yavaşıdı. Belini nəhəng çinarın gövdəsinə sürtüb sakitləşdi və otlamağa başladı. Mən

də dincimi almaq üçün çinarın kölgəsində oturdum. Əllərim əsirdi, ürəyimin döyüntüsünü lap aydınca eşidirdim.

Bütün əhvalat isə axşam geri qayıtmaq istəyəndə oldu. Gün batana yaxın Göycənin qarnının necə şişdiyini görəndə başa düşdüm ki, doyunca otlayıb. Günəş meşənin dalında görünməz olmuşdu. Təkcə ağacların özlərindən on dəfə böyük kölgələri uzanıb, aralıda bir-birinə qarışırdı.

—Qöllən, vaxtdır! Yavaş-yavaş tərpənək!

Bütün hadisələr də bu zaman baş verdi. Qöllən yatmaqdan yorulmuşdu. O, başını otluqdan çıxartmaq istəyən Göycəyə tərəf hürdü. Dana birdən-birə tullanıb ağacların arası ilə uzanan yola çıxdı. Elə bil Qöllən də bunu gözləyirdi. Ötüşməyə başladılar. Qöllən çənəsini yerə qədər əyib, quyruğunu belinə qatlamışdı. Var gücü ilə qaçırdı. Göycənin uzun quyruğu belədən-belə yellənirdi. Onun qaçışında ahəng yox idi. Necə gəldi dazıyırdı. Amma sizə deyim ki, xeyli yanaşı qaçdıqdan sonra Göycə birdən necə irəli atıldısa, Qölləni xeyli arxada qoydu.

—İşə düşdük!

Xeyli müddət nə edəcəyimi bilmədim. Onların arxasınca qaçmağın mənası yox idi. Deyəsən Qöllən Göycənin belə qaça biləcəyini ağlına gətirmirdi. Hətta hürməyi də yadından çıxarmışdı. Hər ikisi gözdən itdi. Bir azdan hardasa meşənin o biri başında Qöllənin hirsli səsini eşitdim. O, həmişə qəzəblənəndə belə hürürdü:

—Huv, huv, huv.

Mənə elə gəldi ki, birdən Qöllənin ağzına nəsə tıxadılar. Bir-iki ağız boğuq-boğuq hürüb susdu. Bundan sonra daha heç nə anlaşılmadı.

İndi təkcə Kürün şırıltısı eşidilirdi. Mən ömrümdə Kürün bu qədər vahiməli olduğunu görməmişdim. Elə bil bu saat suyun içindən yüzlərlə əʙdaha çıxıb mənə hücum edəcəkdi. Bir azdan qaranlıq tamam qarışdı. Kür meşənin ortasından uzanıb keçən nəhəng asfalt yola oxşadı. Hardasa

çaqqal uladı. Bircə anlığa bayaqkı kirpini xatırladım. Deməli onun da iynələri qorxudan qabarıbmış. Amma kirpini tezliklə unutdum. Başımın tüklərinin necə dik-dik olduğunu hiss etdim. Üşüdüm. Ağaca dırmaşmaqdan başqa əlacım yox idi. Atam həmişə deyirdi ki, meşədə qalsan, ən etibarlı yer ağacın başıdı. Qovaq ağacının yoğun gövdəsinə təzəcə dırmaşmışdım ki, qaraltı görüm. Bu bayaq ulayan çaqqal olmalı idi. Nəfəsimi içimə çəkib dinməzcə dayandım. Qaraltı mənə tərəf gəlirdi. Diqqətlə baxıb Qölləni tanıdım. Quyruğu yerlə sürünürdü. Ağzında nəsə qara bir şey tutmuşdu..

—Qöllən!

Yazıq sevindiyindən ağzındakını yerə atdı. O saat qara bir quşun pırıltı ilə göyə qalxdığını gördüm. Deməli, Göycəyə çata bilmədiyi üçün hayıfını bu quşdan alıb.

Ağacdan düşdüm. Daha qorxmurdum. Qöllən yanımda idi.

—Sən səfehsən — dedim. Dananı ürkütdün.

Qöllən zingildəyib üzünü ayağıma sürtdü. Deyəsən o heç də məndən az həyəcan keçirmirdi.

—İndi biz neyləyək? Evə nə üzlə qayıdaq?

Qöllən yazıq-yazıq zingildədi.

Bayaqkı çaqqal bir də uladı. Qöllən həmin çaqqalın acığına ağzını göyə tutub var gücü ilə hürdü

—Hav, hav, hav., hav, hav.

Qöllənin bu hürməsində hər şeyə nifrət var idi; meşəyə, çiçəyə, ağaclara, qaranlığa, Kürün şırıltısına, Göycənin səfehliyinə. Birdən sükutu ayaq tappıltısı pozdu. Bir də gördük ki, budu ha Göycə dörd nala çapa-çapa gəlir. Elə bil onu kimsə qovurdu. Düz yanımızda dayanıb kürəyini ağaca doyunca sürtdü, gərnəşdi və qarnını tamam boşaltdı. Çinarın altında iri bir gölməçə yaratdı. Bu dəfə çantamı bulamadı. Hətta belə bir səfehliyə yol versəydi də onu bağışlayardım.

Ay doğmuşdu. Yol əməlli-başlı seçilirdi. Qöllən qabaqda Göycə ortada, mən də lap arxada gedirdik.

Qöllən hərdən elə belə hürürdü və çox güman ki, Göycəni danlayırdı. Göycə isə onun ardınca gedirdi və qaçmağı deyəsən heç ağlına da gətirmirdi.

Evə çatanda anamı gözüyaşlı gördüm. Haçandan-haçana dilləndi:

—Dana otarmaq sənin işin deyil.

Atam isə çox qəzəblə dedi:

—Sabah onu rədd edəcəyəm!

Səhər Göycəni naxıra qatası olduq. Kəndiri boğazından açıb qabağıma qatanda Göycə dünənki qəhrəmanlığını az qala təkrar edəcəkdi. İki dal ayaqlarının üstünə qalxıb sıçradı və tövlədən çıxdı.

Naxır xeyli aralıda düzənliyə toplaşırdı. Mələşmələr bir-birinə qarışmışdı. Birdən Göycə özünü hansı bir öküzə oxşadaraq bərkdən:

—Moooo! — elədi və sizə deyim ki, ürəyimdə gizli bir sevinc baş qaldırdı. Gözümün altı ilə atama baxdım. Deyəsən Göycənin belə öküzlərə xas olan boğuq mələməsi onun da kefini açmışdı.

Naxıra çatan kimi Göycə boyda qırmızı bir dana bizi qarşıladı. Onun da bir cüt badımcana oxşayan qara buynuzları vardı. Elə bil ki, dana bayaqdan Göycənin yolunu gözləyirmiş. Çatan kimi ona bir kəllə atdı. Bu qəfil hücumu gözləməyən Göycə səntirlədi. Qırmızı dana qabaq ayaqlarını göyə qaldırıb ikinci dəfə hücuma keçdi. Bu dəfə Göycə ayaqlarını yerə bərk dirəyib başını aşağı əydi və onun hücumunun qarşısını aldı. Onlar xeyli baş-başa dayandılar. Hər ikisinin gözləri bərəlmişdi. Balaca buynuzlar bir-birinə toxunurdu. Onların gözündə nə sevinc, nə həyəcan, nə qorxu vardı. Bəlkə mənasız yerə döyüşdükləri üçün gözləri də beləcə heç nə ifadə etmirdi. Görünür qırmızı dana naxırın qoçusu idi. Çünki özünə bərk

arxayındı və bütün gücü ilə Göycəni arxaya itələyib məğlub etmək istəyirdi.

Birdən Göycə başını yana çəkib qırmızı dananı irəli buraxdı və qəfildən onun böyrünə necə bir kəllə ilişdirdisə, dana yerə yıxıldı. Qırmızı dana tez ayağa qalxdı və quyruğunu qaldırıb qarnındakıları tökməklə döyüşün qurtardığını bildirdi.

—Sən öl, özünü pis aparsan təpəni bu çomaqla əzərəm — deyə özünü yetirən Mehralı dayı Göycənin üstünə qışqırdı.

—Mehralı dayı, istəyirsən günorta mən də gəlim-dedim.

Bu, əslində atamdan icazə almaq üçün deyilən sözlər idi. O dinmədi. Demək, günorta getmək olardı.

Naxır Kürün yaxası boyu uzanan çəmənliyə yayılmışdı. Mehralı dayı çör-çöpdən özünə günlük düzəltmişdi. Bu günlük bostançı çardağının karikaturasına oxşayırdı. O qədər alçaq idi ki, kişi başını onun altına zorla soxmuşdu. Bədəni çöldə, günün altında qalmışdı. Yayın ortası olmasına baxmayaraq Mehralı dayının əynində qışda geydiyi pambıq sırıqlı vardı.

—Mehralı dayı, isti deyil, sırıqlını çıxartsana?!

—Sən belə şeyləri başa düşməzsən, oğul! Get dananı otar. Çər dəymiş naxırda buynuzlamadığı mal qoymadı. Bu dəlini hardan tapıb gətirmisiniz?

—Bərdə bazarından almışıq.

—Amma girri şeydi. Yeməli əti var.

Göycəni Kürün qırağında lap sıldırımın başında tapdım. Beş-altı metrlikdə suvatı qoyub deyəsən su içmək üçün sıldırımdan çaya düşmək istəyirdi.

—Sən dəlisən — dedim — məgər burdan düşmək olar?

Qöllən də iki dəfə hürməklə onun dəliliyini, ya da mənim sözümün haqlı olduğunu təsdiq etdi. Göycə sıldırımın başında Kürün suyunda xeyli öz şəklinə baxıb birdən:

—Moooo — elədi. Mənə elə gəldi ki, bununla o, bu sıldırımdan düşməyin səfehlik olduğunu təsdiq etdi. Çünki

mələyəndən sonra geri çəkilib suvata getdi və qarnını su ilə doldurdu.

Qarnı böyüdüyü üçün beli düzəlmişdi. Heç özüm də bilmədim ki, Göycəni minmək birdən mənim hardan ağlıma gəldi. Birdən Qöllənin də qətiyyən gözləmədiyi bir cəldliklə Göycənin buynuzlarından yapışıb belinə tullandım. Göycə bu qəfil hücumu gözləmirdi. Ancaq məni belində görəndə dəhşətə gəldi. Düz belinin ortasında oturub, buynuzlarından yapışmışdım. Göycə əvvəlcə qabaq ayaqlarını göyə qaldırdı. At kimi şahə qalxdı. Özümü onun kürəyinə sıxdım ki, yıxılmayım. Birdən arxa ayaqları ilə bədəninə necə güclü bir təkan verdisə, onun buynuzlarının arasından başı üstə yerə gəldim. Qöllən nə hadisə baş verdiyini anlamayıb qəzəblə hürdü. Mehralı dayı başını quş yuvasına oxşayan kölgəlikdən çıxartdı və əlini günlük edib xeyli bizə baxdı. Belim bərk ağrısa da, ayağa qalxmışdım. Göycə bir qədər aralıda ürkək-ürkək mənə baxırdı. Mehralı dayı xeyli baxdı-baxdı və başını bulayıb dedi:

—Bu da Abdullanın oğlu Zahid! Bəs deyirlər sən məktəbdə «beş»lə oxuyursan. Budurmu ə, sənin «beş»in! Dananı da minərlərmi a bala?

Həmin gün axşamacan Göycə tərəfə baxmadım. Durub dərslərimi hazırladım. Doğrusu, evə qayıtmağı özümə ar bilirdim. Anam duyuq düşə bilərdi. Amma nə qədər oxudumsa belimin ağrısından başıma bir şey girmədi.

Göycə ilə məşğul olduğum bir həftə öz nəticəsini göstərdi. Pis oxuduğum üçün müəllimdən bir neçə dəfə təsirli sözlər eşitdim.

—Yoxsa sənə də göz dəydi? — deyə Məhbubə müəllimə qiymət yazmasa da təəccübünü bildirdi. — Beşinci sinifi zarafat bilməyin — dedi, — indi həmişəkindən daha yaxşı oxumaq lazımdır. Dərslər ağırlaşıb.

Evə gələn kimi dərslərimi oxudum. Mallar gələndə işlərimin hamısını qurtarmışdım. İndi Göycəni qarşılamaq

olardı. Amma o gəlib çıxmırdı. Xeyli gözlədik. Malların hamısı həyətlərə dağıldı. Amma Göycə görünmürdü. Atam dedi:

—Bir bax gör bu harda qaldı? Mehralı dayı qapımızdan xeyli aralı dayanıb papiros çəkirdi. Qaranlıqda qədim yunan heykəllərini xatırladırdı.

—A bala, dədəni də götür, gedək bu dəlini axtaraq. Günortadan yoxdu. Gəzmədiyim dərə-təpə qalmadı. Atam naxırçının sözlərini həyətdən eşitdi və çölə çıxdı.

Kürün yaxası ilə meşəyə doğru getdik. Qöllən hürüb Göycəni səsləyirdi. Meşə yolu ilə xeyli addımladıq. Qöllən hey hürürdü. Birdən Göycənin böyürtüsünü eşitdik. Bu dəfə o bir ayrı cür mələyirdi. Qaliblər kimi, çox təntənəli şəkildə:

—Mooyooyoo! — elədi.

—Zəhrimarrrr — deyə Mehralı dayı onu yamsılayırmış kimi qışqırdı. Anamdan əmdiyim südü burnumdan gətirmisən.

Atamın nə düşündüyünü demək çətin idi. Qöllən sevinclə uladı və dananı tapmaqda xüsusi rol oynadığını bildirdi. Əlbəttə, o haqlı idi. Qöllən hürməsəydi Göycə mələməyəcəkdi. Biz də onu tapa bilməyəcəkdik.

Göycənin qabağında ölmüş bir çaqqal gördük. Atam dedi ki, dana onu buynuzu ilə yerə basıb öldürmüşdü.

—Görünür çox imişlər. Birləşib dananı parçalamaq istəyiblər. Amma bu fərasətli çıxıb.

—Canavara tuş gəlsəydi batmışdıq — deyə Mehralı dayı dilləndi.

Mən isə başqa fikirdəydim. Təkbətək canavar da Göycəyə heç nə edə bilməzdi. O çox qüvvətli idi. Xeyli yekəlmiş, buynuzları qabağa əyilmişdi.

Həftənin altıncı günü dərsdən gələn kimi Qöllənlə çölə getdik. Sabah istirahət günü idi, dərslərimi hazırlamağa nə qədər desəm vaxtım var idi. Mən Göycənin başqa danaları necə əzişdirdiyinə baxmaq istəyirdim. Açıqca görünürdü ki, naxırın qoçusu daha qırmızı dana deyil, Göycədi. Məni belindən

tullayıb əzişdirsə də Göycənin bu qədər güclü olmasına sevinirdim.

—Mehralı dayı başını kölgəliyə salıb uzanmışdı. Göycə sarı bir dana ilə ayrıca otlayırdı. Yenə də sıldırımın qırağında idi. Açıqca görünürdü ki, oradan tullanmaq niyyətində deyil.

—Daha sakitləşib — deyə Mehralı dayı bizi qarşıladı. Sarı dana onun qılığına yaman girib.

Göycə sarı dana ilə lap baş-başa idi. Adama elə gəlirdi ki, onların hər ikisi eyni otu qoparmaq istəyir. Bu məni təəccübləndirdi. Bir az aralı otlasalar ikisinə də rahat olar. Onlar az qala burun-buruna toxunurdular. Amma Göycə qəzəblənib sarı dananın dərsini vermirdi. Əksinə burunları toxunanda quyruğunu ləzzətlə oynadırdı.

Bir dəfə sarı dana böyrü ilə Göycəni itələyib qaymaq-çiçəklərini özü otladı. Göycə buynuzu ilə onun belini qaşımaqla bu mübahisəyə yekun vurdu. Bütün bunların nə demək olduğunu başa düşməsəm də bircə şeyi anlayırdım ki, Göycə sarı danaya hər şeyi bağışlayır.

Bir dəfə sarı dana Göycədən xeyli aralanıb bizim yanımıza gəldi. Əvvəl məni, sonra da Qölləni imsilədi. Göycə də eyni ilə onun kimi elədi. Qöllən bütün bunlara:

—Hooov etməklə cavab verdi.

Bir-iki həftədən sonra bir gün Göycə yenə evə gəlmədi. Atam hirslə dedi:

—Cəhənnəmə gəlsin. Heç gələn günü olmasın!

Mehralı dayı da qəzəbli idi:

—Hasoyun o çər dəymiş sarı danası ilə imsiləşirdi. Yəqin ona qoşulub gedib.

Dayımın adı Həsən idi. Hasoy deyirdilər. Getdim ki, sarı dananın axşam yeməyinə şərik çıxıb. Dayım da hövsələdən çıxmışdı:

—Malınıza sahib ola bilmirsiniz?

—Hamını bezdirmisən, boğaza yığılmışıq! Qapını tanımırsan? Hara gəldi gedirsən!

Bundan sonra işimin biri də artdı. Hər gün malın qabağına çıxıb Göycəni dama qatmalı oldum.

Ancaq nə soncuqlamaq üçün bəhanə axtaran Göycənin, nə də mənim ağlıma gəlmədi ki, bir payız səhəri o dəhşətli hadisə baş verəcəkdi.

O səhər məni yuxudan Qöllənin həyəcanlı səsi oyatdı. Qöllən çox acıqlı olanda belə hürürdü. O gecə biz Göycəni meşədə itirəndə də belə hürmüşdü — hooov, hooov, hooov.

—Nə olub deyə yerimdən dik atıldım. Gün günorta idi. Həyətə düşəndə Qöllən günahkar-günahkar ayaqlarıma yıxılıb zarıdı. Hələ də bir şey başa düşməmişdim. Tövlənin qabağında çoxlu kişi və uşaq gördüm. Əllərində qab-qaşıq tutmuşdular. Birdən yerdə Göycənin kəsilmiş başını gördüm. Gözləri həmişəki kimi heç nə ifadə etmirdi.

Qışqırtıma anam yüyürdü:

Başıma daş, sənə nə oldu. — Sonra böyrümdə oturub doyunca ağladı.

—Görün heç kişi də ağlayarmı — deyə atam mənə baxdı. Amma səsinin kövrəkliyindən hiss etdim ki, Göycədən ayrılmaq onun üçün də çətin olmuşdu. Atamın sözünü ürəyimdə təkrar etdim. Kişi də ağlayar? Fikirləşdim ki, niyə ağlamaz. Əyər kişi gülə bilirsə, ağlaya da bilər. Əyər adam yeri gələndə ağlamağı bacarmırsa, şikəst kimidi. Dayım qabağa gəlib dedi:

—Sarı dana yelinləyib. Bax bu camaatın içində deyirəm. Balası sənindi. Yekəldib özününkü edərsən.

Dünyada heç bir dana Göycə kimi ola bilməz. Mən bunu bilirdim. Amma ağlamağın da heç bir faydası yox idi.

Axşamüstü naxır örüşdən qayıdanda mən Sarı dananın üzünü bizim qapıya tərəf tutub mələhətli bir səslə mələdiyini görəndə ikinci dəfə ağladım. Amma bu dəfə yavaşca ağladım, ürəyimdə!

Özümü xeyli bağışlaya bilmədim — Göycənin kəsilməsində özümü təqsirkar hesab edirdim. Əyər yuxudan tez dursaydım, onu kəsilməyə qoymazdım.

Göycənin dərisi neçə gün çəpərimizdə sərili qaldı. Hər səhər sarı dana onun dərisinə sürtünüb yanıqlı-yanıqlı mələdi. Bir neçə gündən sonra atam dərini kiməsə verdi. Sağılan bir inək aldı.

Həsən dayımın sarı danası Göycədən bir ay sonra doğdu. Anam qardaşının verdiyi sözü onun yadına saldı. Həsən dayım dedi:

—Kişinin sözü bir olar. Qoy azca dirçəlsin, gəlib apararsınız.

Sarı dananın ilkinə baxanda yerimdəcə qurudum. Bu ki eynilə Göycənin özü idi. Anası yaladıqdan sonra tünd mavi tükləri parıldayırdı. Quyruğu və dırnaqları şəvə kimi qapqara idi. Təkcə alnının ortasında sarı xal vardı.

—Qaşqadı — deyə Həsən dayım izahat Verdi.

—Qoy elə adı Göycə olsun — dedim.

—Əla, dayım razılaşdı.

Sabah Qöllənlə Kürün yaxası boyu uzanan çəmənlikdə Göycəni otarmağa gedəcəyik. Hələ sabaha gör nə qədər var…

AZƏRBAYCAN HAQQINDA HEKAYƏLƏR

QARTAL QANADLI ÖLKƏ

zərbaycanın xəritəsinə diqqətlə baxsanız görərsiniz ki, o, qanadlarını yığıb şığıyan qartala oxşayır. Onun başı Abşeron yarımadasıdır. Xəzər dənizi bu qartalın qarşısında ucsuz-bucaqsız səma kimi açılıb. Abşeron yarımadasında, Xəzərin lap sahilində Bakı şəhəri yerləşir. Bura neft səltənətidir.

Qartalın bir qanadı Lənkəran-Astara şəhərinin yerləşdiyi limonlu, portağallı diyardır. Bu diyarda ucsuz-buçaqsız çay plantasiyaları uzanıb gedir.

O biri qanad zəngin təbiətli Quba-Qusar rayonlarıdır. Burada meyvə bağları nəhəng qartalın yaşıl qanadı kimi uzanır.

Quşun bədəni pambıq plantasiyaları ilə şöhrət tapmış Muğan, Şirvan və Qarabağ torpağıdır.

Bu günəşli ölkənin adamları işgüzar, torpağı bərəkətlidir.

MAVİ KÜLƏKLƏR ŞƏHƏRİ

Bakı! Gözəlliklər şəhəri!
Xəzər dalğalı başını onun dizinə qoyub. Şəhər öz nəhəng qüllələri və qalaları ilə neft səltənətinə keşik çəkir.

Neft daşları isə dünyanın təzə möcüzəsidir. Dənizin üstündə körpülər salınıb. Bu Körpü-estakadalar çiynində nəhəng maşınları, çoxmərtəbəli evləri, işguzar adamları saxlayır. Bakının özündə də belə nəhəng körpülər çoxdur. Bir dəfə körpü ilə söhbət edən bir uşaq gördüm. Həmin söhbət şerə çevrildi:

Gülnur dedi: — A Körpü,
Sən nə qəşəng Körpüsən!
Körpü dedi: — A Gülnur,
Sən nə qəşəng körpəsən!
Gülnur dedi: — Gör necə
Belini qabartmısan,
Polad dirəklər üstə
Lap rahatca yatmısan.
Gəlib belindən keçir,
Avtobuslar, maşınlar,
Hamı deyir: — Yaxşı ki,
Bakıda bu körpü var.
Sanki nəhəng gəmisən,
Lap balina kimisən.
Körpü dedi: — Qəşəng qız,
Ay saçları ipək qız,

Özüm yaranmadım ha,
Məni insanlar qurdu.
Onlar əvvəl torpağa
Polad dirəklər vurdu,
Sonra nəhəng maşınlar,
Sement-beton gətirdi,
Qaldırıcı kranlar
Yükü ton-ton götürdü.
Yavaş-yavaş quruldum
Axırda körpü oldum.
Gülnur dedi: — Yaxşı ki,
Belə qəşəng körpüsən.
Körpü dedi: — Sən də ki,
Saçı ipək körpəsən.

Günortalar dəniz güzgü kimi tərtəmiz olur. Belə vaxtlarda ağaclar günəşə boylanır, parklardakı, bulvardakı gülçiçəyin, kolların ətri ətrafa yayılır.

Xəzər dənizində buruq meşələri uzanıb gedir. Bu meşələrdən sahilə mavi küləklər əsir. Dalğalar nəhəng balinalar kimi belini qaldırır, dəniz neftçilərinin əmək rəşadətini şəhərə çatdırmaq üçün sahilə doğru qaçmağa başlayırlar.

Günorta uşaqlar dənizə baxanda xoş nəğmələr oxuyurlar:

Dəniz necə mavidi
Göy dəftər üzü kimi.
Parıldayır damlalar
Balığın gözü kimi.

Birdən tufan başladı
Qalxdı, yatdı dalğalar.
Nərə çəkdi, hayqırdı,
Sanki atdı dalğalar.

Güruldadı göy dəniz,

Dalğalar qaya oldu.
Qayaların dibində
Köpüklər taya oldu.

Hey axırdı dalğalar
Coşğun dağ çayı kimi.
Ağ yelkənli qayıqlar
Görünür sahildən,
Nəhəng qağayı kimi.

Axşamüstü dəniz xüsusilə gözəl olur. Günəş batanda ləpələr pıçıldaşaraq deyir:

Yenə büllur şəfəqlər,
Ayrılır boz sulardan.
Günün son gülüşüylə
Alovlanır asiman.
Dalğalar şəfəqlərlə,
Qucaqlaşır, öpüşür,
Dənizə axşam düşür.

Buruqlar arasında
Gör nə qədər adam var.
Dənizin qucağından
Çay keçirdir adamlar.
Çoxu növbədən çıxır,
Bir-birilə görüşür
Dənizə axşam düşür.

İndi neçə min işıq
Suya qızıl səpələr,
Köynəyini dəyişər,
Göy köynəkli ləpələr.
Qağayılar rəqs edir,
Qağayılar ötüşür,

Dənizə axşam düşür.

Sular göy kimi əngin,
Səma dəniz rəngində,
Gör neçə ulduz yanır.

Dənizin çələngində,
Buludlardan ay çıxır,
Sulara ağ şam düşur,
Dənizə axşam düşür,
*Dənizə a*xşam düşür.

Bakı! Hər gün gəncləşən şəhər! Bu sözü həm məcazi, həm də müstəqim mənada başa düşmək lazımdır. Əməkçilər Bakıda az qala hər gün bir park, bir idman meydançası istifadəyə verir. Beləliklə, şəhəri hər gün cavanlaşdırır, gözəlləşdirirlər. Alimlər hesablayır görüblər ki, Bakının əhalisinin yarıdan çoxu cavanlar və uşaqlardır. Şəhərdə bu qədər uşaq bağçasının, məktəbin, idman meydançalarının, pioner düşərgələrinin olması da elə bununla bağlıdır..

Həm özü cavanlaşır, həm də sakinləri... Belə bir şəhərdə yaşamağın ayrı ləzzəti var...

DALĞALAR – TAYALAR

zərbaycanın üstündən təyyarə ilə keçsəniz bir az diqqətcil olun. Xəzər dənizinin dalğaları bəzən o qədər hündürə qalxır ki, pambıq tayalarına oxşayır. Bəzən də pambıq tayaları dalğalara bənzəyir. Sənə elə gəlir ki, ucsuz-bucaqsız pambıq plantasiyaları yaşıl dənizdir. Bəlkə elə buna görə pambıqyığan maşınları «mavi gəmi» adlandırırlar.

Pambıq paltardı, sabundu, mal-qara üçün yemdi, barıtdı, yağdı.

Bizdə belə bir məsəl var: adam yaxşı bir iş görəndə deyirlər:.

—Üzün ağ olsun!

Pambıq həm torpağın üzünü ağardır, həm də əməkçi insanların. Belə bir bitkini sevməyinə dəyər.

ELLƏR GÖZƏLİ

azda tənək hind rəqqaslarına oxşayır. Gövdəsi gah sağa, gah sola əyilir. Elə bil dünyanın ən gözəl rəqsini ifa edir. Yarpaqlar günəşin şüalarını tutmaq üçün açılan əldi. Salxımlar bu gözəlin qulaqlarından sallanan sırğa kimi parıldayır.

Təbrizi, Kişmişi, Keçiməməsi, Ağ şanı, Qara-şanı, Muskat, Şamaxı... Bunlar Azərbaycanda yetişən üzüm növlərinin bir neçəsinin adıdı. Təbrizi və Kişmişi üzümünü yemək istəsən gərək Naxçıvana gedəsən. Araz çayının sahili boyu uzanan sərhəd direklərinə baxa-baxa, sərhədçilərə əl edə-edə Salvartı dağlarına tərəf gedib Naxçıvana çıxasan. Hansı qapını döysən, əvvəl ayağının altında qab sındıracaqlar. Bu o deməkdir ki, qoy sənə gələn bəla bu qab kimi sınsın. Sonra ayağının altına dəmir parçası atacaqlar. Yəni qoy bu dostluq dəmir kimi möhkəm olsun. Sonra ayağının altında quzu kəsəcəklər, axı yoldan gəlmisən, yəqin acsan. Üzümü acqarına yeməzlər. Onun dadı kababdan sonra daha yaxşı bilinər.

Əgər şanıya qonaq olmaq istəsən gərək yolunu Abşerona salasan. Bu yer həm ağ, həm də qara şanısı ilə fəxr edə bilər.

Abşeron bağlarına gələndə ayaqqabılarını soyunsan yaxşıdı. Narın qumun ayaqlarını yandırmağın ayrı ləzzəti var. Bağda əvvəlcə əncir ye. Çünki şanı o qədər şirindir ki, sonra başqa meyvələrin dadını bilməzsən. Axı, Abşeron ənciri də misilsizdir.

Bizdə tənək haqqında belə bir şer var:

Qızı – ellər gözəli.
Oğlu – ellər dəlisi.

Şamaxı üzümünün sorağı isə bütün dünyada məşhurdur. Şamaxı, Mədrəsə, Sadıllı, Muskat kimi ləzzətli şərablar məhz bu növlərdən hazırlanır.

Keçiməməsi üzümünü qışa da saxlamaq olur. Salxımları elə ağacdaca balaca torbalara keçirirsən ki, quşlar yeməsin. Payızın axır ayında ehmalca dərib eyvandan asırsan ki, soyuq aparmasın. Qışda azacıq bürüşmüş gilələrin hərəsi bir bal damlasıdır.

Qışda tənəklər yaşıl paltarını soyunur. Amma yenə də bədənini sağa-sola əyib hind gözəlləri kimi dayanır, səbirsizliklə baharı gözləyir ki, rəqs etsin...

GÖY GÖLÜN SƏHƏRİ

zərbaycanın xəritəsində onun adı Göy göldü. Hacıkənddən bir az yuxarı Kəpəz dağının ətəklərində cilvələnir. Səyyahlar deyirlər ki, ona «Meşə güzgüsü» adı daha yaxşı yaraşır. Axı gölün dörd bir yanındakı sıx meşə səhərdən-axşamacan gölə baxıb saçlarını darayır.

Yəqin çoxu bilmir ki, səhər saat 5-lə 6 arasında gölün ətrafında marallar sırayla duzülüb gözlərini suya necə zilləyirlər. Onlar gözlərini mümkün qədər geniş açıb heyrətlə gölün dibindən çıxan günəşə baxırlar. Bir azdan doğrudan da nəhəng nara bənzəyən günəş yavaş-yavaş qalxır. Günəş sudan çıxanda qızıl damlaların suya, necə damdığını marallar hər gün görür və yalnız həmin an arxayınlıqla buynuzları ilə kürəklərini qaşıyırlar. Bu o deməkdir ki, hər şey yaxşı qurtardı. Günəş göldən çıxıb üfüqə yapışa bildi.

Kürəklərini doyunca qaşıyandan sonra onlar meşəyə qaçırlar. Yox, yox, heç nədən qorxmurlar. Yaxşı bilirlər ki, bu meşələr qoruqdu və ora heç kəs gələ bilməz. Sadəcə olaraq öz sevinclərini bir-birinə bildirmək üçün qaçırlar.

Səhərin şehli otlarının, çiçəklərinin dadına baxandan sonra yadlarına düşdü ki, qoruqçu İmran əmi bu saat səbirsizliklə onların yolunu gözləyir. İmran kişi hər gün onları duza qonaq edir, marallar bir göz qırpımında qoruqçunun balaca komasına tərəf götürülürlər. Qablara tökülmüş duzu yalaya-yalaya gözaltı İmran kişiyə baxırlar. İmran kişi bellərini sığalladıqca onlar xumarlanırlar.

Yaxın kəndlərdə yaşayan uşaqlar arabir İmran kişiyə qonaq gəlirlər. Marallar uşaqların ovuclarında uzatdıqları duzu qorxa-qorxa yalayır. Bu zaman uşaqların üzünə diqqətlə baxsanız maralların gözlərindəki sevinci uşaqların üzündə görərsiniz. Göy göl bu mənzərəni əks etdirir və bəlkə də elə buna görə daim xoşbəxt-xoşbəxt ləpələnir.

ARILARIN KƏŞF ETDİYİ KƏND

Dağlar bir-birinə söykənib. Dağlardan axan cığırlardan biri Zaqatalanın gülçülük kəndinə gedən kəsə yola qovuşur. Onu uşaqlar və dağkeçilərindən başqa heç kəs tanımır.

Yaşıl yamaclara qara lent kimi dolanan asfalt yolla avtobuslar şütüyür. Bu yolla sovxoza lap asanca gedib çıxmaq olar.

Bir dəfə aşağı kəndlərdən həmin sovxoza getmək istəyən bir uşaq daha romantik yol kəşf edir. Bal arısına qırmızı lent bağlayır. Dağların ətəyində arını buraxır. Arı xoş qızılgül ətrini duyan kimi gül plantasiyalarına doğru uçmağa başlayır. Uşaq da düşür arının dalınça. Qarşıya dərin dərələr, coşğun çaylar çıxır. Arı asanca uçub gedir, uşaqsa çətinliklə gəlib sovxozu tapır, amma onun arısı kim bilir bu zaman hansı gülün şirəsini çəkirmiş...

Qızılgül plantasiyalarını görəndə adama bir anlıq elə gəlir ki, yaşıl meşələrə od düşüb. Axı, güllər nəhəng tonqalın alovuna oxşayır.

AŞIQ

zun əsrlərdi ki, aşıq xalqın həm müğənnisi, həm rəqqası, həm çalğıçısı, həm deklomasiya deyən aktyoru, həm də müdrik ağsaqqalıdır. Aşıqlar çox hazırcavab olurlar.

Aşığın qalifeyi şalvarı olur. Şalvarın yan tərəfləri sazın sağanağı kimi dombalır. Ayaq hissəsi sazın qolu kimi nazilir. Aşıq ayaqlarına uzunboğaz çəkmə geyir. Çəkmənin boğazı həm dar olur, həm də qırçın-qırçın. Çəkmənin qırçınları sazın pərdələrini xatırladır. Aşığa diqqətlə baxsan görərsən ki, onun qurşaqdan aşağı hissəsi başaşağı dayanmış iki saza oxşayır. Aşıq bunu hiss etdirmək üçün çiyninə keçirdiyi sazı tez-tez başaşağı tutur.

Aşıq başına qaragül dərisindən tikilmiş yumru papaq qoyur. Bu papaq dərin qavala oxşayır. Amma aşıq sazda çalanda qaval onu müşayiət etmir. Aşıq qavalı ayaqları ilə döşəmədə çalır və bu zaman sazı papağından da yuxarıda tutur.

Aşığı balabançı müşayiət edir. Saz hansı havanı çalırsa, balaban da onu tamamlayır. Balabançı gərək aşığın yanında danışmasın. Elə balabançı olur ki, özünü aşıqdan da ağıllı göstərmək istəyir, amma pis vəziyyətə düşür. Məsələn, bir dəfə aşıq Qərib balabançısı ilə yolla gedir. Onlar görür ki, bir qarı vəl qoşub taxıl döyür. Qarı kasıb olduğu üçün vəlin bir tərəfinə at qoşubmuş, bir tərəfinə də eşşək. Balabançı deyir:

Ustad, qoy bu qarıdan bir söz soruşum.

Aşıq Qərib arif adam idi. O saat başa düşür ki, balabançı qarıdan nə soruşacaq. Buna görə də deyir:

—Lazım deyil, gəl gedək. Bu tərəflərin adamları hazırcavab olur, özünü pis vəziyyətə salarsan.

Balabançı onun sözünə baxmır, qarıdan soruşur:

—Ay qarı nənə, ay qarı nənə!

—Nədi, ağrın ürəyimə, nə buyurursan?

—Bax, bu atı başa düşdük qoşmusan vələ. Bəs yanındakı eşşək nədi? Qarı əlüstü cavab verir:

—O da aşığın yanında balabançı kimi bir şeydi, qadan ürəyimə.

Balabançı suyu süzülə-süzülə çıxıb gedir.

Aşıq saz çalır. «Saz» sözünün yaxşı, gözəl, kök, qıvraq kimi mənaları var. Məsələn, birindən soruşsan ki, kefin necədi, əgər işləri yaxşıdırsa deyəcək:

—Kefim sazdı.

Soruşsan ki, səhhətin necədi, deyəcək:

—Sazam!

Yəni saz kimi nəğmə deməyə hazıram.

Tovuzda, Qazaxda, Gədəbəydə, Gürcüstanın, Qərbi Azərbaycanın kəndlərində indi də aşığa böyük hörmət var. Aşıq iki cür olur: ustad aşıq, ifaçı aşıq. Ustad aşıq şer də qoşur, mahnı da bəstələyir. İfaçı aşıq ancaq yaranmış əsərləri oxuyur. Bizdə indi də aşıqlar var. Hətta ustad aşıqlar da var. Onlar əmək adamlarına, qəhrəmanlara şerlər qoşur, mahnılar oxuyurlar.

XALDANLI UŞAQLAR

akıdan, Şəkidən və Qarabağdan gələn asfalt yollar Xaldanda birləşir. Nəhəng çaylar bir-birinə qovuşan kimi yollar da qucaqlaşır, nəhəng dairənin ətrafına fırlanıb sonra yenə də parıldaya-parıldaya uzanıb gedirlər.

Amma Xaldanı şöhrətləndirən yolların burada birləşməsi deyil, bu kəndin balaca vətəndaşlarıdı. Xaldanlı uşaqlar həm qoçaq, həm də babaları Molla Nəsrəddin kimi hazırcavabdırlar.

Bir dəfə Kür çayında balıq tutmaq üçün qarmaq atan bir xaldanlı oğlana rast gəldim. Adı Rafiq idi. Səhərdən Kürün qırağında oturmağına baxmayaraq bir balıq da tutmamışdı. Ona sataşmaq üçün dedim:

—Neçə balıq tutmusan?

O sakitcə dilləndi:

—İndi qarmağa balıq düşsə, onu suya bir də atacam. Əgər yenə düşsə iki balığım olacaq. İki balıq isə bütün ailəmizə bəs edər.

Amma Xaldan uşaqlarını demək olar ki, bütün ölkədə tanıdan onların belə hazırcavab olmaları deyil. Bu uşaqlar olduqca işgüzar və təşəbbüskardırlar. Məktəbin böyük həyəti var. Həyətin bir tərəfində nar plantasiyası uzanıb gedir. Bir az aralıda örtülü şitillik yerləşir. İl boyu orada təzə xiyar-pomidor yetişdirilir. Qızılgül plantasiyası, tingyetiştirmə sahəsi isə Bakıdan Şəkiyə gedən yola qədər uzanır. Bu sahələrdən çoxlu

məhsul götürülüb dövlətə satılır. Bu yaxınlarda uşaqlar bir inkubator alıblar. Deməli, quşçuluq fabrikinin bünövrəsi qoyulub.

Yolunuz məktəbə düşsə uşaqlar sizi əvvəl televiziya mərkəzinə aparacaqlar. Çünki burda çıxış etsəniz sizi şagirdlərin hamısı görə bilər. Sinif otaqlarında, yeməkxanada, qırmızı güşədə, məktəbin muzeyində qoyulan televizorlar o saat işə düşəcək, qonağı bütün məktəb görəcək.

İdman yarışlarına baxmaq istəsəniz, uşaqlar sizi yaşıl stadiona, üzgüçülük hovuzuna, voleybol və basketbol meydançalarına aparacaqlar. Həyətdə iri bir xəritə diqqətinizi cəlb edəcək. Bu doğma respublikanın daşdan və gildən tökülmüş xəritəsidir. Xəritədə Azərbaycanın dağ zirvələrini, çaylarını, dərələrini və düzəngahlarını lap ovcunuzun içi kimi görəcəksiniz.

Qarşınızda iri bir qüllə görsəniz o saat bilin ki, bu Böyük Vətən müharibəsində həlak olan xaldanlılara xatirə ansamblıdır. Onu məktəblilər özləri yaratmışlar.

Kəndi, ya qonşu rayonları görmək istəsəniz məktəbin avtobusu qulluğunuzda hazırdı. Bu rəngbərəng avtobusu uşaqlar təzəcə alıblar.

Uşaqlardan soruşsanız ki, bu işlərdə sizin ən yaxın köməkçiniz kimdir, bir ağızdan deyərlər:

—Zahid müəllim!

Məktəbin direktoru Zahid Şöyübov Xalq müəllimidir. Axşamacan onu uşaqların arasında görmək olar.

—Şagirdlərimiz qoçaq, torpağımız qızıldı. Uşaqlar məktəbi doğma evləri hesab edirlər. Həyətdə uşaq bağçası tikirik. İstəyirik lap körpəlikdən uşaqların tərbiyəsi ilə özümüz məşğul olaq, — deyə Zahid müəllim həvəslə danışır.

Respublikanın və İttifaqın ali məktəblərində oxuyan Xaldan uşaqları həmişə doğma məktəblərindən fərəhlə söhbət açırlar.

Dünyada əziz nə var
Məktəb yolları kimi
Açılır qarşımızda
Ana qolları kimi.

Baxın bizim məktəbə,
Dayanıbdı dağ kimi.
Bu dağdan axıb gedir
Cığırlar bulaq kimi.

Cığırlar boyunbağı
Cığırlar sapa bənzər,
Uşaqlar muncuq kimi
Bu saplara düzülər.

PARLAQ DAMLALAR

əqin xəritədə Kür çayını görmüsünüz. Kür – nadinc deməkdir. Hər il yaz gələndə çayın damarlarında qan coşmağa başlayırdı. Su necə köpüklənib qalxırdısa ətraf kəndləri basırdı. Adamlar çox fikirləşəndən sonra belə qərara gəldilər ki, çayın qabağını kəssinlər. Amma bu asan iş deyildi. Kürü bəndə salmaq istəyənlər bütün qohum-əqrəbalarını, dost-tanışlarını, hətta adlarını bilmədikləri, üzlərini görmədikləri adamları köməyə çağırırdılar. Kimi görürdülərsə:

—Min gəl çevir, — deyirdilər. Çünki bu uzaq yerə piyada gəlmək mümkün deyildi.

Kürü bəndə saldıqları yerdə evlər tikdilər. Bir sözlə qəşəng şəhər saldılar.

—Bu şəhərə nə ad qoyaq? — deyə fikirləşdilər.

—Bir halda ki, demişik «Min, gəl, çevir», onda qoy belə də olsun – Mingəçevir, — deyə müdrik bir qoca dilləndi.

Kürün bəndə düşdüyü yerdə böyük bir dəniz yarandı. Adını da qoydular Mingəçevir dənizi.

Sən demə, dəcəl Kür bu günü çoxdan gözləyirmiş. Onun damlaları Mingəçevir SES-nın trubinlərindən keçəndən sonra parlaq İliç lampalarına çevrildi. İndi bu lampalar təkcə Kürün hirslənib sularına qərq etdiyi kəndlərdə yanmır, onun işığı qonşu respublikaların evlərini də nura çevirir.

Çay isə daha kürlük etmir. Adamlar fikirləşdilər ki, bəlkə onun adını dəyişdirsinlər, nəsə yaxşı bir ad qoysunlar. Amma dəyişdirmədilər. Çünki, bu çay dəcəlliyi uşaqlıqda etmişdi. İndi isə ağıllı bir cavandı. Uşaqlar onun işığında dərs oxuyur, gözəl xəyallara dalırlar.

QUŞ TOYU

oy aprelin sonuna təyin olunmuşdu. Ev sahibləri yuvaları, kolların dibini gözdən keçirirdilər ki, görsünlər hər şey qaydasındadır, ya yox. Bu zaman qanad vıyıltıları onların şən civiltilərini batırdı. Sərçələr baxıb gördülər ki, işıq zolağına oxşayan Qızıl qaz dəstəsi gəlir. Qazlar qırmızı ayaqlarını cütləyib arxaya uzatmışdılar. Çəhrayı tükləri günəşin işığından solğun alova bənzəyirdi.

Sərçələr qonaqları qarşılayanda meşənin bu başından bir səs eşitdilər:

—Bup-bup! Necə bilirsən, toyu başlayaqmı?

Meşənin o biri başından başqa bir şanapipik cavab verdi.

Ev sahibləri bu söhbətə qoşulanacan nağaraçılar toyu başladılar.

—Tuq-tuq, tuq-tuq.

—Canım bir dayanın görək! Hələ qonaqların çoxu gəlməyib.

Amma sərçələrin bu həyəcanı əbəs idi. Leyləklər dimdiklərini şaqqıldatmağa, bülbüllər tütəklərini püfləməyə başladılar. Qarğalar «qarr qarr» edərək deyirdilər:

- Əgər mümkünsə bir az bərk çalın!

Birdən kim isə qışqırdı.

—Dut-dudu, dut-duduu-dad, məni tutdular, şirin kabab etdilər.

Turacın işi-gücü səhərdən axşamacan beləcə gileylənmək idi. Onu tutub şirin kabab edən-zad yox idi. Burada quşlar az qala adamın çiyninə qonurlar.

Qoruqda quşlar aprelin axırından sentyabra kimi demək olar ki, hər gün toy edirlər. Qutan iri dimdiklərini şaqqıldadıb soruşur:

—Deyin görək bu kimin toyudur?

Onun səsini heç kəs eşitmir. Torağayların, bildirçinlərin, kəkliklərin səsi bir-birinə qarışıb.

Qutan isə hirslənib dimdiyinin altında sallanan iri torbada saxladığı balığı diri-diri udur və qanadlarını şaqqıldadır.

Lənkəranın yaxınlığındakı Qızılağac qoruğunda bütün yayı beləcə toy olur. Amma quşlar hələ də bilmir ki, bu kimin toyudur. Əslində bu, onları heç maraqlandırmır da. Toydur, vəssalam, çal, oxu, oyna...

GÖYDƏN DÜŞƏN ALMALAR

eyirlər alma almaya bənzər. Amma Qubanın almaları qətiyyən bir-birinə bənzəmir. Azərbaycan dağları ilə Dağıstan dağlarının bir-birinə arxa-arxaya söykəndiyi yerin yaxınlığında Quba rayonu yerləşir. Onun ucsuz-bucaqsız bağlarında yetişən almaların hər biri sanki özünün gözəl olduğunu nümayiş etdirmək üçün lap çox parıldamağa çalışır.

Heç bilirsən bu mövsümdə Qubada nə qədər alma yetişdirirlər? Gəl hesablayaq! Bizdə bir nağılı danışıb qurtardıqdan sonra deyirlər: Göydən üç alma düşdü. Nağılçılar fikirləşiblər ki, əgər hər nağılın sonuna üç Quba alması düzsələr, dünyanın bütün nağılları qurtarar, amma bu almaların çoxu eləcə qalar yerində. Yox, əgər hər nağılın sonuna üç maşın alma qoysaq, onda Quba almaları Azərbaycan nağıllarına çatar. Azərbaycanda da ki, nağıl nə qədər istəsən var. Gəlin görək Qubada neçə alma sortu yetişdirirlər?

Günəşin sarı şüalarını daha çox sevən ŞAFRAN! Sarılıqda yetişmiş buğda zəmiləri ilə, lap elə əriyin özü ilə yarışa bilər. Dadında isə bir az yemiş dadı zar, bir az banan dadı. Çiyələklə dondurmanı qarışdıranda da az qala şafran dadı verir.

Özünü yaşıl çəmənliyə oxşadan ROZMARİN! Azca qalın qabığının altında dünyanın ən lətif dadını gizlədib. Rozmarini yeyəndə almanın bu qədər kövrək olduğuna inana bilmirsən.

Yay gələndə həyasından yanaqları allanan CIRHA-CIRLI. Şirinlikdə balla yarışa bilər. Arılar cırhacırlı almasının çiçəklərini bəlkə elə buna görə çox sevirlər.

Hər dəfə bu gözəl almalar süfrəyə düzüləndə nağılçıları xatırlayıram. Göydən üç alma düşdü... Bu almalar o qədər zərifdir ki, onların ağacda bitdiyinə inanmırsan. Bəlkə nağılçılar doğru deyirlər, Quba almaları günəşin özündən qopub düşür?!

ŞUŞA-XONÇA ŞƏHƏR

uşa şəhərini yaxşı təsəvvür etmək istəsəniz gərək sizə əvvəlcə xonça haqqında danışım. Xalqımızın qədim bir adəti var: qohumların və dostların toyuna xonça aparırlar. İri bir sininin içinə şirniyyat doldurub üstünə qırmızı yaylıq örtürlər. Sonra onu başlarından da bir az yuxarı qaldırıb toyda süzərlər və xonçanı bəylə gəlinin otağına apararlar.

Əgər yolunuz Şuşaya düşsə, hələ ora 10-15 kilometr qalmış qədim Əsgəran qalasından baxsanız görərsiniz ki, dağlar şəhəri xonça kimi yuxarı qaldırıb. Elə bil dağlar bu şəhərin sakinlərinin nə qədər xoşbəxt olduğunu bütün dünyaya göstərmək istəyir.

Şəhər o qədər hündürdür ki, sanki ildırımlar adamın ayağının altından çaxır. Adamlar burada doğrudan da xoşbəxtdir. Hər addımında dünyanın bir gözəlliyi olan bu şəhərdə o qədər yeraltı sular, təmiz hava var ki, böyük Vətənimizin hər yerindən bura adamlar axışıb dincəlməyə gəlirdilər.

ŞUŞANIN UŞAQLARI

Nəhəng çiçəyə bənzər
Şuşanın uşaqları,
Cıdır düzündə gəzər
Şuşanın uşaqları.

Oğlanlar körpə tərlan
Qızlar ağ qağayıdı.
Qayalar dərələrdən
Çıxan qonur ayıdı.
Şuşanı xonça kimi
Göyə qaldırıb dağlar
O xonçanın içində
Noğul-noğul uşaqlar.

Heç yerdə belə güclü
Görməmişəm dağları.
Şuşanı qaldırıb ki,
Dünyanın hər yerindən
Görsünlər uşaqları.

ODLAR YURDUNUN PAYTAXTI

Hər şey vertolyotun sınaqdan keçirilməsi ilə başladı. Heç bilmirəm belə bir iş görmək kimin ağlına gəlmişdi. Stadionun düz ortasında nəhəng çəyirtgəyə oxşayan həmin o yaramaz vertoyotun pərlərini görəndə canıma vic-vicə düşdü. Ürəyimə nəsə damdı. Amma özümü elə göstərdim ki, guya hər şey qaydasındadır Aysel "Çəyirtgəni" görəndə -vertolyotu deyirəm — əlimdən tutub məni tələsdirdi.

—Tez elə, bu saat sınaq başlayacaq. Atacan, doğrudur ki, sən dünyanın ən qorxmaz adamlarından birisən? Mən uşaqlara demişəm ki, əgər müharibə olsaydı, atam hökmən qəhrəman olardı.

Dilim topuq vura-vura dedim:

—Yaxşı olar ki, o lənətə gəlmiş müharibə heç olmasın.

— Orası elədi. Amma adam elə hər yerdə igidlik göstərə bilər. Axı sən deyirdin ki, biz Azlardanıq. Qədim türk tayfalarını deyirəm. Yadındadı, danışırdın ki, Azlar çox igid olduqlarına görə onların kişilərinə və qadınlarına "ər" deyərmişlər. Yəni igid, cəngavər adamlar, sonralar bu səz elə Azər olub. Mən bununla fəxr edirəm. İndi uşaqlara sübut edəcəyik ki, biz əsl Azər nəslindənik.

Deyəsən Aysel əslməqsədin üstünə gəlirdi. Hiss elədim ki, ayaqlarım titrəyir. Az qaldım deyəm ki, mən elə sən deyən igidlərdən deyiləm. Bu zaman boynu qalstuklu bir dəstə uşaq bizə tərəf yüyürdü. Onlar nəsə qışqırırdılar. Aysel də əlimdən

qopub onlara tərəf götürüldü. Belə bir fürsəti əldən vermək olmazdı. Başa düşürdüm ki, uşaqların hazırladığı bu "Çəyirtgə"nin ilk sərnişini Aysellə mən olmalıyam. Aradan çıxmaq istəyirdim ki, uşaqlar məni dövrəyə aldılar:

—Yaşasın Az ərlərin nümayəndəsi! Yaxşı ki, gəldiniz. Yoxsa heç kəs bizə etibar edib vertolyota minmirdi ki, onu sınaqdan keçirək. O saat bilinir ki, ürəkli adamsınız.

—Üstəlik də əsl Azər övladısınız, — deyə, pioner baş dəstə rəhbəri uşaqların sözünə qüvvət verdi.

Ayaqlarımın necə titrədiyini təsvir etməyəcəyəm. Amma ürəyim az qaldı ki, sinəmi deşib çıxsın Onun guppultusunu lap yaxında duran uşaqlar da yəqin ki, eşitdilər. Amma bu guppultunun qorxudan olduğunu heç kəs ağlına gətirmədi.

Bu necə vertolyot idi belə?! Məni itələyib birtəhər onun balaca qapısından içəri saldılar və kresloya elə kipləşdim ki, istəsəydim də daha düşüb qaça bilməzdim. Qayışı bərk-bərk bağladım. Amma Aysel sərçə kimi atılıb-düşür, pilotları tələsdirirdi:

—Tez olun, biz uçmaq istəyirik.

Bax bu an ürəyimdən keçdi ki, kaş motor işə düşməyəydi. Amma motor elə guruldadı ki, elə bildim bu saat stadion dağılacaq. Qulaqlarımı bərk-bərk tutdum. Gözlərimi yumdum. Gurultunun arasında uşaqlardan kiminsə qışqıra-qışqıra dediyi sözü eşitdim:

—Gözünü yumur ki, bizim vertolyotumuz barədə yaxşı bir kitab yazsın.

"Çəyirtgə" dartındı və əsl vertolyotlar kimi yavaş-yavaş havaya qalxdı. Elə bil bizi kəndirlə göyə çəkirdilər. Oturacağın söykənəcəyindən bərk-bərk yapışmışdım.

Aysel oturacağın üstündə dik dayanmışdı. Balaca pəncərədən aşağılara baxırdı. Birtəhər cəsarətimi toplayıb mən də baxdım. Uşaqlar görünmürdü. Abşeron yarımadası nəhəng balina kimi başını sahilə qoyub dənizin içinə uzanmışdı. Üç

tərəfdən ləpələr onu döyəcləyirdi. Amma Abşeron elə sakit uzanmışdı ki, elə bil min illik yuxuya getmişdi.

Aysel çənəsini "Çəyirtgə"nin balaca pəncərəsinə dirəyib köpüklənən ləpələrə baxırdı. Sonra pıçıltıyla şeir oxumağa başladı:

Köpüklənib göy dəniz,
Ləpələr ağbaşdılar.
Qaçdı-tutdu oynayan,
Bir neçə yoldaşdılar.
Bir-birini qovdular,
Göy təpələr aşdılar.
Başlarının üstündə
Qağayılar uçdular.
Qəşəng qanadlarından,
Ağ yelkənlər açdılar.
Xırda-xırda balıqlar,
Bu oyunda çaşdılar.
Dəcəllərin yolundan,
Bir kənara qaçdılar.
Sahildə göy ləpələr
Möhkəm qucaqlaşdılar.

Bu saat şeir dinləməyi ağlıma belə gətirmirdim. Əksinə Ayselin ağcaqanad vızıltısına oxşayan səsi qulaqlarımda cingildəyirdi. Uzaqdan Böyük Qafqaz dağlarının şiş ucları görünürdü. Dənizə yaxınlaşdıqca dağlar əriyir, alçaq təpələrə çevrilirdi. Hardansa oxumuşdum ki, Abşeronun uzunluğu 60 kilometrdir. Sahilə yaxın olan enli hissəsi 30 kilometrdir. Doğrusu "Çəyirtgə"nin uçuşu xoşuma gəlirdi və yavaş-yavaş qorxu hissi məni tərk edirdi. Aysel Abşerona baxdığımı görüb dedi:

—Mən bilirəm "Abşeron" sözünün mənası nədir. Müəllimimiz deyib ki, bu söz iki hissədən ibarətdir: farsca ab-su, şor isə duzlu deməkdi. Yəni duzlu su olan yer.

Pilot söhbətə qarışdı.

—Mən isə eşitmişəm ki, Abşeron "Əfşəran" sözündəndir. Əfşarlar bizim ulu babalarımızdır. Torpaq da onların adı ilə bağlılır. Mübahisə qızışdı və uşaqlar yəqin ki, mənim köməyimə arxayın olub öz bildiklərinin üstündə durdular. Ağzımı açıb onlara demək istəyirdim ki, bizim Azərbaycanda torpaqların, şəhərlərin adı oralarda min illər bundan qabaq yaşamış tayfaların adı ilə bağlıdır. İnsanlar tayfa və qəbilələrinin, igid adamlarının adını öz yaşayış yerinə verirlər ki, qoy gələcək nəsillər onların babalarının kim olduğunu bilsin. Məsələn, Sak tayfası dağların qoynunda saldığı şəhərə öz adını qoyub: Şəki yəqin ilk vaxtlar /Sak+i/ olub. Zaqatala yəqin əvvəllər /Sak+tala/ olub. Bakı /Bak+i/ olub. Amma bunları deyə bilmədim. "Çəyirtgə"miz yelləncək kimi rəqs eləməyə başladı. Elə bildim daha hər şey qurtardı. Yəqin ki, sifətimdə bircə damcı da qan qalmamışdı. Amma uşaqlar həvəslə qışqırdılar:

—Eheyyy, Xəzri, zarafatı burax. Bizi dənizə salarsan.

Xəzri şimal küləyidir. Cənub küləyinə isə bizdə Gilavar deyirlər. Deməli, bizi yellədən külək imiş. Özümə gəlib nəhəng balinaya — Abşeron yarımadasına, onun çiynində ucalan Bakıya baxdım. Bu zaman Aysel qışqırdı:

—Yanğın, yanğın. Bir baxın dağlar necə yanır! Bu saat kəndlərə də od düşə bilər.

Ayselin həyəcanları yersiz idi. Bu dağlar min ildir ki, beləcə yanır. Məmmədli kəndinin yaxınlığındakı bu yerə təsadüfi olaraq "Yanardağ" demirlər. Abşeronda belə yerlər çox olub. Suraxanı kəndindəki Atəşgah ona görə müqəddəs yer hesab edilir ki, yerin altından çıxan bu alovun səbəbini uzun müddət başa düşməyiblər. Oda sitayiş edənlər uzaq Hindistandan aylarla yol gəlib, bu torpağı müqəddəs sayıblar. Azərbaycana odlar yurdu deyəndə həm bu alovlara əsaslanıblar, həm də onun od kimi yandıran cəngavər oğullarını və qızlarını nəzərdə tutublar.

Bu fikirlər başımdan keçəndə əməlli-başlı ürəkləndim. Fikirləşdim ki, bu lənətə gəlmiş "Çəyirtgə" benzini qurtarana qələr uçsun. Mən də sənə Bakı haqqında bir-iki əhvalat danışım.

Daha sən "Bakı" sözünün hardan yarandığını bilirsən. Amma onu ayrı cür də izah edirlər. Yazırlar ki, bu söz Badikubə yəni "küləkli şəhər" deməkdi. Şəhərin adının farsca deyilməsinin səbəbi var. Bakıda qazıntı zamanı V-VII əsrlərə aid olan Sasani dəfinəsi tapılıb. Sasanilər də farslar kimi yəqin ki, eramızın əvvəllərindən Bakıya sahiblənmişdilər. Amma tarixçilər sübut edir ki, hələ eramızdan əvvəl III-I minilliklərdə buralarda insanlar yaşayıb və Sasanilər gələnə kimi bu torpaqların öz adı olub.

Vayyy... Bu nədir belə... Xəzri bizi yelləndirdi. Mən hekayətimin ardını düşünməyə macal tapmamış, bilirsiniz, "Çəyirtgə" necə süzdüsə bir də baxdım ki, ayağımızın altında İçərişəhərin qala divarları dayanıb. Mən İçərişəhərə yuxarıdan ilk dəfə idi ki, baxırdım. Ayselin sevinclə qışqırmasına baxmayaraq xeyli özümə gələ bilmədim. Bir azdan pilotlar "Çəyirtgə"nin uçuşunu tənzim etdilər. O əvvəlki kimi sakitcə uçmağa başlayanla boynuna qırmızı qalstuk bağlamış pilot balaca kabinəsindən çıxıb bizə baş əydi və dedi:

—Narahatçılıq üçün üzr istəyirik. Başımız Yanardağa baxmağa qarışmışdı. Ona görə də maşın bizi xeyli uzaqlara gətirdi.

Ona cavab verməyə taqətim yox idi. Təkcə ayaqlarım deyil, ağzımda dilim də titrəyirdi və bircə söz desəydim uşaqlar hər şeyi başa düşərdilər. Üzümü çevirib ayağımızın altında qoyun sürüsü kimi yatışan evlərə baxdım. Və birdən-birə kəşf etdim ki, İçərişəhərin evləri də eynilə canavarın qovub bir yerə topladığı qoyun sürüsünə oxşayır. Evlər bir-birinin qarnına girmişdi. Sanki hər bir ev yanındakına deyirdi: "Bir az o tərəfə

dayan, mən də yerimdə rahat dura bilim". Dərindən köks ötürdüm.

—Atacan, İçərişəhərin evləri niyə bir-birinə bu qədər yaxındır?

—Canavarların qorxusundan.

Aysel necə şaqqanaq çəkib güldüsə pilot kabinədən başını çıxarıb bizə baxdı.

—Canavar nədi?

—Səni necə başa salım? Min illərdi ki, Bakının nefti başına bəla olub.

—Yox ata, müəllimimiz deyir ki, neft "qara qızıldı".

—Elədi. Amma qızıl həmişə başa bəla olur. Min illərlə qəsbkarlar bu nefti əldə etmək üçün Bakını narahat edir, ora qoşun yeridir. Buna görə də dar gündə adamlar bir-birinə arxa olduğu kimi evlər də bir-birinə həyan olur. Bir-birinə sıxılmaqla məhəbbətlərini ifadə edirlər. Bu şəhərin təxminən iki min beş yüz yaşı var!

—İki min!!! — Aysel həyəcanla qışqırdı. Deməli, Azərbaycanın ən qədim şəhəri Bakıdı.

—Yox qızım, Azərbaycanın ən qədim şəhəri Təbrizdi. Yaşı üç mindən çoxdu. Uzun illər paytaxtımız olub. Sonra Azərbaycanı Araz çayı boyunca iki yerə parçalayıblar.

—Kim parçalayıb?

—Canavarlar!

Aysel bu dəfə gülmədi. Qaş-qabağını salladı.

"Çəyirtgə" qala divarlarının diş-diş görünən təpəsi ilə uçurdu. Bu divarlar cəmi 900 il əvvəl çəkilib.

—Bax görürsənmi, o Sınıqqaladır. Heç bilirsən nə vaxt tikilib bu? XI əsrdə. Onun memarı Məhəmməd Əbubəkr oğlu idi.

—Atacan, bizi Qız qalası maraqlandırır. Onun haqqında danış.

Mən Qız qalasının kiçik təyyarə meydanına bənzəyən təpəsinə baxdım. Uşaqlar ora dırmaşıb bizə əl edirdilər. Orasını

deyim ki, Qız qalası memarlıq formasına görə bütün Şərqdə yeganə abidəddr. Memarı Məsud Davud oğlu görünür çox bilikli adam imiş. Qalanı elə tikib ki, onun başından dənizin ortası əl içi kimi görünür. Qalanın hündürlüyü 28 metr, diametri 16-17 metrdir. Divarlarının qalınlığı aşağıda 5, yuxarıda 4 metrdir.

—Bilirsən, bu qalanın adı ilə bağlı çox rəvayətlər var. Onun adını hərə bir cür izah edir. Amma mən bilən bu qalanın əvvəlcə adı "göz qalası" olub. Yəni müşahidə məqsədilə tikilən qala. Bilirsiniz, insanlar bir şey tikəndə həmişə birinci növbədə öz yaşayışlarını, düşməndən müdafiə olunmağı qarşıya məqsəd qoyublar. Amma "Qız qalası" sözünü başqa cür izah edənlər də var. Axı dilimizdə "qız", "qırmızı", "qızıl" kimi çoxlu sözlər var ki, bunların hamısı od mənasını ifadə edir. Bu fikri söyləyən alimlər belə fikirləşir ki, bəlkə "Qız qalası"nın, başında od yandırırmışlar. Axı insanlar "od dilində", tonqal dilində ta qədimdən bəri danışırmışlar. Bu da ağla batandır.

Bir qisim "Qız qalası" sözünü belə izah edir. Yəni alinmaz, toxunulmaz qala. Görürsünüz, İçərişəhərin qala divarlarının cəmi üç qapısı var. Gənclər meydanına çıxan qoşa qala qapısına o zaman Şamaxı darvazası deyərdilər. Deməli, Şamaxı tərəfdən gələn dostların üzünə bu qapılar açılırdı. Növbətçilər qonaqları mehribanlıqla qəbul edirdilər. Bax, o Niyazi küçəsinə açılan darvazanı görürsünüz, hə, ora Salyan darvazası deyərmişlər. Azərbaycanın cənubundan gələn qonaqlar bu qapıdan qəbul olunar, karvansaraların, evlərin əziz qonağına çevrilərdilər. Dəniz sahilinə açılan darvazanın adı yoxdu. Bu darvaza şəhərin sakinləri üçün idi.

—Atacan, bəs düşmənlər necə olsun? Onlar hansı darvazadan gəlirdilər?

—İçərişəhərin qapıları düşmənlərin üzünə həmişə bağlı olurdu. Təkcə qala divarlarının balaca deşiklərindən başqa.

Əgər düşmən gələrdisə bu deşiklərin hərəsindən onlarla ox onun sinəsinə tuşlanardı.

Birdən Ayselin ağlına gəldi ki, "Çəyirtgə"nin uçuşuna kömək etsin. Tez cibindən bir şar çıxartdı. Üfürüb doldurdu və vertolyotun pəncərəsindən çölə çıxarmaq istəyənlə başa düşdü ki, səhv edib. Şarı boşaltdı, onu pəncərədən çölə tutub yenidən şişirtdi. Şarın ağzını bərk-bərk bağlayıb ipini əlində tutdu. Şar yuxarı dartındı. Ayselə elə gəlirdi ki, vertolyotun işinə əməlli-başlı köməyi dəyir. Bütün əhvalatlar da elə burdan başladı. Bir də gördük ki, Ayselin şarı dartınıb sapı qırdı və yavaş-yavaş Sabirin heykəlinə tərəf uçmağa başladı. Sabir Azərbaycanın böyük satirik şairi olub. Uşaqlar üçün də ilk gözəl əsərləri elə o yazıb. Şar düz Sabirin mərmər postamentinin yanında yerə endi. Pilotlar da elə buna bənd imiş kimi "Çəyirtgə"ni Gənclər meydanında — qoşa qala qapısının qarşısında yerə endirdilər.

Elə bil üstümdən dağ götürülmüşdü. Bir anda bizi dövrəyə alan uşaqların şən qışqırıqlarına, mənim nə qədər cəsur bir adam olmağım barədə deyilən nidaların heç birinə əhəmiyət vermədən birtəhər dartınıb oturacaqdan qopdum və aşağı düşəndən sonra dərindən nəfəs aldım. Uşaqlar Ayselin şarını tutub götürmək istəyəndə qəfil bir-külək qopdu və şarı qaldırıb bax bu binanın düz başına apardı. Biz şarın ardınca baxanda bu binanın gözəlliyini elə bil birinci dəfə idi ki, görürdük. Binanın çöl tərəfi ornamentlərlə bəzənmişdi. Şamil Fətullayevin kitabından bu binaların tarixi barədə oxumuşdum və fikirləşmişdim ki, onların hərəsi gözəl bir sənət əsəridir. Heyf ki, məktəblərimizdə bu sənət əsərlərinin gözəlliyinin nədən ibarət olduğunu uşaqlara elə sən deyən başa salmırlar. Hamı bu gözəlliyin yanından çox saymazyana keçib gedir.

Aysel əlimdən dartıb məni dayandırdı. Sonra binanın üstündə yazılmış sözləri oxumağa başladı: "Azərbaycan Respublika əlyazmaları institutu". Sonra qaşlarını çatıb soruşdu:

—Bu necə institutdur belə?

—Əslində bu institut deyil, xəzinədir.

Aysel hökmən bir möcüzə olacağını yəqin edib irəli gəldi:

—Necə yəni xəzinədir? Bəs bu xəzinənin qarovulçusu hanı?

— Səni nə təhər başa salım, bu binanın içində bizim ulu babalarımızın yazdığı qiymətli əlyazmaları saxlanılır. Cavan alimlər onları oxuyur, elmi iş yazır, keçmişi bu günlə müqayisə edirlər. Amma bu binanın özünün tarixi heç də içində saxlanan sənədlərin tarixindən az maraqlı deyil.

Gərək bu sözləri deməyəydim. Bundan sonra uşaqlar məndən əl çəkmədilər.

—Bu bina əvvəllər nə olub?

—Qız məktəbi!

Uşaqlar əvvəl həyətdə binanın pəncərələrinə, iri qapılarının qırağı ilə burumlanıb gedən naxışlara baxdılar. Elə bil ki, binanın çölünə vurulan naxışlar daşdan deyil, saqqızdan imiş. Çünki onu elə məharətlə burumlayıb sığallamışdılar ki, adam naxışların bərk olduğuna inanmaq istəmirdi. Amma başa düşəndə ki, bu naxışlar ən möhkəm daşlara vurulub onda uşaqlardan biri dedi:

—Ohooooo!

Bu "ohoooo"nun mənasını yəqin ki, başa düşdünüz. Yəni gör o naxışlara nə qədər zəhmət çəkilib. İçəri girəndə isə bayaq "ohooo" deyən qıvrımsaç oğlanın ağzı açıla qaldı. Çünki daha heç bir "ohhooo" ilə həyəcanını ifadə eləmək mümkün deyildi. Binanın girəcəyi o qədər hündür idi ki, pilot yuxarı baxanda papağı düşdü. Sonra o, papağını götürüb başına qoydu və bu dəfə sağ əli ilə bərk-bərk tutdu ki, binanın tavanına baxanda bir də sürüşüb düşməsin. Amma binanın içərisinə baxmaqla doymaq olmurdu.

—Deməli, bu məktəbdə qızlar oxuyub. Bunu tikdirmək kimin ağlına gəlib belə?

—Bakı milyonçusu Hacı Zeynalabdin Tağıyevin! Milyonçu adını eşidəndə uşaqlar qaşqabağını salladı. Hətta bayaq bizə qoşulub içəri girən və hələ də adını bilmədiyimiz, hər gördüyünə "ohooo" deyən qıvrımsaç oğlan da qaşqabağını tökdü.

—Sizə nə oldu? Məgər mən pis bir söz dedim?

—Yox! Amma milyonçuların adını çəkməyin. Müəllimimiz deyir ki, onlar qan içən və istismarçı olublar.

—Amma Hacı sən deyənlərdən olmayıb. İstəyirsiniz sizə onun həyatından bir hekayət danışım.

Mən hekayət deyəndə Aysel onu həmişə nağıl mənasında başa düşür və bu qız dünyada nağılı hər şeydən çox sevir.

—Hə, atacan danış! — dedi və fəxrlə uşaqlara baxdı. Bu baxışın mənası o idi ki, yəni görürsünüz, atam təkcə qorxmaz deyil, həm də sinəsi nağıllarla dolu bir adamdır. Amma uşaqlar onun baxışına heç əhəmiyyət də vermədilər. Mən isə nağılıma yox, yox olmuş hekayətimə başladım.

HƏSƏN BƏY ZƏRDABİDƏN SƏRBƏST İŞLƏMƏLƏR

HƏSƏN BABA

iri vardı, biri yoxdu, Həsən baba adında çox ağıllı bir adam vardı. Həsən baba da sizin kimi uşaq olmuşdu. İndiki Zərdab rayonunda doğulmuşdu. Onda Zərdab balaca bir kənd idi. Amma balaca olsa da onun üçün əzizdi və buna görə də Zərdabın adını özünə təxəllüs götürmüşdü. Adını belə yazdırırdı: Həsənbəy Zərdabi. Zərdabi sözündəki «i» hərfi sizi çaşdırmasın. Bu «i»nin mənası odur ki, yəni Həsən baba Zərdabdandı. O zamanlar belə şeylər çox olurdu. Məsələn Qətran Təbrizi. Yəni ki, Təbrizli Qətran, Arif Ərdəbilli. Yəni ki, Ərdəbilli Arif, Seyid Əzim Şirvani. Yəni ki, Şirvanlı Seyid Əzim. Bax belə!

Həsən baba uşaqlıqdan zehnli idi. O qədər zehnli idi ki, başqalarının çətinliklə daxil olduğu Tiflis gimnaziyasına imtahansız qəbul olundu. Moskva universitetinin təbiətşünaslıq şöbəsini bitirdikdə ona birbaşa alimlik adı verdilər.

Həsən baba əkin-biçin işlərini, heyvanat aləmini elə dərindən bilirdi ki, elə bil çox şeyi öz əlilə yaratmışdı. Bir gün özlüyündə belə fikrə gəldi ki, bu qədər biliyini niyə xalqının xeyrinə sərf etməsin?! Bu çox ağıllı bir fikir idi. Amma hansı yolla bu işi görəydi?! Çox fikirləşəndən sonra belə qərara gəldi ki, bir qəzet çıxartsın. Fikirlərini yazsın həmin qəzetə, camaat da oxuyub faydalansın. Burası da var ki, qəzet açmaq sizə asan gəlməsin. O vaxt bu, çox çətin məsələ idi. Amma ona da Həsən baba deyərəm. Bütün çətinliklərə sinə gərdi, varını, yoxunu satıb mətbəə aldı və 1875-ci ildə Azərbaycan dilində ilk qəzeti çıxartdı. Qəzetin adını qoydu «Əkinçi», Elə ki, «Əkinçi» işə düşdü camaat da qəflət yuxusundan ayıldı. Savadlı adamlar

başladılar qəzetə cürbəcür məqalələr göndərməyə. Həsən baba da bildiklərindən yazıb əkinçilərə, maldarlara çox şey öyrətdi. Düzdü, cəmi ikicə ildən sonra qəzeti bağladılar. Çünki Həsən baba qəzetdə cəmiyyətin çox eyiblərini açırdı, bu da xoşa gəlmirdi. Həsən baba da fikirləşdi ki, nə olar gedərəm kəndimizə yenə də əkin-biçinlə məşğul olaram. Belə də elədi. Çıxıb getdi Zərdaba. Amma yəqin o zaman həmkəndlilərinin çoxu bilmirdi ki, onlarla çiyin-çiyinə işləyən, hər gün sübhdən gecə düşənədək tarlalarda alın təri tökən Həsən baba dünyanın ən böyük alimlərindən biridir.

Həsən baba düz 65 il yaşadı. 1907-ci ildə Bakıda vəfat edəndə ümumxalq matəmi oldu. Camaat yaxşı başa düşürdü ki, bu saqqallı qoca nə qədər böyük işlər görmüşdü.

Bir dəfə evdə oturub balaca qızım Aysellə eyvandan küçəyə baxırdıq. Balaca bir arı vızıldayıb yanımızdan keçdi və Aysel məni sorğu-suala tutmağa başladı. Arı hara gedir? O, balı hardan alır? Mum necə yaranır? Suallar o qədər çox idi ki, bilmədim neyniyim. Birdən Həsən babanın yazdığı kitablar yadıma düşdü. Mən o kitabları bir xəzinə hesab edirəm və qızımın da, sizin də bütün suallarınıza Həsən babanın kitablarında ətraflı cavablar var. Fikirləşdim ki, Həsən babanın kitablarından parçaları işləyib sizə təqdim edim. İşlədim deyəndə, bəzi sözləri bu gün ifadə olunan şəkildə düzəltdim ki, anlaşıqlı olsun. Vəssalam! İnanıram ki, Həsən babanın hekayələri sizə çox məlumat verəcək, hər halda siz bu kitabı oxuyub qurtaranda indikindən daha bilikli olacaqsınız.

AĞILLI VƏ CƏSUR QARIŞQALAR

əhərdə yaşayan uşaqlar yaxşı bilir ki, məsələn beşmərtəbəli evin yuxarı mərtəbələrində qarışqa yuvası olmur. Amma ehtiyatsızlıq edib mürəbbəni açıq yerə qoysanız bir də görəcəksiniz ki, hardansa bir qarışqa peyda oldu. Mürəbbəni yedi, sonra da ağzını doldurub getdi. Bir azdan qatar-qatar qarışqa gəlib çıxacaq və baxıb görəcəksən ki, mürəbbə qabının içi bu çağrılmamış qonaqlarla dolub.

Bir alim yazır ki, mürəbbəni içində su olan dərin bir qabın ortasına qoydum ki, görüm bu işlərin axırı nə olur. Bir də gördüm mürəbbə qabının üstündə bir qarışqa dayanıb. Bir azdan onların sayı çoxaldı. Bir də baxıb görəm ki, nə?! Qarışqalar çıxıblar tavana və yağış damcısı kimi oradan özlərini atırlar mürəbbə qabının içinə.

Dedim heç eybi yoxdu. İndi qoy onlar buradan çıxsınlar görüm necə çıxacaqlar. Daha quş olub uçmayacaqlar ha! Gözləməkdən təngə gələn qarışqalar suda üzüb keçmək qərarına gəldilər. Amma elə suya girən kimi məlum oldu ki, çoxu üzə bilmir. Qarışqaların batmaq təhlükəsini görən o biri taydakı qarışqalar təşvişə düşdülər. Harasa yox oldular. Çox keçmədi ki, bir neçə güclü qarışqa gəlib çıxdı. Təzə gələn qarışqalar üzgüçülər imiş. Onlar özlərini suya atıb batanların ayağından tutub suyun üzündə sürüməyə başladılar. Sahilə çıxaran kimi boğulan qarışqaların ayağından tutub başı üstə qaldırdılar və qarınlarına dolmuş suyu boşaltdılar. Qarışqaların gözləri açıldı və durub getdilər işlərinin dalınca.

QARIŞQALAR NİYƏ AZMIR?

əni yəqin ki, belə bir sual düşündürür. Axı bir də görürsən ki, qarışqa uzun bir səfərə çıxdı. Bəs geri qayıdanda necə olur ki, başqa səmtə getmir?

Bunun səbəbi qarışqaların iy bilməsidir. Bir yana gedəndə qarışqanın öz ləpirinin iyi yolda qalır. Yuvaya qayıdanda həmin iyi tutub gedirlər və heç zaman da azmırlar.

Əgər müşahidə üçün qarışqanın keçdiyi yoldan torpağın bir hissəsini götürüb qırağa atsan, o həmin yerəcən gələcək və sonra öz ləpirinin iyini axtaracaq. Tapandan sonra başlayacaq getməyə.

QARIŞQALARIN EVİ

ə, sizə qarışqaların evindən danışım. Siz qarışqa yuvasını görmüsünüz. Amma heç ağlınıza da gəlmir ki, yerin altında onların az qala qırx mərtəbəli evləri olur. Qətiyyən təəccüblənməyin. Qarışqalar evlərini özləri tikir. Özü də bilirsiniz nə zaman? Yağışlı havalarda. Axı onların evi yalnız tağbəndlərdən ibarət olur. Yəni bu boyda evin tikilməsində qarışqalar bir dənə də ağac və ya taxtadan istifadə etmirlər.

Qoy burasını lap ətraflı təsvir edim. Elə ki çöldə yağış yağdı və torpaq islandı bənnalar başlayırlar işə. Onlar yerin altında əvvəlcədən düzəltdikləri böyük meydanda birinci mərtəbənin evlərini tikməyə başlayırlar. Fəhlələr ağızlarında gətirdikləri palçığı yumrulayıb kərpic şəklinə salır, bənnalar isə

həmin kərpicləri səliqə ilə bir-birinin üstünə qoyur, əyriliyini, düzlüyünü bığları ilə yoxlayırlar. Əgər balaca bir əyrilik hiss eləsələr o saat ayaqları ilə onu düzəldirlər. Otaqların böyüyü də olur, balacası da. Hər otaq da bir şeyə gərək olur. Balaca otaqların divarları bir-birinə yaxın olduğuna görə tağları birləşdirmək asan olur. Amma böyük otaqları tikəndə bu iş çətinləşir. Çətinləşir deyəndə ki, bənnalar həmin otaqların ortasından sütun hörməli olurlar. Bax, qarışqalar evlərini beləcə hörüb 35-40 mərtəbəyəcən qaldırırlar. Həm evlərin, həm də mərtəbələrin arasında yollar olur.

DAYƏ QARIŞQALAR

Qarışqalar o zaman ana hesab olunur ki, yumurta verir. Yumurta verməklə də onun vəzifəsi qurtarır. Bu yumurtaların hərəsini bir dayə kötürüb aparır və onun içindən təzə qarışqa çıxanacan yumurtaya qulluq edir. Dayə yumurtanı əvvəlcə evin yuxarı mərtəbəsinə qaldırır. Çünki yuxarı mərtəbə yer səthinə yaxın olduğu üçün isti olur. Elə ki çöldə havalar soyudu, dayə də yumurtanı mərtəbə-mərtəbə aşağı endirir. Lap soyuq olanda isə yumurtaları evin birinci mərtəbəsinə endirir ki, donmasınlar.

Dayə hər gün yumurtanın üstündə oturur, bədəni ilə onu qızdırır. Sən kürt toyuğun öz yumurtasının üstündə necə oturduğunu görmüsənmi? Bax, qarışqa da həmin yumurtanın üstündə eləcə oturub körpə balanın çıxacağı günü səbrlə gözləyir.

Əvvəlcə yumurtadan qurd çıxır. Dayə həmin qurda yemək verir. Yeməyi ağzında əzib hazırlayır və ona yedirdir. Sonra həmin qurd barama toxuyur. Dayə baramaya da qulluq

edir və düz 23 gündən sonra baramanın içindən qarışqa çıxır. Həmin gün dayənin sevincinin həddi—hüdudu olmur. Zarafat deyil, dünyaya qəşəng bir bala göz açıb. Bütün körpələr kimi balaca qarışqalar da çox sevimli olur.

QARIŞQALARIN TOYU

oy nə toy! Sən qarışqa toyuna baxsan yəqin ağlına da gəlməz ki, toydu. Qarışqaların toyu yayın axırında olur. Gözəl havaların birində onların çoxu işə getməyib evdə qalır. Əvvəlcə çıxıb təmiz havada bir gərdiş edirlər. Həvəslə o tərəf bu tərəfə qaçırlar. Ortadakı qanadlı qarışqalar bəylə gəlindir. O birilər qulluqçular, ata və analar, bir də toyda iştirak edən başqa qarışqalardı. Toyun şirin yerində bəylə gəlin qanadlanıb uçurlar. Toya gələnlər təzə evlənənlərin arxasınca ta onlar gözdən itənəcən baxırlar. Sonra hamı yuvaya qayıdır. Deməli toy qurtardı. Bir-iki saatdan sonra bəylə gəlin qayıdır. Amma daha onların qanadları yoxdur. Qarışqalar bu işə çox məyus olsalar da daha neyləsinlər? Təbiətin qanunu belədir.

QARIŞQA DOSTLUĞU

lə vaxt olur ki, görürsən qarışqanın biri bütün günü gəzdi, amma əlinə heç nə keçmədi. Yuvaya dən daşımaq cəhənnəm, az qala özü acından öləcəkdi. Belə vaxtlarda qarışqa dən daşıyan yoldaşlarına yaxınlaşıb bığını onun bığına sürtür və öz dilində ac olduğunu söyləyir. Dən aparan qarışqa isə o saat apardığı azuqəni ona verib özü azuqə tapmağa gedir.

Bu dostluq insanlar üçün də nümunə ola bilər.

ÇAPOVULÇU QARIŞQALAR

iz yəqin böyüklərdən belə sözlər eşitmisiniz: filan ölkə filan ölkəni qarət etdi. Cəmiyyətdə olan bu xasiyyət eynilə qarışqalarda da var. Bir dəstə qarışqa var ki, işləmir, başqasının var-dövlətini qarət edir. Əvvəlcə çapovulçu qarışqaların iki-üç nümayəndəsi başqa qarışqa ailəsinin yerini-yurdunu öyrənməyə gedir, onların gücünə bələd olur, gəlib yoldaşlarına məlumat verir. Çapovulçular başa düşəndə ki, həmin qarışqaları qarət edə biləcəklər, günlərin birində ora hücuma keçirlər.

Qarət olunan qarışqalar duyuq düşüb yuvanın qapılarını açır və çölə çıxırlar. Onlar dəstələrə bölünür və vuruşurlar. O qədər vuruşurlar ki, axırda birinin bığı, birinin ayağı, birinin başı qopur, məğlub olan dəstə bu torpaqdan köçüb başqa yerə gedir. Qarətçilər anbarlara doluşub qənimətlərini öz yuvalarına daşıyırlar. Belələrinə çapovulçu qarışqalar deyirlər.

ƏKİNÇİ QARIŞQALAR

Altı ay yağış və altı ay quraqlıq keçən yerlər var ki, oraların qarışqaları heç bu tərəflərinkinə bənzəmir. O yerlərin qarışqaları əsasən əkinçiliklə məşğul olurlar. Əvvəlcə torpağı şumlayıb yumşaldırlar. Bizim çəltiyə bənzəyən bitkinin toxumlarını torpağa sıra ilə basdırırlar. Yağış ara verəndə yuvadan çıxıb əkinin keşiyini çəkir, alağını təmizləyirlər. Elə ki, bitki toxumladı yığıb yuvaya aparırlar.

Bu yerlərin qarışqaları ağacda da yuva qururlar. Güclü yağışlar yağacağını əvvəlcədən bilirlər və ağacdakı yuvalarına köçürlər. Ən təəccüblüsü budur ki, sel nə qədər güclü gəlsə də qarışqaların yuvasına qədər qalxmır.

QIDIQLANMAQ İSTƏYƏN OT CÜCÜSÜ

Bir qəribə cücü var. Bu balaca cücüdü və işi, peşəsi otun üstündə əyləşib onun şirəsini udmaqdı. Həmin cücülərin qarnı şirə ilə dolu olur. Görünür, elə buna görə də qarışqalar həmin cücülərlə dostluq edirlər. Qarışqa həmin cücünü görən kimi bığlarını onun böyrünə sürtüb qıdıqlamağa başlayır. Bundan xoşallanan cücü otdan çəkdiyi şirənin bir damcısını qarışqaya bağışlayır. Qarışqa həmin şirəni içib gedir.

MUM

Əgər bal yeməyi sevirsənsə, deməli, mum sözünü də eşitmisən. Amma yəqin bilmirsən ki, arılar mumu necə istehsal edir.

—Yazda ağacların çiçəyinə diqqət elə. Rəngli çiçəklərin dibində balaca deşiklər olur. Həmin deşiklərdən şirin su axır. Arılar həmin suyu sorub, qarınlarına doldururlar. Elə ki qarınları doldu qayıdırlar səbətlərinə. Ayaqları ilə səbətin üst qapısından yapışıb başaşağı sallanırlar. 2-3 saat beləcə qalırlar. Qarınlarındakı şirin su yavaş-yavaş çevrilib mum olur və arının qarnından, böyründəki deşiklərdən çıxıb tökülür. Arı həmin mumu ayağı ilə qoparır və ağzına alıb çeynəyir. Onu yumrulayır və səbətin ağzına örtülmüş taxtaya yapışdırır.

Təxminən iyirmi qram çiçək şirəsindən bir qram mum əmələ gəlir.

ARILARIN YEMƏYİ

Ağaclar çiçəkləyəndə bir şeyə də fikir vermək lazımdır. Çiçəklərin içində rəngli yarpaqlardan başqa onların ortasından sap nazikliyində bir zoğ çıxır. Lap ortadan çıxan zoğ yumurtalıq hesab olunur. Onun dibində torba kimi yerdə balaca-balaca yumurtalar var. Həmin zoğun ətrafında olan sap kimi nazik zoğların başlarında torbalar var. Onların içində sarı toz olur. Bax, həmin tozu arılar yeyir. Səbətə toz daşıyan arıların ayaqları elədir ki, bu işi o asanca görür. Belə arıların üç cüt ayağı olur. Ayaqların da qırağı tüklüdür. Axırıncı cüt ayaqların qırağı çökük olur. Bu çökük yerlər arının səbəti hesab olunur. Arı çiçəyin arasından keçəndə zoğlar tərpənir, yetişmiş sapların torbası partlayır və içindən toz çıxıb arının üstünə tökülür. Arı

o biri ayağını çiçəyin şirəsinə batırıb toza vuran kimi onlar arının ayağına yapışır. Arı həmin ayağını aparıb öz səbətinin qırağına sürtür və toz ora tökülür. Arı beləcə səbətini doldurub yuvaya uçur.

Səbətdə işləyən arılar və təzəcə göz açan balalar həmin çiçək tozunu yeyirlər. Çox zaman arılar səbətdə işləyənlərə su daşıyırlar. Onlar suyu ağızlarında gətirirlər. Deməli arı pətəklərini gərək su yaxınlığında qoyasan ki, bu iş çətinlik törətməsin.

Arılar qışda öz ballarından yeyib yaza çıxırlar.

BAL

al çiçəklərin şirin suyundan əmələ gəlir. Arı çiçəyin dibindəki şəkərli suyu sorur və bədənində yarımhəzm edib şanlara doldurur. Balı şanların balaca otaqcıqlarına doldurandan sonra ağzını mumla suvayırlar. Çiçəklər qurtarana kimi onlar beləcə bal düzəldirlər.

Amma maraqlı burasıdır ki, əgər biz çiçəklərin həmin şirin suyunu bir yerə toplasaq bir vaxtdan sonra qıcqırıb xarab olar. Amma həmin su arının mədəsində yarımhəzm olanda bala çevrilir və xarab olmur.

Əgər arı ətirli çiçəklərdən şirə çəkibsə balı da dadlı olacaq. Ondan həmin çiçəklərin xoş ətri gələcək. Zəhərli otların balı acı olar. Ona görə aran yerlərində su basan yerlərin balına dəli bal deyirlər.

BEÇƏ

rı saxlayanlar yaxşı bilirlər ki, gərək onun həmişə boş səbəti olsun. Gərək hər gün arılar bal daşımağa gedəndə səbətlərin yanına gəlib qulaq asasan. Hansı səbətin içindən səs gəlirsə, deməli, arı içəridə işləyir və tezliklə beçə verəcək. Onda gözləmək lazımdır ki, beçə çıxıb ağac budağına qonanda onu tutub gətirib boş səbətə salasan. Gərək arılar ağaca qonanda onun altına bir dəsmal və ya çadır sərəsən və ağaca çıxıb beçələr qonan budağı silkələyəsən. Beçələr dəsmala tökülən kimi onu büküb səbətə gətirmək lazımdır. Amma diqqətli olmaq lazımdır ki, onların başçısı (buna padşah deyirlər) qaçmasın. Yoxsa arıların hamısı çıxıb onun dalınca gedər. Başçını tutub əvvəlcədən səbətə salsan o biri arılar özləri onun ardınca gəlib səbətə doluşacaq.

Bax, bu cavan arılara beçə deyirlər. Beçə balı sözü də burdan götürülüb.

ARININ DÜŞMƏNİ

izim yerlərdə arının birinci düşməni qızlar quşudur. O, sığırçın boyda balaca bir quşdu. Belinin və qanadlarının tükləri yaşıl rəngdədir. Payızda isti ölkələrə gedib yazda qayıdır. Qızlar quşu dəstə ilə arının suya gedən yolunu gözləyir və tutub yeyir. Bir quş gündə yüzə qədər arı tələf edir. Buna görə gərək səbətləri meşənin içində bağların arasında qoyasan ki, işə gedən arılar gizlənə bilsinlər.

MÜNDƏRİCAT

Kiçik hekayənin imkanları 3

I YUMRU YUMAQ, QUMRU VƏ BAŞQALARI

Yumru – yumaq 16
Oxuyan koğuş 19
Çəpiş....20
Futbolçu 21
Hidinin iti 22
Papaq 23
Peçenyedən yaranmış qız 24
Tərs adam 25
Heç zaman danışılmayan nağıl 26
Üzgüçü Tural 27
Güzgü 28
Iki adamcığaz 29
Iki nar 30
Ansambl 31
Qırmızıpapaq və canavar 32
Qayıq sürən ayı balası 34
Günəşi qoparmaq istəyən ayılar 36
Hamıya nağıl danışmaq istəyən qız 38
Ağca və Axça 40
Günəş və zəhmətkeş insan 42
Inci 44
Maşqa 45
Quyruq 46
Günəşin dənizdə qalan saçları 47
Dənizin tapşırığı 48
Çiyələk çayının dibindəki oğlan 49
Bədəlin şəhadət barmağı 50

Turalın atı 51
Çəmənlikdən qovulan qurbağa 52
Qayaya çevrilmiş balina 53
Qarınqulu qarpız 55
Stolüstü lampanın dərdi 57
Qabağa qaçan kirşə 58
Dünyanın ən ədalətli gözətçisi 59
Aytənlə Anarın nağılı 61
Üç görməmiş 63
Iki parıltı 65
Iki ağcaqanad 67
Ayaqqabıların söhbəti 69
Iki sağsağan 71
Okean səyahəti 73
Körpə nəğmənin nağılı 75
Qapılar 77
Ağıllı fikirlə axmaq fikir 79
Budaqdan düzəldilmiş pişik 82
Qaçağan dovşan 85
Buynuzu gicişən çəpiş 88
Qış nağılı 91
Qoyunun başına gələnlər 94
Dovşanın adı 97
Oynağan qız 100
Yalançı sözlər 103
Iki tənbəl 106
Başqa planetə uçan çəyirtgə 109
Çiyələklərin çəhrayı nağılı 112
Dünyanın ən tənbəl tısbağası 115
Itmiş pul kisəsi 118
Aytən və Nazim 123
Sehrli gəminin kapitanı 128
Sehrbazla tanışlıq 134
Yarpaq çələngi 137

Uçmaq istəyən çiçəklərin əhvalatı 138
Tüstü 140
Uşaqların dostu balina 142
Çoxlu nağıl bilən küçə fənəri 143
Ördək balası 145
Ölməli sözlər 149
Vüqarın köynəyi 150
Yanğınsöndürən maşın 151
Səməndərin işləri 160
Bədnam və xeyri 161
Qaz tükü ilə kəpənəyin əhvalatı 163
Su borusu 165
Çimərlikdəki köşk 167
Dünyanı yandırmaq istəyən atəşböcəyi 169
Əli və Vəlinin əhvalatları 170
It şəhəri 176
Yaşıl kərtənkələ 178
Təmizkar Aysel 181
Nağılın sonundakı alma 182
Heç nə haqqında nağıl 184
Uşaqları qorxutmaq istəyən pələng 187
Ağacların suya düşən kölgəsi 189
Kağız parçası 190
Pəncərə pərdəsinin üstündəki dovşan 192
Qara adamlar 194
Karvana hürən Qaplan 199
Qaplan ulduzları necə söndürdü 201
Qaplan və kəpənəklər 203
Qaplan və araba kölgəsi 205
Qar şəhəri 206
Qar adamlar 209
Ları xoruzun rəngbərəng nəğmələri 211
Quyunun dibindəki adam 214

BAĞIRMAQ İSTƏYƏN ADAM VƏ BAŞQALARI

Bağırmaq istəyən adam 215
Bütün dünyanı fəth edən padşahın tacı 218
Dünyanı özü ilə aparmaq istəyən Bəşir 221
Siçanların padşahı pişik 224
Pul şəhərinin əhvalatları 228
Pendir deşikləri 232
Buynuz 236
Əl 238
Süsənin söz dağarcığı 241
Oğurluq edən dəvənin axırı 243
Kağız adamlar 245
Gülmək üçün müharibə 247
Qazı və şeytan 249
Teymurləngin nökəri 252
Tərs adamlar 256
I Tərsin dünyaya gəlməsi 257
Ev əşyalarının yerini dəyişir 261
II Tərsin dünyaya gəlməsi 264
Ev alt – üst olur 267
Abdulla baba 269
Üçüncü tərsin dünyaya gəlməsi 271
Atanın saçının ağarması 274
Kür sahilində hadisə 275
Dayə gəlir 278
Tərbiyəçinin ilk söhbətləri 281
Tərs keçilər 285
Qulamın qəribə qarnı 288
Tüklücə 290

ÜÇBUCAQ ÖLKƏNİN ADAMLARI

Üçbucaq ölkənin adamları 299
Coğrafiya dərsində taxılan eynək 303
Kərəmin sehrli qələmi 306
Yalandan yaranmış adam 310
Kölgələr 315
Yeyimcillər ölkəsinin adamları 319
Kralın kreslosu 324
Tərsinə tikilmiş evdə yaşayan nağılçı 328
Atalar sözü şəhəri 337
Boz yalan 341
Italyan şlyapası 346
Göycə 349

QARTAL QANADLI ÖLKƏ

Azərbaycan haqqında hekayələr 361
Odlar yurdunun paytaxtı 385
H.Zərdabidən sərbəst işləmələr 395
Həsən babanın hekayələri 396
Ağıllı və cəsur qarışqalar 398
Qarşıqalar niyə azmır 399
Qarışqaların evi 399
Dayə qarışqalar 400
Qarışqaların toyu 401
Qarışqa dostluğu 402
Çapovulçu qarışqalar 402
Əkinçi qarışqalar 403
Qıdıqlanmaq istəyən ot cücüsü 403
Mum 404
Arıların yeməyi 404
Bal 405
Beçə 406

Arının düşməni 406
Ağac qurbağası 407
Hörümçək 407